**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**SADİR MƏMMƏDOV**
**TURAL MƏMMƏDOV**

# DAĞLIQ QARABAĞ HƏQİQƏTLƏRİ VƏ BEYNƏLXALQ HÜQUQ

*Dərs vəsaiti*

*Bakı Slavyan Universiteti Elmi Şurasının 30 sentyabr 2016-cı iltarixli iclasının qərarı ilə (protokol №02) çapa tövsiyə edilmişdir.*

Bakı – Mütərcim – 2018

**Baş məsləhətçi:** ***Nurlana Əliyeva***
*filologiya elmləri doktoru, professor*

**Elmi redaktor:** ***Rüstəm Məmmədov,***
*hüquq elmləri doktoru, professor*

**Rəyçilər:** ***Habil Qurbanov,***
*hüquq elmləri doktoru, professor*

***Əsgər Əhməd,***
*tarix elmləri üzrə fəlsəfə doktoru, dosent*

***İbrahim Quliyev***
*Filologiya üzrə fəlsəfə doktoru*

***Şirinbəy Əliyev,***
*tarix elmləri üzrə fəlsəfə doktoru, dosent*

**Sadir Məmmədov, Tural Məmmədov**. Dağlıq Qarabağ həqiqətləri və beynəlxalq hüquq. *Dərs vəsaiti.*– Bakı: Mütərcim, 2018. –184 səh.

*Qarabağ müharibəsində erməni işğalçılarına qarşı mərdliklə döyüşmüş, onların azərbaycanlılar əleyhinə törətdikləri qanlı cinayətləri gözləri ilə görmüş polis polkovniki Sadir Məmmədov təqdim olunan dərs vəsaitində tarix və müasirlik baxımından tutarlı dəlillərlə erməni saxtakarlığını, Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında Ümummilli liderimiz H.Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rolu və fəaliyyəti, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində beynəlxalq hüquqa zidd olan əməlləri, postsovet məkanında baş verən etnik münaqişələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti kontekstində təhlil etməyə və üzə çıxarmağa çalışmışdır.*

$M\frac{1201000000}{026}172\text{-}18$

© S.Məmmədov, 2018

# KİTABIN İÇİNDƏKİLƏR


MÜƏLLİFDƏN ........ 4
ÖN SÖZ ........ 6
GİRİŞ ........ 9

**I FƏSİL.** POSTSOVET MƏKANINDA ETNİK MÜNAQİŞƏLƏR: ERMƏNİSTAN-AZƏRBAYCAN (DAĞLIQ QARABAĞ) MÜNAQİŞƏSİ MÜASİR MƏRHƏLƏDƏ ........ 16
1.1. Erməni düşmənçiliyi: dünən və bu gün ........ 16

**II FƏSİL.** ERMƏNİSTAN-AZƏRBAYCAN (DAĞLIQ QARABAĞ) MÜNAQİŞƏSİNİN TARİXİ VƏ ONUN SİYASİ HƏLL YOLLARI ........ 46
2.1. Münaqişənin tarixi və hüquqi konteksti ........ 46

**III FƏSİL.**DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASI İSTİQAMƏTİNDƏ SƏYLƏR ........ 74

**IV FƏSİL**. ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ BEYNƏLXALQ HÜQUQA ZİDD CİNAYƏTLƏRİN TƏSNİFATI ........ 85

**V FƏSİL.**QAFQAZ GEOSTRATEJİ MƏKANINDA AZƏRBAYCANIN YERİ VƏ ROLU ........ 122

**VI FƏSİL**. AVROPA BİRLİYİ VƏ AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT QURUCULUĞU ........ 156

**VII FƏSİL.** BİZ ÖZ TARİXİ TOPRAQLARIMIZA QAYIDACAĞIQ ........ 170

NƏTİCƏ ........ 177
ƏDƏBİYYAT ........ 181

# MÜƏLLİFDƏN

Yaşadığımız tarixi dövrlə və şahidi olduğumuz tarixi olaylarla bağlı faktları bir yerə toplamaq, onları şərh etmək, qiymətləndirməkolduqca çətindir: xüsusilə də siyasi proseslərin başa çatmadığı və hər gün onlarla bağlı bir-birilə ziddiyyət təşkil edən qərarların qəbul edildiyi bir vaxtda. Dünya birliyinin və beynəlxalq ictimaiyyətin bu olaylara fərqli rakurslardan yanaşması, çox vaxt onların susqun mövqe nümayiş etdirməsi isə işi daha da mürəkkəbləşdirir. Ortada hansısa qərarın qəbul edilməsini və onun nəticələrini gözləmək zərurəti yarandığından elmi tədqiqatı yekunlaşdıra bilmirsən.

Əlinizdə olan bu kitabhələ çoxdan çapa hazır olsa da, yuxarıda qeyd etdiymiz kimi, müəyyən məsələlərlə, daha doğrusu,hansısa qərarların qəbul ediləcəyi ehtimalı ilə onun nəşri hər dəfə təxirə salınmışdır. Nəticədə yeni-yeni hadisələr, gündəmi zəbt edən daha mürəkkəb və ciddi proseslər baş vermişdir ki, onlara nəzər yetirmədən Ermənistan-Azərbaycan (Dağlıq Qarabağ) münaqişəsini təhlil etmək, dəyərləndirmə aparmaq mükün deyildir. Bu dövrdə baş verən hadisələrdən biri Kosovonun öz müstəqilliyini elan etməsidir.

Bunun ardınca, yəni 2008-ci ilin fevral ayının 19-da Ermənistan Respublikasında prezident seçkiləri keçirilmiş və baş nazir Serj Sarkisyan səs çoxluğu ilə prezident seçilmişdir. Artıq dördüncü dəfə prezident seçkilərinin nəticələrinə görə de-yure Azərbaycan Respublikasının vətəndaşı olan Dağlıq Qarabağ erməniləri Ermənistan Respublikasının prezidenti seçilmişlər. Bu fakt, yəni Qarabağ ermənilərinin Ermənistanda ən yüksək postlara təyin olunmaları belə qənaətə gəlməyə əsas verir ki, onlar (Dağlıq Qarabağ erməniləri-S.M.), doğrudan da, beynəlxalq siyasi dairələr qarşısında xüsusi immunitetə sahibdirlər. Bu tendensiya heç də Ermənistanın iddia etdiyi kimi Dağlıq Qarabağ separatçılarının öz dövlətlərini qurmaq istəyi ilə üst-üstə düşmür. Əslində, Dağlıq Qarabağ ermənilərinin

istəyi və strateji-siyasi hədəfləri heç də öz dövlətlərinə malik olmaq deyil, hakimiyyət əldə etmək olmuşdur. Elə bu səbəbdəndir ki, onlar fürsətdən istifadə edərək Yerevanda siyasi hakimiyyəti ələ keçirmiş və bu gün də hakimiyyəti yerli ermənilərə qaytarmaq istəmirlər.

Hər bir kitab üzərində iş bir sıra elmi qaynaqlar və internet resurslarından istifadə baxımından kollektiv əməyin bəhrəsi kimi meydana gəlir. Çünki burada bir çox müəlliflərin elmi tədqiqatlarından, araşdırma və təhlillərindən istifadə edilir, onlarınrəy və fikirləri nəzərə alınır. Təqdim olunan dərs vəsaitinin hazırlanmasında öz əməklərini əsirgəməmiş alim və mütəxəssislərə, tədqiqatçılara öz dərin minnətdərlığımı bildirirəm. Bu sırada Bakı Slavyan Universitetinin rektoru filologiya elmləri doktoru, prof. N.Əliyevanın, filologiya elmləri doktoru, prof. R.Novruzovun, filologiya elmləri doktoru, prof. T.Cəfərovun, hüquq elmləri doktoru, prof. M. Məlikovanın, hüquq elmləri doktoru, professor H.Qurbanovun, hüquq elmləri doktoru, professor L.Hüseynovun, hüquq elmləri doktoru professor R.Məmmədovun, hüquq elmləri doktoru, professor F.Səməndərovun, Lvov Dövlət Universitetinin professoru A.Merejkovanın, Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının müdiri, tarix elmləri doktoru, professor Ağalar Abbasbəylinin, BSU-nun "Diplomatiya və xarici siyasət" kafedrasının müdiri, t.e.n., dosent Ə.Əhmədin, filologiya üzrə fəlsəfə doktoru İbrahim Quliyevin və "Beynəlxalq münasibətlər və regionşünaslıq" fakültəsinin dekanı, tarix elmləri namizədi, dosent Ş.Əliyevin adlarını qeyd etmək istəyirəm. Öz dəyərli məsləhət və tövsyələrini əsərgəmədiklərinə görə onların hər birinə dərin təşəkkürümü bildirirəm.

# ÖN SÖZ

1918-ci ildə Azərbaycan xalqı parlament tipli respublika formasında dövlət müstəqilliyini bəyan etdi. Min fitnə-fəsadla, siyasi hiylə ilə dövlətini qurmağa çalışan ermənilər Azərbaycan torpaqları hesabına buna nail ola bildilər. Azərbaycan İrəvan şəhərini Ermənistana güzəştə getməyə məcbur edildi. Sonrakı illərdə beynəlxalq hüquq prinsiplərinə zidd olaraq bu prosesin davamı kimi Qars vilayəti ilə birgə bütün İrəvan quberniyası da Ermənistanın tərkibinə qatıldı. Lakin ermənilər əldə etdikləri ərazilər ilə kifayətlənməyərək onu genişləndirmək məqsədi ilə yenidən Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi tələbləri ilə çıxış etməkdə davam edirdilər. Bu dəfə erməni qəsbkarları Azərbaycanın Qarabağ, Naxçıvan və Zəngəzur ərazilərinə qarşı iddialar qaldırırdılar. Onlar həmin ərazilərin guya "tarixən" ermənilərə məxsus olduğunu və saxtakarlıqla ermənilərin yerli əhalinin çox hissəsini təşkil etdiyini bildirirdilər. Əslində isə ermənilər burada heç vaxt yerli, aborigen xalq olmamış, müxtəlif tarixi dövrlərdə buraya köçürülmüşdülər. Çar Rusiyası Cənubi Qafqazda özü üçün bir geosiyasi istinad nöqtəsi yaratmaq məqsədi ilə rus-İran və rus-türk (1826-1828) müharibələrindən sonra İran və Türkiyədən ermənilərin Azərbaycan ərazilərinə köçürülməsini təşkil etmişdi. Bu dövrə qədər yalnız Qarabağda etnik türklər yerli əhalinin 80%-dən çoxunu təşkil edirdi. Köçürmə siyasəti nəticəsində isə ötən əsrin əvvəllərində ermənilərin sayı xeyli artsa da, azərbaycanlılar yenə də etnik əksəriyyəti təşkil edirdilər.

Cənubi Qafqaz respublikaları özlərinin dövlət müstəqilliklərini bərpa etdiyi bir tarixi mərhələdə inzibati ərazilərdə əhalinin etnik tərkibinin rəngarəng olması yeni yaranmış respublikalar arasında ziddiyyətlərin yenidən meydana çıxması ilə nəticələndi. Musavat hökuməti 1918-1920-ci illərdə Dağlıq Qarabağ məsələsini siyasi yolla həll etməyə çalışsa da, buna nail ola bilmədi, Qarabağda gene-

ral-qubernatorluq yarandı. Buna baxmayaraq, həmin dövrdə ermənilərin Qarabağda və Zəngəzurda müsəlman əhaliyə qarşı etdikləri zorakılığa və terrora son qoymaq mümkün olmadı. Əksinə, azərbaycanlılara qarşı amansız soyqırım həyata keçirildi. Baş verənlər müsəlman əhalinin çox hissəsini öz yaşayış yerlərini tərk edərək digər ərazilərə köçməyə vadar etdi.

Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illərdə) Ermənistan Qarabağı, Naxçıvanı və Zəngəzuru özünə birləşdirmək cəhdlərini reallaşdıra bilmədi. 1920-ci ildə Azərbaycanda, onun ardınca isə Ermənistanda sovet üsuli-idarəsi sistemi təsis edildi. Lakin sovet Ermənistanı da Azərbaycanın tarixi ərazilərinə iddialarını davam etdirdi və mərkəzi hökumətin köməyi ilə bir sıra rayonları mənimsəməyə nail oldu. Erməni qəsbkarları Zəngəzuru ələ keçirməyə nail oldularsa da, Naxçıvanı və Qarabağı heç bir yolla Ermənistana birləşdirə bilmədilər. Qarabağın dağlıq ərazilərində yaşayan erməni əhalinin istəyi və yerli əhalinin ümumi razılığı ilə 7 iyul 1923-cü ildə Azərbaycan tərkibində qalmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Bununla da Azərbaycan və Ermənistanın müstəqillik dövründə açıq qalan sərhəd məsələsi sovet hökuməti dövründə öz həllini müvəqqəti də olsa tapa bildi. Lakin ermənilər Azərbaycanın bir sıra tarixi ərazilərini, o cümlədən Dağlıq Qarabağı özününküləşdirmək üçün müxtəlif fitnə-fəsadlara əl atmaqda davam edirdilər. Təəssüf ki, erməni daşnakları vaxtaşırı SSRİ-nin siyasi rəhbərliyinin siyasi-təşkilati havadarlığı və birbaşa köməkliyi ilə bu istiqamətdə müəyyən uğurlar da qazandılar.

XX əsrin sonlarında SSRİ dağılmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda sovet imperiyasını qoruyub saxlamaq məqsədi ilə onun ərazisində rəsmi Moskva dairələri tərəfindən milli münaqişələr qızışdırıldı. Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının yeni mərhələsi də məhz həmin tarixi dövrə təsadüf edir. Bu dəfə də rəsmi Yerevanın təhriki ilə "milli məsələ" pərdəsi adı altında Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi məsələsi qaldırıldı. FVDK(Fövqəladə Vəziyyət üzrə Dövlət Komissiyası) tərəfindən 1991-ci ilin avqustunda SSRİ-ni qoruyub saxlamaq cəhdləri

isə uğursuzluqla nəticələndi. Sovet İttifaqı süqut etdi. Bundan istifadə edən Ermənistan hərbi intervensiya nəticəsində beynəlxalq-ermənipərəst qüvvələrin və bir sıra xristian dairələrinin yardımı ilə Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağı və onunla həmsərhəd yeddi (Laçın 1992 18 may, Kəlbəcər 1993 2 aprel, Ağdam 1993 23 iyul, Füzuli 1993 23 avqust, Cəbrayıl 1993 23 avqust, Qubadlı 1993 31 avqust, Zəngilan 1993 29 oktyabr) rayonu 1992-1994-cü illərdə işğal olundu. Bu işğal Azərbaycana böyük fəlakətlər gətirdi; insan kapitalının və torpaqlarımızın ağır itkisi ilə nəticələndi.

Hərbi-siyasi separatizm və Ermənistanın hərbi təcavüzü nəticəsində süni şəkildə yaranmış "Dağlıq Qarabağ problemi" hazırda dünya birliyinin diqqət mərkəzindədir. Yaranmış fürsətdən istifadə edərək işğal etdikləri əraziləri boşaltmaq istəməyən ermənilər müxtəlif yollara əl atırlar. İşğalın davam etməsi faktı isə dünyada baş verən geosiyasi proseslərdə mühüm rol oynayan və Cənubi Qafqazda öz mövqeyini möhkəmlətməyə çalışan bəzi dövlətlərə geosiyasi məqsədlərinə çatmaq üçün əlverişli şərait yaradır. Münaqişənin həll olunmaması təkcə regionun deyil, həm də bir sıra qonşu dövlətlərin və bütün subregionun təhlükəsizliyinə aparıcı beynəlxalq ictimaiyyət tərəfindən bir təhdid kimi qiymətləndirilir və haqlı olaraq onların narahatlığına səbəb olur.

Bütün bu faktların araşdırılması Azərbaycan siyasi elminin qarşısında duran əsas vəzifələrdən biri olmaqla yanaşı, "Dağlıq Qarabağ həqiqətləri və beynəlxalq hüquq" adlı dərs vəsaitini şərtləndirir, bu əsərə elmi və praktiki önəm verir, çoxlu tarixi mənbə və ədəbiyyatdan, dövri mətbuat, elektron KİV, portal və internet resurslardan geniş istifadə edilməklə yazılmış bu tədqiqat işini müasir Azərbaycan siyasətşünaslıq və beynəlxalq hüquq elminin dəyərli mənbələrindən birinə çevirir. Dərs vəsaitinin və əsərdə şərhi verilmiş məsələlərin elm sahəsinin aparıcı nümayəndələri, tələbə, magistr və doktorantlar üçün əhəmiyyətli və effektiv olacağına inanır, müəllifə isə yeni elmi və yaradıcılıq dinamikası arzulayıram.

***H.QURBANOV,***

*hüquq elmləri doktoru, professor*

# GİRİŞ

*... Bu təcavüz təkcə Ermənistanın təcavüzü deyildir.*
*Bu, Azərbaycanı dağıtmaq, parçalamaq, Qafqazda güclü*
*bir dövlət kimi məhv etmək üçün toparlanan*
*beynəlxalq siyasi dairələrin müştərək layihəsidir.*

***Heydər ƏLİYEV***

XX əsrin sonlarına doğru dünya inkişafında formalaşan qloballaşma meylləri beynəlxalq münasibətlər sisteminin və dünyanın siyasi quruluşunun dəyişikliklərə məruz qalmasına səbəb oldu. Dünyada gedən geosiyasi və iqtisadi proseslərdə qarşılıqlı bağlılıq və qarşılıqlı asılılıq özünü daha qabarıq biruzə verməyə başladı.

Şərqi Avropada 1989-cu il hadisələri kommunist sisteminin iflasısosialist blokunun və Varşava paktının məhvi ilə nəticələndi. Ən mühüm qlobal hadisə isə SSRİ-nin süqutu oldu. Bununla «soyuq müharibə» erası faktiki olaraq başa çatdı. 25 dekabr 1991-ci il tarixdə SSRİ prezidenti M.S.Qorbaçovun televiziya ilə canlı efir zamanı Ali Baş Komandanın səlahiyyətlərinin ləğv edilməsinə dair qərar (N УП-3162) imzalaması və 26 dekabr tarixdə qəbul edilmiş son qərarlar SSRİ-nin tam süqutunu, bununla da uzun illərdən bəri davam etmiş «soyuq müharibə»nin tamamilə başa çatdığını bir daha təsdiq etdi. Şərqlə Qərb arasında münasibətlərin yeni dövrü başlanmış oldu.

SSRİ-nin çökməsi nə qədər giper qlobal, yəni dünya əhəmiyyətli bir hadisə olsa da, özlüyündə dünyanın qloballaşmasına deyil, onun lokallaşmasına bir işarə idi.

«Soyuq müharibə» zamanı «böyük dövlətlər birliyi» olan kapitalizm və sosializm düşərgələrinin, yaxud həmin düşərgələrin başında duran ABŞ və SSRİ kimi fövqəl dövlətlərin ideoloji mücadiləsi daha çox qlobal təsəvvür bağışlayırdı. İndi isə ideoloji mübari-

zənin bitməsi dünyanın daha kiçik qəlpələrə - milli mənzillərə ayrılmasına səbəb oldu. İki qütbdən birinin güc mərkəzi olaraq siyasi arenanı tərk elməsi isə heç də bir qütbün yeganə güc mərkəzi olaraq qalması ilə nəticələnmədi, əksinə, nüfuz uğrunda mübarizə aparan və güc mərkəzinə çevrilməkdə olan bir neçə yeni qütb mərkəzləri meydana çıxdı. Böyük dövlətlərlə yanaşı, universal beynəlxalq təşkilatlar da nüfuz uğrunda mübarizəyə qoşuldular.

Hazırda dünyada gedən bütün siyasi proseslərə ABŞ daha çox təsir etmək potensialına malik olsa da, Avropa İttifaqı, Rusiya, İslam dünyası, Çin də bu proseslərdə həlledici rola malik olmağa iddialıdırlar.

Ümumiyyətlə, qloballaşma bu gün böyük ziddiyyətlərlə müşayiət olunur:

- bütün dövlətlər bir-birinə inteqrasiya edir, milli dövlətlərə maraq azalır, digər tərəfdən, milli və etnik azlıqların maraqları daha çox qabardılır;

- qloballaşma kiçik millətlərin böyük millətlərlə özü arasında eynilik axtarması və bir soy-kökə malik kiçik millətlərin birləşmə meylləri, digər tərəfdən xalqların və s. daha kiçik millətlərə ayrılmaq, öz fərdi mədəniyyətlərini qabartmaq və inkişaf etdirmək istəyi ön plana keçir;

-dövlətdaxili qayda-qanunlar, digər tərəfdən beynəlxalq münasibətlərə, dünya və Avropa standartlarına uyğunlaşma meylləri ön plana çəkilir.

Bu baxımdan yeniləşən dünyada bir sıra amillərin - milli dövlətlərin rolunun azalmasına, qeyri-dövlət faktorlarının artmasına və yeni beynəlxalq institutların - yaranmasına baxmayaraq, süqut etmiş sosialist ölkələrində birgə yaşayan müxtəlif xalqlar «öz müqəddəratlarını təyinetmə hüququ” terminindən istifadə etməklə öz müstəqil dövlətlərini qurmaq imkanını əldən vermədilər. Eyni zamanda, qanunauyğun şəkildə müstəqillik əldə etmiş dövlətlərlə bərabər, digər ölkələrin ərazisi hesabına öz suveren dövlətlərini yaratmaq arzusunda olan bəzi kiçik millətlər və milli azlıqlar da dünyaya inteqrasiya pro-

sesinə öz dövlətlərinə malik olaraq qoşulmaq və qloballaşan dünyada öz yerlərini bir dövlət olaraq tutmaq iddiası irəli sürdülər.

XX əsrin 90-cı illərində SSRİ-nin süqutu ilə 70 il ərzində Sovet hökumətinin yeritdiyi siyasət nəticəsində bütün dünyadan və öz milli maraqlarından ayrı düşmüş dövlətlər üçün də həm qlobal, həm də milli maraqlardan doğan inteqrasiya gücləndi və əməkdaşlıq üçün əlverişli şərait yarandı. Müstəqillik əldə etmiş yeni suveren dövlətlərin, o cümlədən Cənubi Qafqaz dövlətlərinin qarşısında yeni imkanlar açıldı. Bütün digər suveren dövlətlər kimi beynəlxalq hüququn subyektinə çevrilmiş həmin dövlətlər öz aralarında, digər ölkələrlə və müxtəlif beynəlxalq institutlarla müstəqil əlaqələr qurmağa və müstəqil siyasət yürütməyə başladılar.

«Soyuq müharibə»nin bitməsi ilə hərbi-siyasi bloklar arasında bir sıra ziddiyyət və münaqişələr öz həllini tapsa da, digər yeni münaqişələr meydana, çıxdı. Bu münaqişələrin çoxu milli zəmində yarandı. Qaynar nöqtə və qarşıdurmalar məkanı sayılan Qafqazda baş verən münaqişələr də məhz milli zəmində meydana çıxdı. Ermənistan Respublikasının ərazi iddialarına əsaslanan məqsədyönlü xarici siyasəti nəticəsində və kənar qüvvələrin bilavasitə dəstəyi ilə suveren Azərbaycan Respublikasının tərkib hissəsi olan, azərbaycanlı və erməni əhalinin birgə yaşadığı Dağlıq Qarabağ ərazisində süni yaradılmış və postsovet məkanında mövcud münaqişələrin ən mürəkkəbi sayılan Ermənistan-Azərbaycan münaqişəsinə də milli don geyindirildi. Ümumiyyətlə, sərhəd zonalarında məskunlaşmış milli azlıqlar həmişə və hər yerdə təhlükə mənbəyi hesab edilirlər. Bu baxımdan Qafqaz regionu da milli və etnik azlıqlar məsələsinə və münaqişələrə qarşı həssas regiondur.

Qafqaz Avropa və Asiyanın, Qərblə Şərqin, Şimalla Cənubun, Qara dəniz və Mərkəzi Asiya regionlarının, İslamla Xristianlığın, həmçinin Türk diinyasının qovuşağında yerləşir, üç dənizə - Xəzər, Aralıq və Qara dənizə çıxışı var, Rusiya, Türkiyə, İran kimi böyük və nüfuzlu dövlətlərlə həmsərhəddir. Bununla da o, adıçəkilən bütün məkanları birləşdirən və birləşdirə biləcək bütün nəqliyyat sistemlərinin qovşağıdır. Qafqaza nəzarət etməklə Avrasiya qitəsində

gedən bütün siyasi və iqtisadi prosesləri nəzarətdə saxlamaq və onlara təsir etmək mümkündür. XX əsrin sonlarında SSRİ-nin süqutu ilə regionun nəzarətdən çıxması onu yenidən ABŞ, Rusiya, İran, Türkiyə və Qərbi Avropanın böyük dövlətlərinin uzunmüddətlimaraqlarının toqquşduğu məkana çevirdi. Ümumiyyətlə, geosiyasi maraqlar həmişə ikidən daha artıq dövlətin, yaxud müxtəlif alyansların qarşıdurmasına səbəb olur. Həmin vaxt həm region dövlətlərində baş verən daxili siyasi proseslər və qeyri-stabil vəziyyət, həm region dövlətləri arasında qarşıdurmalar və narazılıqlar, həm də regionda nüfuz uğrunda mübarizə aparan digər dövlətlər arasında baş verən ziddiyyətlər Qafqazı müasir beynəlxalq münasibətlər üçün mürəkkəb məkana çevirdi.

Qafqaz regionunun Xəzər bölgəsi həm iqtisadi, həm də strateji baxımdan dünya dövlətlərinin diqqətini daha çox cəlb edir. Fövqəl güclərin və böyük dövlətlərin hər biri Xəzərin neft və karbohidrogen ehtiyatlarına sahib olmaq və regionun enerji ehtiyatlarının dünya bazarına çıxarılmasını müəyyənləşdirməyə cəhd edir.

ABŞ-ın və Rusiyanın maraqları, demək olar ki, regionda marağı olan bütün dövlətlərin maraqlarını üstələyib və hər iki super dövlət bu regiona güclü təsir qüvvəsinə malikdir.

2002-ci ilin may ayında Moskva görüşü zamanı ABŞ və Rusiya prezidentləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını özlərinin ümumi maraq zonası elan ediblər. Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə Qafqaz regionu bəzən Qara dəniz regionunun bir hissəsi kimi, bəzən də Xəzər bölgəsi-Cənubi Qafqaz-Qara dəniz bölgəsi şəklində bir region hesab edilir.

Qafqaz regionu ABŞ-ın mühüm siyasi və iqtisadi maraqları zonasına daxildir. ABŞ-ın əsas məqsədlərindən biri Xəzər dənizinin enerji resurslarını və onların dünya bazarına nəqli marşrutunu öz nəzarətində saxlamaq, regionda baş verən proseslərə təsir etmək imkanına malik olmaqdır. Bununla da o öz enerjı tələbatını Xəzərin enerji ehtiyatları hesabına ödəyən ölkələri təsir dairəsinə salmaq, eyni zamanda postsovet məkanında hələ də nüfuz sahibi olan Rusiyanın mövqeyini zəiflətmək şansı qazanır. Digər bir səbəb isə İranın nüvə

məsələsi ilə bağlıdır ki, bu məsələdə ABŞ-la Rusiyanın mövqelərində ciddi fərqlər qalmaqdadır.

Rusiya da öz növbəsində postsovet ölkələrini öz geosiyasi maraqları zonası hesab edir və Cənubi Qafqazda hələ ki, əvvəlki qədər olmasa da, nüfuz sahibi olaraq qalmaqdadır.

2013-cü ildə Rusiya Federasiyasını prezidenti V.Putin Yerevana rəsmi səfəri zamanı bu mövqeyini bir daha diqqətə çatdırmışdır.

Region dövləti olaraq, Azərbaycan və Ermənistan da dünyada baş verən siyasi proseslər baxımından əhəmiyyətlidirlər. Azərbaycanı daha maraqlı edən cəhətlərindən biri odur ki, Qafqaz məhz onun vasitəsilə türk dünyasının qovuşduğu bir məkana çevrilmişdir. 1990-cı illərin əvvəllərində türkçülüyün Azərbaycan vasitəsilə Cənubi Qafqaza, buradan isə Şimali Qafqaza, Volqaboyuna, Mərkəzi Asiyaya, Altaya və s. yayılacağından ehtiyat edən Rusiya, İran və digər qüvvələr müxtəlif vasitələrlə buna mane olmağa çalışırdılar. Türkçülüyün yayılmasının qarşısını almaq üçün Ermənistan ən əlverişli vasitə idi. Rusiyanın Ermənistandakı birinci səfiri V.Stupişin də Ermənistanın Rusiya siyasətində yerini aydınlaşdırarkən, onun və «Dağlıq Qarabağ»ın Rusiya üçün xüsusi əhəmiyyətli olduğunu bildirmiş və onları yayılmaqda olan türkçülüyün qarşısını almaq üçün möhkəm daş "baryer" hesab etmişdi.

Azərbaycan regionda lider və ən əlverişli ölkə olsa da, Ermənistanın da mövqeyi bəzi dövlətlər və məqsədlər üçün strateji baxımdan əhəmiyyətli sayılır. Məsələn, hər hansı region dövlətinin əleyhinə Ermənistanla əməkdaşlıq etmək mümkündür və o bir çox məqsədlər üçün alət rolunu oynaya bilər.

SSRİ-nin mövcud olduğu son illərdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində yaradılmış münaqişə Cənubi Qafqaz regionunda öz mövqeyini möhkəmlətmək niyyəti olan hər bir dövlətin əlində əlverişli bir vasitəyə çevrilmişdir. Ermənistan-Azərbaycan münaqişəsinin regionun iki dövləti arasında baş verməsi onu daha da gərginləşdirərək həllinə mane olsa da, öz siyasi məqsədlərini həyata keçirmək istəyən böyük dövlətlərə ondan dünya siyasətində öz maraqlarına uyğun şəkildə istifadə etmək imkanı verir. Müna-

qişələrin mövcudluğu regionu və ya münaqişə tərəfləri olan ölkələri öz təsiri altına salmaq istəyən dövlətlər üçün geniş imkanlar açmaqla yanaşı, həm də təhlükəsizliyə təhdid sayılr. Ermənistan-Azərbaycan münaqişəsi isə təkcə Cənubi Qafqaz regionu və qonşu dövlətlərin təhlükəsizliyinə təhdid deyil, həm də Xəzər dənizinin enerji daşıyıcılarının boru kəmərləri vasitəsilə Avropaya və ümumiyyətlə, dünyaya çıxışını təmin etdiyi üçün beynəlxalq təhlükəsizliyə və iqtisadi maraqlara qarşı yönəlmiş bir təhdiddir. Dövlətlər münaqişənin nizamlanması prosesində və regionun, o cümlədən boru kəmərləri ərazilərindən keçən ölkələrin təhlükəsizliyinin təmin edilməsində iştirak etməklə həmin ərazilərdə öz mövqelərini möhkəmlətməyə çalışırlar. Cənubi Qafqaz regionunun hər üç dövlətinə təsir etmək üçün münaqişələr mövcuddur. Ermənistan-Azərbaycan münaqişəsi regionun iki dövlətinə təsir etmək imkanı verir. Gürcüstanın isə öz münaqişələri var.

Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ ətrafında Ermənistan və onun himayədarları tərəfindən yaradılmış gərginlik müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının dünyaya inteqrasiyasına və onun müstəqil daxili və xarici siyasət yürütməsinə ciddi problem yaradırdı. 1990-cı illərin əvvəllərində Ermənistan siyasətçilərinin Azərbaycan əleyhinə çıxışlar edib onu nüfuzdan salmağa çalışdıqları bır vaxtda Azərbaycanın beynəlxalq aləmdə vəziyyəti o qədər də qənaətbəxş deyildi.

Lakin, Ümummilli Lider H.Əliyevin 1993-cü ildə xalqımızın təkidi və tələbi ilə hakimiyyətə gəlməsi, onun möhtəşəm daxili və xarici siyasəti nəticəsində ölkəmizi bu vəziyyətdən qurtardı.Belə ki, beynəlxalq təşkilatlarla və müstəqil dövlətlərlə geniş əməkdaşlıq etməklə dünya birliyinin tam hüquqlu üzvünə çevrilən Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycana təcavüzünə və bunun nəticəsində yaranmış Dağlıq Qarabağ probleminə yönəldə bildi. Məqsəd isə dünya birliyinə və beynəlxalq ictimaiyyətə münaqişədə kimin haqlı, kimin haqsız olmasını göstərmək və münaqişənin ədalətli həllinə nail olmaq idi.

BMT və digər nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanı öz sıralarına qəbul edən zaman Ermənistan və Azərbaycan arasında münaqişə artıq mövcud idi. Lakin bu aspekt təşkilatların nəinki Azərbaycanı mövcud sərhədləri çərçivəsində qəbul etmələrinə mane olmadı, hətta onlar Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiq etdilər və Azərbaycanın ərazi bütövlüyünü tanıdılar. Dağlıq Qarabağın Azərbaycan ərazisindən ayrılmasını əsaslandıran, sübut edən heç bir hüquqi sənəd, tarixi mənbə tapılmadı, hətta dünyanın heç bir dövləti, o cümlədən Ermənistan özü də bu günədək bədnam «Dağlıq Qarabağ Respublikasını» müstəqil dövlət kimi tanımayıb.

Ermənistan istisna olmaqla digər bütün dövlətlər və mövcud beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləyir və beynəlxalq hüquqa əsasən Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi görürlər. Beynəlxalq hüquq normalarına, BMT nizamnaməsinə və ATƏT Helsinki yekun sənədinə görə isə bütün ölkələrin sərhədləri toxunulmazdır və onların ərazi bütövlüyünün qorunması həmin dövlətlərin üzv olduğu beynəlxalq təşkilatların vəzifəsidir.

Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və respublikanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həlli Azərbaycanın xarici siyasəti qarşısında duran əsas vəzifələrdən biridir. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə dair beynəlxalq birlik qarşısında öhdəlik götürdüyü üçün onun həlli yalnız Azərbaycandan asılı deyildir. Bu səbəbdən də Azərbaycan özünün beynəlxalq təşkilatlar və suveren dövlətlərlə qarşılıqlı münasibətlərində bir nömrəli problem sayılan Ermənistan-Azərbaycan münaqişəsini daim gündəlikdə saxlayır.

# I FƏSİL

# POSTSOVET MƏKANINDA ETNİK MÜNAQİŞƏLƏR: ERMƏNİSTAN-AZƏRBAYCAN (DAĞLIQ QARABAĞ) MÜNAQİŞƏSİ MÜASİR MƏRHƏLƏDƏ

## *1.1. Erməni düşmənçiliyi: dünən və bu gün*

Azərbaycanın keçmişində baş vermiş tarixi hadisələrin real faktlar əsasında doğru-düzgün işıqlandırılması problemi zəruri məsələlərdən biridir. Bəlkə də, ilk baxışdan bəzilərinə sadə görünən bir məqam, yəni hər hansı bir xalqın dövlətçilik, mədəniyyət və mənəviyyat tarixi əslində onun ümumi tarixidir desək, yəqin ki, səhv etmərik. Bu mənada dünya istər Şərq, istərsə də Qərb tarixini, eləcə də dövlət quruculuğumuzu, ərazimizə edilən təcavüzləri, xalqımıza qarşı törədilən soyqırımlarını, terrorları, deportasiyaları, bəşəriyyət əleyhinə cinayətləri, düşüncə və məfkurəmizin inkişaf mərhələlərini öyrənən hər kəs həmin Böyük tariximizin keçmişinə bu və ya başqa şəkildə baş vurmalıdır ki, araşdırılan problemlərdə reallığı üzə çıxara bilsin. Qeyd etməliyik ki, indiyə qədər tanınmış tarixçiləri Vətən tarixinə aid, xüsusən Qarabağ problemi ilə bağlı tədqiqat işləri aparmış, sanballı əsərlər yazmış, geniş oxucu auditoriyasına təqdim etmişdir.

Ermənilərin zaman-zaman türklərə, xüsusilə Azərbaycan xalqına qarşı törədilən insanlıq əleyhinə cinayətlərinin sayı-hesabı o qədər ölçüyəgəlməzdir ki, onların hamısını artıq, nəşr olunan mənbələrdə belə tam əhatə etmək mümkün deyildir. Nəticədə belə bir vəziyyətin yaranması, yəni xalqımızın həyatında baş verən digər tarixi faciələrdən hələ də gənc nəsil, eləcə də dünya ictimaiyyəti lazımi səviyyədə məlumatlı deyildir. Etiraf etməliyik ki, ermənilərin

Türkiyədə, Azərbaycanda, İranda qanlı cinayətləri, terrorçuluq əməlləri barədə vaxtilə yaşlı adamların qorxa-qorxa söylədiklərindən başqa, son dövrlərə qədər müfəssəl məlumatımız olmayıb. Çox təəssüf ki, qaniçən terrorçular barədə tarixçilərimiz onların cəllad obrazlarını arxiv materiallarından, canlı şahidlərin xarakterizələrindən hərtərəfli istifadə etməklə işıqlandıra bilməmişlər. Bunun səbəblərindən biri də budur ki, Sovet hakimiyyəti dövründə istər Azərbaycanın əzəli torpaqlarında ermənilərin məskunlaşdırılması ilə imperiyanın təkidi ilə yaradılmış indiki Ermənistanda, istərsə də Moskvada nəşr edilmiş ensiklopediyalarda xalqımızın bu cür qəddar düşmənlərini (eməni terrorçularını- S.M.) beynəlmiləl tərbiyə şüarı altında inandırıcı şəkildə ümumilikdə "azərbaycanlıların dostları", "ermənilərinsə milli qəhrəmanı" kimi təqdim etmişlər. Belə mənbələrdən biri «SSRİ-də vətəndaş müharibəsi və hərbi mübadilə» (1987-ci ildə Moskvada çap olunmuşdur – S.M.) adlı ensiklopediyadır[1]. Heç bir əsaslı dəlillər gətirə bilməyən bəzi qondarma erməni tarixçiləri utanıb çəkinmədən Türkiyənin cənub vilayətlərini Qərbi Ermənistanın ərazisi hesab edirlər. İmperiya ambisiyası ilə yaşayan müəyyən qrup rus alimləri də müəyyən məqamlarda onlara tərəfdarlıq edərək həmin əraziləri məhz "Qərbi Ermənistan" adlandırırlar. Bu tipli çaşdırıcı, qərəzli fikirlərin,yanlış və saxta dəlillərin yer aldığı "elmi" mənbələrin sayı artmaqdadır. Əslində isə bütün üzdəniraq "tarixi" yaymaqların bir məqsədi də gələcəkdə yeni ərazilərə təcavüzkarlıq planlarını gündəmə gətirməkdir və oxucuda yanlış təsəvvürlər yaradır. Artıq sovet imperiyası dağıldıqdan sonra açıq-aydın bəlli olmuşdur ki, adları çəkilən mənbələrdə (onlardan biri qeyd etdiyimiz kimi «SSRİ-də vətəndaş müharibəsi və hərbi müdaxilə» adlı mənbədir – S.M.) dırnaqarası erməni qəhrəmanlarının Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etməsi fikri də başdan ayağa iftiradır. Arxiv materiallarından XVI əsrin sonu, XVII əsrin əvvəllərindən başlayaraq İranda, Türkiyədə və digər ərazilərdə pərakəndə halda qaraçı həyat tərzi sürən ermənilər rus imperiyasının himayəsi ilə Azərbaycanın İrəvan, Qarabağ, Naxçıvan və digər bölgələrində məskunlaşdırıldıqdan sonra onların «Böyük Ermənistan»

xülyasını reallaşdırmaq üçün Naxçıvanda ağılasığmaz dəhşətli qırğınlar törətdikləri mövcud sənədlərin dili ilə təsdiqini tapmışdır. Onlar Naxçıvanı, Rusiyanın tərkibinə deyil, Ermənistan dövlətinin tərkibinə qatmaq üçün viran qoymuş, əhalisini qırmış, sağ qalanları didərgin salmış, yaşayış evlərini yandıraraq məhv etmişlər. Naxçıvanda erməni quldur dəstələrinin xalqımıza qarşı etdikləri vəhşiliklər Azərbaycanın digər bölgələrində də törədilmişdir. Məhz ermənilərin vəhşiliyi XIX əsrdə Azərbaycan ərazisində məskunlaşdırılmasından sonra daha da artmışdır.

Artıq təkzibolunmaz tarixi faktlar sübut edir ki, XVI əsrdən əvvəllər də ermənilərin Azərbaycanın müxtəlif bölgələrində yerləşdirilməsinə cəhdlər göstərilmişdir. Lakin bu prosesi həyata keçirmək üçün əlverişli məqamlar XVI-XVIII əsrlərdə daha çox olmuşdur (2). Ermənilərin ilkin məqsədlərindən biri Qafqazın füsunkar gözəlliyi və tükənməz təbii sərvətlərinə sahib çıxmaq olmuşdur.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi uzun bir dövrü əhatə edir. Azərbaycanla qonşu dövlətlərin ərazisində ermənilərin pərakəndə və səpələnmiş halda yaşamalarına baxmayaraq, onlar sənətkarlıq və ticarət işlərində fəal idilər. Bu barədə İ.P.Petruşevski özünün tarixi oçerklərinin birində yazır: «Erməni tacirləri Səfəvilər dövlətinin xarici ticarət əlaqələrinin genişlənməsində xüsusi rol oynayırdılar. Şahlığın ərazisində olan erməni kilsələrinə xüsusi güzəştlər verilmişdi. Onlar vergiləri yerli hakimlərə deyil, birbaşa şah xəzinəsinə verirdilər» [4].

Erməni tacirləri I Şah Abbas (ermənilərin xəyanətkarlığını, bunun irsi xəstəlik kimi onların genlərində hopduğunu bilmədiyi üçün tolerantlıq və insanlıq nümayiş etdirərək – S.M.) haqqında nifrinlər, hədyanlar yağdırsalar da, fakt budur ki, 1605-ci ildə onun fərmanı ilə şahlığın ərazisində pərakəndə yaşayan ermənilərin kompakt yaşamaları üçün xüsusi ərazilər ayrılmışdı. Bu məqsədlə İsfahan şəhərinə yaxın ərazidə Yeni Culfa şəhəri salınmış, burada yaşayan ermənilər üçün kilsə və monastr inşa edilmiş, onların xarici ticarətlə məşğul olmaları üçün geniş imtiyazlar verilmişdi. Hətta Şah Abbas bu tikililər üçün xəzinədən pul ayırmış və bu işi mükafatlandırmışdı.

Belə bir imkandan məharətlə istifadə edən ermənilər tezliklə bir sıra Avropa ölkələri ilə, ilk növbədə İtaliya, Fransa, Prussiya ilə ticarət əlaqələri yaratmışdılar. Yeni Culfa tacirləri Hindistanın əksər böyük şəhərlərində kontorlar təşkil etmişdilər [5].

Ziyankarlıq xüsusiyyətlərini genlərində daşıyan erməni tacirləri varlandıqca erməniləşdirilmiş kilsələrinin var-dövləti aşıb-daşır, nəticədə onların dövlət yaratmaq üçün iştahaları daha da güclənirdi. Erməni tədqiqatçısı Ter Mkrtçyan etiraf edir ki, bu işi həyata keçirmək üçün erməni kilsəsi gizli olaraq Avropa ölkələrində özünə himayəçi axtarırdı. Eyni zamanda ermənilər şah sarayına yollar ayırır, şahın etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxırdılar. Erməni tacirləri və din xadimlərinin arzuları tədricən həyata keçirdi. Şah Abbas hətta Səfəvilər dövlətinin xarici siyasət məsələləri ilə məşğul olmaq və Avropa ölkələri ilə diplomatik danışıqlar aparmaq səlahiyyətlərini özünün müşaviri Xoca Səfər adlı bir erməniyə etibar etmişdi [6;34] (bu isə azərbaycanlıların məxsusi xoş məramından irəli gələn cəhətdir - S.M).

Digər erməni tədqiqatçısıV.A.Baybutyan isə yazır ki, 1608-ci ildə I Şah Abbas Xoca Səfərin başçılığı ilə Avropaya gedən nümayəndə heyəti vasitəsilə Roma papasına, İspaniya kralına, Toskano hersoquna və Venetsiya dojuna məktublar göndərmişdi. Toskano hersoqunun qəbulunda olarkən Xoca Səfər şahın məktubundan əlavə ermənilərin Roma papası və digər Avropa ölkələrinin başçılarına məktubları olduğunu bildirmişdi [7;37]. XVII əsrin ortalarından rus dövlətinin mövqeyinin möhkəmləndirilməsi ən yaxın xristian ölkəsi kimi erməni kilsəsinin diqqətini daha çox cəlb etməyə başlamışdı. Yaxın Şərqdə maraq dairəsi baxımından ermənilərə ən əlverişli himayəçi Rusiya imperiyası ola bilərdi.

Bir neçə yüzilliklər ərzində Rusiya imperiyasının həyata keçirdiyi ermənilərin bu ərazilərə köçürmə siyasəti, onların himayəsi ilə yaradılan Ermənistan, Rusiyaya həm Qafqazda, həm də tarixdən bəlli olduğu kimi, çox zaman savaşda olduğu Türkiyə sərhəddində forpost vasitəsi oldu.

1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması müxtəlif maneələrə baxmayaraq, Sovet Ittifaqı Kommunist Partiyasının Lenin milli siyasətinin həyata keçirilməsi idi və Sovet dövlət quruculuğu sahəsində Lenin prinsiplərinə tam uyğun idi.

O vaxtdan, Sovet hakimiyyəti illərində Qarabağ torpağının sahibləri olan azərbaycanlılar, ermənilər, ruslar, başqa millətlərin nümayəndələri ilə birlikdə sülh və əmin-amanlıqda yaşamış və daim özlərini təhlükəsiz hiss etmişlər. Ancaq 1987-ci ildən başlayaraq, üzdəniraq M.Qorboçovun "yenidənqurma" siyasəti nəticəsində millətçi burjuaziya, erməni ziyalılarının bir hissəsi deputat seçildikləri dairələrdə, Ermənistan SSR-nin partiya və dövlət xadimlərinin bir qismi ilə birlikdə süni surətdə "Qarabağ məsələsi" deyilən "məsələ" yaradır və şişirtməyə başlayır.

Bugünkü hadisələrin təhlili üçün keçmişə nəzər yetirmək də zəruridir. Erməni düşmənçiliyinin izlərinə Ermənistanın bir sıra ədəbiyyat və incəsənət əsərlərində geniş rast gəlmək olar. Məsələn, S.Kaputikyanın, L.Quruntsun, B.Ulubabyanın, G.Eminin, H.Şirazın, S.Ayvazyanın əsərlərində, erməni kinematoqrafçıları tərəfindən yaradılmış bir sıra filmlərdə və s. azərbaycanlılara və türklərə nifrət geniş yer alıb. Bu kitablarda, kinofilmlərdə ardıcıl və məqsədyönlü şəkildə erməni xalqının müstəsnalığı, başqa xalqlar üzərində onun intellektual üstünlüyü ideyası təbliğ olunur. Həmin əsərlərdə xəstə təxəyyülün məhsulundan başqa bir şey olmayan "dənizdən dənizə" ideyasını bədii şəkildə əsaslandırmaq cəhdləri də vardır. Bunun da nəticəsi olaraq geniş oxucu kütlələrinə ərazi iddialarının "qanuniliyi" və Ermənistana "ulu ərazilərinin" – Dağlıq Qarabağın və Naxçıvanın qaytarılmasının zəruriliyi haqqında yanlış və zərərli fikirlər təlqin olunur.

Xarici ölkələrdəki erməni icmalarının həyatına həsr olunmuş kitablarda və məqalələrdə daşnakların qanlı əməllərinin təmizə çıxarılmasına cəhdlər edilir. Bu, məsələn, S.Kaputikyanın "Karvanlar hələ yoldadır", "Xəritənin və qəlbin meridianları" əsərlərində özünü göstərir.

S.Kaputikyanın təbliğ etdiyi erməni separatçılığı Asiyada, Avropada, Amerikada və Avstraliyada yaşayan ermənilərin arasında yayılaraq millətçiliyə və hətta nasizmə keçə bilər və xalqlar üçün ən böyük və ağlagəlməz faciəyə dönə bilər (artıq qismən dönmüşdür).

Sovet dövründə erməni müəlliflərinin səhv fikirlərinin olduğu kitablar və materiallar nəinki yerli, eyni zamanda mərkəzi nəşriyyatlar tərəfindən buraxılırdı. Bu kitab və materiallar ümumittifaq jurnallarında çap olunur, qəzet səhifələrinə daxil olurdu. 1978-ci ilin 13 sentyabrında «Literaturnaya qazeta»da "Tarixdə mühüm hadisə" (Ermənistanın Rusiyanın tərkibinə daxil olmasının 150 illiyinə dair) adlı məqalə çap olunmuşdur. Məqalənin müəllifi, yazıçı, tarixçi, azğın millətçilik təbliğatı apardığına görə Azərbaycan Yazıçılar İttifaqının Dağlıq Qarabağ bölməsində məsul vəzifədən çıxarılmış Baqrat Ulubabyan təcili surətdə Yerevana köçmüş və burada ona öz ziyanlı fəaliyyətini davam etdirmək üçün ən əlverişli şərait yaradılmışdı. Ulubabyanın bu ziyanlı fəaliyyəti onun bir çox çıxışlarında, o cümlədən "Albaniya", "Aqvank" və "Aran" toponimləri haqqında, (Tarixi-filologiya jurnalı, №2; 1971), (8)"Erməni dilinin şimal-şərq hüdudları və Artsax dialekti haqqında", "Ermənistanın Şərq məmləkətinin tarixi oçerkləri (V-VI əsrlər)" kimi, özü də "Böyük Ermənistan" haqqında millətçilik tezisinin təbliğ edildiyi saxta elmi əsərlərin çap olunmasında öz ifadəsini tapmışdır.

"Erməni taleyi" romanının müəllifi Suren Ayvazyan (bu əsər erməni dilində nəşr olunduqdan sonra 1976-cı ildə "Sovetskiy pisatel" nəşriyyatı tərəfindən rus dilində buraxılmışdır) sübut etməyə çalışırdı ki, nə qədim dövrlərdə, nə də onun təsvir etdiyi XVII-XVIII əsrlərdə Azərbaycan xalqı olmamışdır, Naxçıvanın və Qarabağın həqiqi sahibləri, qədim sakinləri ermənilərdir, bu torpaqlarda müsəlmanlar (azərbaycanlılar) gəlmədirlər. Ermənistanın sərhədləri Bakının və Şamaxının yaxınlığından keçir. Şəki, Qandzak (Gəncə) vilayətləri və başqaları erməni vilayətləridir və s. buna bənzər uydurmalar [9;379]. Romanda Azərbaycanın nəinki ərazisi, eyni zamanda, maddi mədəniyyət abidələri mənimsənilir. Şəhərlərin və kəndlərin adları təhrif olunur. Ayvazyanın Azərbaycan xalqının tarixi "reallığı-

nı" "inkar etməsi" təsadüfi deyil. O, tarixi xristianların və müsəlmanların mübarizəsi tarixi kimi nəzərdən keçirir. Ayvazyanın əsərində hər yerdə bütün xristianlar müsəlmanların "əbədi düşmənləridir", bütün müsəlmanlar da xristianların "əbədi düşmənləridir". O, xristianların sakit və azad yaşamaları üçün bütün müsəlmanları "aradan qaldırmaq lazımdır" kimi sərsəm bir ideyanı təbliğ edir.

Rus dilində yazan və uzun müddət Bakıda yaşamış Leonid Qurunts hekayə və oçerklərində, publisistik məqalələrində Qarabağı daim Ermənistanın "ayrılmaz" tarixi ərazisi sırasında xatırladır. Onun əsərləri Qarabağda yaşayan ermənilərin taleyi, qisməti barədə miskin hekayətlərlə doludur. Bu əsərlərdə Azərbaycan SSR və SSRİ-nin DQMV-yə münasibətdə "tarixi səhvlərini" axtarıb tapmağa cəhdlər göstərilir.

V.Petrosyanın "Erməni eskizləri" kitabında başkəsən və xalqın qəddar düşməni Andranik milli qəhrəman səviyyəsinə yüksəldilir. Həmin Andranik ki, onu RSFSR-in xarici işlər üzrə xalq komissarı Q.Çiçerin "Antantanın casusu" adlandırmışdır.

Açıq millətçilik motivləri Ermənistanın kino sənətində də özünü göstərir. G.Eminin kitabı əsasında yaradılmış eyni adlı "Ermənistan haqqında yeddi nəğmə" sənədli filmində Cənubi Qafqaz xalqlarının tarixi gerçəklikləri tamamilə təhrif edilir. Bu cür mövqe müəllifi sonda faşizm məntiqinə gətirib çıxarır: məsələn, harada kı Ermənistanın ərazisi qurtarır, orada zülmət, qaranlıq başlanır. Sərhəd məsələsi "Doğulma" kinofilmində də qaldırılır. Film Azərbaycan torpaqlarının da daxil edildiyi "Böyük Ermənistan"ın qədim xəritəsi ilə açılır. Burada belə bir ideya hakimdir: "Ermənistanın torpağı azlıq edir", onun ərazisinin xeyli hissəsi daşlıq-qayalıqdır. "Ermənistanın Cənub-Qərb ərazisi Türkiyənin hakimiyyəti altındadır", "Ermənistana yeni torpaqlar lazımdır" və s. və i.a. Filmdə deyilir ki, Ermənistana Bakıdan nefti dəmir yolu ilə gətirmək lazımdır. Elə buradaca belə bir atmaca eşidilir: "Lakin Gəncədən keçib getmək mümkün deyil". Aydın deyil, nə üçün?Sovet hakimiyyəti qurulmuş Gəncə neftin Ermənistana ötürülməsinə necə mane ola bilərdi?

V.İ.Leninin Azərbaycanın, Gürcüstanın, Ermənistanın, Dağıstanın, Dağlıq respublikanın kommunistlərinə göndərdiyi 14 aprel 1921-ci il tarixli məktubunun izahı filmdə təhrif edilmişdir. Nəyə görəsə belə göstərilir ki, V.Leninin məktubu hər şeydən əvvəl Ermənistana aiddir.

"Ermənifilm"in "Mosfilm"lə birlikdə çəkdiyi "Ümid ulduzu" (C.Xanzadyanın "Mxitar Sparapet" romanı üzrə) filmində Qarabağ erməni torpaqları sırasında xatırladılır. Bu filmdə yadelli işğalçılara qarşı erməni xalqının mübarizəsi Zaqafqaziyanın digər xalqlarının mübarizəsi ilə əlaqədən kənarda verilir. Həmin mühüm mövzuya sinfi-tarixi yanaşılma bu mühüm hadisələrin sırf dini şərhi ilə əvəz olunmuşdur. Filmin müsbət qəhrəmanlarından birinin – knyaz Dolqorukinin dili ilə bu sözlər deyilir: "Pyotr Alekseyeviç sağ olsaydı, biz artıq Fəratın sahillərində olardıq. Ermənistan da, Gürcüstan da bizimlə birlikdə olardı, xristianlıq ruhu məhv olmazdı və bizim vicdanımız təmiz olardı". Baş qəhrəman – sərkərdə Mxitara istinadən belə fikir verilir: "Biz türk ordusu ilə Dərbənd arasında qalxan olduq. Lakin qalxan əyilir, xristianlıq qalxanı". Burada filmin müəllifləri ya "unutmuşlar" ki, göstərilən ərazidə azərbaycanlılar yaşayır, ya da qəsdən çalışırlar ki, xristian olmayanları Zaqafqaziya xalqlarının ümumi mübarizəsindən "ayırsınlar".

Bu dövrdə erməni kinematoqrafçılarının köməyilə "Lenfilmdə" "Gəncliyin sahili" filmi yaradılır. Hadisələrin Bakıda cərəyan etdiyinə baxmayaraq, filmdə ötəri olaraq qeyd edilir ki, bu şəhərdə "a"dan (azərbaycanlılar) tutmuş "Yaya" qədər (yaponlar) bütün millətlər yaşayırlar. Filmin müəllifləri bu şəhərdə bir çox xalqların nümayəndələrinə, o cümlədən almanlara yer tapmışlar, lakin filmdə iştirak edən şəxslər arasında bir nəfər də olsun azərbaycanlı millətinin nümayəndəsi yoxdur. Filmin təkcə bir epizodunda ehtimal ki, azərbaycanlı kimi təqdim olunan və özü də nəyə görə isə türk dilində təkcə bir söz deyən çadralı qadının əksi ani olaraq görünür. Həmçinin izah etmək çətindir ki, nə üçün filmin baş qəhrəmanı olan erməni oğlan uşağının Bakıda bir nəfər də olsun azərbaycanlı dostu

olmasın və nəyə görə onun ailəsinə kömək göstərənlər içərisində azərbaycanlılar yoxdur.

«Декоративное искусство СССР» jurnalında N.Voronovun "Ermənistan: qədim torpaqları yeni heykəllər bəzəyir" məqaləsi verilmişdir. Ermənistanda ucaldılmış abidələrdən danışarkən müəllif yazır: "S.Baqdasaryanın işləri içərisində daha qüvvətlisi və ifadəlisi Dağlıq Qarabağ xalqına özünəməxsus abidə olan"Biz – bizim dağlarımız" dekorativ abidəsidir [11;11]. Abidə erməni üz cizgilərinə malik olan, erməni milli paltarında olan kişi və qadın portretindən ibarətdir. Abidə qəsdən pyedestalsız qoyulmuşdur ki, Qarabağın Ermənistandan "ayrılmazlığını" ifadə etsin (adamlar sanki torpaqdan baş qaldırıblar). Əlbəttə, gələcək hadisələrin göstərdiyi kimi bu, məqsədli şəkildə edilmişdir.

«Неделя» qəzetində (№12, 28 iyun-4 iyul 1976, səh.12-14) "Döyüşçülər və çobanlar kəndi" adlı məqalə dərc olunmuşdur. Məqalənin müəllifi A. Kriçevskidir. Şəkillər Qriqori Dubinskinindir. Çardaxlıdan Moskvaya qayıtmış müxbirlər zirehli tank qoşunları Baş Marşalı A.Babacanyana onların reportajını şərh etmək xahişiilə müraciət edirlər. Reportajın heç bir yerində həmin kəndinAzərbaycan SSR-in kəndi olması xatırladılmır. Qafqazda olan kənddən danışırlar. Bütün müqayisə Qafqaz miqyasında aparılır. On il bundan əvvəl bütün çardaxlılar birləşərək pul yığırlar və həmkəndliləri olan qəhrəman döyüşçülərə abidə qoyurlar. A.Babacanyanın dilindən aşağıdakıları eşidirik: "Bizi kiçik yaşlarımızdan belə tərbiyə etmişlər: əgər sən kişisənsə, çətinliklərdən şikayətlənməyə haqqın yoxdur. Kişiözünü və başqalarını müdafiə etməyi bacarmalıdır, bu, Çardaxlının yazılmamış qanunlarının əsas bəndlərindən biridir. Və mən onun necə yarandığını asanca izah edə bilərəm: kənd həmişə sərhəddə yerləşmiş, daim düşmən hücumlarına məruz qalmışdır. Belə vaxtlarda çardaxlı çoban çomağını bir tərəfə qoymuş və əlinə tüfəng almışdır...". Soruşula bilər, burada hansı sərhəddən söhbət gedir? Axı, bu kənd Azərbaycan kəndləri və rayonları ilə əhatə olunmuşdur. Deməli, düşmənlər və hücum edənlər azərbaycanlılar imiş?! Oxuculara məlum

olsun ki, Çardaxlı kəndi Azərbaycan SSR-in Şamxor (Şəmkir) rayonunun dağ kəndlərindən biri olmuşdur.

Z.Balayanın erməni və rus dillərində yüksək tirajla çap olunmuş "Ocaq" kitabı fitnəkarlıq, qatı millətçilik və düşmənçilik ruhundadır. Bu kitabda özgə əraziləri barədə çoxlu sayda həyasız iddialar verilmişdir. Burada həmçinin əsl həyasızlığa yol verilmişdir.

Buna bənzər çoxlu misallar gətirmək olar.

Erməni mətbuatında, Ermənistan SSR-də nəşr olunan tədris, elmi-populyar ədəbiyyatda çoxlu gerçəklikdən kənar və təhrif olunmuş məqamlar vardır.

V.L.Veliçkonun müşahidə etdiyi kimi, "...bu məktəblərdə (söhbət erməni icma məktəblərindən gedir – S.M.) az qala Voronejə qədər, paytaxtı da Tiflisdə olmaqla Böyük Ermənistanın xəritələri də verilmişdir...".

V.L.Veliçko Bakıda kök salmış "neft sənayeçilərindən olan erməni mesenatlarının" özünəməxsus təcavüzkarlığını, onların öz qonşularının hesabına varlanmaq meylini (elə bizim zəmanəmizdə də bir çox erməni müəllifləri məhz belə hərəkət edirlər) qeyd edir. O, belə yazır: "Tarixi-arxeoloji sahədə onlar gürcüləri ən vicdansız şəkildə qarət edirlər: abidələrin üzərindən gürcü yazılarını qaşıyıb tökürlər, kiçik qədim pravoslav kilsələrini, tərk edilmiş kilsələri zəbt edirlər, tarixi mənasızlıqlar quraşdırırlar və hər bir daşın belə gürcü çarlığının keçmişindən xəbər verdiyi vilayətləri qədim erməni vilayətləri kimi göstərirlər".

S.Ağayanın "Erməni xalqının tarixi taleyində Rusiyanın rolu" kitabında da çoxlu antiazərbaycan boşboğazlıqları vardır.

Marşal İ.Baqramyanın xatirələrində minlərlə azərbaycanlıları məhv etmiş Andranik ən məsuliyyətsiz bir şəkildə tariflənir.

Əksər erməni tarixçilərinin əsərlərində ayrı-ayrı tarixi hadisələrin və faktların qiymətləndirilməsində heç bir elmi təhlil yoxdur. Bu tarixi hadisə və faktlar çox vaxt Ermənistanın əzəmətliyi ideyası naminə təhrif olunur, xalqlararası dialoqun möhkəmləndirilməsinə heç də kömək etməyən xarakteristikalar verilir. "Ermənistan"la termini başqa bir, tamamilə özgə və əslində də keçici bir anlayış "Bö-

yük Ermənistan" əvəz olunur. Guya "Böyük Ermənistan" bir çox əsrlər müddətində dənizdən (Xəzər dənizindən) dənizə qədər (Qara dənizə qədər) sahəni əhatə etmişdir. Bu əsərlərdən Naxçıvana və Azərbaycanın başqa torpaqlarına olan iddiaları əsaslandırmaq məqsədilə istifadə olunur.

"Erməni xalqının tarixi" adlıkitab da bu baxımdan son dərəcə səciyyəvidir. Bu kitabda da müəlliflər erməni xalqının müstəsnalığı kimi cəfəng ideyadan, bu xalqın tarixini qədimləşdirmək, ona bəzək-düzək vermək meylindən yaxa qurtara bilməmiş, işğalçılıq planlarından əl çəkməmişlər. Özgə torpaqlarının zəbt edilməsi ən vicdansız bir şəkildə ermənidilli vilayətlərin "birləşdirilməsi" kimi qələmə verilir, Qarabağ və Naxçıvan erməni torpaqları adlandırılır və s.

A.Ş.Mnatsakanyan kimi müəlliflərin əsərlərində özbaşınalıq və saxtakarlıq həddini aşmışdır. A.Ş.Mnatsakanyanın "Qafqaz Albaniyasının ədəbiyyatı haqqında" adlı kitabında ərazi məsələlərinə bütövlükdə nə az, nə də çox, düz 50 səhifədən çox, yəni bütün əsərin dörddə biri həsr edilmişdir.

Qondarma "Böyük Ermənistan" xəritələri heç də həmişə "Böyük Ermənistan"a bilavasitə dəxli olan əsərlərə yapışdırılmamışdır. Bu cəhətdən bir erməni yazıçının yubileyi münasibətilə nəşr olunmuş həcmcə kiçik kitablar seriyası səciyyəvidir. Bu kitablara "Ermənistan Mesrop Maştotsun dövründə. 360-440-cı illər" xəritələri yapışdırılmışdır. Axı belə bir Ermənistan, hər halda nə IV əsrin son rübündə, nə də V əsrin birinci yarısında mövcud olmamışdır. "Böyük Sovet ensiklopediyasında" verilmiş "Böyük Ermənistan" adlı məqalədə baxın nə deyilir: "387-ci ildə o (yəni "Böyük Ermənistan" – S.M.), İran Sasaniləri ilə Bizans arasında bölünmüşdü". Elə eyni fikir"Ermənistan SSR" məqaləsində (Tarixi oçerk; 19-cu əsrə qədər olan bölməni akad. S.T.Yeremyan yazmışdır) təkrarlanır. 1977-ci ildə P.M. Muradyanın "Ermənistanın gürcü epiqrafikası" kitabı nəşr olunmuşdur. Burada da, Ermənistandakı gürcü sənədlərinə həsr olunmuş kitabda yenə də elə həmin "Böyük Ermənistan"ın xəritəsi verilmişdir. Bu sənədlərdən ən qədimi XI əsrə aiddir.

Buna bənzər işlər bu yaxın vaxtlarda Dağlıq Qarabağda da edilmiş və güman ki, elə indi də edilməkdədir. Məgər Eminin, Xudabaşevin, Yeritsovun və başqalarının kitablarında gürcülərin tarixi gürcü torpaqlarına hüquqları inkar edilmirmi?! Məgər erməni elitası keçən əsrdə Senkovskinin vasitəsilə belə şayiələr yaymırdımı ki, guya Gürcüstanda gürcülər olmamışlar, burada ermənilər və başqa xalqlar yaşamışlar. Yaxud belə demirdilərmi ki, Gürcüstanın böyük bir hissəsi Tiflislə birlikdə lap qədimlərdən ermənilərə məxsus olmuşdur.

Böyük gürcü yazıçısı və ictimai xadimi İlya Çavçavadzenin "Erməni müdrikləri və fəryad edən daşlar" əsəri erməni plutokratiyasının yuxarıda qeyd edlmiş xüsusiyyətinə həsr edilmişdir.

Keçən əsrdə erməni alimləri aldatdıqları xaricilərin dili ilə də "Böyük Ermənistan"ın Qafqazda yeganə dövlət olması ideyasını təbliğ etmişlər. Onlardan biri yazmışdı: "... Qafqaz gələcək ermənilərindir; onların (gürcü və tatar-azərbaycanlı) qonşularına isə erməniləşməkdən başqa bir şey qalmır".

Beləliklə, erməni elitasının təcavüzkarlığı nəinki Azərbaycan və azərbaycanlılara, eyni zamanda, Gürcüstana və gürcülərə yönəldilmişdi. Bu, erməni elitasının əsil simasıdır.

Qonşu torpaqlarının hesabına (Zaqafqaziyada bu torpaqlar başlıca olaraq tarixi Albaniyanın torpaqlarıdır), əsasən də erməni tədqiqatçılarının təxəyyülündə yaradılmış "Böyük Ermənistan", şübhəsiz, xeyli dərəcədə uydurmadan ibarətdir.

Bu fitnə-fəsad, yalan dolu kitablarda oxucuya da belə təlqin edilir ki, Qarabağ (Artsax-Xaçen), Naxçıvan, Paytakaran və başqa torpaqlar Ermənistanın tarixi vilayətləri olmuş, *"qədim* erməni torpaqları sayılmış, "Böyük Ermənistan "mərkəzləşdirilmiş dövlətinin" *ayrılmaz* (kursiv mənimdir – S.M.) hissəsini təşkil etmişdir".

II Rus-İran müharibəsi dövründə (1826-1828) erməni əsilli X.B.Lazarev çar hökumətinə bir layihə təqdim etmişdi ki, onun da əsas məqsədi Rusiya imperiyası tərkibində erməni çarlığının yaranması idi. Rusiya dövlətinin hakim dairələri üçün bu ideya imperiyanın ucqarında xristian bufer dövləti yaradılması üçün əsas olmuş-

dur. Rus-İran müharibəsi qurtardıqda I Nikolayın(1828-ci il 21 mart) Fərmanına əsasən, Naxçıvan və İrəvan xanlıqları ləğv edilmiş və onlar "erməni vilayətləri" adı altında bir inzibati vahiddə birləşdirilmişlər. Çar hökumətinin bu tədbirindən qanadlanmış, həvəsə gəlmiş Lazarev və başqa erməni xadimləri Azərbaycanın digər torpaqlarının – Şəki və Şamaxı xanlıqlarının hesabına Erməni vilayətinin ərazisini artırmağı təklif etmişlər.

Şübhəsiz ki, bu torpaqlar *"əsl", "qədim", "ayrılmaz"* erməni torpaqları olmamış və ola da bilməzdi. İş burasındadır ki, bütün bu torpaqlara ermənilər sonradan gəlmişlər. Necə ola bilər ki, erməni ayağı dəyən torpaq qədim erməni torpağı adlansın?!

Məlumdur ki, bir yerdən başqa yerə köçürülmə hələ ən qədim zamanlardan mövcud olmuşdur. Yeni ərazilər fəth etmək məqsədi güdən bu siyasət diinc xarakter daşımışdır. Lakin sovet dövründə belə ermənilər bu siyasəti faciə kimi qələmə vermək üçün hər cür saxtakarlığa əl atmışlar. Məşhur rus rəssamı V.Vereşaginin "Müharibə apofeozu" adlı rəsm əsərlərindən də öz məqsədləri üçün istifadə etməyə çalışmışlar.

Əsərdə insan kəllələrindən toplanmış təpələr təsvir olunub. Rəssam bu əsəri 1871-ci ildə çəkib, özü isə I Dünya müharibəsindən on il əvvəl dünyasını dəyişib. Rəsm əsərlərinin obyekti hec vaxt ermənilər olmayıb. Ancaq erməni saxtakarlığı burda da öz işini görüb. Rəsm əsərlərin fotoreproduksiyasını çıxararaq altında "1905-1917-ci illər" yazılıb. Guya,bu kəllələr soyqırıma məruz qalmış ermənilərə məxsusdur və s.

"Böyük Ermənistan" haqqında yazmış müəlliflər, məsələn, Pavstos Buzand, Movses Xorenatsi və başqaları erkən orta əsrlər erməni tarixçilərinin əsərlərinə əsaslanırlar və bu zaman son dərəcə mühüm bir cəhəti unudurlar ki, Pavstos Buzandın və ya Movses Xorenatsinin təsvir etdikləri mənzərə real gerçəkliyi deyil, "onların öz ideallarını – zərdüşti İranının təhlükəsinə qarşı duran vahid birləşmiş Ermənistanı ehtiva edib. Şbhəsiz, bu mənzərə gerçəkliyi təhrif edib, çünki IV əsrdə vahid və birləşmiş Ermənistan olmayıb.

Erkən orta əsrlər erməni müəlliflərinin az qala bütün Qafqaz Albaniyasını əhatə etmiş "Böyük Ermənistan"ın əzəməti barədə uydurmalarını, "Ermənistanın Şərq diyarı haqqında", "Şimal-Şərq diyarı haqqında", "Şərq diyarı haqqında", "Qədim Ermənistan haqqında", "Aqvan diyarı haqqında" (erməni tədqiqatçıları suveren alban çarlığını bu cür təqdim edirlər) özünəməxsus böyük "dövlətçilik" şovinist dələduzluqlarını nə qədər məyusedici olsa da, bəzi sovet erməni tarixçiləri şüurlu surətdə müdafiə etmiş və yaymışlar. Sonrakı dövrlərdə erməni ədəbiyyatında "Şərqi Ermənistanın qədim vilayətləri" (yəni Albaniya), "Ermənistanın ayrılmaz hissələri", "Ermənistanın əsl vilayətləri", "Ermənistanın Şərq diyarı" və s. kimi ifadələr getdikcə daha tez-tez müşahidə olunur ki, bu da orta əsrlər erməni tarixçilərinin yalanı üzərində qurulmuş çox böyük və məqsədyönlü piyardan başqa bir şey deyildir. Beləliklə də, tarix təhrif olunub.

Bu ziddiyyətli mənbələr – bəzən təsvir edilən hadisələrin baş verdiyi dövrdə yaşamış antik müəlliflərin məlumatları ilə ziddiyyət təşkil edən bu qaynaqlar - çox vaxt ağ yalanı həqiqət kimi təqdim edir, hətta öz qan qardaşlarının barəsində yalanlar uydururlar.

Dağlıq Qarabağ heç bir zaman erməni mədəniyyətinin mərkəzlərinə aid olmamışdır (İ.P.Petruşevski). Mahiyyət etibarilə Qarabağ abidələrinin ermənilərə məxsusluğuna aid edilənyeganə sübut bu abidələr üzərindəki yazılardır, lakin bu da həmin abidələrin etnik məxsusluğunu sübut etmək işində əsas sayıla bilməz. Şərqin bir çox xalqlarının demək olar ki, bütün orta əsr elmi ədəbiyyatı və digər ədəbiyyatı ərəb və fars dillərində yazılmışdır.

Elə həmin xalqların bütün epiqrafikası, qəbirüstü daşları həmin dillərdə yazılırdı. Demək olar ki, bütün orta əsrlər boyunca Avropa ölkələrində latın dili elmi dil olmuşdur və s. Bundan əlavə məlumdur ki, müasir fransızlar, ingilislər, portuqaliyalılar, misirlilər öz qədim dillərində danışmırlar, lakin buna görə onlar fransız, ingilis və i.a. olmaqlarından çıxmırlar.

Cənubi Qafqaz tarixinin gözəl bilicisi akademik İ.A.Orbelinin mülahizələrindən bəzilərini misal gətirmək yerinə düşərdi. İ.Orbeli yazırdı: "IX əsrdə Albaniyanın mis mədənlərinin olduğu

yerlərdəerməni xristian təbliğatının və “maarifçilik” fəaliyyətinin bu qədərgüclənməsinin və alban xalqı olmasa da, alban tayfalarının əşyavi, eləcə də ədəbi irsinin kobud şəkildə təhlil edilməsinin,Tatsitdən tutmuş Stefan Orbelinə qədər (XIII əsr) bütün millətlərdən və dinlərdən olan yazıçıların həmin xalqın həqiqi mədəni siması haqqında dolaşıq fikirlər söyləməsinin həqiqi səbəbi Albaniyanın müstəmləkələşdirilməsi və onun əhalisinin milli simasını tam məhv etməklə həmin əraziləri müstəmləkələrə çevriilməsi cəhdi ilə bağlıdır".

Albaniyada da biz həmin mənzərə ilə qarşılaşırıq və öz xalqına nisbətən erməni əyanlarına daha çox bağlı olan alban feodallarıgələcək müstəmləkəçilər – erməni feodalları üçün çox əlverişli zəmin hazırlamışdlar; “XII əsrin sonuna doğru Albaniya nəinki özünün adını itirmişdi, eyni zamanda o, hələ əvvəlki əsrlərdə cənubdan – Ermənistan tərəfindən işğal edilmiş ərazlərinin də xeyli hissəsindən məhrum olmuşdu...”. “Syuniya kimi əhalisi yarıalban, yarıerməni olan cənub vilayətlərində erməni feodalları xristianlığı zorla yayır, yüksək təbii cazibədarlığa malik olan rayonları “səma himayəçilərinə” təhkim etmək məqsədi ilə fəaliyyətə başlamışdılar”. Burada və işğal olunmuş digər vilayətlərdə yeni monastırlar tikilirdi ki, onlar da xəritədə “Allaha xoş olan” yerləri qeydə alırdılar.Albaniyanın keçmiş cənub ucqarlarında olan belə monastırlardan birinin “mis mədənlərindəki Allah vadisi” kimi obrazlıad alması əbəs deyildi. “...Şimali Ermənistan, daha doğrusu, indiki Dağlıq Qarabağ erməni feodalları tərəfindən işğal edilmişdi”.

S.T.Yeremyan əminliklə yazmışdır: “Xeyli hissəsi ərəblərdən əvvəlki dövrə aid olan xristian abidələrinin çox böyük qismi *qədim Albaniyanın erməniləşdirilmiş hissəsində, qədim alban vilayətləri* olan *Artsax* (Dağlıq Qarabağ Muxtar Vilayəti və Ermənistan SSR-in Şamşadil və İcevan rayonları da daxil olmaqla Kiçik Qafqazın qonşu şimal-şərq qolları) və hazırda əsas etibarilə erməni əhalisinin yaşadığı Utikin ərazisində saxlanılmışdır (kursiv mənimdir – S.M.).

İ.Orbeli və S.Yeremyan kimi akademikləri faktları bilməməkdə və yaxud vətənpərvər olmamaqda təqsirləndirmək olmaz.

Doğrudur, son vaxtlar nəinki alimlər, ümumiyyətlə bütün savadlı adamlar indiki DQMV-nin ərazisinin qədim alban torpağı olması və onun əhalisinin sonradan erməniləşdirilməsi haqqında məlumatlara malikdir. Ancaq bu cür aşkar faktlar müxtəlifibarələrin köməyi ilə erməni ortodoksları tərəfindən tarixdən tamamilə silinib atılır. Lakin faktları silməklə müvəffəqiyyət əldə etmək mümkün deyil, çünki son oarxeoloji tədqiqatlar ermənilərin Dağlıq Qarabağ ərazisinə sonradan gəldiyini sübut edir.

Budur, xüsusi tədqiqatda belə deyilir: "Qeyd etmək maraqlıdır ki, Dağlıq Qarabağın erməniləri üçün... müqayisəli cədvəl üzrə ən yaxın olanları azərbaycanlıların və ləzgilərin iki qrupudur, diş sistemi bir-birinə yaxın olanların birinci onluğunda qruplar üç Azərbaycan, kumıklar, ləzgilər, üç qaradəniz boyu, adıgeylər və yalnız *biri ermənidir* (kursiv mənimdir – S.M.)

...Ermənilərin Qarabağ vilayətində məskunlaşdıqları vaxtdan bəri onlar dillərini, mədəniyyətlərini, dinlərini və etnik mənlik şüurunu saxlamışlar. Ehtimal ki, *iki dənizi birləşdirən Zaqafqaziya vadisinin əhalisi ilə qarışaraq ən yaxın etnik qrupları assimilyasiya etmişlər və öz tərkiblərinə daxil etmişlər".*

Sitat gətirilmiş yuxarıdakı məqalənin yer aldığı külliyyatın müəllifləri haqlı olaraq belə güman edirlər ki, diş morfologiyası zəminində insan populyasiyalarının fenocoğrafi tədqiqatları *tarixi xarakter məsələlərinin həlli* işində mühüm materialdır.

Beləliklə, erkən orta əsr dövründən başlayaraq bizim günlərə qədər erməni tarixçiləri tərəfindən uydurulmuş bu böyük yalan puça çıxır.

Erməni tarixşünaslığında artıq çoxdan belə bir fikir formalaşdırılıb ki, indiki (Sabiq) DQMV-nin ərazisi Ermənistanın "ayrılmaz" hissəsidir. Bu cəfəng "baxışların" əsası hələ keçən yüzillikdə erməni elm və mədəniyyətinin xadimləri (M.Çamçyan, K.Şahnazaryan, İ.Emin, K.Patkanov və b.) tərəfindən qoyulmuş və Y.A.Manandyan və xüsusilə, S.T.Yeremyan tərəfindən "konseptual" cəhətdən işlənib sabitləşdirilmişdir. Bütün erməni şərqşünas tarixçiləri indiyədək məhz həmin uydurma, saxta mövqelərdən çıxış edirlər.

Lakin bir çox "tarix kitabları" da var ki, bunlar faktların başa düşülməməsinə və yaxud təhrif edilməsinə əsaslanan, tamamilə uydurma mühakimələrdən ibarətdir. Lakin bütün bu "tədqiqatları"eyni bir amal birləşdirir, daha doğrusu, onlar bu və ya başqa dərəcədə iki əsas tezisin sübut edilməsinə (bilavasitə və ya dolayısı ilə) xidmət edirlər.

1. Kürün sağ sahilinin (DQMV-nin yerləşdiyi ərazi) az qala 600 il müddətində (b.e.ə. II əsrdən b.e. IV əsrinədək) Ermənistanın tərkibində olması. Həmin dövr ərzində bu regionun qeyri-erməni əhalisi o dərəcədə erməniləşmişdir ki, onları nə etnik və dil cəhətdən, nə də maddi və mənəvi mədəniyyət baxımındanermənilərdən fərqləndirmək mümkün deyil.

2. Kürün sağsahil ərazisində lap qədimdən ermənilər yaşamışdır (əsas etibarilə Artsaxda). DQMV-dəki və başqa vilayətlərdəki yerli əhali hazırkı vaxtacan erməni xalqı ilə etnik-mədəni birliyini saxlamışdır.

Birinci dəlilə müraciət edərkən qeyd etmək zəruridir ki, əgər əvvəllər S.Yeremyanın əsərlərində Kürün sağ sahilində ermənilərdən ibarət olmayan yerli əhalinin-udinlərin olması hələ inkar edilmirdisə, onun sonrakı əsərlərində və bir sıra davamçılarının əsərlərində bu əhalinin mövcudluğu tamamilə inkar edilir.

Lakin erməni olmayan bu əhali haqqında bəzən danışılırdısa da, bu, etinasızcasına edilirdi,ondan tezliklə yaxa qurtarmağa, onuassimilyasiya etməyə, erməni dilinə keçməyə məcbur etməyə çalışırdılar, çünki bu əhali əsas konsepsiyaya çox mane olurdu. Bu meyl A.Mnatsakanyanın, Ş.Smbatyanın, A.Akopyanın və başqalarının əsərlərində daha qabarıq şəkildə özünü göstərmişdir.

Əslində isə Kür və Araz çayları arasında yaşayan etnik birliklərin məskənləri göstərilən müəlliflərin şərhi uyğun gəlmir. Bu regionun əsas əhalisi gəlmə ermənilərdən fərqli olaraq, mənşə, dil və mədəniyyət etibarilə min illərlə Böyük Qafqazla Araz çayı arasında yaşamış yerli Qafqaz etnik qrupları ilə sıx surətdə bağlı olmuşdur. Burada əsas etnik kütlə Herodota məlum olan utilərdən və bir sıra digər tayfalardan ibarət olmuşdur.

Alban tayfası olan utilər çaylar arasında kifayət qədər böyük ərazisini tutmuşlar və Uti (yunanca Otena, ermənicə Utik) və Artsax əyalətlərinin əsas əhalisini təşkil etmişlər. Hətta "erməni tarixinin atası" Movses Xorenatsiyə görə, albanların əfsanəvi sərkərdəsi Aranın nəsilləri "bizim vətənimizin (yəni Ermənistanın) şimal tərəfində, yəni erməni dilinin sərhəddində" yaşamışlar.

Bu ərazi Aran adlanırdı və elə Kür və Araz çaylarının arasını tuturdu. "Araz çayından başlayaraq Xnarakert qalasına qədər (sonralar – Xunan, Kürün Xrami ilə qovuşduğu yerdə) alban düzənliyini və bu düzənliyin dağlıq hissəsini əhatə edirdi". Xorenatsiyə görə, Aranın əhalisi albanlarla vahid mənşəyə malik olan utilərdən, qarqarlardan və tsodlardan (Artsaxda yaşamış etnik qrup) ibarətdir.

Yuxarıda qeyd olunduğu kimi, əhəmiyyətlidir ki, erməni ənənəsi özü tarixi albanları müasir udinlərlə eyniləşdirir. Utilərin uzaq nəsilləri olan udinlər hazırda da Azərbaycan Respublikasında yaşayırlar. Udinlərin-utilərin dili hind-Avropa erməni dili ilə heç bir ümumi əlaqəsi olmayan İberiya – Qafqaz dil qrupuna aiddir. Bundan əlavə, V əsrin əvvəllərində, məhz qədim udin dilinin dialektlərindən birində - qarqar dilində 52 hərfdən (erməni dilində - 36 hərf) ibarət müstəqil alban yazısı meydana gəlmişdir. Evangeleye tərcümə edilmiş, sonra isə orijinal alban dünyəvi və kilsə ədəbiyyatı yaranmışdır.

Həmin vaxtdan başlayaraq Uti və Artsax alban çarlığının siyasi, iqtisadi və mədəni həyatının mərkəzləri idilər. Albaniyanın paytaxtı Partav (Bərdə) məhz Utidə yerləşmişdir.

Güman ki, elə həmin qədim udin alban dili ərəb coğrafiyaşünaslarının xəbər verdiklərinə görə, Aranda (Albaniyada) lap X əsrə qədər saxlanmışdır və paytaxtın əhalisi və onun ucqarları bu dildə danışmışdır.

Kürün sağ sahilindəki udin əhalisinin özü isə hələ XIX əsrin sonlarında Seysulan kəndində (indiki Ağdərə ətrafında) saxlanmışdır. Tarixi faktlar sübut edir ki, Utinin və Artsaxın udin (alban) əhalisinin erməniliyi haqqında tezisin Albaniyadakı həqiqi etnik proseslərlə heç bir əlaqəsi yoxdur.

*Keçmiş DQMV-nin erməni dilli əhalisi* (XIX əsrdə buraya köçürülənlərdən başqa) – *erməniləşdirilmiş yerli əhalinin – müxtəlif alban tayfalarının – utilərin, tsodların nəsilləridir* (heç kim yox, erməni müəllifi Moisey Xorenatsi onları albanların ulu əcdadı və hakimi Aranın nəsilləri adlandırır) və b.

Keçmiş DQMV-nin əhalisinin etnik tərkibinin pozulmasına və ermənilərə çevrilməsinə gəldikdə, qeyd etmək lazımdır ki, bu, bir neçə mərhələdən keçən və heç bir kəs üçün sirr olmayan tamamilə aşkar səbəblərə malik olan mürəkkəb və çoxəsrlik etnik-siyasi və etnik-mədəni proses olmuşdur.

Birinci mərhələ - çayarasının alban əhalisinin (xüsusilə keçmiş DQMV-nin ərazisinin) qriqorianlaşdırılması, güman ki, X-XII əsrlərdən başlamışdır. Bu prosesin daxili kökləri yox idi; bu, alban etnik birliyinin təbii təkamülü deyildi. Bu proses 704-cü ilin məlum kilsə məclisindən sonra avtokefal alban kilsəsi erməni kilsəsinə tabe edildiyi bir vaxtda ərəb xilafətinin və erməni katalikosluğunun Albaniya barəsində yürütdükləri siyasətlə sıx bağlı olmuşdur. Tamamilə aşkar siyasi və başqa səbəblər üzündən qriqorianlaşdırma Albaniya əhalisinin monofizitçiliyə riayət edən hissəsinin erməniləşməsinə səbəb oldu. Eyni zamanda da alban əhalisinin digər hissəsi islamı qəbul edərək müsəlmanlaşır ki, bu da sonralar alban əhalisinin bu hissəsinin türkləşməsi prosesini sürətləndirmişdir. Lakin hər iki halda yerli alban əhalisinin müstəsna olaraq mədəni-ideoloji assimilyasiyasından söhbət gedə bilərdi. Bu, xüsusilə dağ rayonlarına, yəni məhz DQMV-nin (Xaçenin, Dizakın, Varandanın) ərazisinə aiddir. Bütün bu proseslər ədəbiyyatda kifayət qədər inandırıcı şəkildə nəzərdən keçirilmişdir.

Qarabağda dini-ideoloji parçalanmadan istifadə edən rus imperiyası xristian albanlarını milli köklərindən ayırıb xristian ermənilərə assimilyasiya etməklə xristian toplumu, erməni dövləti yaratmaq niyyətində idi.

...Erməni mənşəli müəllif A.Xan - Aqov yazır: İrandan gəlmə ermənilər,yerli Qarabağ ermənilərindən (xristian albanlardan – S.M) dilləri, hətta geyimləri ilə fərqlənirlər.İran erməniləri yerli ermə-

nilərin dilini başa düşmürlər.Lakin gəlmələr tezliklə yerlilərin dilini unutdurdular(?,388).

Qarabağın dağ rayonlarının qriqorianlaşdırılmış və xeyli dərəcədə erməniləşdirilmiş əhalisinin etnik cəhətdən assimilyasiyaya uğraması (bu da tam olmayıb!) sonralar baş vermişdir. Yeri gəlmişkən, bu məlum həqiqəti savadlı adamlar hələ XIX əsrdə yaxşı bilmişlər. Yuxarıda adı çəkilmiş V.L.Veliçko yazmışdı: "Qarabağın səhv olaraq erməni adlandırılmış,... erməni-qriqorian dininə etiqad etmiş... və yalnız üç-dörd əsr bundan əvvəl erməniləşmiş sakinləri istisna təşkil edir".

Başqa erməni müəllifi B.İşxanyan yazırdı: "Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi aborigendirlər, qədim albanların nəsilləridir... bir hissəsi isə Türkiyədən və İrandan qaçıb gələnlərdir. Onlar üçün Azərbaycan torpağı təqiblərdən və təhdidlərdən qorunmaq üçün sığınacaq olmuşdur".

Beləliklə, hadisələrin təhlili tarixi və faktlar göstərir ki, ermənilər tərəfindən bütün proseslər planlı, məqsədyönlü və düşünülmüş şəkildə keçirilmişdir: 1. Cənubi Qafqazda kütləvi şəkildə məskunlaşdırmalar (XIX əsr); 2. İlk etnik inzibati ərazilərin yaradılması; 3. XX əsrin əvvəllərində Cənubi Qafqazın mərkəzi şəhərdə Tiflisdə əhali üstünlüyünə sahib olmaları; 4. Milli zəmində qarşıdurmaların baş verməsinə səbəb olmaları, nəticədə etnik sıxışdırma və təmizləmə yoluilə ermənilərin yaşadığı vahid etnik tərkibə malik ərazilərin yaradılması (1905-1906-cı illər erməni-Azərbaycan qarşıdurması, 1918-1920-ci illər erməni-Azərbaycan və erməni-gürcü müharibəsi, 1943-1953-cü illər azərbaycanlıların deportasiyası, 1988-cı ildən başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, 1989-cu ildə Gürcüstandan azərbaycanlıların deportasıiyası).

Amma təkzibolunmaz faktlara, qanlı hadisələrə baxmayaraq, ermənilər dünya ictimayyətinə çoxəsrlik, erməni saxtakarlığının tərkib hissəsi olan qondarma və uydurma "erməni soyqırımı" mifini məkrli ustalıqla yeridə bilmişlər."Erməni soyqırımı" əfsanəsi altında başqa xalqlara, xüsusən türklərə və azərbaycanlılara qarşı amansızlığı və qəddarlığı ilə seçilən soyqırımlar törətmişlər.

Şərqə təsir dairəsini genişləndirmək, regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən Çar Rusiyası hələ XVII əsrin sonu və XVIII əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə apararkən məhz "erməni kartı"ndan siyasi alət kimi yararlanmağa çalışmışdır. Kütləvi soyqırım və deportasiyaların qanlı tarixi isə Rusiya ilə İran arasında gedən iki müharibənin (1804-1813 və 1826-1828) sonunda imzalanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələrindən sonra başlanmışdır.

Həmin müqavilələr xalqımızın tarixində faciəvi rol oynamış, Azərbaycanın parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoymuşdur. Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın idarəçiliyinə keçmişdir. Türkmənçay müqaviləsindən sonra imperator I Nikolay 1828-ci il martın 21-də İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti"nin yaradılması haqqında əmr imzalamışdır. Həmin əmrə əsasən, o zaman 7.331 azərbaycanlının və 2.369 ermənin in yaşadığı İrəvan şəhəri də "Erməni vilayəti"nin tərkibinə daxil edilmişdi. Bunun ardınca Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan ermənilərin İrəvan, Qarabağ və Naxçıvana kütləvi şəkildə köçürülməsinə başlanılmışdı.

Tarixi mənbələrə əsasən, təkcə 1828-1830-cu illər ərzində İrandan 40 min, Türkiyədən isə 84 min erməni Cənubi Qafqazda, Azərbaycan ərazisində yerləşdirilmişdir. Çar Rusiyasının himayəsi altında "Erməni vilayəti" adlandırılan süni inzibati bölgənin yaradılması isə azərbaycanlıların əzəli torpaqlarından zorla çıxarılmasının və soyqırımı siyasətinin bünövrəsini qoydu. Qafqaz Arxeologiya Komissiyasının sənədlərində birmənalı qeyd olunur ki, Türkmənçay sülh müqaviləsinə qədər Qarabağ xanlığında 12 min ailənin 2,5 min nəfəri, Şamaxı xanlığında 24 min ailənin 1,5 min nəfəri, Şəki xanlığında isə 15 min ailənin üçdə biri erməni idi. 1828-ci ilin məlumatına görə, İrəvan xanlığı ərazisində torpaqların 96,63 faizi azərbaycanlılara, cəmi 3,37 faizi ermənilərə məxsus idi. 1826-1828-ci illər Rusiya-İran müharibəsində təkcə İrəvan xanlığı ərazisində yaşayan azərbaycanlıların 420 kəndi yerlə yeksan edilmişdir. 1828-1871-ci

illər arasında ermənilər azərbaycanlı əhali yaşayan 146 kəndi zəbt edərək özününküləşdirmişlər.

XIX əsrin ikinci yarısında "Böyük Ermənistan" xülyasına düşən, millətçi-şovinist ideyalarını həyata keçirmək istəyində olan ermənilər təşkilati strukturlar yaratmağa başlamışlar. Əsasən, xaricdə - 1887-ci ildə Cenevrədə "Qnçaq", 1890-cı ildə Tiflisdə "Daşnaksütyun" partiyalarını təsis etmiş, 1895-ci ildə Nyu-Yorkda "Erməni Vətənpərvərlər İttifaqı" təşkilatını yaratmışlar. Həmin təşkilatların fəaliyyət proqramında azərbaycanlılara və türklərə qarşı ardıcıl olaraq terror və qırğın aksiyaları həyata keçirmək məramı əsas yer tutmuşdur.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları birinci rus inqilabı dövründə - 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişlər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri və vandallıqları Azərbaycanı və indiki Ermənistan ərazisindəki yaşayış məntəqələrini əhatə etmişdir.

Tarixi qaynaqlar göstərir ki, ermənilər Bakıya XIX əsrin 70-ci illərindən gəlməyə başlamışlar. Bu elə bir dövr idi ki, şəhərin iqtisadiyyatı sürətlə inkişaf edir, Abşeronda illik neft istehsalı 200-300 min puda çatırdı. Həmin illərdə Çar Rusiyasının havadarlığı ilə Bakıya axışan ermənilər neft sənayesi, ticarət və bank işi sahələrində üstünlüyü ələ keçirmiş, qısa vaxtda iri kapitalistlərə çevrilmişdirlər. Bu illərə qədər isə Bakı və onun ətraf kəndlərində ermənilər barmaqla sayılacaq qədər azlıq təşkil edirdilər. 1905-ci il fevralın əvvəllərində Bakı şəhəri və quberniyasında baş vermiş ilk erməni-azərbaycanlı qırğınını tədqiq edən senator Kuzminskinin hesabatına görə, həmin ilin yanvarında Bakı quberniyasında 1.057 min nəfər əhali siyahıya alınmışıdr. Onlardan 800 min nəfəri müsəlmanlar, 12 faizi ruslar, 9 faizi ermənilər, 3 faizi isə başqa millətlərin nümayəndələri olmuşdurlar.

1904-1905-ci illərdə "Daşnaksütyun" Bakıda sosial-demokrat və sosial-inqilabçı adı altında daşnaksütyun yönümlü fəhlə təşkilatları yaratmağa başlamışdır. Onların əsas məramı yerli əhali arasında

iğtişaşlar, təxribatlar törətmək, qanlı aksiyalar həyata keçirmək idi. Bu cəhdlər təəssüf ki, nəticəsiz qalmamışdı.

1905-ci il fevralın 6-da Bakıda baş verən dəhşətli hadisə isə şovinist ruhlu erməni millətçilərinin etnik zəmində əvvəlcədən planlaşdırdıqları böyük qırğına yol açmış oldu. Həmin gün şəhərin mərkəzində, erməni kilsəsinin yanında, "Parapet" deyilən yerdə varlı, nüfuzlu, çoxlu qohum-əqrəbası olan karxana sahibi, sabunçulu Ağarza Babayev erməni komitəsinin üzvləri tərəfindən qətlə yetirildi. Əhvalatdan xəbərdar olan Bakı əhli qətl hadisəsindən çox təsirlənmiş və bundan əvvəl də ermənilər tərəfindən bir sıra cinayətlər törədildiyinə görə xalq arasında böyük iğtişaşlar baş vermişdi.

Mixaylov xəstəxanasının tibbi sənədlərinə görə, qırğın başlanan gün erməni milyonçuları B.Lalayevin, A.Babayantsın, İsay Ter-Osipovun və başqa maqnatların havadarlığı ilə terror qrupu tərəfindən 18 adam öldürülmüş, 33 nəfər yaralanmışdı. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i başqa millətin nümayəndələri idi.

Fevralın 7-də vəziyyət daha da gərginləşmişdi. Həmin erməni terror təşkilatı bu dəfə yüzədək dinc vətəndaşın həyatına son qoymuş və yaralamışdı. Krasilnikovun, Mayılovun, Korsakovun evlərindən, "Madrid" mehmanxanasından yerli əhali – azərbaycanlılar qəfildən güllə yağışına tutulmuşdu. İğtişaş nəticəsində müsəlmanların bir çoxunun imarətləri və mağazaları dağıdılmış və qarət edilmişdi.

Fevralın 8-də Bakı cəhənnəmə çevrilmişdi. Bir tərəfdən bombaların partlaması, digər tərəfdən isə uca və ali imarətlərin uçub dağılması, neft zavodlarının, budkaların yanğından səmaya qalxan alovları insanları çaşdırmışdı.

Beləliklə, 1905-ci ilin 6-10 fevral hadisələri tarixə "Bakı şəhərində qanlı qətliam" kimi daxil olmuşdur.

1905-ci ilin fevralından 1906-cı ilin payızına qədər erməni-azərbaycanlı münaqişələri nəticəsində 10.000 nəfər öldürülmüş, 7 şəhərin və 252 kəndin əhalisinə ciddi ziyan vurulmuşdu.

Birinci dünya müharibəsindən sonra isə Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından öz istəklərinə bolşevizm bayrağı altında

nail olmağa cəhd etmişlər. Bakı Kommunası əks-inqilabi elementlərlə mübarizə şüarı altında 1918-ci ilin martından bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planının reallaşdırılmasına başlamışdır.

Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər ərazilərdə həyata keçirilmişdir. Bu torpaqlarda dinc əhali kütləvi şəkildə qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir.

1918-ci ildə türk-müsəlman əhaliyə qarşı törədilən cinayətləri üzə çıxarmaq məqsədilə Azərbaycan Xalq Cümhuriyyətinin ən mühüm qərarlarından biri də həmin il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması olmuşdur. 1919-cu il avqustun 27-də komissiya tərəfindən tərtib edilmiş arayışda bildirilirdi ki, ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı 36 cild və 3.500 vərəqdən ibarət sənədlər toplanmışdır.

5 yanvar 1918-ci ildə erməni quldur birləşmələri Acaraca, Danqal, Mulanis, Murcaxet, Radızka, Qavur, Gumriz kəndlərinə basqınlar etmişlər. Onların hamısının sakinləri vəhşicəsinə öldürülmüşdür. 21 may 1918-ci ildə isə rus hərbi həkimi Xoroşenkonun məlumatına görə, "Daşnaksütyun" erməni terror təşkilatının peşəkar qatilləri Axalkalakidə və ətraf kəndlərdə yüzlərlə azərbaycanlını süngüyə çəkib doğram-doğram etmişlər. Məlumatda deyilir ki, "XX əsrin sivilizasiyalı ermənilərinin vəhşilikləri bax budur". Daha sonra erməni quldur birləşmələri Gürcüstanın Axalsixi ərazisini ələ keçirmişlər. "Daşnaksütyun" erməni terror təşkilatının proqramına görə, bura guya "əzəli erməni ərazisidir". Vəhşicəsinə qətlə yetirilən dinc sakinlərin əksəriyyəti gürcülər idi. Həmişəki kimi, yenə də qadınlar, qocalar və uşaqlar erməni qətliamının qurbanları olmuşlar.

1920-ci il iyunun 19-da Tiflisdə Azərbaycanın görkəmli siyasi və ictimai xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri Fətəli xan Xoyski "Daşnaksütyun" erməni terror təşkilatının üzvü tərəfindən qətlə yetirilir. Qətl Tiflisin İrəvan meydanında Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin digər görkəmli xadimi Xəlil bəy Xasməmmədovla birlikdə indiki Paliaşvili adına

Opera və Balet Teatrının yanından keçərkən baş vermişdi. "Daşnaksütyun" erməni terror təşkilatının üzvləri Aram Erkayanın və M.Qriqoryanın silahlı basqını nəticəsində X.Xasməmmədov ağır yaralanmış, F.Xoyski isə öldürülmüşdü. Fətəli xan Xoyskinin "Daşnaksütyun" erməni terror təşkilatı tərəfindən qətlə yetirilməsi bütün Zaqafqaziya regionunun demokratik və mütərəqqi qüvvələrinin hiddətinə səbəb olmuşdu.

1919-20-ci illərdə Qafqazda münaqişə zonasında olmuş ingilis jurnalisti Skotland Liddelin Ermənistan və ermənilər haqqında dediyi fikirlər təkcə həmin dövr üçün deyil, bu gün də öz aktuallığını qoruyub-saxlayıb. O demişdi: "Ermənistan əbədi olaraq toqquşma axtarır, nə vaxt ki, ona nail olur, onu öz təbliğatında "təzyiq aləti" adlandırır və doğrudan da bu əməlli-başlı cəza alətinə çevrilir. Daşnaklar üçün ölmüş erməni çox qiymətlidir. Əgər ondan lazım olduğu kimi istifadə etmək mümkün olsa, onda o, təbliğat işinə çoxlu fayda gətirə bilər" (Yenə orada).

1922-ci il iyulun 25-də Tiflisdə "Daşnaksütyun" erməni terror təşkilatının yaratdığı ixtisaslaşdırılmış "Qisas" birləşməsindən olan erməni terrorçuları Ter-Poqosyan və Məlik-Şahnazaryan görkəmli türk siyasi xadimi, Türkiyənin Suriyadakı 4-cü ordusunun baş komandanı Kamal (Camal) paşanı və müavini Surəyyə bəyi öldürmüşlər. Qətlin təşkilatçısı Artaşes Gevorkyan idi. Terror aktı hətta erməni ziyalılarında da hiddət doğurmuşdu. Buna tədqiqatçı, doktor Lepsiusun məlumatları da sübutdur.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Gorus – 2010: Absurd teatrı mövsümü" əsəri bu baxımdan mühüm əhəmiyyətə malikdir. Əsərdə erməni qəsbkarlarının ötən əsrin əvvəllərində azərbaycanlılara və türklərə qarşı törətdikləri soyqırımı aktlarına da əsaslandırılmış tarixi münasibət əksini tapmış, 1918-ci il mart hadisələrinin təfərrüatları açıqlanmış, həmin illərdə S.Şaumyanın törətdiyi cinayətkar əməllər konkret faktlar əsasında göstərilmişdir.

1922-ci ilin avqustunda Buxarada "Daşnaksütyun" erməni terror təşkilatının üzvü, Saruxanyan soyadlı birisi məşhur türk siyasi

və ictimai xadimi, İttihad və Tərəqqi Partiyasının rəhbərlərindən olan Ənvər paşanı qətlə yetirir. Bu cinayət xronologiyası erməni terrorunun və tarixi nifrətin yalnız cüzi bir hissəsini təşkil edir. 1991-ci ildə Sovetlər Birliyinin çökməsi ilə isə erməni vandallarının Dağlıq Qarabağa və Naxçıvana olan ərazi iddiaları beynəlxalq gündəmi zəbt edir.

Ötən illər ərzində Azərbaycan dövləti bu tarixi gerçəklikləri, xalqımızın iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində xeyli iş görmüşdür. "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulmuş, mərhələlərlə törədilmiş soyqırımı və terror siyasəti dolğun şəkildə öz əksini tapmışıdır.

Onu da qeyd edək ki, "Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi."

Prezident İlham Əliyev AMEA-nın 2005-ci ilin dekabrında keçirilmiş 60 illik yubiley mərasimindəki çıxışı zamanı ermənilərin cəfəng iddialarına qarşı elmi-ideoloji mübarizənin gücləndirilməsi zərurətini alimlərimiz qarşısında mühüm vəzifə kimi müəyyənləşdirmişdir.

**Ermənilərin azərbaycanlılara qarşı törətdiyi qanlı qətliamlar və terror aktları "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında əksini**

tapmışdır: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başladı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədi ilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüz-

**lərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.**

**Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı.**

**Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.**

**Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir".**

70 illik sovet ideologiyasının tarixşünaslığımıza tətbiq etdiyi "vətəndaş müharibəsi", "əksinqilabi qiyam" kimi saxtalaşdırılan mart hadisələri, əslində, bolşevik-daşnak ittifaqının azərbaycanlılara qarşı yeritdiyi növbəti soyqırım siyasəti idi. Xalqımız uzun illər boyu bu gerçək tarixdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. 1918-ci il martın 31-də Bakı Kommunası və erməni şovinistləri

Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırım aktlarından birinə imza atmışlar.

Bu soyqırım aktı isə əsl hüquqi-siyasi qiymətini Azərbaycanın dövlət müstəqilliyinə qovuşduqdan sonra almışdır. Mart hadisələrinin 80-ci ildönümündə - 1998-ci il martın 26-da Ümummilli lider Heydər Əliyevin imzaladığı fərman erməni millətçilərinin hərəkətlərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur (20). **Qanun 25 iyun 1998-ci ildə "Azərbaycan" qəzetində dərc edilməklə qüvvəyə minmişdir.**

**Konvensiyanın müddəalarının icra edilməsi üzrə Azərbaycan Respublikasının öz üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsi istiqamətində görülən tədbir kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "Soyqırım" (Maddə 103), "Soyqırımın törədilməsinə təhrik etmə" (Maddə104) maddələri daxil edilmişdir.**

**Azərbaycanın və azərbaycanlıların üzləşdiyi bu faciələr ilk dəfə Heydər Əliyev tərəfindən imzalanmış 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə siyasi qiymətini aldı. Fərmanda qeyd olunur: "...Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir..."**

**Beləliklə, ilk dəfə Heydər Əliyevin Fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.**

**Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların – soyqırımlarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qar-**

şı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılmışdır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakinləri omuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş davakar erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi qiymət verilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar dəfələrlə xüsusi bəyanatlar və müraciətlər qəbul etmiş, beynəlxalq təşkilatlardan, dünya ölkələrinin parlamentlərindən və hökümətlərindən XIX-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini tanimağı, gələcəkdə bu cür cinayətlərin cəzasız qalmasının qarşızını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması işini tezliklə başa çatdırmağı, azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münqişəsinin dinc yolla ədalətli həllinə kömək göstərməyi xahiş etmişdir. Milli Məclisin müvafiq qərarına əsasən 26 fevral Xocalı soyqırımı günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir (27 fevral 2007-ci il).

# II FƏSİL

# ERMƏNİSTAN-AZƏRBAYCAN (DAĞLIQ QARABAĞ) MÜNAQİŞƏSİNİN TARİXİ VƏONUN SİYASİ HƏLL YOLLARI

## *2.1. Münaqişənin tarixi və hüquqi konteksti*

Uzun illərdir ki, "Böyük Ermənistan" ideyasını reallaşdırmağa cəhd edən və bunun üçün hər vasitəyə əl atan ermənilər arzularının hələ də xəyal olaraq qalması ilə heç cür razılaşa bilmirlər. Onlar bu arzularını həyata keçirmək üçün özlərinin çoxdankı niyyətlərindən – bir sıra torpaqları, o cümlədən Azərbaycanın tarixi əraziləri olan Dağlıq Qarabağı və Naxçıvanı ələ keçirmək planlarından hələ də əl çəkməyiblər.

Sovet dövründə də ermənilər bir sıra Azərbaycan torpaqlarını Ermənistana birləşdirmək məqsədilə müxtəlif tədbirlərə əl atdılar. Bu sahədə onlar bəzi "nailiyyətlər" də əldə etdilər. Məsələn: 1922-ci ildə Dərələyəz, 1929-cu ildə Meğri, 1938-ci ildə Sədərək və Kərki kəndlərinin bir hissəsi, 1969-cu ildə Laçın rayonunun Qaragül yaylası, Qubadlı rayonunun Çayzəmi əraziləri, Qazax rayonunun Kəmərli kənd ərazisi, Kəlbəcər rayonunun Zod qızıl yatağı ərazisinin bir hissəsi, 1982-ci ildə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli və Qaymaqlı kəndləri ərazilərinin bəzi hissələri, 1986-cı ildə isə Qazax rayonunun daha 2500 hektarlıq ərazisi Azərbaycandan alınaraq Ermənistana birləşdirilmişdi. Bununla yanaşı, ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdləri bir nəticə vermədi, lakin onlar öz işğalçılıq niyyətlərindən də əl çəkmək fikrində deyildilər.

Ermənilərin Dağlıq Qarabağla bağlı əldə etdikləri ən böyük "uğur" SSRİ-nin yarandığı ilk illərə təsadüf edir. Dağlıq Qarabağı

Ermənistana birləşdirmək cəhdlərinin boşa çıxdığını başa düşən ermənilər 1923-cü ildə ona muxtariyyat statusu verilməsinə nail oldular.

Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qələbəsinə həsr olunmuş 1 dekabr 1920-ci il tarixli iclasında N.Nərimanovun bəyan etdiyi Azərbaycan İnqilab Komitəsinin Bəyannaməsi Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə öz müqəddaratlarını tam təyin etmək hüququ verdi (1, 42-51). Siyasi Büro və AK(b)P MK Təşkilat Bürosunun 27 iyun 1921-ci il tarixli iclasında "Azərbaycanın və Ermənistanın sərhədləri məsələsi" müzakirə olundu. İclasın qərarında məsələnin "Dağlıq Qarabağın Azərbaycana meylli olması"nı nəzərə almaqla həll edilməli olduğu göstərilirdi və bununla əlaqədar olaraq "inzibati və iqtisadi məqsədəuyğunluq baxımından" ərazinin milli göstəricilərə əsasən bölünməsinin mümkünsüzlüyü qeyd edilirdi. Məsələyə 1921-ci il iyulun 4-5-də RK(b)P MK-nın Qafqaz Bürosu plenumunun iclasında əsaslı şəkildə baxıldı. RK(b)P MK Qafqaz Bürosu müsəlmanlar və ermənilər arasında mili barışığın, həmçinin Aşağı və Yuxarı Qarabağın iqtisadi cəhətdən bir-birilə bağlı olması və onun Azərbaycanla sabit əlaqələrindən çıxış edərək Dağlıq Qarabağa muxtariyyat verməklə onu Azərbaycan SSR-nin tərkibində saxlamaq qərarı verdi. Buna uyğun olaraq Azərbaycan K(b)P MK-ya Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərini və onun əhatə edəcəyi əraziləri müəyyənləşdirərək öz mülahizələrini RK(b)P MK Qafqaz Bürosuna təqdim etmək tapşırıldı.

1921-ci il avqustun 1-də Şuşa qəzasının 2-ci sahə Sovetinin fövqəladə qurultayında bir daha qeyri-rəsmi şəkildə Dağlıq Qarabağ məsələsinə baxıldı. Qurultayda iştirak edən Xalq Komissarları Sovetinin sədri L.İ.Mirzoyan bildirdi: "Qarabağın iqtisadi, mənəvi, siyasi və milli nöqteyi-nəzərdən Azərbaycanın mərkəzi (Bakı) ilə bağlı olması faktı artıq Qarabağın hansı siyasi quruma aid edilməli olduğunu həll edir".

1923-cü il iyulun 7-də isə Azərbaycan MİK tərəfindən DQMV-nin yaradılmasını göstərən və onun əsas statusunu müəyyənləşdirən "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret qəbul edildi. Dekret milli zülmün və sosial bərabər-

sizliyin aradan qaldırılmasını Sovet hökumətinin qarşısında əsas məqsəd kimi qoyurdu və məsələni həll etmək məqsədilə Azərbaycan MİK mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində muxtar vilayət yaratmaq qərarı verdi. Qeyd etmək lazımıdır ki, Siyasi Büro və AK(b)P MK-nın 1921-ci il 27 iyun tarixli iclasında ərazinin milli göstəricilərə görə bölünməsinin mümkünsüzlüyü göstərilsə də, Azərbaycan MİK-in 1923-cü il iyulun 7-də keçirilən iclasında Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində muxtar vilayət yaradılması qərarı verilərkən həmin göstərişə əməl olunmamış, DQMV-nin ərazisi ermənilərin sayca üstün olduğu ayrı-ayrı əraziləri birləşdirməklə təşkil olunmuşdur. Muxtar vilayəti yaradanda Kəlbəcərə aid Ağdaban, Füzuliyə aid Yuxarı Veysəlli kəndləri onun sərhədləri daxilinə salınmışdı (2, 32).

DQMV yaratmaq məqsədi ilə 1923-cü ilin avqust ayında Dağlıq Qarabağda yaşayan əhali arasında referendum keçirildi və yerli kəndlilər (xüsusilə də erməni kəndlilər) yekdilliklə muxtar vilayətin Azərbaycanın tərkibində qalmasına səs verdilər. 1923-cü il oktyabrın 12-də AK(b)P MK-da referendumun nəticələri haqqında məlumat verən Qarabağ Vilayət Komitəsinin partiya katibi Sero Manutsyan da muxtariyyət aktlarının kəndlilər tərəfindən yekdilliklə qarşılandığını təsdiq etmişdi. 1923-cü ilin noyabr ayında isə Azərbaycan SSR III Sovetlər qurultayında vilayət MİK Sədri A.M. Qaragözov qeyd etmişdi: "...Azərbaycanın zəhmətkeş kütləsi Oktyabr inqilabının böyük məqsədlərini, millətin öz müqəddəratını təyin etməsinin böyük prinsiplərini həyata keçirərək – muxtariyyət elan etdi...". Azərbaycan MİK Rəyasət Heyəti 1924-cü ilin noyabr ayında "DQMV haqqında əsasnaməni" təsdiq etdi. Sənəddə DQMV-nin Azərbaycanın tərkib hissəsi olduğu qeyd edilirdi. Azərbaycan K(b)P MK-nın Rəyasət heyətinin həmin ilin 16 iyul tarixli iclasının qərarı ilə Şuşa şəhəri DQMV-nin tərkibinə daxil edildi və AK(b)P-nin 5 may 1924-cü ildə keçirilmiş VI qurultayında Dağlıq Qarabağa tam muxtariyyət verildi.

1985-ci ildə M.S.Qorbaçovun siyasi hakimiyyətə gəlməsi və onun "yenidənqurma" adlanan siyasi-iqtisadi islahatlara başlaması

ilə ictimai-siyasi proseslərin yeni mərhələsi başlandı. Məhz XX əsrin həmin illəri SSRİ-də millətlərarası münaqişələrin, o cümlədən ermənilərin Azərbaycana qarşı yönəlmiş yeni təcavüzünün başlanğıcı oldu.

1987-ci ildən başlayaraq ermənilər Moskvaya Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini tələb edən ardı-arası kəsilməyən məktublar göndərirdilər. Həmin ilin avqust ayında Ermənistan Elmlər Akademiyası tərəfindən hazırlanmış və yüzlərlə erməninin imzaladığı ərizədə isə onlar Dağlıq Qarabağla yanaşı, Naxçıvanın da Ermənistan SSR-ə verilməsini istəyirdilər. Noyabr ayının ortalarında Sov.İKP-nin baş katibi və SSRİ Ali Soveti Rəyasəti Heyətinin sədri M.Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi olan erməni Abel Aqanbekyan Fransanın "Yumanite" qəzetinə müsahibəsində bildirmişdi ki: "Dağlıq Qarabağ Muxtar Vilayəti tezliklə Ermənistana verilməlidir".

Rəsmi Moskva da öz növbəsində olanlara "xüsusi" reaksiya verirdi ki, bu da münaqişənin daha da qızışmasına gətirib çıxarırdı. 2005-ci ildə Ermənistanın Təhlükəsizlik Şurasının katibi və müdafiə naziri olan S.Sarkisyan ölkə parlamentində çıxışı zamanı etiraf etdi ki, kommunist partiyasının mərkəzi komitəsi 1987-ci ildə Ermənistana, Dağlıq Qarabağa və Azərbaycana bir-birinə zidd impulslar göndərirdi. Bir tərəfdən erməniləri Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratlarını demokratik "təyin etməsi"nin yollarını axtarmağa ruhlandırırdı, digər tərəfdən isə Azərbaycana bildirilirdi ki, Dağlıq Qarabağın statusunun dəyişdirilməsi onun ərazi bütövlüyünün pozulması və daxili işlərinə qarışmaq deməkdir (3).

Tanınmış ukraynalı ekspert, Lvov Linqvistik Universitetin professoru, hüquq elmləri doktoru A.A Merejko "Dağlıq Qarabağ problemi və beynəlxalq hüquq" adlı monoqrafiyasında qeyd edir ki, xalqların öz müqəddəratını müəyyən etmə prinsipi beynəlxalq hüququn əsas prinsipləri ierarxiyasında yalnız 6-cı yeri tutur və daha əsas prinsiplərlə kolliziya yarandıqda (ərazi bütövlüyü, suverenitet və s.) yerini onlara verməli və arxa plana çəkilməlidir.

Xəyanətkar ermənilərin Dağlıq Qarabağ uğrunda apardıqları separatçılıq siyasəti 1988-ci ildən Ermənistan və Azərbaycan arasında açıq münaqişəyə çevrildi.

Qərarda SSRİ Ali Sovetindən bu məsələyə baxmaq xahiş olunurdu. Lakin SSRİ rəhbərliyi ermənilərin qərarlarını rəsmən dəstəkləmədi və SSRİ Ali Soveti Rəyasət Heyəti 23 mart 1988-ci il tarixdə DQMV-nin Ermənistan SSR-ə verilməsi təklifini rədd edən qərar qəbul etdi.

Ermənistan SSR Ali Soveti 15 iyun 1988-ci il tarixdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistan SSR-ə birləşdirmək, DQMV-nin yerli Soveti isə 12 iyul 1988-ci il tarixdə Azərbaycanın tərkibindən çıxmaq (4, 134) haqda qərar verdi. Buna cavab olaraq Azərbaycan Respublikasının Ali Soveti 17 iyun 1988-ci il tarixdə həmin qərarın Konstitusiyaya zidd olduğunu və DQMV-nin Ermənistan SSR-yə verilməsinin qeyri-mümkün olduğunu göstərən qərar qəbul etdi. SSRİ Ali Soveti Rəyasəti heyəti də bunlarla əlaqədar həmin ilin 18 iyulunda qərar qəbul edərək SSRİ Konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikaların öz razılıqları olmadan ərazilərinin dəyişdirilməsinin mümkün olmadığını əsas götürərək DQMV-nin Azərbaycan ərazisi olmasını bir daha təsdiq etdi (4, 134).

1989-cu ilavqustun 16-da "DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı" keçirildi. Həmin qurultayda Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusundan imtina etdiyi bəyan edildi və Azərbaycan SSR-in Konstitusiyasının həmin ərazidə qüvvədən düşdüyü bildirildi. Bu zaman ermənilər öz hərəkətlərinə haqq qazandırmaq üçün "Azərbaycan SSR-in DQMV-də xüsusi idarə formasının tətbiqi haqqında" SSRİ Ali Soveti Rəyasət heyətinin 12 yanvar 1989-cu il tarixli qərarına istinad etdilər. Ermənilər həmin qərara uyğun olaraq Dağlıq Qarabağın Müttəfiq Respublika ərazisindən SSRİ ərazisinə çevrildiyini və bununla da "müttəfiq respublika" statusu qazandığını iddia etməyə başladılar.

Həmin qərar Dağlıq Qarabağda baş verən prosesləri Azərbaycanın nəzarətindən çıxarsa da, muxtar vilayətə müstəqillik statusu

vermirdi. Qərarda qeyd edilirdi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtar vilayət statusunu saxlamaqla DQMV-də müvəqqəti olaraq xüsusi idarə forması tətbiq edilsin.

Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusundan imtina etməsinə dair 1989-cu il 16 avqust qərarına gəldikdə isə, bu qanun heç bir hüquqi qüvvəyə malik deyildi. Çünki SSRİ Konstitusiyasının 71-ci maddəsinə əsasən, Azərbaycan SSR müttəfiq respublika, 87-ci maddəsinə əsasən isə Dağlıq Qarabağ Azərbaycan SSR-in daxilində muxtar vilayət idi. 86-cı maddəyə əsasən isə muxtar vilayət haqqında qanun muxtar vilayətin xalq deputatları Sovetinin təqdimatı ilə müttəfiq respublikanın Ali Soveti tərəfindən qəbul edilirdi. Bununla yanaşı, SSRİ Konstitusiyasının 148-ci maddəsinə görə, Yerli Xalq Deputatları Sovetləri SSRİ, müttəfiq və muxtar respublika qanunvericiliyi ilə onlara verilmiş səlahiyyət daxilində qərar qəbul edə bilərdilər. DQMV-nə muxtariyyatı ləğv etmək, ayrılmaq və s. bu kimi səlahiyyətlər verilməmişdi. DQMV də Azərbaycan Respublikasının Ali Sovetinə statusunun dəyişdirilməsi ilə bağlı müraciət etməmişdi. Azərbaycan Respublikasının Ali Soveti də öz növbəsində statusu ləğv edən bir qərar qəbul etməmişdi.

Bundan başqa, SSRİ Konstitusiyası heç bir muxtar vilayətə müstəqillik hüququ vermirdi, əksinə 78-ci maddəyə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi, 79-cu maddəyə əsasən isə, müttəfiq respublika özünün ölkə, vilayət, mahal, rayon bölgəsini müəyyənləşdirirdi (5). Bundan başqa, SSRİ Konstitusiyasının 141-ci maddəsi müttəfiq respublikanın Nazirlər Sovetinə muxtar vilayətlərin xalq deputatları Sovetləri İcraiyyə Komitəsinin qərar və sərəncamlarını ləğv etmək hüququ verirdi (Yenə orada).

27 avqust 1989-cu il tarixdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti də bu hüququndan istifadə edərək "DQMV əhalisinin səlahiyyətli nümayəndələri qurultayının" qərarlarının qeyri-qanuni olduğunu göstərən qətnamə qəbul etdi.

Tədqiqatçı və hüquq müdafiəçisi T.Çaladze fundamental "Xocalı faciəsi" monoqrafiyasında yazır: "O dövrün Azərbaycan rəhbərləri, Bağırov və Vəzirov, ali partiya "zərurəti" pərdəsi altında gizlənərək qorxacaq bir mütilik nümayiş etdirirdilər" (21).

Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması üçün göstərilən bu ciddi-cəhdlər Ermənistan və Dağlıq Qarabağın birləşdirilməsi planının bir hissəsini təşkil edirdi.

1988-ci il 13 sentyabr tarixində "Amerikanın səsi" radiosunun Ermənistan redaksiyası "Qarabağ" komitəsinin Dağlıq Qarabağla Ermənistanı birləşdirmək planı haqqında məlumat vermişdi. Həmin plana əsasən, Qarabağ erməniləri çalışıb SSRİ-nin tərkibindən çıxmalı, sonra Ermənistan SSR-in tərkibinə daxil olmaq şərtilə, yenidən SSRİ-nin tərkibinə daxil edilmələri təklifilə müraciət etməli idilər. Yox, əgər Dağlıq Qarabağın Konstitusiyaya görə "öz müqəddəratını təyinetmə" hüququ olmadığı üçün bu plan baş tutmazdısa, onda Ermənistan Respublikası bu hüquqa malik olduğu üçün özü Dağlıq Qarabağın tərkibinə daxil olmasını elan etməli idi. Beləliklə, paytaxtı Stepanakert olmaqla yeni "Arsax" erməni respublikasının yaradılması nəzərdə tutulurdu.

23 avqust 1990-cı il tarixdə Ermənistan Respublikası müstəqillik haqqında Bəyannamə qəbul etdi. Bəyannamədə Ermənistan və "Dağlıq Qarabağ Respublikası"nın birlikdə müstəqil olduğu göstərilirdi. Bəyannamədə qeyd edilmiş həmin fakt sübut edir ki, Azərbaycan ərazilərinin parçalanmasında, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsində Ermənistan Respublikasının birbaşa əli olmuşdur. Lakin bu özbaşına və hüquq normalarına zidd olan bu qərar heç bir səlahiyyətli orqan tərəfindən dəstəklənmədiyi və tanınmadığı üçün Ermənistanı və Dağlıq Qarabağı heç bir yolla birləşdirə bilməyəcəklərini başa düşən ermənilər bu dəfə "müstəqil" "Dağlıq Qarabağ Respublikası" yaratmaq fikrinə düşdülər. Ermənilər DQMV-dən başqa həm də onunla həmsərhəd olan Ağcakənd (həmin vaxt Şaumyan) rayonuna da iddialı idilər. Buna görə də Ermənistan Respublikasının tərkibində DQMV ilə Şaumyan (Ağcakənd) rayonu olmaqla "Dağlıq Qarabağ respublikası"nın ayrı-ayrılıqda müstəqilli-

yini elan etmək qərarı verdilər. Ssenari üzrə ilk əvvəl DQMV erməniləri 2 sentyabr 1991-ci il tarixdə "Dağlıq Qarabağ respublikası"nın yaranmasını elan etdilər. Ermənistan Respublikası isə 21 sentyabr 1991-ci il tarixdə ümumxalq referendumu keçirərək 23 avqust 1990-cı il tarixli "Müstəqillik Bəyannaməsi"nin məhz özünə aid hissəsini bir daha təsdiq etdi. Bunun ardınca Ermənistan həmin il oktyabr ayının 16-da prezident seçkiləri keçirdi. Ermənilər iddia edirlər ki, həm referendum, həm də prezident seçkiləri təkcə Ermənistan ərazisində keçirildiyi üçün Ermənistan Respublikası ilə DQMV-nin birləşməsi haqqında qərarlar öz etibarını itirir. Həmin qərarların isə onsuz da heç bir hüquqi əsası yox idi və onlar heç bir halda hüquqi qüvvəyə malik ola bilməzdi.

17-21 sentyabr 1991-ci il tarixdə Yerevan şəhərində "Millətlərarası münaqişələrin tənzimlənməsinin hüquqi, siyasi və mənəvi aspektləri" adlı Beynəlxalq Konqres keçirildi. Konqresin "Dağlıq Qarabağ Respublikası"nın tanınmasına dair Qətnaməsində göstərilir ki, "Dağlıq Qarabağ respublikası"nın elan edilməsi beynəlxalq hüquqi aktlarla əks olunmuş xalqların "öz müqəddəratını təyinetmə"si hüququna əsaslanır. Beynəlxalq hüquqi sənədlər kimi1) 10 dekabr 1948-ci il tarixli insan haqları Bəyannaməsinin 1-ci maddəsi; 2) ATƏM üzv dövlət nümayəndələrinin 1989-cu il tarixli Vyana görüşünün yekun sənədinin 4-cü bəndi; 3) 1945-ci il BMT Nizamnaməsinə uyğun olaraq "Dövlətlər arasında dostluq əlaqələrinə dair beynəlxalq hüququn prinsipləri haqqında" Bəyannamə göstərilir (6).

İnsan haqları Bəyannaməsinin yalnız birinci maddəsini oxumağa hövsələsi çatmış ermənilər onu öz istəklərinə uyğun şərh ediblər. Əks təqdirdə Bəyannaməyə uyğun olaraq onlar "öz dərrakə və vicdan"larından istifadə edərək Dağlıq Qarabağ da daxil olmaqla işğal etdikləri digər ərazilərdə yaşayan azərbaycanlı əhalinin də "öz hüquq və haqları" olduğunu anlamağa borclu idilər. Sənədin sonuncu, 30-cu maddəsində qeyd edilir: Bəyannamədə göstərilənlər hər hansı dövlətə, insanlar qrupuna, yaxud ayrı-ayrı şəxslərə bu sənəddə əksini tapmış hüquq və azadlıqların məhvinə yönəlmiş hər hansı

fəaliyyətlə məşğul olmaq, yaxud əməliyyatlar həyata keçirmək hüququ verməsi kimi dərk edilə bilməz.

“Dövlətlər arasında dostluq əlaqələrinə dair beynəlxalq hüququn prinsipləri haqqında” Bəyannaməyə gəldikdə isə, BMT Baş Məclisi tərəfindən əvvəllər qəbul olunmuş bütün sənədlərdən fərqli olaraq, 24 oktyabr 1970-ci il tarixdə qəbul edilmiş (2625 (XXV)) həmin Bəyannamədə göstərilir ki, öz müqəddəratını “xarici” təyinetmə hüququna yalnız müstəmləkə, yaxud asılı vəziyyətdə olan xalqlar malikdirlər. Bəyannamədə, həmçinin qeyd edilir: “Göstərilən bəndlərin heç biri xalqların “bərabərhüquqlu olması” və “öz müqəddəratını (daxili – S.M.) təyinetmə” prinsiplərinə əməl edən, ərazisində yaşayan xalqların irqindən, dinindən, dərisinin rəngindən asılı olmayan hökumətə malik müstəqil və suveren dövlətin ərazi bütövlüyü və siyasi birliyinin parçalanmasına, qismən, yaxud tam pozulmasına gətirib çıxaran hər hansı hərəkətə icazə vermək və ruhlandırmaq kimi yozulmamalıdır”.

2003-cü il may ayının əvvəlində Ermənistanın “DeFakto” xəbər agentliyinin suallarına cavab verən “Dağlıq Qarabağ respublikasının Təhlükəsizlik Şurasının katibi” Karen Baburyan bildirmişdi ki, “Azərbaycan özünün SSRİ-nin tərkibindən çıxmasını qanun çərçivəsində elan etmişdir və “Dağlıq Qarabağ” da həmin qanuna əsaslanaraq adekvat addım atmışdır”.

Ermənilər Dağlıq Qarabağın muxtar vilayət, Ağcakənd rayonunun isə ermənilərin kompakt yaşadığı ərazi olduğu üçün “Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında” 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun onlara Azərbaycanın tərkibindən çıxaraq “müstəqil” “Dağlıq Qarabağ respublikası” yaratmaq imkanı verdiyini iddia edirlər.

Ermənilərin əsas gətirdikləri digər “fakt” isə odur ki, Azərbaycan özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməklə Sovet dövründə malik olduğu sərhədlərini itirir, bununla da 1918-20-ci illər AXC-nin sərhədlərinə yiyələnir və Dağlıq Qarabağ AXC-nin tərkib hissəsi olmadığı üçün o, müasir Azərbaycanın da sərhədlərindən kənarda qalmalıdır. Beynəlxalq hüququa görə, dövlət özünühansısa dövlətin varisi elan edirsə etsin, bunu yalnız özünü varis

elan etdiyi anda malik olduğu sərhədlər çərçivəsində etmək hüququna malikdir. Azərbaycan da müasir sərhədləri çərçivəsində Xalq Cümhuriyyətinin varisi olmuşdur.

Bundan başqa, 1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları yarandığı vaxt Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində qalmışdı. Bu da həmin ərazilərin əvvəllər də Azərbaycana məxsus olduğunu və buna görə də onun tərkibində qaldığını göstərir, əks təqdirdə, Dağlıq Qarabağın Azərbaycana verildiyi göstərilərdi.

Cümhuriyyət dövründə Qarabağ və bir sıra digər ərazilər ermənilər və azərbaycanlılar arasında "mübahisəli" sayıldığı üçün 1919-cu ilin avqust ayının 26-da Qarabağ ermənilərinin VII qurultayında "Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti razılığı" qəbul edilmişdi. Razılığa görə, məsələnin Paris sülh konfransında həllinədək Dağlıq Qarabağ da tərkibində olmaqla bütün Qarabağ həm ərazi muxtariyyatı, həm də onun erməni əhalisinin milli-mədəni muxtariyyatı əsasında Azərbaycanın tərkib hissəsi hesab edilirdi.

Həmin vaxt (1919-cu il) Parisdə olan Azərbaycan nümayəndələrinə göndərilən məlumatda deyilirdi: "Qarabağ məsələsi adlandırılan məsələ qəti şəkildə həll edildi... 7-ci erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator Xosrov bəy Sultanovla saziş bağladılar".

Həmin illərdə erməni nümayəndə heyətinin başçısı A.Ağaronyan yerlərdə sərhədlər məsələsini həll etmək mümkün olmadığını bəhanə gətirərək, sərhədlərin müəyyən edilməsi məsələsini Avropada müttəfiqlərin köməyilə həll etmək lazım olduğunu bildirirdi. 1920-ci ilin aprel ayında San-Remo şəhərində keçiriləcək konfransda Transqafqaz respublikalarının sərhədləri məsələsinin müzakirə edilməsi nəzərdə tutulurdu. Aprelin 18-20-də Antanta Ali Şurası San-Remo konfransında sərhədlər məsələsinə baxdı. İngiltərənin Baş naziri Lloyd Corc Ermənistanın Azərbaycanla və Gürcüstanla sərhədlərinin qarşılıqlı saziş əsasında həmin respublikaların özləri tərəfindən

həll edilməli olduğunu bildirdi. Ermənilərin əsassız ərazi iddiaları ucbatından San-Remo konfransında da heç bir razılıq əldə edilmədi. Erməni məsələsi, bununla əlaqədar olaraq həm də sərhədlər məsələsi yenə də öz həllini tapmadı (23, 362).

10 iyul 1920-ci il tarixdə Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov, RK(b)P-nın Qafqaz Bürosunun üzvü Mdivani, AKP MK-nın üzvləri Mikoyan, Naneyşvili, XI Qızıl Ordunun Hərbi İnqilab Şurasının üzvləri Vesnik, Levandovski və Mixaylovun RK(b)P MK-nın adına göndərdikləri məlumatda da Qarabağın Musavat hökuməti zamanında bütünlüklə Azərbaycanın tərkibində olduğu göstərilir.

BMT Baş Katibinin köçkünlər üzrə nümayəndəsi F.Denq Azərbaycanda köçkünlük təcrübəsinə həsr etdiyi məruzəsində göstərir: "Həm Azərbaycan, həm Ermənistan iddia edirlər ki, onları Dağlıq Qarabağla uzunəsirlik bağlar birləşdirir. Lakin hazırki münaqişənin başlanğıcı XX əsrin əvvəllərinə təsadüf edir. Oktyabr inqilabından sonra yeni müstəqil dövlət olmuş Azərbaycan və Ermənistan Dağlıq Qarabağ ərazisi uğrunda mübarizə edirdilər. Paris sülh konfransı 1919-cu ildə Azərbaycanın həmin əraziyə olan iddialarını tanıdı. Azərbaycan və Ermənistan Sovet İttifaqına birləşdirildikdən sonra Dağlıq Qarabağla bağlı bu mövqe bir daha möhkəmləndirildi. Həmin vaxt Azərbaycanı onun qərb rayonu Naxçıvanla birləşdirən Zəngəzur rayonu Ermənistana verildi".

SSRİ dövründə həmin məsələyə baxılmış və Dağlıq Qarabağ əhalisinin istəyinə uyğun olaraq, Ermənistan və Azərbaycan respublikalarının razılıqlarına əsasən Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində saxlanılması (məhz saxlanılması!) qərarı verilmişdi.

XX əsrin əvvəllərində ermənilərin bir sıra ərazilərə, o cümlədən Dağlıq Qarabağa iddiaları ucbatından sərhədlər məsələsi mübahisəli sayıldığı üçün Millətlər Liqası Azərbaycanın təşkilata üzvlüyünü qəbul etməmişdisə, əsrin sonlarında Millətlər Liqasının varisi və dünyanın bir nömrəli beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı artıq Azərbaycanı tərəddüd etmədən müəyyənləşmiş sərhədləri çərçivəsində öz sırasına qəbul etdi. Azərbaycan Respubli-

kası BMT-yə üzv qəbul edilərkən tərtib və təsdiq edilən xəritədə də Dağlıq Qarabağ Azərbaycan ərazisi olaraq göstərilir.

Bundan başqa, əvvəldə də qeyd etdiyimiz kimi, ermənilər Ağcakənd rayonunu da "Dağlıq Qarabağ Respublikası"nın bir hissəsi olaraq görürdülər. Hazırda Ağcakənd rayonu Azərbaycanın nəzarəti altında olduğu üçün ermənilər 1992-ci il 12 iyun tarixdə Azərbaycan qoşunlarının səyləri nəticəsində "Dağlıq Qarabağ respublikasının bir hissəsi" olan Şaumyan rayonunun bütünlüklə, Mardakert (Ağdərə) və Əsgəran rayonlarının isə bir hissəsinin Azərbaycan tərəfindən işğal edildiyini bildirirdilər.

2006-cı il oktyabr ayının 9-da Dağlıq Qarabağ və Azərbaycanın digər əraziləri arasında sərhəd zonalarda ATƏT-in ekoloji vəziyyəti qiymətləndirən missiyası ilə görüşən "Dağlıq Qarabağ"ın "xarici işlər naziri" Masis Mailyan da hazırda "Dağlıq Qarabağ" ərazisinin 15%-nin – Martuni (Xocavənd) rayonunun şərq, Mardakert (Ağdərə) rayonunun şimal-şərq hissəsi və Şaumyan (Ağcakənd) rayonunun bütünlükdə Azərbaycanın "işğalı" altında olduğunu bildirmişdir.

Ermənilər Dağlıq Qarabağın Azərbaycan Respublikasından ayrılmasını və orada referendum keçirilməsini "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun muxtar vilayətə verdiyi səlahiyyətlərlə əsaslandırırlarsa, Şaumyan (Ağcakənd) rayonunun da ermənilərin kompakt yaşadıqları rayon olduğunu iddia edərək həmin qanunun 3-cü maddəsinin ona da öz statusunu müəyyənləşdirmək imkanı verdiyini əsas gətirirlər.

Erməni özbaşınalığına son qoymaq və baş verən qanunsuzluqların qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasının Milli Şurası 1991-ci il 26 noyabr tarixində Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsinin 3-cü hissəsini, 104-cü maddəsinin 2-ci bəndini, "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktının 4-cü maddəsini əsas tutaraq Azərbaycan Respublikasının DQMV-ni milli ərazi qurumu kimi ləğv etdi.

Dekabr ayının 10-da isə Dağlıq Qarabağ erməniləri "Dağlıq Qarabağ respublikasının müstəqilliyinə dair referendum" keçirdilər.

Azərbaycan və Ermənistan Respublikalarının öz müstəqilliyini elan etməsilə Dağlıq Qarabağın Azərbaycan ərazisindən SSRİ ərazisinə çevrildiyini və "müttəfiq respublika" statusu qazandığını iddia edən ermənilər Dağlıq Qarabağ "əhalisi" arasında "Siz, Dağlıq Qarabağın SSRİ tərkibində respublika olmasına razısız?" sualını referenduma çıxarmaq niyyətində idilər. Lakin SSRİ-nin sonunun çatdığını gördükdə sualda dəyişiklik edərək onu "Siz, elan edilmiş Dağlıq Qarabağ Respublikasının digər dövlətlər və birliklərlə əməkdaşlıq formalarını müstəqil müəyyənləşdirən müstəqil dövlət olmasına razısız" sualı ilə əvəz etdilər. "Referendum"un "nəticələrinə" əsasən "Dağlıq Qarabağ respublikası"nın Ali Soveti 6 yanvar 1992-ci ildə "Dağlıq Qarabağ respublikası"nın müstəqilliyi haqqında Bəyannamə qəbul etdi (10).

"Dağlıq Qarabağ"da "müstəqillik referendumu" keçirilməsi və onun müstəqilliyini elan etməsi digər qanunlarla yanaşı, "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununa da zidd idi. Müttəfiq respublika ilə birgə muxtar qurumlara və milli azlıqlara öz statuslarını təyin etmək hüququ verən 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu həmin qərarların həyata keçirilməsini bir neçə mərhələdə nəzərdə tuturdu.

Qanunun 1-ci maddəsində göstərilirdi ki, SSRİ Konstitusiyasının 72-ci maddəsinə uyğun olaraq müttəfiq respublikanın SSRİ-dən çıxması ilə bağlı məsələlərin həlli yolları bu qərara əsasən həyata keçirilir.

Qanunun 2-ci maddəsinə əsasən, müttəfiq respublikanın SSRİ-dən çıxması yalnız referendum yolu ilə mümkün ola bilərdi və həmin qərar müttəfiq respublikanın Ali Sovetinin öz təşəbbüsü ilə, yaxud Respublika ərazisində daimi yaşayan əhalinin $^{1}/_{10}$-nin imzaladığı tələbnamə əsasında qəbul edilə bilərdi. Referendum qərar qəbul edildikdən altı həftədən tez və doqquz aydan gec olmayaraq gizli səsvermə yolu ilə keçirilə bilərdi və referendumda ayrılması nəzərdə tutulan ərazidə həmin qərar qəbul edilənədək yaşayan və SSRİ qanunvericiliyinə əsasən səs vermək hüququ olan SSRİ vətəndaşları iştirak edə bilərdi.

Qanunun 3-cü maddəsi müttəfiq respublika ilə yanaşı, muxtar respublika, vilayət və dairələrə də seçim edərək SSRİ-nin, yaxud müttəfiq respublikanın tərkibində qalmaq, ya da öz istəyinə görə dövlət-hüququ statusu məsələsini qaldırmaq imkanı verirdi. Bundan başqa həmin maddəyə əsasən müttəfiq respublikanın ərazisində milli azlıqların kompakt şəkildə yaşadığı yerlər mövcuddursa, onda həmin ərazilər üçün referendumun nəticələrinin ayrı hesablanması nəzərdə tutulurdu.

4-cü maddəyə əsasən, referendumun təşkili, onun keçirilməsi və nəticələrinin müəyyənləşdirilməsi üçün müttəfiq respublikanın Ali Soveti maraqlı tərəfin nümayəndələrinin iştirakı ilə komissiya yaratmalı idi.

6-cı maddə muxtar qurumlar və milli qrupların kompakt yaşadığı yerlərdə keçirilən referendumun nəticələrini müttəfiq respublikanın Ali Soveti tərəfindən, muxtar respublikanın Ali Soveti, yaxud müvafiq Xalq Deputatları Sovetlərinin iştirakı ilə araşdırmanı nəzərdə tuturdu.

9-cu maddəyə əsasən, referendumun nəticələri SSRİ Xalq Deputatları Qurultayında araşdırılmalı və müttəfiq respublikanın Ali Soveti ilə razılaşdırılmış SSRİ Ali Sovetinin təqdimatına əsasən SSRİ Xalq Deputatları Qurultayı beş ildən çox olmayan bir müddətdə keçid dövrü müəyyənləşdirməli idi. Həmin müddət ərzində müttəfiq respublikanın SSRİ tərkibindən çıxması ilə meydana gəlmiş məsələlər öz həllini tapmalı idi. Keçid dövrü ərzində həmin ərazidə SSRİ Konstitusiyası və Qanunlarının qüvvədə olması nəzərdə tutulurdu.

13-cü maddədə (İttifaqı) tərk edən respublikanın beynəlxalq hüququn ümumqəbuledilmiş prinsip və normalarına, həmçinin SSRİ-nin iştirakçısı olduğu beynəlxalq müqavilələrdə öz əksini tapmış insan haqları və azadlıqlarına riayət etməli olduğu göstərilirdi (Yenə orada).

Nəhayət, 20-ci maddəyə əsasən, keçid dövrünün başa çatması, yaxud qanunda göstərilən qarşıya çıxan məsələlərin vaxtından əvvəl tənzimlənməsi ilə bir tərəfdən (İttifaqı) tərk edən respublikanın, digər tərəfdən isə SSRİ-nin, o cümlədən muxtar respublika və qurumların, həmçinin milli qrupların iddialarının təmin edilməsi və maraqların uyğunlaşdırılmasına dair prosesin başa çatdığını təsdiq edən qərar qə-

bul etmək məqsədilə SSRİ Ali Soveti SSRİ Xalq Deputatları Qurultayı çağırmalı idi. Həmin Qurultayın müvafiq qərar qəbul etdiyi vaxtdan müttəfiq respublikanın SSRİ-nin tərkibindən çıxması baş tutmuş sayıla bilərdi.

"Dağlıq Qarabağ respublikası"nda keçirilən 10 dekabr "referendum"u 23 sentyabr 1989-cu il tarixli "Azərbaycan SSRİ-in Suverenliyi haqqında Konstitusiya Qanunu", 1991-ci il 30 avqust tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannaməsi və 1991-ci il 18 oktyabr tarixli "Dövlət müstəqilliyi haqqında Konstitusiya Akt"ı qəbul edildikdən, "SSRİ-nin qorunub-saxlanmasına dair" 17 mart 1991-ci il tarixli referendum keçirildikdən, Azərbaycan Respublikasının Dağlıq Qarabağın muxtariyyat statusunu ləğv edən 26 noyabr 1991-ci il tarixli qərarından və SSRİ-nin süqutunu təsdiq edən 8 dekabr 1991-ci il tarixli Belovejsk sazişindən sonra keçirilmişdi. Ermənilərin 10 dekabr "referendum"u milli və beynəlxalq hüquqa zidd olduğundan hüquqi qüvvəyə malik deyildi və onun nəticələri heç bir səlahiyyətli orqan tərəfindən tanınmadı. Bunlardan başqa, keçirilmiş həmin qanunsuz referendumda yalnız erməni əhalisi iştirak etmişdi, çünki həmin ərazinin azərbaycanlı əhalisi öz daimi yaşayış yerlərindən didərgin salınmışdı. Erməni politoloqu Stepan Qriqoryan bildirir ki, referendum keçirilən vaxt Dağlıq Qarabağda azərbaycanlıların sayının az olduğu üçün onların iştirakı onsuz da referendumun nəticələrini dəyişməyəcəkdi. Milli azlıqların kompakt yaşamasına gəldikdə isə qeyd etmək lazımdır ki, ermənilər Dağlıq Qarabağda azərbaycanlı əhali ilə qarışıq yaşayırdılar.

Dağlıq Qarabağda referendumun keçirilməsinin özü qanunsuz olduğu və onun "müstəqil" elan edilməsi yolunda atılmış bütün addımlar başlanğıcdan qanun pozuntusu ilə müşaiyət edildiyi üçün "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun da bütün maddələrinə zidd şəkildə həyata keçirilmişdi.

Referendumun qanunsuz keçirildiyini və onun nəticələrinin heç bir hüquqi əsası olmadığını göstərən amillərdən biri də məhz ermənilərin əllərində bayraq etdikləri həmin 03.04.1990-cı il tarixli

SSRİ Qanununun özüdür. Qanuna əsasən, referendum yalnız müttəfiq respublikanın Ali Sovetinin qərarı ilə və müttəfiq respublikanın bütün ərazisində keçirilə bilərdi. Azərbaycan Respublikasının Ali Soveti isə belə bir qərar verməmişdi. Həmçinin referendumun nəticələri də SSRİ Xalq Deputatları Soveti tərəfindən araşdırılmamış və "Dağlıq Qarabağ Respublikası"nın müstəqil olmasına dair müvafiq qərar verilməmişdi.

Ermənistan isə Müttəfiq Respublika (burada: Azərbaycan Respublikası) və SSRİ Xalq Deputatları Qurultayının səlahiyyətində olan vəzifəni özü icra edərək Dağlıq Qarabağın və Ağcakənd rayonunun əhalisi adından onun "müstəqilliyini" elan edib və bunun "Dağlıq Qarabağ Respublikası" ermənilərinin öz qərarı olduğunu, həmçinin onların vəziyyətə uyğun bir addım atdıqlarını iddia edir.

Referenduma gəldikdə isə o, 17 mart 1991-ci il tarixdə SSRİ Xalq deputatları Qurultayının 24 dekabr 1990-cı il tarixli qərarına əsasən və "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanuna uyğun şəkildə SSRİ-nin bir çox ərazilərində keçirilmiş və əhalinin çox hissəsi (76,4%) SSRİ-nin qorunub-saxlanmasına səs vermişdi. Həmin referendumda Ermənistan Respublikasından fərqli olaraq Azərbaycan Respublikası iştirak etmişdi. 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu isə, müttəfiq respublikanın SSRİ-dən çıxmaq istədiyi halda referendum keçirilməsini nəzərdə tuturdu. Azərbaycan isə, məlum olduğu kimi, SSRİ-dən çıxmaq üçün müraciət etməməli idi.

"Dağlıq Qarabağ Respublikası" və ona oxşar digər qondarma qurumlardan (Cənubi Osetiya, Abxaziya Respublikası, Dnestryanı Respublika) fərqli olaraq Azərbaycanın və digər müttəfiq respublikaların müstəqillik əldə etməsi isə təbii bir proses nəticəsində baş vermişdi.

SSRİ Konstitusiyasının 72-ci maddəsinə əsasən, müttəfiq respublikaların SSRİ-dən azad surətdə çıxmaq hüququ saxlanılırdı və bununla yanaşı, SSRİ Xalq Deputatları Sovetinin 24 dekabr 1990-cı il tarixli qərarına əsasən, SSRİ artıq bərabərhüquqlu suveren respublikalar federasiyasına çevrilmişdi. Azərbaycan da digər müttəfiq

respublikalar kimi mövcud qanunlara uyğun olaraq və yaranmış şəraitdən istifadə edərək öz müstəqilliyini elan etmişdi.

Yeni müstəqil dövlətlər isə - Sovet dövründən əvvəlki vaxta dönə bilməzdilər. Lakin dönmək mümkün olsa belə, Dağlıq Qarabağ elə əvvəlki dövrdə də Azərbaycanın tarixi əraziləri olaraq onun tərkibində idi. Bundan başqa, 21 dekabr 1991-ci il tarixdə Müstəqil Dövlətlər Birliyi yaranmasına dair Alma-Ata Bəyannaməsi imzalandı. Bəyannaməni imzalayan dövlətlər, o cümlədən Ermənistan Respublikası da Sovet İttifaqının müqavilələri üzrə beynəlxalq öhdəlikləri yerinə yetirəcəklərini təsdiq etmişdilər.

1991-ci il avqustun 19-21-də dövlət çevrilişi cəhdindən (Fövqəladə Hallar üzrə Dövlət Komitəsi) sonra elə həmin ilin sentyabr ayının 5-də qəbul edilmiş "Keçid dövründə SSRİ-nin dövlət hakimiyyəti və idarəçilik orqanları haqqında" Qanuna əsasən SSRİ Xalq Deputatları Qurultayı səlahiyyətlərini ölkə Başçıları Sovetinə verərək öz fəaliyyətini dayandırdı. Qanunvericilikdə edilmiş çoxsaylı dəyişikliklər nəticəsində SSRİ Konstitusiyası öz hüquqi qüvvəsini itirdi və göstərilən qanuna əsasən SSRİ Ali Sovetinin qərarları Respublika Konstitusiyasına zidd olduğu halda, Respublikalar həmin qanunun fəaliyyətini dayandırmaq hüququ əldə etdilər. Respublikaların ümumi maraqlarını əks etdirən daxili və xarici siyasətə dair məsələlərlə bağlı qərar vermək məqsədi ilə, formal olaraq, SSRİ Dövlət Soveti yaradıldı. Bura yeni SSRİ Prezidenti və müttəfiq respublikaların ən yüksək vəzifəli şəxsləri daxil idi. Əslində isə bütün səlahiyyətlər respublika hakimiyyətlərinin əlində cəmlənmişdi.

1991-ci il avqust ayının 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar iclasında Azərbaycan xalqının öz müqəddəratını sərbəst təyin etmək hüququ və xalqın iradəsi əsas götürülərək "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə, həmin ilin oktyabr ayının 18-də isə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilmişdi. Bu iclasda müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin qanunverici orqan və nazirlər kabinetinə müraciət edildi. Müraciətdə yenidən dünya birliyinin bəra-

bərhüquqlu üzvü olmaq istəyən Azərbaycan dövləti hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərinə tərəfdar olduğunu qeyd edərək bütün dövlətləri, onların parlamentlərini və hökumətlərini Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında 30 avqust 1991-ci il tarixli Bəyannaməni nəzərə alaraq Azərbaycan Respublikasını müstəqil, suveren dövlət kimi tanımağa çağırdı.

"Müstəqillik haqqında Konstitusiya Aktı"nı təsdiq etmək məqsədilə Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1991-ci il dekabrın 29-da "Müstəqillik haqqında" referendum keçirildi (15, 76). İkinci dəfə müstəqillik yoluna qədəm qoyan və müstəqilliyi dünya dövlətləri tərəfindən tanınan Azərbaycan Respublikası da digər suveren dövlətlər kimi beynəlxalq hüququn subyektinə çevrildi və müstəqil daxili və xarici siyasət yürütməyə başladı.

Yuxarıda göstərilən bütün proseslər Dağlıq Qarabağda qanlı toqquşmalarla müşaiyət olunurdu. Həmin toqquşmalar 1988-ci il fevralın 22-də – ermənilər tərəfdən iki azərbaycanlı gəncin - Əli Hacıyevin və Bəxtiyar Quliyevin öldürülməsi və 19 nəfərin yaralanması ilə başlanmışdı. Həmin vaxt Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri H.Həsənov "Zil -130" markalı avtomobilin üzərinə çıxaraq və Ağdam rayon Xalq Deputatları Sovetinin sədri, Xuraman Abbasova öz yaylığını kütlənin qarşısına ataraq Ağdam sakinlərindən dayanmağı xahiş etmiş və bununla da baş verə biləcək toqquşmanın qarşısının alınmasına çalışmışdılar. Lakin bundan sonra toqquşmalar nəinki dayandı, hətta get-gedə daha da kəskin xarakter almağa başladı.

Həmin ilfevralın 23-dən isə Qafan rayonundan azərbaycanlıların çıxarılması ilə Ermənistandan azərbaycanlı əhalinin qovulması prosesi başlandı.

Sumqayıt şəhərində mərkəzin dəstəyi ilə ermənilərin özləri tərəfindən təşkil edilmiş 28-29 fevral 1988-ci il hadisələri və bundan sonra baş vermiş bütün digər hadisələr münaqişəni daha da kəskinləşdirdi. Üstündən uzun illər keçəndən sonra 2005-ci ilin mart ayının 30-da Ermənistan parlamentində çıxış edən, həmin vaxt Təhlükəsizlik Şurasının katibi və müdafiə naziri olan S.Sarkisyan 1988-ci il

Sumqayıt və 1990-cı il Bakı hadisələrinin SSRİ rəhbərlərinin göstərişinə əsasən baş verdiyini bildirdi. Bu, ermənilər tərəfindən ilk qanlı terror təxribatı deyildi. Ermənilər, ümumiyyətlə, münaqişə törədib sonra onu qarşı tərəfin üzərinə atmağa və baş verənlərdən öz xeyirlərinə istifadə etməyə adət ediblər. Məsələn: 1919-cu il iyun ayının 4 və 5-də erməni Milli Şurasının təhrikilə Qarabağda erməni və müsəlman icmaları arasında qarşıdurma yaranmışdı. Məqsəd ermənilərin azərbaycanlılar tərəfindən öldürüldüyünü və yaşayış yerlərindən qovulduğunu Versaldakı ANTANTA müttəfiqlərinə göstərmək, bununla da Qarabağı Ermənistana birləşdirməyə nail olmaq idi. Lakin ingilis komandanlığı əsl səbəbi öyrəndikdən sonra erməni Milli Şurasını Qarabağdan uzaqlaşdırmağa nail olmuşdu .

Bu baxımdan, 2004-cü il fevralın 19-da Budapeştdə azərbaycanlı zabit Ramil Səfərov tərəfindən Azərbaycan bayrağını və zabitin şəxsiyyətini təhqir etdiyi üçün qətlə yetirilmiş erməni zabit Qurgen Markaryan və 2007-ci il yanvarın 19-da İstanbulda qətlə yetirilmiş erməni liberal yazar Qrant Dink də ermənilər üçün xüsusilə qiymətlidir. Bu, ermənilərin bir daha bütün dünyaya car çəkib əzabkeş millət olduğunu və hər yerdə təcavüzə məruz qaldığını nümayiş etdirmək üçün əllərinə göydən düşmüş bir fürsətdir. Onlar hadisələrin baş vermə səbəblərini isə özləri istədikləri kimi çatdırır və öldürülmüş erməniləri Milli qəhrəman kimi təqdim edirlər. Qeyd edək ki, "Proqress" adlı erməni partiyasının sədri Ramil Səfərovun başına 125 min dollar qiymət təyin etmişdir.

SSRİ-nin çöküşündən sonra milli ordunun yaradılmasında da Ermənistan Azərbaycandan cəld tərpəndi. 1991-ci ilin aprelində Ermənistanda milli orduya çağırış başlandı və Ermənistan özünün milli ordusunu yaratdı.

Azərbaycan Respublikası isə həmin il avqust ayının 30-da öz dövlət müstəqilliyini bərpa etməklə yanaşı, "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 5 sentyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradıldı.

SSRİ siyasi rəhbərliyi ermənipərəst mövqe tutsa da, öz qərarlarında Ermənistan SSR-in hərəkətlərinin qanunazidd və qızışdırıcı olduğunu açıq-aşkar bildirirdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin "Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 1 dekabr 1989-cu il və 9 yanvar 1990-cı il tarixli Dağlıq Qarabağa dair aktlarının SSRİ Konstitusiyasına uyğun olmadığına dair" 10 yanvar 1990-cı il tarixli qərarında və SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağda və bir neçə digər rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" 15 yanvar 1990-cı il tarixli əmrində Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağa dair qəbul etdiyi SSRİ Konstitusiyasına uyğun olmayan aktların millətlərarası münasibətlərin gərginləşməsinə gətirib çıxardığı göstərilmişdi.

Müttəfiq respublikalar da SSRİ çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün müəyyən cəhdlər edirdilər. Rusiya və Qazaxıstan respublikalarının rəhbərlərinin Azərbaycan və Ermənistan tərəfinin razılığı ilə birgə vasitəçilik missiyaları bu istiqamətdə atılmış ilk addım kimi qiymətləndirilir. 1991-ci ildə Rusiya Prezidenti B.Yeltsinin və Qazaxıstan Prezidenti N.Nazarbayevin başçılıq etdikləri vasitəçilik missiyası Bakı, Gəncə, Xankəndi (o vaxt: Stepanakert) və Yerevanda səfərdə oldu. Vasitəçilik missiyasının iştirakı ilə 23 sentyabrda Şimali Qafqazın Jeleznovodsk şəhərində Azərbaycan və Ermənistan respublikaları Prezidentlərinin görüşü keçirildi. Görüşdə münaqişənin mərhələli nizamlanmasına dair bəzi məsələlər müzakirə edildi və nəticədə Rusiya tərəfdən B.Yeltsin, Qazaxıstan tərəfdən N.Nazarbayev, Azərbaycan tərəfindən A.Mütəllibov, Ermənistan tərəfdən L.Ter-Petrosyanın imzaladığı birgə kommunike qəbul edildi.

Kommunikedə tərəflər – atəşin dayandırılmasını; Azərbaycan və Ermənistanın DQMV-yə dair bütün qeyri-konstitusiya aktlarının ləğv edilməsini; qanuni hakimiyyət orqanlarının səlahiyyətlərinin tanınmasını; SSRİ DİN-ə məxsus Daxili Qoşunların və SSRİ Müdafiə Nazirliyinin hissələri istisna olmaqla, münaqişə bölgəsindən bütün silahlı dəstələrin çıxarılmasını, münaqişənin 1992-ci il yanvarın 1-dək nizamlanmasını zəruri və məcburi şərtlər kimi qəbul edirdilər. Həmin müddət bitdikdə isə bütün silahlı qruplaşmaların və onların

fəaliyyətlərinin qeyri-qanuni hesab edilməsi və onların qarşısının SSRİ DİN-in daxili qoşunları tərəfindən alınması, silahlı dəstələrin iştirakçılarının isə qanunauyğun şəkildə məsuliyyətə cəlb edilməsi nəzərdə tutulurdu.

Bu sənəddə aşağıdakı müddəalar öz əksini tapmışdı: Razılaşdırılmış tədbirlərin icrası məqsədilə Rusiya və Qazaxıstanın səlahiyyətli nümayəndələrindən ibarət müvəqqəti işçi qrup yaradılır və onların 1991-ci il oktyabrın 1-dək fəaliyyətə başlayacağı nəzərdə tutulurdu. Bundan sonra Azərbaycan və Ermənistan Respublikaları deportasiya olunmuş əhalinin öz yerlərinə qaytarılmasına başlamalı və tərəflər daimi yaşayış yerlərində onların təhlükəsizliyini təmin etməli idilər. Münaqişəyə cəlb edilmiş tərəflər – vasitəçilərin nəzarəti altında girovların azad edilməsinə başlamalı; İttifaq orqanları ilə birgə dəmir yol nəqliyyatı, hava əlaqəsi, rabitə və kommunikasiya sistemlərinin normal fəaliyyətini təmin etməli, vasitəçilərin iştirakı ilə avtomobil yollarının azad və səmərəli istismarını təmin etmək məqsədilə danışıqlara başlamalı idilər. Tərəflər, həmçinin münaqişə haqqında obyektiv məlumat əldə etmək məqsədilə RF və Qazaxıstan nümayəndələrindən ibarət səlahiyyətli qrup yaratmaq qərarına gəldilər. Bunlarla yanaşı, Azərbaycanın və Ermənistanın ali orqanları ikitərəfli danışıqlar prosesinə başlamaq üçün səlahiyyətli nümayəndə heyətləri təyin etməli idilər. Lakin Kommunike qəbul edildikdən sonra baş vermiş hadisələr sənəddə nəzərdə tutulanların həyata keçirilməsinə imkan vermədi.

Münaqişə Ermənistan və Azərbaycan respublikaları SSRİ-nin tərkibində müttəfiq respulika olduğu vaxtdan başlandığı üçün hər hansı digər dövlət, yaxud təşkilat ona müdaxilə etmirdi. Bu, son zamanlar mövqeyinin zəifləməsinə baxmayaraq, hələ də dünyanın iki fövqəl dövlətindən və qüvvələr balansını tənzimləyən iki qütbdən biri olan SSRİ-nin daxili işlərinə qarışmaq kimi qiymətləndirilə bilərdi.

Məsələn, 1991-ci ilin 9 noyabr tarixində Türkiyə Cümhuriyyəti Azərbaycanın müstəqilliyini tanıdığını bəyan edəndə, SSRİ hələ mövcud olduğu üçün, ABŞ bu hərəkətin dünyada gərginliyin artmasına səbəb ola biləcəyindən ehtiyat edərək ona tələsməməyi məsləhət

görmüşdü. Buna cavab olaraq Türkiyə SSRİ ilə münasibətlərini qarşılıqlı hörmət əsasında qurduğunu, Azərbaycanın istiqlaliyyətini tanımaq haqqında Türkiyə hökumətinin qərarının isə türk xalqının iradəsini ifadə etdiyini bildirmişdi. 1991-ci il noyabrın 11-də Türkiyə xarici işlər naziri Səfa Səray Türkiyə Cümhuriyyətinin hökuməti adından Azərbaycan Respublikasının müstəqilliyinin tanındığına dair bəyanatı Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdi.

1991-ci ilin sonunda respublikalar tam müstəqillik əldə etdikdən sonra münaqişənin həlli prosesinə qonşu dövlətlər və beynəlxalq təşkilatlar da qoşulmağa cəhd etdilər.

2 mart 1992-ci il tarixdə Azərbaycan BMT-yə üzv qəbul edildikdən sonra Ermənistanın təcavüzünün açıq-aşkar güclənməsi ilə bağlı BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının Sədrinə müraciət edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünün, beynəlxalq hüquq normalarının və BMT Nizamnaməsinin açıq şəkildə pozulmasının qarşısını almağa, münaqişənin dinc siyasi yolla nizamlanmasına yardım göstərməyə çağırdı.

Bu dövrdə Ermənistan-Azərbaycan münaqişəsinə qarışmamağa çalışan rəsmi Ankara onun dinc yolla həllinə nail olmaq üçün beynəlxalq təşkilatlara müraciət etmişdi. 1992-ci ilin 11 mart tarixində Türkiyə Böyük Millət Məclisinin İnsan Haqları Komissiyasının üzvləri dünya mətbuatı nümayəndələri üçün təşkil etdikləri mətbuat konfransında Qarabağda müharibə yox, qətliam (soyqırım) baş verdiyini bildirmişdilər.

İran da münaqişə tərəfləri arasında vasitəçilik etmək istəyən dövlətlərdən idi. 1991-ci ilin mart ayında İran İslam Respublikasının xarici işlər naziri Azərbaycana və Ermənistana səfəri zamanı hər iki dövlət arasında ikitərəfli münasibətlərin inkişaf yolları və münaqişənin həllində vasitəçilik etmək istəyini bildirmişdi. Bunun nəticəsi olaraq, 7 may 1992-ci il tarixdə - Azərbaycan və Ermənistan Respublikası müstəqil olduqdan sonra – İİR Prezidenti Ə.Haşimi-Rəfsəncaninin vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Y.Məmmədov və Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyan arasında Tehran Bəyannaməsi im-

zalandı (18, 87). Bəyannaməyə əsasən, atəşkəsin əldə edilməsi və iqtisadi tələbatı ödəmək üçün bütün kommunikasiya yollarının açılacağı nəzərdə tutulurdu. Əldə edilmiş razılıq həyata keçiriləcəyi təqdirdə İİR-in müşahidəçiləri ilə yanaşı, ATƏM müşahidəçilərinin də prosesə cəlb ediləcəyi qərara alınmışdı. Lakin bu vasitəçilik səyləri uğursuzluqla nəticələndi.

Tehran Bəyannaməsinin ardınca 8 may 1992-ci ildə Şuşa şəhəri, 18 may 1992-ci ildə isə Laçın rayonu ermənilər tərəfindən işğal edildi. 1992-ci il avqust ayının 27-də Qazaxıstan Prezidenti N.Nazarbayevin təklifilə Azərbaycan və Ermənistan Respublikalarının xarici işlər nazirləri Qazaxıstanın o vaxtkı paytaxtı Alma-Ata şəhərində görüşdülər. Tərəflər 1992-ci il sentyabrın 1-dən başlayaraq 60 gün ərzində hərbi əməliyyatları dayandırmaq haqqında sənəd imzaladılar. Lakin bu razılığa da əməl edilmədi və həmişə olduğu kimi, bu dəfə də tərəflər razılığın pozulmasında bir-birilərini günahlandırdılar.

Azərbaycan xalqının SSRİ respublikalarından birinə xəyanət etmiş Qorbaçovdan qəti üz döndərməsinə amansız Qarabağ girdabı, Bakıda Qanlı Yanvar və bir sıra başqa hadisələr artıqlaması ilə əsas verirdi. Buradan irəli gələn bütün nəticələr də öz yerində: öz taleyini müstəqil həll etmək, dövlət müstəqilliyi qazanmaq, təbii sərvətlərinə sahib olmaq, demokratiyanı inkişaf etdirmək. Buna birinci siqnal o oldu ki, 1990-cı ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının Ali Soveti SSRİ-nin tərkibindən çıxmaq barədə qərar qəbul etdi.

ABŞ Konqresi 1992-ci il 24 oktyabr tarixində müstəqillik əldə etmiş keçmiş sovet dövlətlərinə yardım haqqında "Rusiyada azadlığın, Avrasiyada demokratiyanın, azad bazar münasibətlərinin müdafiəsi haqqında akt" adlanan qanunvericilik aktı qəbul etdi. Akt çərçivəsində ABŞ hökumətinin həyata keçirdiyi proqramlar aşağıdakı istiqamətlər üzrə qruplaşdırılırdı:

- ABŞ hökumətinin MDB-də işgüzar fəaliyyətə, idxal və ixracın inkişafına yardım proqramları;
- ABŞ hökumətinin maliyyələşdirilmə proqramları;
- Texniki yardım proqramları.

Həmin ilin dekabrında isə qısaca "Azadlığın müdafiə aktı" adlanan həmin akta Massaçusets ştatını təmsil edən Con Kerri adlı senatorun (daha sonra ABŞ dövlət katibi) təşəbbüsü ilə Azərbaycana verilən yardımı məhdudlaşdıran 907-ci düzəliş qəbul edildi. Bu düzəliş başqa dövləti mühasirədə saxlayan dövlətə yardımı qadağan edir və Azərbaycan Ermənistanı blokadada saxladığı üçün ona yardım edilməsi qadağan olunurdu. Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadaları və hərbi gücdən istifadəni ləğv etməsini ABŞ prezidenti müəyyən edib bu haqda konqresə məlumat verməyincə, Azərbaycan hökumətinə yardım göstərilməyəcəyi bildirildi. 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən terror hadisələrindən sonra 2001-ci ilin oktyabr ayında Senat Corc Buşa 907-ci düzəlişin qüvvəsinin dayandırılması üçün səlahiyyət verdi. Senatın qəbul etdiyi həmin qərar Konqresin hər iki palatasının nümayəndələrindən ibarət razılaşdırıcı komitənin müsbət rəyini aldıqdan sonra 2002-ci il yanvar ayının 25-də ABŞ prezidenti C.Buş-oğul həmin səlahiyyətdən istifadə edərək beynəlxalq antiterror koalisiyasının üzvü olan Azərbaycana qarşı tətbiq edilən 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında müvafiq sənəd imzaladı. Amerika erməni Assambleyasının başçısı Van Qriqoryan buna etiraz edərək, ABŞ-Azərbaycan əməkdaşlığından qorxmaq üçün Ermənistanın ciddi əsasları olacağını və bu əməkdaşlığın onların "qədim" vətənlərinə ziyan vuracağını bildirdi. Buna baxmayaraq, düzəlişin qüvvəsi dayandırıldı. Lakin 907-ci düzəliş hələ də tamamilə ləğv edilməmişdir.

Ermənistanın keçmiş milli təhlükəsizlik naziri David Şahnazaryanın fikrincə, münaqişənin ilk illərində Ermənistan bir sıra sahələrdə uğurlar əldə etmişdi ki, bunlardan biri də onun Azərbaycanı aqressor-ölkə kimi təqdim edə bilməsidir. D.Şahnazaryan qeyd edir ki, ABŞ Konqresinin Azərbaycana qarşı tətbiq etdiyi 907-ci düzəliş Azərbaycanın aqressor-ölkə olduğunu sübut edir.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 2006-cı il aprelin 26-da Vaşinqtonda Beynəlxalq Münasibətlər Şurasında görüşü zamanı isə ABŞ-ın sabiq prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi general Brent Skoukroft Ermənistanın apardığı hərbi

əməliyyat və təcavüzün müqabilində ABŞ-ın sanksiyalarının Ermənistana deyil, Azərbaycana tətbiq edildiyini qeyd etmişdi. Bunun cavabında dövlət başçısı İ.Əliyev bildirmişdi ki, sanksiyanın tətbiq edilməsi müstəqilliyin ilk illərində Azərbaycanda diplomatiyanın zəif olması və ABŞ-ın Azərbaycanı ümumiyyətlə tanımaması səbəbindən baş vermişdi. Həmin vaxt ermənilər Konqresi və digər təsisatları Azərbaycanın təcavüzkar olmasına inandıra bilmişdilər. 2007-ci il aprel ayının əvvəlində AzərTac-ın müxbirinə müsahibə verən Minsk Qrupunun amerikalı həmsədri və sabiq ABŞ səfiri M.Brayza isə bu düzəlişin səmərəsiz qanun olduğunu və Dağlıq Qarabağ münaqişəsində bitərəf vasitəçi kimi çıxış etməyə imkan vermədiyini bildirmişdir.

1993-cü ilmünaqişənin artıq Dağlıq Qarabağ sərhədləri çərçivəsindən çıxdığı bir vaxtda Azərbaycan hökuməti beynəlxalq birliyin üzvü olan dövlətlərə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın təcavüzkarlığının dayandırılması üçün onlardan yardım istədi. Həmin ilin aprel ayında Turqut Özalın Bakıya səfəri zamanı Türkiyə və Azərbaycan arasında müştərək müdafiə müqaviləsi bağlanacağı gözlənilirdi. Lakin Azərbaycan münaqişənin ATƏM çərçivəsində həllini dəstəklədiyi üçün onun beynəlxalq ictimaiyyətin köməyi ilə həllinə üstünlük verdi və Türkiyə də hərbi müdaxilənin münaqişəni daha da gücləndirəcəyindən ehtiyat etdiyi üçün belə bir müqavilə bağlanmadı. Elə həmin il Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillər BMT TŞ-ya Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı olaraq hər iki dövlət arasında BMT-nin sülhməramlı qoşunlarının yerləşdirilməsi məqsədilə müraciət etməyi təklif etmişdi. Türkiyənin Azərbaycandakı səfirliyi bəyanat verərək Ermənistanın Azərbaycana qarşı təcavüzü və müstəqil Azərbaycanın ərazi bütövlüyünün pozulması hallarının yalnız Azərbaycanın daxili işi olmadığını, bütün beynəlxalq qanunları və hüququ pozan, həmçinin dünya miqyasında təhlükəli bir məsələ olduğunu bildirmişdi. Lakin Azərbaycan öz razılığını vermədiyi səbəbindən Türkiyə BMT-yə müraciət etməmişdi. Göstərilən ilin 27 iyulunda Türkiyə Cümhuriyyətinin yeni Prezidenti Süleyman Dəmirəl Fransa Prezidenti Fransua Mitteranla

danışaraq, Rusiya Prezidenti B.Yeltsinə isə məktub göndərərək onlardan Ermənistan üzərində olan nüfuzlarından istifadə edərək onun beynəlxalq hüquq normalarına hörmət etməsini və işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməsini təmin etmələrini xahiş etmişdi. O, həmçinin BMT və ATƏM çərçivəsində həmin dövlətlərlə əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdi.

Türkiyə isə Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatları gücləndirməsi və Kəlbəcərin işğalı ilə əlaqədar olaraq Ermənistana yardımı dayandırdı və öz hava yollarını Ermənistana və Ermənistandan uçan bütün təyyarələr üçün bağlı elan etdi.

Artıq münaqişənin Dağlıq Qarabağın hüdudlarından çıxdığını və onun ətrafındakı Azərbaycanın digər rayonlarının da işğal edildiyini görən BMT TŞ məsələyə münasibət bildirmək qərarına gəldi. 1993-cü il aprel ayının 3-də Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalı ilə əlaqədar olaraq aprel ayının 6-da BMT Təhlükəsizlik Şurasının sədri Azərbaycanın Kəlbəcər rayonunun erməni silahlı birləşmələri tərəfindən işğalını ittiham edərək bu ərazilərin dərhal azad edilməsini və ordunun oradan çıxarılmasını tələb edən bəyanatla çıxış etdi, BMT TŞ isə bununla bağlı 30.04.1993-cü il tarixli 3205-ci iclasında 822 saylı qətnamə qəbul etdi. Lakin həm BMT TŞ-nın sədrinin bəyanatında, həm də TŞ-nın qətnaməsində Kəlbəcərin yerli erməni qüvvələri tərəfindən təcavüzə məruz qaldığı göstərilirdi. Bununla yanaşı, bəyanat və qətnamədə işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın 1993-1994-cü illərdə işğal edilmiş digər rayonlarından dərhal çıxarılmasını tələb edilməklə təcavüzkar qüvvənin yerli deyil, kənar qüvvə olmasının faktı bütün dünya birliyinə yaxşı bəllidir. Yoxsa həmin qüvvələrin göstərilən ərazilərdən çıxarılması deyil, onlardan öz hərəkətlərinə son qoymaq tələb edilərdi. Bundan başqa, BMT TŞ-nın 29.07.1993-cü il tarixli 3259-cu iclasında münaqişədə iştirak edən erməni işğalçılarının tez bir zamanda hərbi əməliyyatları dayandırması, Ağdam və başqa zəbt olunmuş rayonların ərazisindən çıxarılmasını qəti surətdə tələb edən 853 saylı, 14.10.1993-cü il tarixli 3292-ci iclasında bir daha erməni qüvvələrinin zəbt olunmuş ərazilərdən çıxarılmasını tələb edən 874 saylı və 11.11.1993-cü il tarixdə 3313-cü icla-

sında Dağlıq Qarabağ ermənilərinin Azərbaycan Respublikasının Zəngilan rayonu, Horadiz şəhəri və digər zəbt olunmuş əraziləri azad etməyə çağıran 884 saylı qətnamələri də mövcuddur.

Ermənilər BMT TŞ-in qətnamələrini tam fərqli izah edirlər. “Dağlıq Qarabağ respublikası”nın “Təhlükəsizlik Şurasının” katibi K.Baburyan həmin qətnamələrin dolayı yolla “Dağlıq Qarabağ respublikası”nı tanıdığını hesab edir. O bunu onunla izah edir ki, əgər qətnamədə ərazinin yerli erməni qüvvələri tərəfindən tutulduğu göstərilirsə, bu artıq respublikanın tanınması anlamını verir. Bundan başqa, ermənilər bildirirlər ki, BMT qətnamələri fəal hərbi əməliyyatlar aparıldığı və “Qarabağ” ordusunun keçmiş DQMV ilə həmsərhəd rayonlarının bir hissəsini “azad” etdiyi bir vaxtda qəbul edilmişdi ki, həmin rayonlar hələ RK(b)P Qafqaz bürosunun qərarı ilə DQMV-nin tərkibinə daxil edilməli idilər. Bununla bərabər göstərirlər ki, qətnamələrdə Ermənistan Respublikasının ünvanına heç bir ittiham irəli sürülmür və BMT TŞ-nin 882 №-li qətnaməsində Kəlbəcərin işğalının yerli, yəni Qarabağın erməni qüvvələri tərəfindən həyata keçirildiyini göstərməyi vacib sayıb. Ermənistan, ümumiyyətlə, münaqişənin başlandığı gündən onun Dağlıq Qarabağa olan ərazi iddialarına qarşı çıxarılan qərarların heç birinə məhəl qoymamışdır. Qeyd etmək lazımdır ki, hələ 1992-ci ildə Ermənistanın Ali Soveti Dağlıq Qarabağın Azərbaycanın tərkibində olduğu göstərilən heç bir sənədi tanımayacağı haqda qərar qəbul etmişdi.

Minsk Qrupunun rusiyalı həmsədri Yuri Merzlyakov isə 2004-cü ilin iyul ayında Bakıya səfəri zamanı həmin qətnamələrə münasibətini belə bildirdi: “BMT TŞ-nın qətnamələri başqa geosiyasi şəraitdə qəbul edilib və onlar bu gün yerinə yetirilməyə bilər (?!). Göstərilən tələblərin yerinə yetirilmə müddəti keçib və yeni nizamlama variantı axtarmaq lazımdır”. Necə deyərlər, şərhə ehtiyac yoxdur!

BMT-nin qətnamələrində silahlı qüvvələrin kimə məxsus olduğunu göstərmək münaqişənin ölkədaxili, yaxud ölkələrarası münaqişə olmasını müəyyənləşdirməyə kömək edir. Adı çəkilən münaqişə, əgər təcavüzkar qüvvələrin yerli erməni qüvvələri olduğu göstərilirsə, onda ölkədaxili, Ermənistan silahlı qüvvələri olduğu göstərilərsə və

bu hüquqi cəhətdən təsdiq olunarsa, ölkələrarası və beynəlxalq münaqişə kimi qiymətləndirilməlidir. BMT TŞ-nın sənədlərində silahlı qüvvələrin yerli ermənilərə məxsus olduğu göstərilsə də, münaqişənin Ermənistanla Azərbaycan arasında baş verdiyi qəbul edilib və o, beynəlxalq münaqişə hesab edilir.

Bu gün də Ermənistan əvvəlkitək Azərbaycan ərazilərini işğal altında saxlayır və işğal olunmuş əraziləri fəal şəkildə məskunlaşdırır, bununla da beynəlxalq ictimaiyyətin iradəsinə məhəl qoymur.

Bütün görüşlərdə - həm 1991-ci il 20-23 sentyabr Jeleznovodsk şəhərində, həm 1992-ci il may ayının 7-də İranda, həm də həmin il 1 sentyabr tarixində Alma-Ata (Almatı) şəhərində keçirilən görüşlər zamanı danışıqlar münaqişə tərəfi olaraq Ermənistan və Azərbaycan tərəfləri arasında aparılmışdı, sənədləri də münaqişə tərəfi olaraq həmin respublikaların nümayəndələri imzalamışdılar. Danışıqlar prosesi ATƏT çərçivəsinə keçdikdən sonra Ermənistanın təhriki ilə "Dağlıq Qarabağ"ın münaqişə tərəfi kimi ortaya atılması meydana çıxdı.

Ümumilikdə isə, münaqişə ilə 1992-ci ildən ATƏM-in Minsk Qrupunun məşğul olduğu və 1994-cü ildən isə münaqişənin həllinə dair bütün səlahiyyətlər ATƏT çərçivəsinə (Budapeşt sammiti) keçdiyi üçün BMT daxil olmaqla bütün digər təşkilatlar və dövlətlər onun ATƏT çərçivəsində həllinə üstünlük verirlər ki, bu amil də münaqişənin tənzimlənməsinə BMT-nin effektli təsir gücünü azaldır.

# III FƏSİL

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASI İSTİQAMƏTİNDƏ SƏYLƏR

90-cı illərin ortalarından başlayaraq Qərbin, xüsusilə ABŞ-ın Dağlıq Qarabağ münaqişəsini dinc, siyasi vasitələrlə nizamlanmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiyanın siyasi dairələrində narahatlıq doğurmuşdur.

1992-ci ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağ münaqişəsi daha çox beynəlxalq problemə çevrildi. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) üzvü oldu və həmin il iyulun 8-10-da ATƏM-in Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı. ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi.

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci il martın 24-də keçirilən görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə edilərək, münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul edildi. Qərara alındı ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı münaqişənin mahiyyətini dəyişərək yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi. Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı tərəflər arasında ziddiyyət-

lərin qalması, xüsusilə Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxartdı.

Azərbaycanda ictimai-siyasi sabitik yalnız 1993-cü ilin iyun ayında xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıdışı ilə bərqərar oldu. Tarixi öncəgörmə istedadına və diplomatiya məharətinə malik olan bu müdrik dövlət və siyasi xadim qarşıya qoyulmuş məqsədə - müstəqil Azərbaycan dövləti yaratmaq hədəfinə doğru möhkəm və qətiyyətlə, addım-addım irəliləməyə qadir olan Heydər Əliyev xalqı və ölkəni dərin siyasi və iqtisadi böhrandan xilas etdi.

Uzaqgörən, təcrübəli siyasətçilər həmişə öz məqsədlərinə ən dəqiq və ya ağrısız üsulla nail olmağa çalışırlar. Məsələn, münaqişəni həll edən siyasətçinin əsas vəzifəsi mininmal itkilər hesabina uğur qazanmaqdır.

Ermənilərin təcavüzünə cavab olaraq Heydər Əliyevin "neft diplomatiyası" regionda qüvvələr balansını kökündən dəyişdi, Azərbaycanı firavan, sürətlə inkişaf edən dövlətə çevirdi, dünyanın güc sahiblərini onun maraq və məqsədlərilə hesablaşmağa məcbur etdi.

Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilik tarixinə nəzər salsaq və onu şərti olaraq mərhələlərə bölsək, bu mərhələlərin hər birinin xeyli dərəcədə Rusiya-Qərb qarşıdurmasının xarakterindən asılı olduğunu görərik. 1992-ci ilin martında Minsk qrupu yaradılan zaman Rusiya bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiyanın siyasi dairələrində narahatlıq doğururdu. Belə bir vaxtda münaqişənin dinc vasitələrlə həlli prosesində Rusiya təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərirdi.

Öz məqsədlərinə nail olmaq üçün Rusiya Azərbaycana təzyiq göstərərək, qoşunlarını "sülhməramlı qüvvələr" adı altında münaqişə bölgəsinə gətirmək niyyətində idi. Lakin bu məqsədinə nail ol-

mayan Rusiya Ermənistanda (Gümrükdəki 102-ci bazada) qoşunlarının sayını bir qədər də artırmış, onu gizli və aşkar yolla silahlandıraraq, Azərbaycan ərazilərinin işğal olunmasına dəstək vermişdir.

Bununla yanaşı, Qarabağ müharibəsində Ermənistanın aldığı xarici dəstək ona üstünlük qazandırır, Azərbaycanın bütün resurslarının bu istiqamətə cəmləşdirilməsini vacib edirdi. Təbii ki, bu da öz növbəsində digər sahələrdə çatışmazlıqların və narazılıqların yaranmasına gətirib çıxarırdı. Qeyd edək ki, 1991-1993-cü illərdə Azərbaycanın daxilində baş vermiş siyasi böhranlar və tez-tez baş verən hakimiyyət dəyişikliklərinin bir çoxu da bu problemdən qaynaqlanırdı. Belə ekstremal vəziyyətdə buraxılan siyasi səhvləri, lider qıtlığı və kadr səriştəsizliyi kimi amilləri də nəzərdən qaçırmaq olmaz.

SSRİ-nin zəifləməsindən və mərkəzi aparatda bir sıra dairələrin yardımından faydalanan erməni millətçiləri Ermənistan ərazisindən bütün azərbaycanlıları (240000 nəfər) deportasiya etdikdən sonra Dağlıq Qarabağda seperatçılıq hərəkətlərini qızışdıraraq aktiv fəaliyyətə keçdilər. Onlar Ermənistan və Rusiya hərbiçilərinin (Xankəndindəki 366-cı alay) birbaşa müdaxiləsi ilə, bir-birinin ardınca Azərbaycan kəndlərini zəbt edərək yandırırdılar. **Erməni seperatçılar 1991-ci il sentyabrın 2-də qeyri-qanuni olaraq Goranboy rayonu daxil edilməklə DQMV-ni müstəqil respublika elan etdilər.** Cavab tədbirlərinə əl atan Azərbaycan tərəfi ilk olaraq DQMV-nin statusunu ləğv etdi. Milli Silahlı Qüvvələrin yaradılmasına başlandı. Azərbaycan parlamenti (Ali Sovet) "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi (9 oktyabr 1991). Həmin ilin noyabr ayında özünü müdafiə dəstələrinin yaradılması haqqında sərəncam verdi.

Lakin qüvvələr qeyri-bərabər idi. Böyük beynəlxalq dəstəyə güvənən erməni seperatçıları fəaliyyətlərini genişləndirərək Qarabağın Kərkicahan, Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndlərini ələ keçirdilər. Xocalı və Şuşanı mühasirəyə aldılar. 1992-ci il fevralın 25-də gecə erməni hərbi birləşmələri 366-cı rus alayının, xarici ölkələrdən gətirilmiş muzdlu əsgərlərin və saqqallı dəstələrin köməyi ilə Xocalı soyqırımını törətdilər, həmin ilin mayında Şuşa

şəhərini, ardından isə Laçın rayonunu işğal etdilər. Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımlarından biri oldu.

Bu hadisələr ölkədəki siyasi böhranı daha da dərinləşdirdi.

Hakimiyyətə yiyələnmiş Azərbaycan Xalq Cəbhəsi (AXC) hökümətinin istər xarici, istərsə də daxili siyasəti iflasa uğradı, ölkədə ictimai-siyasi vəziyyət gərginləşdi və ölkədə hərbi-siyasi böhran yarandı. Respublikanının müxtəlif bölgələrində siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizəsi başlandı. Gəncə, Qazax, Lənkəran, Masallı, Astara, Cəlilabad bölgələrində və digər yerlərdə silahlı dəstələr hakimiyyəti ələ keçirməyə cəhd göstərirdilər. Başda Rusiya olmaq etibarı ilə Azərbaycanın ərazisində "Ləzgistan dövləti" və "Talış Muğan respublikası" kimi qurumlar yaradılmasına cəhd göstərirdilər.

Hələ 1997-ci ilin əvvəllərində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların verilməsi haqqında faktlar üzə çıxan zaman məlum oldu ki, Rusiya bu silahları 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi bir zamanda göndərməyə başlamış və nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə münbit şərait yaratmışdır. Ermənistanın silahlandırılması prosesi atəşkəs elan ediləndən sonra da davam etdirilmişdir.

Azərbaycan xalqının təkidi ilə Heydər Əliyevin 1993-cü ilin 15 iyun tarixində hakimiyyətə qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin Ermənistan prezidentləri ilə birbaşa danışıqlarda göstərdiyi ardıcıl səylər dövlət başçısının apardığı siyasətin mühüm hissəsini təşkil etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində prioritet yer tutmuşdur.

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq sahəsində təxirəsalınmaz vəzifələrindən biri davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı qəti addımlar atmaqdan ibarət olmuşdur.

Bu məqsədlə Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın ərazi iddiaları və hərbi təcavüz məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədilə məhz Prezident Heydər Əliyevin qətiyyəti və gərgin fəaliyyəti sayəsində 1994-cü il mayın 12-də Bişkek şəhərində atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1994-cü il dekabrın 5-6-da ATƏM-in Budapeştdə keçirilən zirvə toplantısında beynəlxalq sülhməramlı qüvvələrin yaradılması və münaqişə bölgəsinə göndərilməsi qərara alındı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edildi.

Rusiyanın bu münaqişədə maraqlı tərəf olduğu nəzərə alınaraq ATƏM-in Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı. Bu razılıq təkcə Budapeşt görüşünə qədər gərgin olaraq qalan Qərb-Rusiya münasibətlərinin yumşaldılması deyil, həm də münaqişənin həlli istiqamətində Rusiyanın “fərdi sülhyaratma” istəyinin qarşısının alınması idi.

1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi və diplomatik səriştəsi sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir bə-

yanat qəbul edildi. Bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında öz əksini tapdı.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair 3 təkliflə çıxış etmişlər.

Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan Prezidenti həmin planlarla tam razı olmasa da, sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədilə həmsədrlərin hər iki təklifini qəbul etdiyi halda, Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək həmin təkliflərlə razılaşmadı.

1998-ci il noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd olan, həmçinin Azərbaycan üçün qəbul edilməsi mümkün olmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya təcrübəsində mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşmanın göstəricisi idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də ölkə Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən dövlət başçısı "ümumi dövlət" ideyasının

ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətlə və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı.

"Ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı (Yenə orada, 727).

Bu addım hamıdan çox Ermənistanın özünə lazımdır: 1. Üzücü, total iqtisadi-siyasi iflas vəd edən izolyasiyadan çıxıb regiona inteqrasiya eləmək, dünyaya açılmaq üçün; 2. Rusiyanın İŞİD-sayağı girovluğundan qurtulmaq, ərazi iddiası olan qonşularla münasibətləri qaydaya salıb rahat "nəfəs almaq"dan ötrü.

İldən-ilə daha da boşalan, iri regional layihələrdən (hələ hamısı reallaşmayıb, TANAP, "Cənub qaz dəhlizi" var) kənarda qalaraqdilənçi kökə düşən Ermənistanın rəhbərliyi üçün artıq elə bir dönəm başlayıb ki, o, 26 illik səmərəsiz danışıqların qeyd edilən əsas nəticəsini bütün ciddiliyi ilə nəzərə almaq zorundadır. Başqa sözlə, rəsmi İrəvan Dağlıq Qarabağ məsələsinin heç vaxt onun istəyinə uyğun şəkildə – "paket həll" ("tanınma əvəzinə torpaq") variantının mümkün olmadığını birdəfəlik dərk etməlidir.

L.Ter-Petrosyan problemin mərhələli həll variantına razılıq vermiş, erməni xalqına da qərarını belə izah eləmişdi: "Bu gün bizə təklif olunanları götürməsək, sabah yalvaracağıq, çünki Ermənistan ildən-ilə zəifləyəcək, Azərbaycan isə güclənəcək.

Lakin münaqişə tərəfləri üçün ən optimal variant qismində görünən həll modelinə "Müharibə partiyası" ("Qarabağ klanı") imkan vermədi. Rusiyanın dəstəyi ilə Petrosyan hökuməti devrildi. Ancaq Petrosyanın proqnozu doğruldu – Ermənistan daha betər günə düşdü, Köçəryan-Sarqsyan tandemi isə 26 ildə problemin həllini bir santimetr belə irəliyə apara, saxta qurumun müstəqilliyini dünyaya tanıda bilmədi.

30 ilə yaxındır ki, Ermənistanda "Qarabağ klanı" və iqtidar partiyası olan “Müharibə partiyası” artıq onu da ciddiyə almaq zorundadır ki, Ukraynadakı hadisələr fonunda ölkələrin ərazi bütövlüyü prinsipi bir az da aktuallaşıb və Krım, Donbas, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə məsələsində bu prinsipə sayğını Rusiyadan tələb edən Qərb Dağlıq Qarabağ məsələsində eyni şeyi Ermənistandan tələb etməyə sadəcə, borcludur və öz təməl yanaşması əleyhinə getməyəcək – əgər Azərbaycan könüllü şəkildə özü Dağlıq Qarabağdan imtina eləməsə...

Ötən müddətdə Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, NATO Parlament Assambleyası, İslam Əməkdaşlıq Konfransı kimi nüfuzlu beynəlxalq təşkilatlar BMT-nin ardınca Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanı işğalçı kimi damğalayan qətnamələr qəbul etdilər...

İzolyasiyada olan Ermənistan üçün belə qapalı, ümidsiz, tam perspektivsiz bir dönəmdə Türkiyənin baş naziri Əhməd Davudoğlunun İstanbulda ölkənin qeyri-müsəlman icmalarının liderləri ilə görüşlərindən birində söylədiyi, təklif gözünü tor tutmuş erməni liderləri və isteblişmenti (ali rəhbərlik) üçün ayıldıcı təsirdə olmalıdır, bizcə: baş nazir həmin görüşdə bildirib ki, Ermənistan Azərbaycanın işğal altındakı rayonlarından hətta birini boşaltsa, o zaman onunla sərhədlər açıla, diplomatik münasibətlər qurula bilər.

Əks halda, yəni sərhədlərin qeyd-şərtsiz açılması Türkiyə tərəfdən 23 illik bağlı qapı siyasətinin səhv olduğunun etirafı anlamına gələrdi. Təbii ki, Ankara ona heç zaman getməyəcək, İrəvanın “qeyd-şərtsiz diplomatik münasibətlər” şərtini uydurma “soyqırımın” 100 illiyini belə qəbul etməyəcəkdi ki, belə də oldu.

Doğrudur, erməni toplumuna hərbi qələbəni siyasi qələbəyə çevirəcəyini vəd etmiş “müharibə partiyası” üçün Davudoğlunun variantına getmək psixoloji cəhətdən çətindir, az qala siyasi intihara bərabərdir. Üstəlik, Rusiya amili, Kreml xofu var. Ancaq regionun, ilk öncə də Ermənistanın inkişafında ən böyük əngəl olan bir açar münaqişənin dinc həllini “dalan”dan çıxarmağın ayrı yolu da qalmayıb.

Belə bir varianta gedərsə, şübhəsiz, Qərb erməni tərəfini onun ağır fəsadlarından qorumağa, Kremlin kontur-tədbirlərini neytrallaşdırmağa çalışacaq. Sərhədlərin açılması Qərbin bölgəyə yönəlik uzunmüddətli strateji maraqları çərçivəsindədir və o, çoxdan Ermənistanı Rusiyanın ağuşundan çıxarmağı, Qarabağ konfliktinin həllinə daha münbit zəmin yaratmağı hədəf götürüb.

Erməni tərəfi Ukrayna böhranı fonunda onu da nəzərə almaq zorundadır ki, "soyuq müharibə" səbəbindən ABŞ və Avropa ilə Rusiya arasında postsovet məkanında münaqişələrin, o cümlədən Qarabağ probleminin həlli müstəvisində əvvəlki anlaşma nöqtələri faktiki olaraq qalmayıb.İrəvan müstəqil qərar verib, konflikti Qərbin (Türkiyənin) dominant olduğu daha realist həll müstəvisinə keçməyə səy göstərməlidir.

Digər tərəfdən, Rusiya Qərblə sonu bilinməyən yeni "soyuq savaş" dövrünə girib. Qərbin sanksiyaları altında sıxılan rəsmi Moskva üçün isə Türkiyə olduqca əhəmiyyətli, iqtisad-ticarət, energetik tərəfdaşa çevrilib. İki ölkənin təkcə energetik sahədə (mavi qazın nəqli, "Türkiyəyə axını", qardaş ölkədə tikiləcək AES tikintisi və s.) on milyardlarla dollarla ölçülən anlaşmaları var. Qarabağ probleminin həll olunmamış qalması ilə müharibə risklərini aybaay artırır. Öz növbəsində yeni Qarabağ müharibəsi Rusiya ilə Türkiyənin üz-üzə gəlməsi, Kremlin Ankaranı həmişəlik itirməsi demək olacaq. Azərbaycan da onun kimi...

Belə perspektivi beynəlxalq analitiklər də görür və dəyərləndirir. "Ermənistanın bu münaqişədə vaxtın ona işlədiyini düşünməsi səhvdir. Vaxt heç kimə işləmir. Hər keçən gün Ermənistan iqtisadiyyatının ziyanınadır. Üstəlik, hər hansı münaqişə uzun müddət həll edilməyincə, onu sonda nizamlamaq bir o qədər çətin olur".

Bunu ABŞ dövlət katibinin Cənubi Qafqaz üzrə sabiq köməkçisi, Birləşmiş Ştatların Azərbaycandakı keçmiş səfiri, Minsk Qrupunun sabiq amerikalı həmsədri Metyu Brayza deyib. Xüsusi diqqətçəkicidir ki, Brayza ərazi bütövlüyü prinsipinin "Qarabağ kimi münaqişələrin nizamlanmasında daha təsirli konsepsiya" olduğunu söyləyib ki, bu da Ukrayna prosesləri fonunda Qərbin tutduğu mövqe ilə tam səsləşir.

Ukrayna böhranı fonunda Bakının bu şərti ciddi korrektə etməsi inandırıcı görünmür. Ona görə ki, Rusiyanın postsovet məkanındakı münaqişələrə təsir imkanları 6-7 öncəki illərlə müqayisədə zəifləyib. Hələ də Ermənistana real təsir rıçaqları dəyişməz qalır. **Amma bu məsələni də unutmaq olmaz ki, Rusiya postsovet məkanına nəzarəti müstəsna olaraq özünün müəllifi olduğu etnik-ərazi münaqişələri vasitəsilə həyata keçirməyə çalışır. Artıq bir neçə ildir Ukraynada yaşananların başlıca motivi də elə budur – həmsərhəd, keçmiş sərhəd respublikalarında separatçılığı qızışdırmaqla bu ölkələrin daxili işlərinə real təzyiq rıçaqları qazanmaq, onları zorla SSRİ-nin yeni formatı olacaq Avrasiya Birliyinə, Gömrük İttifaqına qoşmaq.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Ağlabatan kompromis mümkündür: Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan tərəfindən investisiya layihələrinin həyata keçirilməsi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənardakı ərazilərin azad edilməsi şərti ilə iki xalq arasında dinc qarşılıqlı fəaliyyət - biz münaqişənin nizamlanmasını belə görürük. Bu, bizim hazırda üzərində işlədiyimiz və vasitəçilərin irəli sürdüyü təkliflərlə həmahəngdir. Lakin münaqişənin nizamlana bilməməsinin əsas səbəbi odur ki, Ermənistan artıq 30 ilə yaxındır, Minsk Qrupu yaradıldığı andan danışıqlar prosesinin azacıq da olsa, irəliləməsinə müxtəlif yollarla mane olur... Azərbaycanla münasibətlər normallaşdırılmadan bu regionda inkişaf ola bilməz, onlar daim müəyyən təzyiq altında yaşayaçaqlar, fikirləşəcəklər ki, birdən nə isə ola bilər"

Dağlıq Qarabağ problemi Putin hakimiyyəti üçün ilk növbədə bu kontekstdə önəm daşıyır. Moskva həm də tələsir. Çünki Avrasiya layihəsinin gerçəklənməsi uzanarsa, onun indiki üzvlərlə effekti böyük olmayacaq və günün birində Qazaxıstanla Belarus da onu tərk edə bilər. Ukrayna onsuz da əldən çıxmış kimidir.

Bu xüsusda Avrasiya Birliyinə dolğunluq gətirəcək yeganə ölkə Azərbaycandır. Müşahidələr göstərir ki, Kreml Bakını öz "caynağına" keçirmək üçün səylərini heç vaxt dayandırmayıb, tam əksi-

nə Ukrayna uğursuzluqları fonunda gücləndirib. Amma Azərbaycanın indiyədək Moskvanın günahı üzündən həll edilməmiş Dağlıq Qarabağ problemi var.

Kreml Avrasiya layihələrini xilas eləmək üçün son həmlə hazırlıqları içində görünür. Bir daha aydın olur ki, Rusiya Azərbaycanı da Ermənistan kimi öz yanında görməklə, onu da özünün Avrasiya layihələrinə qoşmaqla Qarabağ məsələsinə hansısa həll vəd edir. Ayrı sözlərlə, hansısa məxfi danışıqlar gedirsə də, bu, böyük ehtimalla Putinin köməkçisinin cızdığı kontekstdədir.

Bir çox analitiklərə görə, Azərbaycanın Moskva önündə ən böyük "Avrasiya şərti" nin biri də – öncə ərazilər, sonra birliyə üzvlük.

Ancaq məsələ ondadır ki, Rusiya Qarabağ probleminin həllini əsasən Moskvanın dominant olduğu Avrasiya İqtisadi Birliyi çərçivəsində görür. Yəni faktiki surətdə söhbət köhnə SSRİ formatında "həll"dən, daha doğrusu, münaqişəni naməlum müddətdə dondurmaqdan gedir.

Bəzi analitiklər görə, Qərbin Qarabağ təşəbbüskarlığını nə vaxtsa bütünlüklə öz əlinə alacağından ehtiyatlanan Rusiya, hər halda, tələsməyə və təbii ki, öz maraqları da ciddiyə alınmaqla konfliktin hansısa formada həllinə məcbur duruma gəlib. Çünki heç kim bilmir ki, bir neçə ay sonra postsovet məkanındakı münaqişələrə hansı güc mərkəzinin təsiri daha güclü olacaq – Rusiyanın, yoxsa ABŞ və Avropanın? Moskva emissarlarının Bakıya artan səfərləri və bəzi Rusiya rəsmilərinin son açıqlamaları bu qənaəti möhkəmləndirir.

Azərbaycan və Ermənistan prezidentlərinin münaqişənin həlli yönündə razılığa gələ bilmələri üçün hazırda bir sıra məsələlər üzərində iş gedir. Siyasi ekspertlər ümid edirlər ki, hər iki tərəf üçün olduqca ağrılı olan konfliktin optimal həll yolu tapılacaq.

# IVFƏSİL

## ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ AZƏRBAYCANƏRAZİLƏRİNDƏ BEYNƏLXALQ HÜQUQA ZİDD CİNAYƏTLƏRİN TƏSNİFATI

Qafqaz regionunu daim gərginlikdə saxlamaq məqsədilə ermənilərin beyninə "Böyük dövlət" yaratmaq ideyası sindromunu həmişə müəyyən dövlətlərin örtülü siyasəti olmuşdur. Odur ki, erməni terroru bu gün də həmin maraqların, "ikili standartların" latent ifadəsinə çevrilmişdir.

Rus tarixçisi Nikolay Şavrov "Zaqafqaziyada Rusiya işlərinə yeni təhlükə" adlı kitabında qeyd edir ki, 1864-cü ildə Qafqaz idarələrində çoxluq təşkil edən erməni və gürcülərdə millətçilik fəaliyyəti oyandı. Erməni və gürcü çarlıqlarını yenidən dirçəltmək ideyası Londonda onların rəhbər şəxslərinin beyninə yeridildi. Bu, əslində tarixi torpaqlara malik olmayan ermənilərin Zaqafqaziyada mümkün qədər daha çox ərazi ilhaqına həvəsləndirilməsi idi.

Sonralar isə "dənizdən-dənizə Ermənistan" yaratmaq ideyası "Daşnaksütyun" partiyasınınəsas ideyasına çevrildi.

1890-cı ildə Tiflisdə erməni millətçi partiyası kimi yaradılan "Daşnaksütyun" Türkiyə ermənilərinin azad edilməsi, Rusiya və Türkiyə ermənilərinin "Vahid, ümumi "vətəni" – "Böyük Ermənistan"" yaradılması kimi avantürist ideya irəli sürərək, təbliğata başlamışlar.

Görkəmli tarixçilər İ.Dyakonov, V.Piotrovski və başqaları zorla qədim tarix yaratmaq istəyən saxtakar erməni alimlərini dəfələrlə ifşa etmişdilər.

Lakin Z.Balayan, S.Xanzadyan, S.Ayvazyan və başqa millətçi erməni yazarları Azərbaycanı, İranın bir hissəsini, Türkiyənin xeyli hissəsini, Gürcüstanın bir hissəsini (Tiflislə birlikdə), Quzey Qafqa-

zı, Rostovu və Voronejə qədər əraziləri öz tarixi torpaqları kimi qələmə verirlər.

Z.Balayanın 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyində çıxışında bu istiqamətdə qurmuşdur.

Erməni müəlliflərindən biri Bakunts Ananikyan öz əsərində "Daşnaksütyun" terrorçu təşkilatının əsl mahiyyətini açmışdır. Onun ""Daşnaksütyun" partiyasının ideya-siyasi iflası" adlı kitabı rus dilində İrəvanın "Haystan" nəşriyyatı tərəfindən 1979-cu ildə nəşr edilmişdir. Kitabda bildirilir ki, "Daşnaksütyun" nəinki başqa xalqlara, hətta ermənilərin özünə də ziyan vurmuşdur. 1890-1920-ci illər ərzində çoxlu qanlı fitnələr törətmişdir.

Erməni tarixçisi A.Lalayan "Əksinqilabçı "Daşnaksütyun" və 1914-1918-ci illərin imperialist müharibəsi" adlı məqaləsində qeyd edir ki; "Bu partiya sadəcə olaraq çarizmin oventurasıdır."

Erməni jurnalisti Q.Kotoyan 1986-cı ildə "Arqumenti i faktı" qəzetində çap olunmuş "Qonaqsevərlik qanunlarını pozaraq" adlı məqaləsində qeyd etmişdir ki, 1957-ci ildən başlayaraq İrəvanda oxumağa gələn (20 ölkədən 700 nəfər) tələbələr arasında daşnak təbliğatı aparılır. Burada xalqların dostluq və qardaşlığına böhtan atırlar, tarixi saxtalaşdırırlar və ərazi iddiaları irəli sürürlər. Çoxsaylı tarixi faktlar, məhkəmə materialları Ermənistanın terrorçu dövlət olduğunu sübut edir.

Məsələn: Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 50 nəfər insanın yaralanması ilə nəticələnən terror aktına görə erməni Varosyan və Qarabedyan həbs edilmişdir.

Məşhur terrorçu, "ASALA-nın inqilabi hərəkatı" qruplaşmasının rəhbəri 1981-ci ildə Türkiyənin Romadakı səfirinə sui-qəsd etdiyinə görə erməni Monte-Melkolyan həbs edilmişdir.

Həmin il, yəni 1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı Vazgen Sislyan 1992-ci ildə İrəvandan Xankəndinə göndərilmişdir. Robert Koçaryan isə ona "Qarabağ müharibəsinin qəhrəmanı" adını vermişdir.

Erməni terror təşkilatlarının adlarına və fəaliyyətinə nəzər salaq:

- “Armenakan” partiyası: 1885-ci ildə yarandı. Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda terror aktları törətməklə yanaşı, İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq edirdilər.

- “Qnçaq” partiyası 1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, “Rus və İran Ermənistanları” adlandırdıqları əraziləri birləşdirməklə “Böyük Ermənistan” yaratmaq olmuşdur.

- “Erməni “soyqırımı”nın intiqamçıları” qrupu 1973-cü ildə yaradılıb. Bu terror qrupu 1980-1982-ci illər ərzində Avstriya, Danimarka, Portuqaliyada türk diplomatlarını qətlə yetirib.

- “Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu – (ASALA)” 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşirdi. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ ərazisində “Böyük Ermənistan” qurmaqdır.

- ASALA 1980-ci ilin aprelində Liviyada PKK ilə birgə terror aksiyalarının keçirilməsinə dair razılığa gəlmişdir.

- “Geqaron” 2001-ci ildə ASALA tərəfindən yaradılmışdır. Məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktları keçirməkdir.

- “Orli Qrupu” 1981-ci ildə Fransada, “Erməni birliyi” 1988-ci ildə Moskvada yaradılmışdır.

- “Demokratik cəbhə” ABŞ, Kanada və Qərbi Avropada yaradıldı. Məqsədi Türkiyəni parçalamaqdan ibarət olub.

- “Apostal” 2001-ci il aprel ayının 29-da Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

Erməni terrorçuları tarixdə ən böyük cinayətləri məhz Azərbaycan xalqına qarşı törədiblər. Nəticədə minlərlə həmvətənlərimiz həlak olub, əlil olub, əsir düşüblər. Onlar terror hadisələrini əsasən avtobuslarda, yük və sərnişin qatarlarında, hava yollarında, Bakı metropolitenində mülki şəxslərə və hərbiçilərə, mülki və Dövlət obyektlərinə qarşı törətmişlər.

1988-1993-cü illər ərzində ermənilər tərəfindən azərbaycanlılara qarşı 354 terror aktı törədilmişdir. Nəticədə 1427 nəfər azərbaycanlı həlak olmuşdur, 3137 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Həmin dövrdə həyata keçirilmiş terror hadisələrindən 10-u sərnişin avtobuslarında (68-132), 10-u dəmir yolu nəqliyyatlarında (74-125), 3-ü hava nəqliyyatında (34-104), 2-si Bakı metropolitenində (14-49), 1-i isə su nəqliyyatında (25-88) törədilmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı, Dağlıq Qarabağ müharibəsi dövründə (1988-1994) Azərbaycanın 20% (17 min $km^2$) torpaqları işğal olunmuşdur. 20 mindən çox vətəndaşımız qətlə yetirilmişdir. 50 mindən çox azərbaycanlı yaralanmışdır. Minlərlə azərbaycanlı hələ də itkindir. Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulmuşdur.

1991-ci ildə Azərbaycan tərəfindən ləğv edilmiş Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı və Zəngilan), eyni zamanda Qazax, Ağstafa, Tovuz və Gədəbəy rayonlarının Ermənistanla həmsərhəd əraziləri və Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarının ərazisi də işğal olunmuşdur.

Nəticədə işğal olunmuş ərazilərdə 6 şəhər, 12 şəhər tipli qəsəbə, 830 əyalət, 700 xəstəxana və tibb müəssisəsi, 4366 ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər təhsil müəssisəsi, 4 səhiyyə mərkəzi, 927 kitabxana, 4,6 milyon kitab və əlyazma nüsxəsi, 6 dövlət teatrı, 368 klub, 85 musiqi məktəbi, 6000 sənaye və k/t müəssisəsi, 1200 km suvarma sistemi, 244 min qoyun və 69 min iribuynuzlu mal-qara, 35.000 abonentlik telefon stansiyası, 2500 transformator yarımstansiyası və 15.000 km elektrik xətti talan edilmişdir.

Qeyd etmək yerinə düşər ki, Azərbaycanın yay otlaqlarının 70%-i işğal olunmuş ərazilərdə yerləşir. Eyni zamanda 1993-cü ildə 206,6 min kubmetr qiymətli ağac növü Ermənistana daşınmışdır. Erməni terroru nəticəsində xalqımıza dəyən ziyanı sadalamaqla qurtarmaz".

Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı təcavüzü nəticəsində xalqımızın verdiyi qurbanların, itkilərin sayı və

xarakteri barədə dünya ictimaiyyəti hələ də tam təsəvvürə malik deyil.

Artıq lokal qarşıdurma miqyasından çoxdan çıxmış bu münaqişə uzun müddətli və qanlı hərbi, etnik münaqişəyə çevrilmişdir. Münaqişənin əsasında konfessional yox, etnik amillər durur. Konfliktin qaynaqları Ermənistanın siyasi müstəmləkəçiliyi və ərazi işğalları ilə bağlı olub, başlıca məqsədi hərbi güc tətbiq edilməsi yolu ilə digər müttəfiq respublikanın-Azərbaycanın ərazisinin bir hissəsinin ələ keçirilməsinə yönəlmişdir. Ermənistanın bu qara niyyətləri faktiki olaraq keçmiş SSRİ rəhbərliyi tərəfindən dəstəklənirdi. Məhz həmin rəhbərliyin ermənipərəst mövqeyi və dəstəyindən istifadə edən DQMV icra strukturları antikonstitusiya xarakterli aktlar qəbul etmişdilər ki, bunlar Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi aksiyalara başlamasının başlıca səbəbləri olmuşdur.

Münaqişə başlayarkən Azərbaycan və Ermənistan Sovetlər İttifaqının tərkibində olduğu üçün onu SSRİ çərçivəsində həll etməyə çalışırdılar. 1989-cu ilyanvarın 12-də SSRİ ali Soveti Rəyasət Heyəti DQMV-də milli münaqişənin gərgin olaraq qalması ilə əlaqədar və münaqişənin daha da kəskin xarakter almaması və regionda vəziyyəti stabilləşdirmək məqsədilə Dağlıq Qarabağın Azərbaycan ərazisində muxtar vilayət statusunu saxlamaq şərtilə DQMV-də A.Volskinin sədrliyi ilə xüsusi idarə Komitəsinin yaradılmasına qərar vermişdi. Komitə birbaşa SSRİ-nin ali orqanlarına tabe idi. Yerli dövlət orqanlarını və DQMV-ni idarə etmək Komitəyə tapşırılmışdı və vilayət xalq deputatları Şurası komitəsinin icra aparatı onun işçi orqanı vəzifəsini yerinə yetirirdi. Bu qərar münaqişənin həllini yaxınlaşdırmaqdansa, DQMV-də baş verən proseslərin Azərbaycanın nəzarətindən çıxmasına start verdi. Həmin dövrdə mən (müəllif Sadir Məmmədov) Şuşa rayon Daxili İşlər Şöbəsinin rəisi vəzifəsində xidmət edirdim. A.Volski açıq-aşkar öz ermənipərəstliyini gizlətmədən DQMK-nin ərazisində yaşayan azərbaycanlıların deportasiyasını təşkil edirdi. Bundan məlumatlı olan Azərbaycan hökuməti isə bu prosesin qarşısını almaqda aciz idi.

Qatı millətçilik və duşmənçilik xəstəliyinə yoluxmuş yerli ermənilər də artıq sozeşitməz, idarəolunmaz hala gəlmişdilər. Onlara havadarlıq edən rus hərbçiləri hadisələri bir az da qızışdırırdılar. Xususi İdarənin rəhbəri A.Volskinin acıq-aşkar ermənipərəstliyi, Yerevana yarınması və Moskvaya xidmət etməsi hamıya məlum idi.

Xankəndində mitinqlər Yerevandan gələn emissarlar tərəfindən bir ssenari üzrə təşkil olunurdu. Mitinqçilərə yemək-içmək verilir, isti qış geyimləri paylanılırdı. H.Poqosyan, Z.Balayan, S.Kaputikyan, R.Koçəryan, V.Dadamyan, S.Manuçarov və başqaları ekstrimist çıxışlar edirdılər. "Dağlıq Qarabağ Ermənistanla birləşməlidir!", "Ana Ermənistan, Arsax səninlə birləşməlidir" kimi separatçı şüarlar səsləndirilirdi.

Mitinqlərin ilk günlərindən SSRİ Ali Sovetinin sədr müavini Demiçev və MK-nin katibi Razumovskinin rəhbərliyi ilə Xankəndinə (Stepanaket) ezam olunmuş nümayəndə heyəti erməni ekstrimistlərinin bu antikonstitusion fəaliyyətlərinə seyrçi mövqedən yanaşır və mitinqçilərin təhlükəsizliyinin təmin olunmasını hüquq mühafizə orqanlarından tələb edirdilər.

1989-cu il oktyabrın 4-də Şuşanın Qala dərəsi erməni kəndinin ərazisində Bərdədən taksi ilə gələn 4 nəfər azərbaycanlı qətlə yetirilmişdi.

Moskvadan, Yerəvandan Qarabağa, Xankəndinə çağrılmamış "qonağın" biri gəlir, biri gedirdi. Vəziyyəti ekstremist çıxışları ilə qızışdıran Q.Starovoytovanı və Z.Balayanı vilayətdən çıxartmaq tələb olunsa da, onlar sərbəst gəzib dolaşırdılar.

Stepanakertdə Vilayət Xalq Deputatları Sovetinin orqanı "Sovetskiy Karabax" qəzeti yalnız erməni və rus dillərində cıxırdı. Qəzet antiazərbaycan, antiturk təbliğat ruporuna cevrilmişdi, şovi- nist ruhlu məqalələr çap olunurdu.

Qarabağ hadisələri başlanandan erməniprəstliyi ilə seçilənRusiya mətbuatı da Azərbaycan əleyhinə sistemli, ardıcıl şəkildəməqalələr çap edir, azərbaycanlıların düşmən obrazını yaratmağaçalışırdı.

DQMV DİI-də Daşnaksütyunun hökmü keçirdi.

“Krunq” təşkilatı da fəallaşmışdı. Kim onlara qarşı cıxırdısa, erməni, rus, azərbaycanlı fərqi qoyulmurdu – aradan götürülürdü.

Dağlıq Qarabağ Muxtar Vilayəti Daxili İşlər İdarəsi supurgəçisindən, katibəsindən tutmuş rəisinə, serjantına qədər ermənilərdən ibarət idi.

Dağlıq Qarabağa erməni milislərinin himayəsi altında separatçılar üçün gecə-gündüz silah-sursat, partlayıcı maddələr daşınırdı.

Həsənabadda həbsxanada xususi kameralara salınan erməniquldurlar az sonra SSRİ Daxili İşlər Nazirliyinin muhafizəsinə verilirdi. Hətta onların Azərbaycanın əməliyyat işçiləri tərəfindəndindirilməsinə icazə verilmirdi.

Erməni ekstrimistlərinə qarşı “əməliyyat tədbirləri keçirməyə rus hərbiçiləri acıq-aşkar mane olurdular. Onların gözu qabağında “Miatsum” birliyinin lideri İ.Muradyan Dağlıq Qarabağa bir vertolyot silah gətirir – “gormurdulər”. Hadrutda iri silah-sursat anbarı yaradılır – ermənilərdən haqq-hesab sorulmurdu. Vilayət ərazisində silah istehsalı ucun kənardan şubhə doğurmayacaq muəssisələr secmişdilər. Məsələn, qumbara istehsalı Xankəndindəki asfalt zavodunda təşkil edilirdi.

1988-ci ilin dekabrında Spitakda zəlzələdən sonra guya ziyan görmuş əhaliyə komək adı ilə Ermənistana coxlu silah gətirildi. Livandan, Suriyadan İrəvana gələn təyyarələrdə yungul və ağır silahlar daşınırdı. Ermənistan ərazisində formalaşdırılan hərbidəstələr Azərbaycana qarşı silahlı terrora qoşulurdular. Məsələn, 1989-cu ildə Dağlıq Qarabağda 80 diversiya-terror qrupu fəaliyyətgostərirdi.

Kosalar, Xocalı, Meşəli, Kərkicahan, Həsənabad və digərkəndlərin ətraf aləmlə butun əlaqələri erməni təxribatcı-terror qrup larının nəzarəti altına alınmışdı. Yalnız 1989-cu ilin doqquz ayı ərzində həmin kəndlərə46 dəfə hucum etmişdilər.

Erməni cinayətkarlar həbs olunanda girov goturulmuş azər – baycanlılarla dəyişdirilirdi. Azadlığa buraxılmış cinayətkar yenidən

separatcıların, yaraqlıların sırasına qatılır, daha dəhşətli və qanlı cinayətlər törədirdi” [19, 123].

Həmin dövrün qısa qanlı salnaməsi dediyimizin təsdiqi ola bilir:

8 aprel 1991-ci il SSRİ DİN Daxili Qoşunlar İdarəsi rəisinin muavini, polkovnik V.Blaxotin, batalyon komandiri O.Larionov pusquya duşub erməni saqqallıları tərəfindən öldürüldülər.

Şuşa–Ağdam yolu ilə gediş-gəliş qorxulu olmuşdu. Şəhərə gəlib gedənləri Şuşa milisi muşayiət etməli olurdu.

26 yanvar 1990-cı il. Ağdamdan Şuşaya gələn maşın karvanıgulləbaran edildi. Maşınlardan biri yandırıldı, 3 azərbaycanlı isə yaralandı.

Elə həmin gun daha 6 avtomaşına quldur basqını oldu.

Laçın–Şuşa yolu da ən qorxulu, təhlukəli noqtələrdən biri idi. Erməni kəndlərinin əhalisi yolboyu talanla-qarətlə məşğul olur, qanlı qətllər torədirdilər. Jurnalist Salatın xanım Əsgərova burada – Laçın-Şuşa yolunda xaincəsinə qətlə yetirildi.

7 yanvar 1990-cı ildə Kərkicahana hücum zamanı ermənilərgeri otuzdurulur. Bu doyuşdə rəis başda olmaqla Şuşa milis şöbəsinin şəxsi heyəti şucaət və fədakarlıq gostərdilər.

15 yanvar 1990-cı ildə ermənilər tərəfindən Kərkicahanda ucazərbaycanlı qətlə yetirilir. Terrorçulara qarşı əməliyyat planı hazırlanır. Atışma zamanı 6 erməni terrorçu məhv edilir, 8 nəfəri isə yaralanır. Bütün bu əməliyyatlara Sadir Məmmədov özü başçılıq edirdi. Ona görə də o ermənilər tərəfindən mutəmadi təqib olunurdu.

1991-ci il sentyabrın 25-də Əsgəran rayonunda Ağbulaq kəndi atəşə məruz qalır. Milis əməkdaşlarından Mehdiyev şəhid olur, Qarayev isə ağır yaralanır;

Xankəndi ərazisində sərnişin avtobusu atəşə tutulur, sürücüZeynalov həlak olur, ikinci sürücü A.Əliyev yaralanır, vilayət prokurorluğunun müstəntiqi S.Səfərov aldığı yaradan yerindəcə dünyasını dəyişir.

Şuşa rayon daxili işlər şöbəsi movcud vəziyyətlə əlaqədarfunksiyasını dəyişmişdi. Şuşa milisi bilavasitə şəhərdə, rayonda asayişi, qanunculuğu qorumurdu, əldə silah döyüşmək, girovlarınazad edilməsi, ekstremist, separatçı ünsürlərin tutulub həbs olunması da şöbənin işinə daxil idi.

Əməliyyat qrupunun, şəxsi heyətinin hər bir üzvü hər günbir döyüşçu kimi işə çıxırdı. Dəfələrlə muhasirəyə də düşmüşdülər,girov götürülmək təhlukəsi ilə uzləşmişdilər, polkovnikin peşəkarlığı və tədbirli olması nəticəsində sağ-salamat qurtulmuşdular. Elə polkovnikin özünü də dəfələrlə girov götürməyə cəhd etmişdilər.

Meşəli kəndinin ətraf kəndlərlə, şəhərlə əlaqəsi tamam kəsilmişdi. Təpədən dırnağa qədər silahlanmış erməni kəndlərininəhatəsində, mühasirədə qalmışdı. Silahsız kənd camaatı qorxu-təlaş içində yatıb dururdu.

Xankəndində yaşayan azərbaycanlılar sıxışdırılır, kutləvi surət də işdən qovulurdu. Bu işlərin başında duranlardan biri və birincisi, təşkilatçısı və ilhamçısı, Stepanakert ipək kombinatının di- rektoru R.Koçəryan idi (sonralar Ermənistan prezidenti oldu).

Dağlıq Qarabağda azərbaycanlıların sayı azalmışdı. Onlarınyerinə kənardan ermənilər kənd təsərrufatı işlərində kömək adı iləgətizdirilir, pasport qeydiyyatına alınırdı. Ermənistan vətəndaşı olan ekstrimistlərin, “boyevik”lərin hesabına əhalinin sayı süni surətdə artırılırdı.

Göstərilən dövrdən etibarən Ermənistan hərbi birləşmələri mütəmadi olaraq Azərbaycanın ərazisinə daxil olmağa başlamış, burada hərbi poliqon yaratmaq üçün böyük miqdarda silah və sursat göndərilməyə başlamışdı. Bunlarla eyni vaxtda Azərbaycanın ərazisindəki ermənilər silahlandırılır, azərbaycanlı əhaliyə qarşı terror aktları törədilir, onların evləri yandırılır, özləri, ailələri, qoca və uşaqlar fiziki cəhətdən məhv edilir, Ermənistanla sərhəddə olan Azərbaycan kəndləri, qəsəbə və rayonları müntəzəm olaraq Ermənistanın ərazisindən atəşə tutulurdu.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsinin qızışdırılmasına SSRİ dövlətinin siyasi rəhbərliyinin imperiya siyasəti də meydan açırdı. Belə ki, Azərbaycanda genişlənməkdə olan milli-azadlıq hərəkatına divan tutmaq üçün «qayda-qanun yaratmaq» adı altında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə azğınlaşmış sovet qoşun hissələri Bakıya və Azərbaycanın digər rayonlarına yeridildi, hərbi cinayətlər görünməmiş miqyas aldı. «Qorbaçov» hərbi his-

sələrinin respublikamıza yeridilməsi nəticəsində müxtəlif millətlərə və dillərə mənsub olan yüzlərlə Azərbaycan vətəndaşı güllələndi, tankların tırtılları altında əzildi. Azərbaycanın dinc sakinlərinə qanlı divan tutulması «respublikada hakimiyyəti ələ keçirməyə çalışan islam fundamentalistlərinə qarşı mübarizə» adı altında həyata keçirilirdi. SSRİ prezidenti M.Qorbaçov sovet xalqına müraciətdə demişdi ki, Azərbaycanda islam quruluşu yaradılmağa cəhd göstərildiyinə görə, Bakıya hərbi qüvvələr yeridilməsinə şəxsən göstəriş vermişdir. Bu proses nəticəsində günahsız adamlar öldürülmüş, respublikamızın iqtisadiyyatına böyük ziyan dəymişdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişə zonasında iri miqyaslı hərbi əməliyyatlar 1991-ci ilin sonlarına təsadüf edir. Məhz həmin dövrdən etibarən müasir silahlarla silahlanmış Ermənistan hərbi qüvvələri və erməni hərbi birləşmələri bütün Ermənistan-Azərbaycan sərhəddi boyu və Dağlıq Qarabağda Azərbaycana qarşı hərbi əməliyyatlara başlamışdılar. Ermənistan silahlı qüvvələrinə həlledici dəstəyi rus ordusunun 366-cı motoatıcı alayı göstərdi, onun köməyi ilə Azərbaycana məxsus bir sıra yaşayış məskənləri tutuldu, 1992-ci il fevralın 25-26-da Xocalı şəhəri vəhşicəsinə yerlə yeksan edildi, əhalisinə qanlı divan tutuldu, min nəfərdən yuxarı dinc əhali öldürüldü. Az sonra-həmin ilin mayında Ermənistan Respublikasının silahlı qüvvələri Şuşa rayonunu işğal etdilər, on minlərlə azərbaycanlı öz yurd-yuvasından qovuldu, bununla da Dağlıq Qarabağ ərazisinin etnik təmizlənməsi başa çatdı. 1992-ci ilin mayından 1993-cü ilin oktyabrınadək Ermənistan silahlı qüvvələrinin fəal iştirakı ilə Azərbaycanın daha yeddi rayonu işğal olundu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının işğalı və azərbaycanlı əhalinin qovulması nəticəsində Azərbaycan-İran sərhəddinin 161 km-lik hissəsi Ermənistanın əlinə keçdi və nəzarətsiz zonaya çevrildi.

Ermənistan Respublikasının beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymaması, 1949-cu il Cenevrə konvensiyasını, 1975-ci il Helsinki yekun aktının tələb və şərtlərini kobud şəkildə pozması nəticəsində müasir dünyanın təhlükəsizlik arxitekturasına

ciddi zərər dəymiş, BMT Nizamnaməsinin müddəalarına, ATƏT-in «Bəynnamə prinsiplərinə» məhəl qoyulmaması nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, Qarabağın azərbaycanlı əhalisi Ermənistanın sistemli şəkildə respublikamıza qarşı yeritdiyi genosid siyasəti nəticəsində fiziki cəhətdən məhv edilmiş, torpaqlarının 20 faizi işğal olunmuş, 1 mln. nəfərdən yuxarı vətəndaş və soydaşımız öz doğma vətənində qaçqına, didərginə çevrilmişdir.

Kəlbəcərli azərbaycanlılar – öz ata-babalarının məzarını ziyarət edərkən işğalçı erməni qüvvələri tərəfindən girov götürülən (üçüncü soydaşımız Həsən Həsənov öldürülüb) Dilqəm Əsgərov və Şahbaz Quliyevin məsələsi hələ də qaranlıq qalır. İstər ABŞ rəsmilərinin (dövlət katibinin müavini V. Nuland, C. Psaki, amerikalı həmsədr C. Uorlik), istərsə də Rusiyanın (xarici işlər naziri S. Lavrov, digər XİN yetkililərinin) onları ya azad, ya da mübadilə eləmək barədə çağırışlarına, hələ ki, erməni tərəfi məhəl qoymur, bu çağırışları isterika ilə qarşılayır.

Paralel surətdə saxta "DQR"-in PR reklamı üçün soydaşlarımız üzərində "məhkəmə" oyunu israrla davam etdirilir. Hətta fevralın 26-da – Xocalı soyqırımının ildönümündə girovlarımızın "apelyasiya şikayəti"nə baxılıb. Guya, 2001-ci ildə separatçı qurum "hərbi əsir", "hərbi cinayətkarlar" və s. kimi istilahları özündə əks etdirən müxtəlif beynəlxalq konvensiyalara qoşulub. Əslində isə Qarabağ separatçıları heç bir halda bu konvensiyalara qoşula bilməzlər, çünki özfəaliyyət kimi elan elədikləri "DQR" beynəlxalq hüququn subyekti deyil. Onu heç İrəvan da tanımayıb. Halbuki, beynəlxalq normalara görə, Əsgərov və Quliyevin əməlləri Azərbaycan Respublikasının ərazisində baş verib və onların əməllərində cinayət tərkibinin olub-olmadığına da Azərbaycanın səlahiyyətli orqanları tərəfindən qiymət verilməlidir, əlbəttə ki,əgər belə əməllər varsa".

Təbii ki, yaranmış şəraitin özü hüquqa ziddir, çünki dünya birliyinin gözü qarşısında 1945-ci il BMT Nizamnaməsinin prinsipləri pozulur, regionda qeyri-sabitliyi şərtləndirən real təhlükə ocağı yaranıb.

Həqiqətdə, bununla BMT Baş Məclisinin münaqişələrin qarşısının alınması ilə bağlı rolu və əhəmiyyəti azalır, Təhlükəsizlik Şurasının bu sahədə fəaliyyəti heçə endirilirdi. BMT Nizamnaməsində xüsusi olaraq qeyd edilir ki, Təhlükəsizlik Şurası, Şuranın üzvü olmayan ölkələrdə potensial münaqişəli vəziyyətlərlə məşğul olmağı daim diqqət mərkəzində saxlamalı,Baş Məclisin üzvü olan dövlətlər isə silahlı münaqişələrin qarşısının alınması məsələlərilə bağlı öz mövqelərini bildirməlidirlər.

Son dövrdə BMT Təhlükəsizlik Şurasının transparentlik səviyyəsinin yüksəldilməsinə, iş metodlarının təkmilləşdirilməsinə baxmayaraq, müasir beynəlxalq münasibətlərin reallıqları sübut edir ki, (xüsusilə Mərkəzi Qafqaz regionunda) yalnız zorakılığın kütləvi xarakter daşıdığı böhranlı və fövqəladə şəraitlərdə Təhlükəsizlik Şurası hadisələrə aktiv müdaxilə edir. Bununla əlaqədar, belə hesab etmək olar ki, dünya birliyinin yeni metod və vasitələr axtarması məqsədilə Təhlükəsizlik Şurasının preventiv tədbirlərə əl atması beynəlxalq hüquq qaydalarına uyğundur. Belə vasitələrə misal olaraq BMT Baş Katibinə beynəlxalq sülhə və təhlükəsizliyə başlıca təhlükə olan münaqişələrə dair məruzələri, habelə preventiv xəbərdarlıq tədbirlərini aid etmək olar. Belə məruzələr, əsasən, regional münaqişələrə və sərhəd məsələlərinə (qeyri-qanuni silah daşınması, qaçqınlar problemi, insan alveri, muzdluların göndərilməsi və s.) aid ola bilər, çünki bunlar müəyyən regionda sülh və təhlükəsizliyə potensial təhlükə mənbələri sırasındadır.

Etnik konfliktlərin qarşısının alınmasının digər yolu və ya üsulu BMT Təhlükəsizlik Şurasının missiyaları hesab edilə bilər, bu missiyalar zamanı hərbi münaqişələrə dair faktlar dəqiq müəyyənləşdirilir ki, onların vasitəsilə preventiv tədbirləri görmək mümkün olur. Belə təcrübə öz tarixçəsini Kosovo münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurasının 1244 (1999) saylı qətnaməsinin reallaşdırılmağa başladığı vaxtdan götürür. Bu, BMT missiyasına imkan verdi ki, müəyyənləşdirilmiş faktlara əsasən, potensial münaqişə rayonuna müvafiq preventiv strateji konsepsiyanın işlənib hazırlanması üçün ekspertlər qrupunun göndərilməsini həyata keçirsin.

Məsələ hərbi və etnik münaqişələrin qarşısının alınması ilə bağlı məsələlərin müzakirəsi üçün yeni mexanizmlərin yaradılması imkanlarının müəyyənləşdirilməsindən ibarətdir. Belə mexanizmlər daimi xarakterli qeyri-rəsmi işçi qrupu və ya köməkçi orqandan, habelə qeyrirəsmi texniki mexanizmdən ibarət ola bilər. Bu alətin köməyi ilə istənilən şəraitdəki hər hansı mübahisəni təhqiq etmək və müəyyənləşdirilmiş faktlardan istifadə edərək mübahisənin münaqişəyə çevrilməsinin qarşısını almaq nəzəri cəhətdən mümkündür.

Mərkəzi Qafqazdakı dövlətlərarası münasibətlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc və siyasi yollarla nizama salınması mühüm yer tutur. Yaddan çıxarmaq olmaz ki, Azərbaycan xalqının tarixi dəyərləri və milli ibadətgahları içərisində Qarabağın aran və ya dağlıq hissəsi yox, Qarabağ ərazisi bütünlüklə tarixi-mədəni, geoiqtisadi, təbii-təsərrüfat regionu olmaq baxımından, həmişə prioritet əhəmiyyətə malik olmuş və indi də belədir. Çünki Qarabağ Azərbaycan xalqının etnogenezisinin, Azərbaycanın siyasi tarixinin mühüm tarixi ocaqlarından biridir. Qarabağda Azərbaycanın milli dövlətçiliyinin, etnik identikliyinin qorunması və möhkəmlənməsinin qədim tarixi kökləri mövcuddur.

Bu səbəbdən, təsadüfi deyildir ki, müasir Azərbaycan dövlətinin milli siyasətinin başlıca müddəalarından birini təşkil edən bu vəzifənin icrası ölkəmiz üçün həyati-strateji əhəmiyyətə malikdir. Lakin reallıq belədir ki, Qarabağ erməni təcavüzünün və separatçılığının qurbanıdır. Təşəbbüskarının Ermənistan olduğu və «Böyük Ermənistan» xülyası ilə bağlı olan bu müharibənin qurbanları azərbaycanlılardır - evindən, yurdundan qovulan, öz vətənində qaçqına çevrilən bir miylon nəfərdən yuxarı həmvətənimiz çadırlarda ağır həyat sürür, işğal olunmuş Azərbaycan torpaqları ətrafında siyasi alver gedir, ATƏT-in «insan ölçüləri» və «Bəyannamə prinsiplərinin» tələbləri kobud şəkildə pozulur. Halbuki belə münaqişələrin qarşısı beynəlxalq təşkilatların və dünya birliyinin səyləri ilə vaxtında alınmazsa, onların yaratdığı potensial təhlükə nəinki regional, həm də bütün beynəlxalq təhlükəsizlik arxitekturasına olduqca böyük təhlükə törədə bilər.

Bu tipli konfliktlərlə bağlı yaranmış problemlər, nəinki Cənubi Qafqaz respublikaları üçün, bütövlükdə götürüldükdəMDB dövlətləri üçün də ümumidir. Qarşılıqlı bağlılıqda və aslılıqda olan dünyamızda yalnız birgə səy göstərilməsi və həmrəylik yolu ilə, bütün maraqlı tərəfləri cəlb etməklə regionun xalqlarını bu münaqişə ilə bağlı sonu olmayan qeyri-müəyyənlikdən qurtarmaq olar. Bu münaqişədə Rusiyanın rolu sözün həqiqi mənasında əhəmiyyətli dərəcədə böyükdür, Rusiya öz maraqları daxilində bütün Qafqaz regionu xalqlarını regional münaqişələrin məhrumiyyətlərindən dinc yollarla qurtarmaq imkanlarına malikdir. Doğrudur, regionda çox şey Rusiyanın yeritdiyi strateji xəttin ardıcılığından, həm ərazi bütövlüyünün, həm də bütün postsovet məkanında yerləşən dövlətlərin ərazi bütövlüyünün təmin edilməsi ilə əlaqədar siyasi xəttindən də asılıdır. Azərbaycan xalqının taleyüklü məsələsi olan bu problemin nizamlanması yolunda Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəs haqqında Bişkek sazişinin imzalanması müsbət addımdır. 1994-cü il mayın 12-də Bişkekdə qüvvəyə minmiş (baxmayaraq ki, ermənilər tərəfindən bu qaydalar mütəmadi olaraq pozulur) bu sazişə artıq 25 ildir ki, əməl edilir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla nizamlanması, fəaliyyətlərin əlaqələndirilməsi, problemin aradan qaldırılması üçün beynəlxalq vasitəçiliyi ATƏT-in Minsk Qrupu həyata keçirir.

1992-ci ilin martından fəaliyyət göstərən Minsk Qrupu yeganə orqandır ki, münaqişənin nizamlanması ilə bağlı hamılıqla qəbul ediləcək tənzimlənmə modelinin hazırlanması imkanlarına malikdir.

Təəssüf ki, "başda BMT olmaqla Azərbaycan-Ermənistan müharibəsinə son qoymaq, iki ölkə arasında daimi sülh yaratmaq məqsədilə - ABŞ, Rusiya və Fransa dövlətlərinin təmsilçilərindən ibarət "Minsk Qrupu" təxminən 26 ildir ki, "turist xobbisi" ilə məşğul olur. Hələ də Azərbaycanın işğal olunmuş torpaqlarının sülh yolu ilə azad edilməsinin "işıq ucu" görünmür!... Bəlkə də işıq ucu yenidən qaranlıqlaşır".

BMT Təhlükəsizlik Şurasının ATƏT-in sülhməramlı tədbirlərinə dəstəyinə baxmayaraq, hələlik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tamhəcmli, iriformatlı danışıqların sülh müqaviləsinin imzalanması ilə nəticələnməsi və ya Minsk konfransının çağırılması və yaxud da ATƏT-in çoxmilli, sülhməramlı kontingentinin regiona yerləşdirilməsi erməni tərəfinin destruktiv mövqeyi üzündən mümkün olmamışdır.

Tənzimlənmə tədbirlərinin reallaşdırılması yalnız müasir beynəlxalq hüququn, dövlətlərin suverenliyi, münaqişədə olan tərəflərin ərazi bütövlüyü, habelə hələ Minsk Qrupu tərəfindən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrlə bağlı hazırladığı təxirəsalınmaz tədbirlərin yerinə yetirilməsi «Xəritəsinin» dəstəklənməsi şəraitində mümkündür. Bu baxımdan Avropa Şurası Parlament Assambleyasının «ATƏT-in Minsk konfransının nizama salınması ilə məşğul olduğu Dağlıq Qarabağ regionunda münaqişə» haqqında 1416 saylı, 25 yanvar 2005-ci il tarixli qətnaməsi də mühüm tarixi-geopolitik əhəmiyyətə malikdir.

BMT-nin keçmiş Baş Katibi B.Butros Qalinin dediyi kimi, zərurət yarandıqda ATƏT-in başçılıq etdiyi, məqsədi münaqişənin hərtərəfli nizamlanmasına nail olmaqdan ibarət təşəbbüsü də əhəmiyyətli beynəlxalq-hüquqi vasitələrdəndir.

Danışıqlar prosesinin başlıca mərhələləri kimi aşağıdakıları göstərmək mümkündür: ATƏT Şurasının Helsinki Əlavə görüşü (24 mart1992-ci il); ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon, 1999 İstanbul və 2010-cu il Astana sammitləri. 1994-cü il Budapeşt zirvə görüşünün qərarına əsasən Minsk Qrupunun həmsədrləri adlı vasitəçilik institutu yaradıldı. Onun başlıca tarixi missiyası çoxtərəfli və müntəzəm danışıqlar yolu ilə tərəflər arasında hərbi münaqişənin başa çatmasına dair siyasi Sazişin (Böyük Sülh Sazişi) imzalanmasına və buna əsasən, hərbi münaqişənin nəticələrinin aradan qaldırılmasına və nəhayət, Minsk konfransının çağırılmasına nail olmaq idi. Hərbi-siyasi münaqişənin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə nizamlanması yolunda ATƏT-in Lissabon zirvə görüşü (1996) daha böyük və praktiki əhəmiyyətə malikdir.

Sammitdə ATƏT-in fəaliyyətdə olan sədri F.Kottinin adından qəbul edilmiş Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsinin nizamlanmasının üç prinsipi öz əksini tapmışdı: 1)Ermənistan və Azərbaycan Respublikasının ərazi bütövlüyü; 2)Dağlıq Qarabağın Azərbaycanın tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyənləşən ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu; 3) Məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyinin təmin olunması.

Ermənistan Respublikasının Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə Azərbaycan ərazilərinin zəbt edilməsi, milyona yaxın insanın qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmamışdır. Azərbaycan xalqına qarşı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmış terror və soyqırımı siyasəti Azərbaycan türklərinin tarixinə, mədəni, dini abidələrinə və etnik-mədəni dəyərlərinə də ağır zərbələr vurmuşdur.

İstənilən müharibə həm də bəşər övladının zəkasının və istedadının çoxəsrlik bəhrələrinin dağıdılması deməkdir. Qarabağdakı müharibə, həm də insanın yaddaşı əleyhinə olan müharibədir. Erməni rəhbərlərinin Qarabağda Azərbaycan türklərini xatırlada biləcək hər şeyi məhv etmək cəhdi tarixi abidələrin, mədəni dəyərlərin terroruna çevrildi. Bəşər tarixinin ilk dövrləri üçün səciyyəvi olan belə təzahürlərin qarşısının alınması XXI yüzilliyin əvvəllərində beynəlxalq ictimaiyyətin qarşısında dayanan ən vacib məsələlərdən biri olmaqda qalmaqdadır.

Qarabağ torpağı tarixi kökləri ilə ən qədim dövrlərə bağlıdır, belə ki, Kür-Araz çayları arasındakı ərazi sivilizasiyanın ən qədim ocaqlarından biri sayılır. Məhz Qarabağda, Füzuli rayonunun ərazisində 1 (bir) mln. 200 min il bundan əvvəl Azıx mağarasında ilk insan yaşayışının izləri aşkar edilmişdir. Azıx mağarası Azərbaycan tarixinin, həm də bütün Yaxın və Orta Şərq tarixinin öyrənilməsi üçün böyük etnoqrafik və arxeoloji əhəmiyyətə malikdir. Eyni fikirləri bəşər tarixinin öyrənilməsi üçün dəyərli material verən və dünya

miqyasında böyük əhəmiyyətə malik olan Xantəpə, Kültəpə, Şomutəpə və bir çox digər arxeoloji abidələr haqqında da söyləmək mümkündür.

Bundan əlavə, işğal edilmiş Qarabağ torpaqlarında Azərbaycanın alban tarixi dövrünə məxsus olan böyük sayda abidələr qalmışdır: Vəngzəsər xristian məbədi (Ağdərə şəhərinin yaxınlığında), Qara Böyük xanım sarayı (Şuşa), Atoğlan monastırı (Xaçın rayonu), Əsgəran qalası, Amaras monastırı (Xocavənd rayonu) və s.

1992-1994-cü illərdəki hərbi kampaniya nəticəsində böyük bir zona, Azərbaycan ərazisinin demək olar ki, 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Dörd il (1988-1993) davam edən hərbi əməliyyatlar nəticəsində minlərlə insan öldürülmüş, yüzlərlə Azərbaycan vətəndaşları girov götürülmüşdür ki, onların da əksəriyyətini qocalar, qadınlar və uşaqlar təşkil etmişdir, 1 milyondan artıq insan daimi yaşayış yerini tərk etməyə məcbur olmuş, öz tarixi torpaqlarında qaçqına çevrilmişdir. Bütün bu əməliyyatlar nətcəsində dünya mədəni irsinə Azərbaycan xalqının verdiyi çox qiymətli daşınan və daşınmaz abidələr, mədəni dəyərlər talan edilmiş, dağılmış və ya məhv edilmişdir. Bu müharibə Azərbayanın mədəni irsinə və son nəticədə isə bütün bəşəriyyətə çox böyük tarixi və mədəni zərər vurmuşdur.

Hərbi əməliyyatların gedişində Ermənistan tərəfindən işğal olunmuş rayonlarda 500-dən çox tarixi-memarlıq və 100-dən çox arxeoloji abidə, 9 tarixi saray, 22 muzey, 4 rəsm qalereyası dağıdılmışdır ki, onların da fondlarında 40 mindən artıq qiymətli əşyalar yığılmışdı. Məsələn, bizim eramızdan əvvəl III minilliyin tarixini əks etdirən qızıl və gümüş məmulatlardan ibarət nadir eksponatlar Kəlbəcər tarix muzeyinin, qədim sikkələrin nadir kolleksiyasına malik olan Xaçın tarix muzeyinin, Şuşa tarix muzeyinin və Qarabağ tarix muzeyinin, Ağdam çörək muzeyinin (dünyada ikinci belə muzey yoxdur), Zəngilan rayonundakı daş monumentlər muzeyi və digərlərinin taleyi məlum deyildir. Şuşadakı nadir ikiminarəli məscid və digər işğal olunmuş rayonlardakı məscidlər dağıdılmışdır. Etik normaların əksinə olaraq və silahlı münaqişə zamanı mədəni dəyər-

lərin qorunması haqda 1954-cü ilin Haaqa konvensiyasının qərarını kobud şəkildə pozaraq erməni separatçıları bu məscidləri anbarlara və yardımçı binalara çevirmiş, XVIII əsr dahi Azərbaycan şairi və mütəfəkkiri Molla Pənah Vaqifin məqbərəsini məhv etmişlər.

Hərbi əməliyyatların getdiyi rayonlarda Azərbaycanın mədəniyyəti və incəsənəti üçün böyük əhəmiyyətə malik olan teatrlar, mədəniyyət evləri, klublar, kitabxanalar, uşaq musiqi məktəbləri qarət edilmiş və sistemli şəkildə dağıdılmışdır. Qarət edilmiş və yandırılmış 927 kitabxanada 4,5 mln. kitab və çox qiymətli əlyazmalar məhv edilmişdir. Mədəniyyət və incəsənət müəssisələri, o cümlədən 6 dövlət teatr və konsert kompleksi, 386 klub və 85 musiqi məktəbi də qarət edilmiş və dağıdılmışdır. Teatr rekvizitlərinin, səhnə kostyumlarının, texniki vəsaitlərin, musiqi alətlərinin, dərs vəsaitlərinin, həmçinin avadanlıqların köçürülməsinə belə erməni işğalçıları tərəfindən imkan verilməmişdir.

Azərbaycan Respublikasının Prezidentinin qeyd etdiyi kimi,"Təcavüzkar erməni millətçiləri xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırım siyasəti həyata keçirmişlər. Azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə mifik "böyük Ermənistan" yaratmaq məqsədi ilə Azərbaycan və türk xalqları onillər boyu müntəzəm surətdə ermənilərin ideoloji, hərbi və mədəni təcavüzünə məruz qalmışlar. Xalqımızın tarixi kobud surətdə saxtalaşdırılmış, mədəniyyətimiz,toponimlərimiz ermənilər tərəfindən özününküləşdirilmişdir..."

Ermənistan Respublikası beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq bütün dünyanın gözü qarşısında Azərbaycanın islam irsinə aid olan mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir.

Azərbaycan tarixi, mədəniyyəti, arxeologiyası, etnoqrafiyası və memarlığı Azərbaycan xalqının tarixinin ayrılmaz hissəsi kimi İslam irsinin mənbələrindən biridir.

Düzdür, BMT-nin Toplantılarında Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş

ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında bir sıra qətnamələr qəbul edilmişdir. Bu qətnamələrdə Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən İslam irsinə vurulmuş böyük zərərlərin, İslam mədəniyyətinə aid dini-tarixi abidələrin, xüsusən məscidlərin, məbədlərin, qədim məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qaleriyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya bir qisminin dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmaların çıxarılması və məhv edilməsi faktlarına diqqət yetirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev informasiya və əks-təbliğat işinin qurulmasında bu erməniçilik amilinin nəzərə alınmasına, dünya ictimaiyyətinin və siyasi dairələrin diqqətini cəlb etmək üçün daha genişmiqyaslı və müntəzəm tədbirlərin həyata keçirilməsinə çağırmışdır. Bu, yalnız Azərbaycan xalqının müdafiəsi naminə deyil, bütövlükdə saxta erməni təbliğatını ifşa etmək vəzifəsi olaraq ortaya qoyulmuşdur (bax:“Ədəbiyyat qəzeti”, 26 aprel 2013).

Onu da qeyd edək ki, ilk qətnamə İslam Konfransı Təşkilatı Xarici İşlər nazirlərinin 1999-cu ildə Uaqaduquda keçirilmiş XXVI Toplantısında qəbul edilmiş və o vaxtdan etibarən cüzi dəyişikliklərlə İKT Xarici İşlər nazirlərinin 2000-ci ildə Kuala-Lumpurda keçirilmiş XXVII Toplantısında, İKT Dövlət və Hökumət başçılarının 2000-ci ildə Dohada keçirilmiş IX Zirvə konfransında, İKT Xarici İşlər nazirlərinin 2001-ci ildə Bamakoda keçirilmiş XXVIII Toplantısında və İKT Xarici İşlər nazirlərinin 2002-ci ildə Xartumda keçirilmiş XXIX toplantısında, 2003-cü ildə Tehranda keçirilmiş XXX Toplantısında qəbul edilmişdir.

Müxtəlif beynəlxalq təşkilatlar, ictimai-siyasi qurumlar (YUNESKO,İSESCO) da Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını pisləmiş, ona son qoyulmasını tələb etmişlər.

Bu qətnamələrdə Ermənistan tərəfindən etnik təmizləmə məqsədi ilə Azərbaycanda məscidlərin və islama aid olan digər müqəddəs yerlərin tam və vəhşiliklə dağıdılmasının vandalizm aktı olduğu

bəyan edilir, işğal altındakı ərazilərdə Azərbaycanın mədəni irsinə, tarixi, dini abidələrinə qarşı törədilən əməllər qeyri-insani hərəkətlər kimi pislənilmişdir.

İƏT (İslam Əməkdaşlıq Təşkilatı) xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konauridə keçirilmiş XXIII konfransları Ermənistan respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İƏT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü haqqında" adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişməz qalmışdır.

Bütün qətnamələrdə erməni təcavüzkarlarının Azərbaycan Respublikasanın işğal olunmuş ərazilərində İslam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətləri kəskin və ciddi surətdə pislənilir.

Onu da qeyd edəki ki, İƏT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Putraçayadab (Malayziya) keçirilmiş X konfranslarında qəbul edilmiş qətnamələrdə İƏT-ə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycanın ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür.

İKT toplantılarında Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və mütləq yerinə yetirilməsi tələb edilir.

14 may 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" Konvensiyanın müvafiq olaraq, birinci maddəsinə əsasən, mənşəyindən və sahibindən asılı olmayaraq aşağıdakılar "mədəni dəyərlər" və ya "mədəni mülkiyyət" sayılır:

1) hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyətə malik olan dini və ya dünyəvi memarlıq, incəsənət abidələri, yaxud tarixi abidələr, arxeoloji qazıntı yerləri, tarixi, yaxud bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları, incəsənət əsərləri, əlyazmaları, kitablar, bədii, tarixi, yaxud arxeoloji əhəmiyyətli digər əşyalar, həmçinin elmi kolleksiyalar, yaxud yuxarıda göstərilən dəyərlərin reproduksiyası kimi daşınar və daşınmaz dəyərlər;

2) başlıca və əsl təyinatı 1-ci bənddə göstərilən daşınmaz mədəni mülkiyyətin saxlanılması və ya nümayiş etdirilməsi olan müzeylər, iri kitabxanalar, arxiv xəzinələri kimi binalar, həmçinin silahlı münaqişə baş verdikdə 1-ci bənddə göstərilən daşınmaz mədəni dəyərləri (mülkiyyəti) qorumaq üçün nəzərdə tutulan sığınacaqlar;

3) 1-ci və 2-ci bəndlərdə göstərilən çox sayda mədəni dəyərlər olan "mədəni dəyərlərin cəmlənmə mərkəzi" adlandırılan mərkəzlər.

Mədəni mülkiyyətin beynəlxalq səviyyədə mühafizəsi məsələləri ilə əlaqədar olaraq ilk dəfə 1899-cu və 1907-ci ildə Haaqada keçirilən Sülh Konfranslarında müzakirələr aparılmışdı. Həmin vaxt mədəni mülkiyyətin universal anlayışı hazırlanmamışdı. Ona görə də Konfranslarda quru müharibəsinin adət və qanunlarının müzakirəsi aspektində ayrı-ayrı dövlətlər əmlakın mühafizəsi sistemini normalaşdırmağa cəhd göstərirdilər. 1907-ci il Haaqa Əsasnaməsinin 27-ci maddəsində göstərilir ki, mühasirə və bombardman zamanı imkan dairəsində ibadətgahlar, elm, incəsənət və xeyriyyəçiliyə xidmət edən binalara, tarixi abidələrə ziyan vurulmaması üçün bütün zəruri tədbirlər görülməlidir.

Mədəni mülkiyyətin silahlı münaqişələr zamanı mühafizəsi barədə növbəti və məhz bu məsələyə həsr olunmuş ilk beynəlxalq hüquqi sənəd 1935-ci il aprelin 15-də Vaşinqtonda bağlanmış "Elm və incəsənətə xidmət edən müəssisələrin, həmçinin tarixi abidələrin mühafizəsi haqqında" müqavilədir. Bu müqavilə təşəbbüskarın - rəssam, yazıçı və ictimai xadim Nikolay Rerixin adı ilə "Rerix Paktı" da adlandırılır. Lakin Rerix paktı mədəni mülkiyyətin mühafizəsi ilə bağlı bir çox zəruri normalar müəyyən etsə də, bu sənəd

universal xarakter daşımırdı. Yəni ancaq Amerika qitəsi dövlətləri üçün nəzərdə tutulmuş regional müqavilə idi.

II Dünya müharibəsi zamanı külli miqdarda mədəni mülkiyyətin dağıdılması və mənsub olduqları dövlətdən aparılması faktı dünya birliyini tezliklə silahlı münaqişələr zamanı mədəni dəyərlərin və obyektlərin mühafizəsi ilə əlaqədar sistem yaradılması zərurəti qarşısında qoydu. Bolqarıstanla Millətlər Birliyi arasında 28 oktyabr 1944-cüildə bağlanmış müqavilənin 2-ci maddəsi və 28 Fevral 1947-ci il Paris sülh müqaviləsinin 22- ci maddəsi restitusiya (pozulmuş hüququ bərpa etmə və zərərini ödəmə) prinsiplərini qəti sürətdə təsbit edirdi.

Mədəni mülkiyyətin həm dinc dövrdə, həm də müharibə zamanı mühafizəsi məsələlərində 1945-ci ildə Nizamnaməsi qəbul edilmiş BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) rolu böyükdür. Təşkilatın nizamnaməsinin 1-ci maddəsinin 2-ci bəndində onun vəzifələrindən biri kimi bəşəriyyətin ümumdünya irsinin- kitabların, incəsənət əsərlərinin və tarixi elmi əhəmiyyətli abidələrin qorunub saxlanılmasının və mühafizəsinin qayğısına qalmaq göstərilmişdir. YUNESKO-nun himayəsi altında qəbul edilmiş 14 may 1954-cü il tarixli Haaqa konvensiyasının 28-ci maddəsinə əsasən, iştirakçı dövlətlər öz cinayət qanunvericilikləri çərçivəsində vətəndaşlığından aslı olmayaraq bu Konvensiyanı pozmuş və ya pozmağı əmr etmiş şəxslərin üzə çıxarılıb barəsində cinayət və ya inzibati sanksiyalar tətbiq edilməsi üçün lazımi tədbirlərin görülməsini öz üzərinə götürürlər. Müvafiq olaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 116.0.8 maddəsində bu öhdəlik yerinə yetirildiyindən işğal olunmuş ərazilərimizdə bu tip cinayəti törədən şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün əsas yaradır.

Sözügedən Konvensiyaya əlavə Protokolda iştirakçı dövlətlərin Konvensiyanın1-ci maddəsində müəyyən edilmiş mədəni dəyərlərin münaqişə vaxtı işğal olunmuş ərazidən çıxarılmasının qarşısını almaq öhdəliyi də öz əksini tapmışdır.

YUNESKO-nun dəstəyi ilə qəbul olunmuş “Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mül-

kiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında" 14 noyabr 1970-ci il Konvensiyasının 2-ci maddəsi mədəni mülkiyyətin bununla bağlı bütün təhlükələrdən mühafizə olunmasını təmin edən ən təsirli hüquqi sənəd olduğunu qeyd etmək yerinə düşür.

26 mart 1999-cu ildə "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına 2-ci protokol qəbul edilmişdir. Bu protokol Konvensiyanın normalarını iki istiqamətə - silahlı münaqişə zamanı mədəni mülkiyyətin mühafizəsinin gücləndirilməsi və dövlətlərin bu sahədə beynəlxalq öhdəliklərinin daha səmərəli yerinə yetirilməsini təmin etməyə yönəlmişdir. Yeri gəlmişkən qeyd edək ki,Azərbaycan Respublikasının Milli Məclisi bu sənədi ratifikasiya etmiş və sənəd 2004-cü il mart ayının 9-dan qüvvəyə minmişdir.

Aldığı külli miqdarda zərərlərə görə Azərbaycanın müvafiq kompensasiya almaq hüququnun olduğunu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığını hesab edir.

"Hərbi münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının müddəalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində səyləri dəstəklənilir.

Azərbaycan xalqının mədəni irsinin yüzillər boyunca ermənilər tərəfindən "Gəldim, gördüm, mənimsədim" sxemi üzrə oğurlanması onların torpaqlarımıza olan ərazi iddiaları ilə sıx bağlıdır. "Böyük Ermənistan" haqqında mifin reanimatorlarının niyyətləri kifayət qədər aydındır: gəlmə etnos olan ermənilər onlara məxsus olmayan torpaqlara aid ərazi iddialarının "əsaslandırılmasını" həmin torpaqların həqiqi sakinlərinə məxsus maddi və qeyri-maddi irsinmənimsənilməsi və erməniləşdirilməsi ilə əlaqələndirirlər.

İşğal olunmuş Azərbaycan ərazilərindəki Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi təşkilatının müxtəlif dövlətlərə, beynəlxalq təşkilatlara, Azərbaycanın səlahiyyətli dövlət qurumlarına, ictimai təşkilatlara, siyasi partiyalara, ölkə vətəndaşlarına müraciətlər ün-

vanlanmış, onları dünya sivilizasiyasına xas olan nümunələrin Azərbaycanın işğal altında olan ərazilərindəki tarix və mədəniyyət abidələrinin işğalçı Ermənistan dövlətinin dağıtmasının qarşısını almaqda, bu abidələr üzərində beynəlxalq təşkilatların iştirakı ilə müşahidə tədbirləri keçirilməsi ilə bağlı müraciətləri yayılmışdır. Həmin təşkilatlar aşağıdakı tədbirləri həyata keçirirlər:

- Xaricdə Azərbaycan tarixinin saxtalaşdırılmasmm qarşısını almaq;
- Azərbaycan mədəniyyətinə məxsus mədəniyyət, incəsənət nümunələrinin xaricdə alqı-satqısının qarşısını almaq;
- Azərbaycan torpaqlarının işğalı zamanı qarət edilmiş mədəniyyət, incəsənət nümunələrinin geri qaytarılmasını gerçəkləşdirmək;
- Azərbaycanın işğal altındakı ərazilərində olan abidələr üzərində beynəlxalq miqyaslı nəzarətin həyata keçirilməsinə nail olmaq və s.
- Azərbaycanın işğal altındakı ərazilərində mövcud olan tarix, mədəniyyət, incəsənət abidələrinin məhvi istiqamətində aparılan vandalizm hərəkətlərinin beynəlxalq miqyasda ifşa edilməsi İSESKO xətti ilə də həyata keçirilir.

İSESKO-nun baş direktoru Bakıda çıxışında təşkilatın mövqeyini bir daha bəyan edib, işğala və mədəni təxribata son qoyulmasını tələbini irəli sürüb: “Beynəlxalq ictimaiyyət Ermənistanı ciddi şəkildə məcbur etməlidir ki, Azərbaycanın işğal edilmiş rayonlarında xalqa məxsus dini və mədəni abidələr mühafizə olunsun. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsi yerinə yetirilməlidir.

Ermənistanın səlahiyyətli nümayəndələri beynəlxalq təşkilat nümayəndələrinə həmin yerlərə getməyə və Azərbaycan mədəniyyət abidələrinə vurulan zərbələrin, təcavüzün miqyasını görməyə icazə vermirlər. İstərdim ki, beynəlxalq təşkilatlar bu məsələyə cəlb olunsunlar, bununla bağlı Ermənistana qarşı addımlar atılsın. Çünki bu abidələr həm də bəşəriyyətə məxsusdur və buna görə dünya birliyi baş verənlərə laqeyd yanaşmamalıdır” (“525-ci qəzet”, 11 iyun 2013-ci il).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hər iki ölkənin xalqlarına saysız-hesabsız bəlalar, fəlakətlər gətirmişdir. Lakin

heç kəs üçün sirr deyil ki, Ermənistanda hakimiyyətin başında duranlar erməni xalqının özünün maraqlarına zidd hərəkət edirlər. Bu səbəbdən münaqişənin əvvəlindən Ermənistan vətəndaşları öz ölkəsini sürətlə tərk edir, total məhrumiyyətlər və qeyri-müəyyənlik, qeyri-sabitlik şəraitində qalmaq istəmirlər.

Əsrlər boyu Ermənistanın Azərbaycana qarşı törətdikləri hərbi təxribatlar xalqımızı düşmənə qarşı daha tələbkar olmağa məcbur edir. Daima olduğu kimi bu dəfə də ermənilər bizi təxribat yolu ilə döyüşməyə, azğınlaşmış düşmənə layiqli cavab verməyə sövq edir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələritərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Bunun nəticəsində dinc sakinlərdən 2-si ölüb, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilib. Nəticədə ermənilərə məxsus 6 ədəd tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, o cümlədən yüzdən çox hərbi qulluqçusu ölüb və yaralanıb. Azərbaycanın isə 12 hərbi qulluqçusu şəhid olub. Döyüş nəticəsində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan məntəqəsi erməni qüvvələrindən tam təmizləndi. Horadiz şəhərinin erməni təhlükəsindən qorunması məqsədilə Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ təpə" adlandırılan yüksəklik də Azərbaycan qüvvələrinin nəzarətinə keçdi.

2015-ci il 2 aprel tarixlərində beynəlxalq qurumların təkidli müraciətləri və Azərbaycan dövlətinin sülhsevər siyasət yürütməsinin nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizdə düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini

saat 15:00-dan başlayaraq birtərəfli qaydada dayandırmaq barədə qərar qəbul edirhttps://az.wikipedia.org/wiki/D%C3%B6rdg%C3%BCnl%C3%BCk_m%C3%BCharib%C9%99 - sitat_qeyd-42. Azərbaycan tərəfinin razılığa əməl etməsindən istifadə edən qarşı tərəf, Ermənistandan işğal altında olan ərazilərə əlavə hərbi qüvvə cəmləşdirməklə işğaldan azad edilən mövqelərin, ərazilərin geri qaytarılmasına cəhd göstərilib və nəticədə düşmənin 10-a yaxın tankı, həmçinin canlı qüvvəsi sıradan çıxarılıb.

Qısa müddətdə həyata keçirilən sürətli əks-həmlə zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarılıb, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqəsi Ermənistan Silahlı Qüvvələrindən tam azad olundu.

Aprelin 3-dən başlayaraq Azərbaycan Silahlı Qüvvələrinin cəbhə xəttində birtərəfli qaydada düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini dayandırdığını elan edib. Döyüşlər nəticəsində, Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etdi.

Azərbaycan Silahlı Qüvvələrinin düşmənə qarşı əks-həmlə əməliyyatının və cavab tədbirlərinin dayandırılmasına baxmayaraq, Ermənistan tərəfi vəziyyəti gərginləşdirməkdə davam edib. Düşmən tərəfi itirilmiş mövqelərinin geri qaytarılması məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə hücum edib və təmas xəttinə yaxın olan yaşayış məntəqələrini intensiv surətdə atəşə tutub. Aprelin 3 və 4-nə keçən gecə ərzində aparılan döyüşlərdə ermənilər canlı qüvvə və hərbi texnika sarıdan çoxsaylı itkilərə məruz qalıb. Düşmənlə döyüşlərdə Azərbaycan Silahlı Qüvvələrinin 3 hərbi qulluqçusu şəhid olub.

Aprelin 4-də axşam saatlarında və aprelin 5-nə keçən gecə ərzində bütün cəbhə boyu vəziyyət gərgin olaraq qalıb. Cəbhə xəttinin Xocavənd-Füzuli və Ağdərə-Tərtər istiqamətlərində itirilmiş mövqelərinin geri alınması üçün Ermənistan tərəfi qoşunların təmas xəttinə yaxın yaşayış məntəqələrini atəşə tutmaqda davam edib. Bu

istiqamətdə düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazanın qərargahı dəqiq zərbələrlə dağıdılıb.

Aprelin 4-də axşam saatlarında Ermənistanın 3 ədəd döyüş tankı heyətlə birlikdə atəş gücü vasitəsilə məhv edilib, cəbhənin Xocavənd-Füzuli istiqamətində isə Ermənistanın 2 ədəd tankını heyətlə birlikdə və hərbi əmlakla dolu 5-dək təkərli texnikasını sıradan çıxarıblar. Ümumilikdə aprelin 4-ü gün ərzində və aprelin 5-i səhər saatlarınadək keçirilən əməliyyat tədbirləri və cavab atəş zərbələri nəticəsində ermənilər daha 70 nəfərədək canlı qüvvə sarıdan itkiyə məruz qalıb, 20-dək hərbi texnika tam sıradan çıxarılıb. Aprelin 5-ə olan məlumata görə, bütün cəbhə boyu son iki gün ərzində döyüşlərdə vuruşan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularından 16 nəfəri şəhid olub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aprelin 19-da yayımladığı məlumata əsasən cəbhə bölgəsində Azərbaycan ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" tipli pilotsuz uçuş aparatı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən məhv edilib. Növbəti gün, aprelin 20–sində yayımlanmış məlumatlarda isə qeyd edilir ki, yenə Azərbaycan ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus kvadrokopter tipli "DJI PHANTOM" pilotsuz uçuş aparatı Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən xüsusi üsulla endirilərək ələ keçirilib.

Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılıb. Razılaşma Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilib. Azərbaycan Ordusunun Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirib.

Aprelin 5-də saat 12.10-dan başlayaraq aprelin 6-sı saat 12.56-dək sutka ərzində Azərbaycan-Ermənistan dövlət sərhədində Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqeləri Ermənistan Res-

publikasının Mehri, Sisian və Cermuk rayonları ərazisindəki mövqelərdən iriçaplı silahlar və qumbaraatanlardan atəşə məruz qalıb. Azərbaycanın Əlahiddə Ümumqoşun Ordusunun həmin istiqamətlərdə yerləşən bölmələrinin dəqiq cavab atəşi ilə düşmən susdurulub. Ordubad rayonu istiqamətində yerləşən Azərbaycan ordusunun bölmələri cavab tədbirləri nəticəsində düşmənin qarşı tərəfdəki atəş nöqtəsi və mühəndis-istehkam qurğusu dağıdılıb.

Ermənistan ordusunun bölmələri tərəfindən həmçinin aprelin 6-da Goranboy rayonunun Tapqaraqoyunlu yaşayış məntəqəsi yaxınlığındakı Azərbaycan ordusunun mövqelərini 60, 82 və 120 millimetrlik minaatanlardan intensiv olaraq atəşə tutub. Aprelin 29-da Ermənistanda üç yüksək rütbəli hərbi və müdafiə rəsmiləri Dördgünlük müharibədə uğursuzluğa görə işdən qovulmuşdur.

Döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri tərəfindən ermənilərə məxsus 14 ədəd tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, o cümlədən 100-dən çox hərbi qulluqçusu ölüb və yaralanıb. İlk döyüşlərdə Azərbaycanın 12 hərbi qulluqçusu şəhid olub. Erməni mövqelərinə aviasiya zərbələri zamanı əməliyyata cəlb olunan 1 ədəd Mi-24 helikopteriErmənistan tərəfindən vurulub və 1 ədəd tank mina partlayışı zamanı sıradan çıxıb.

Aprelin 4-də erməni silahlı bölmələri Xocavənd-Füzuli istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma cəhd göstəriblər. Cavab olaraq Azərbaycan Silahlı Qüvvələri düşmənin mövqelərinə sarsıdıcı zərbələr vurub. Əks hücum zamanı Ermənistan Silahlı Qüvvələrinin 3 tankı və 30-dək hərbi qulluqçusu məhv edilib. Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələrinin vurduğu dəqiq cavab atəşi ilə düşmənin bir batareyası darmadağın edilib. Azərbaycan Silahlı Qüvvələri cəbhəboyu əməliyyat şəraitini tam nəzarət altında saxlayıb. Həmçinin, ermənilərin işğal olunmuş ərazilərdəki komanda-qərargah məntəqəsi darmadağın edilib.

Dağlıq Qarabağ münaqişəsi zonasında 2016-cı il aprelin 2-dən 6-dək davam edən hərbi əməliyyatlarda qarşılıqlı razılıq əsasında növbəti atəşkəs əldə olundu. Belə görünür, bunda ən çox düşmən tə-

rəf maraqlı idi. Hər halda, erməni KİV-lərindəki bədbin ab-havadan bunu sezmək çətin deyildi. Çünki işğalçı tərəf hər gün daha ağır itkilərlə üzləşməkdə idi.

Bununla belə, 4 günlük müharibənin ölkəmiz üçün əsas pozitiv nəticəsi, bizcə, budur ki, Azərbaycan 22 illik atəşkəs dövründə ilk dəfə hərbi gücə əl ataraq ağır itkilər bahasına da olsa, dünyaya, işğalçıya, onun havadarlarına, xüsusən də Rusiyaya nümayiş etdirdi ki, dövlət, millət olaraq öz ərazilərinin, Qarabağın işğalı ilə barışmayıb, heç vaxt barışmayacaq və bu yolda qələbə əzmini də saxlamaqdadır.

Bu günlər həmçinin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacibliyi məsələsi kifayət qədər ciddiliyi ilə beynəlxalq ictimaiyyətin gündəminə gəldi. Əksər ölkələr (Türkiyə, İran, Pakistan, Ukrayna, Belarus, Gürcüstan,bir çox Avropa ölkələri) və nüfuzlu qurumlar ərazi bütövlüyümüzə sayğı nümayiş etdirən bəyanatlar yaydılar, sərhədlərin zorla dəyişdirilməsinə qarşı öz etiraz səslərini qaldırdılar.

İkinci mühüm nəticə Azərbaycan Ordusunun işğalçı ordu üzərində hərbi-texniki, hazırlıq və başqa göstəricilərə görə üstünlüyünün təsdiqlənməsi idi – bunu bir sıra Qərb və rusiyalı hərbi ekspertlər döyüş əməliyyatlarının gedişindəcə qeyd etmişdilər. Bu da ilk növbədə Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı sayəsində mümkün olmuşdur və bu əməkdaşlıq, sözsüz ki, indi daha da dərinləşəcək və genişlənəcəkdir.

Azərbaycan özünün blits-zəfəri ilə, həmçinin işğalçı ölkənin arxayınçılığına son qoymuş oldu, "yumsaq güc" nümayişi ilə ona və onun siyasi havadarlarına mesaj və dərs verdi ki, növbəti və daha əlverişli regional şərtlər yetişən kimi, ona daha sarsıdıcı və sonuncu həlledici zərbəni endirəcək. Özü də bu zərbə uzaq tarixə qalmayacaq – çox şey blits-müharibədən öncəliklə Minsk Qrupu həmsədrlərinin hansı nəticə çıxaracağından asılı olacaq.

Əgər onlar ənənəvi şəkildə işğalçı ilə işğala məruz qalan tərəfə eyni gözlə baxaraq, BMT TŞ-nin, Avropa Şurası və Avropa Parlamentinin, NATO Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, digər mötəbər təşkilatların Dağlıq Qarabağa dair dünya

birliyinin iradəsini əks etdirən qətnamələrini qulaqardı edəcəksə, o zaman həlledici savaş özünü çox gözlətməyəcək. Azərbaycanın milli maraqları üçün bir qiymətli mesaj da bundan ibarətdir.

Məsələ ondadır ki, kimin, hansı qüvvənin rəvac verməsindən asılı olmayaraq, Azərbaycanın 4 gündə düşmənə endirdiyi sarsıdıcı zərbə həm də danışıqlar prosesində status-kvonu xeyrimizə dəyişməyə yönəlmişdi və əslində bu hədəfə də müəyyən mənada nail olundu. Bu da blits-zəfərin başqa bir uduşu sayıla bilər. Hər halda, bundan sonra Azərbaycanın əsas probleminə beynəlxalq birliyin, vasitəçi dövlətlərin daha həssas yanaşmasını gözləməyə dəyər.

Məhz atəşkəs günündə Rusiya xarici işlər nazirinin Bakı səfəri Ermənistan KİV-lərinin əsas mövzusu olmuş, "Aykakan Jamanak" qəzetinin yazdığına görə, Qarabağ konflikti ətrafında artıq yeni pərdəarxası proses başlanmışdır.

"Söhbət Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun Azərbaycana qaytarılmasından gedir. Hakimiyyətə yaxın mənbənin iddiasına görə, Rusiya bundan ötrü Ermənistanı dilə tutmağa çalışır, əvəzində isə Azərbaycanın Avrasiya Birliyinə qoşulacağına ümid edir," - deyə nəşr qeyd etmişdir.

4 günlük müharibə uzun illər milləti içəridən yeyən "məğlubiyyət sindromu"ndan, nəhayət ki, onun böyük ölçüdə çıxmasını təmin etdi, toplumu qısa zamanda toparlayıb bir araya gətirməklə, onda qəti qələbəyə inamı və əzmi birə-on möhkəmlətdi, millətin belini və başını dikəltdi.

Eyni zamanda düşməndə məğlubedilməzlik mifini dağıtdı. Xocalı canisi Serj Sərkisyanın "kompromislərə hazırıq" deməsi, sözsüz ki, ən əvvəl bunun təzahürü idi.

Bu savaşın başqa pozitiv yekunu kimi, bölgəyə, Azərbaycana "sülhməramlı" bəhanəsi ilə hərbi qüvvə yerləsdirmək üçün əldən gedən bir sıra dövlətlərə bəhanə verilməməsi də nəzərdən qaçırılmamalıdır. Çünki sonuncu eskalasiyanın arxasında xarici amilin olması haqda da ciddi dəlillər vardır.

Rusiyanın Azərbaycanda öz hərbi mövcudluğunun bərpası isə, nəinki Dağlıq Qarabağın, bütövlükdə Azərbaycanın suverenliyinin

itirilməsinə gətirərdi. Hələ ki bunların heç biri baş verməyib və yenə son söz Azərbaycan xalqının olaraq qalır. Blits-savaşın daha bir mühüm yekunu da bu tezisdən ibarətdir.

Azərbaycan ordusunun aprel döyüşlərində Ermənistanın işğalçı qüvvələrinə vurduğu sarsıdıcı zərbələrdən sonra Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni mərhələnin yarandığı artıq çoxlarında şübhə doğurmur. Gerçəklik bundan ibarətdir ki, 22 illik fasilədən sonra ordumuzun uğurlu əməliyyatlari nəticəsində rəsmi Bakı Qarabağ danışıqlarında diktə edən tərəfə çevrilmişdir. Artıq erməni generallarından tutmuş, prezident Sərkisyana qədər Ermənistanda hər kəs Azərbaycanın hərbi üstünlüyünü etiraf edir. Elə Azərbaycanın üstün mövqedə olması səbəbindən də ATƏT-in Minsk Qrupunun həmsədrləri budəfəki səfərlərdə neqativ-məchul danışmadılar, daha korrekt davrandılar (3).

Amerikalı həmsədr C.Uorlik də qeyd etdi ki, hərtərəfli həllin yolu orduların işğal olunmuş ərazilərdən çıxarılması, torpaqların Azərbaycana qaytarılmasından keçir: “Amma Qarabağın statusunun da muəyyənləşməsi lazımdır. Hərtərəfli həllə çox məsələ daxildir, tərəflər buna bütöv məsələ kimi baxmalıdırlar”.

Qeyd edək ki, həmsədrlər Bakıdan sonra Xankəndinə, separatçı rejimin rəhbərliyi ilə görüşə yollanıb.

Rusiya XİN başçısı Sergey Lavrov isə, 7 aprel tarixində Azərbaycanda bir sıra ilginc açıqlamaları ilə diqqət çəkdi. Azərbaycan Prezidenti, Xarici İşlər və Müdafiə nazirləri ilə görüşən rusiyalı diplomat atəşkəsin əldə olunmasını “böyük məmnuniyyətlə” qarşıladıqlarını deyib. “Biz düşünürük ki, cəbhədə baş verən vəziyyət bizi təmas xəttindəki duruma daha diqqətlə yanaşmağa sövq edir”, - S.Lavrov deyib. Bununla Azərbaycan ordusunun Moskvanı da təəccübləndirdiyini dolayısı ilə etiraf edib.

Ancaq bunun ardınca diplomatın “Biz Dağlıq Qarabağ danışıqlarının həllinə çox yaxınıq” deməsi suallar doğurur. Hətta bununla XİN başçısının “7 rayonun qaytarılması layihəsinə” işarə vurduğunu təxmin edənlər də var.

Qeyd edək ki, son yarım ildə S.Lavrovun 7 rayonun qaytarılması təklifi ilə Ermənistan hakimiyyətinə müraciət etdiyi, lakin razı-

lıq ala bilmədiyi barədə iddialar səslənib. Hətta Ermənistan mətbuatında da bu iddialara geniş yer ayrılmışdır.

"V.Putin münaqişənin həllində hamıdan çox maraqlıdır" - bu fikir də S.Lavrova məxsusdur. Maraqlısı odur ki, Rusiya prezidenti ciddi toqquşmaların baş verdiyi günlərdə tərəflərə telefon belə açmadı. Lakin ABŞ-ın vitse-prezidenti Co Bayden şəxsən Azərbaycan prezidenti ilə telefonla danışdı. Hətta Belarus prezidenti də Bakıya zəng edib, narahatlığını bildirdiyi halda,V. Putin susmağa üstünlük verdi. Lakin V.Putinin illik ümumrusiya Valday Klubunun işində və hesabat-mətbuat konfransında Dağlıq Qarabağ mövzusuna dəfələrlə toxunması siyasətşünaslar tərəfindən pozitiv qiymətləndirilir.

"Dağlıq Qarabağdakı böhranın aradan qaldırılması üçün bütün komponentlər praktiki olaraq mövcuddur". Bunu isə S.Lavrov Azərbaycan, İran və Rusiya xarici işlər nazirlərinin Bakıdakı görüşündən sonra təşkil olunmuş birgə mətbuat konfransında deyib. Rus diplomat əlavə edib: "Biz Qarabağ məsələsini müzakirə etdik və Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş hazırkı atəşkəs bizi sakitləşdirməməlidir.Münaqişənin siyasi həlli üçün yollar tapılmalıdır".Xatırladaq ki, Lavrov Azərbaycan prezidenti ilə görüşdə də ermənilərin atəş açmayacağına qarantiya vermişdi.Lakin elə atəşkəs razılaşması əldə olunan gün düşmən yaşayış məntəqələrimizi atəşə tutdu.

Azərbaycanın Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri aprelin 6-sından 7-sinə keçən gecə də cəbhənin müxtəlif istiqamətlərində 60, 82 və 120 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 119 dəfə pozdu.

Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində hərbi əməliyyatların dayandırılması barədə tərəflərin əldə etdiyi razılaşmadan dərhal sonra Azərbaycan-Ermənistan dövlət sərhədində silahlı qüvvələrimizin Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqeləri düşmən tərəfindən atəşə tutuldu.

Göründüyü kimi, Ermənistan Rusiyanı və KTMT-ni (Kollektiv Təhlükəsizlik və Müdafiə Təşkilatı) münaqişəyə cəlb etmək

üçün özünün bütün sərhədləri boyunca atəşkəs rejimini pozur.Deməli, rəsmi Moskvanın qarantiyası hələ ki, söz olaraq qalır.

Üstəlik, işğal olunmuş ərazilərə yeni hərbi texnika və qüvvənin daşındığı barədə məlumatlar yayıldı. Ərazini qorumaq üçün əsgər çatışmazlığı ilə üzləşən işğalçı ölkə bölgəyə kürd terrorçularını daşımağa başlayıb.Türkiyənin "Yeni Şafak" qəzetinin yaydığı məlumata görə, PKK terror təşkilatı Ermənistana kömək üçün 400 döyüşçüsünü Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə göndərmişdir.

Məlumatda Kandil və Kamışlıdan gələn terrorçuların Ağrı dağından Ermənistana keçdiyi, daha sonra Göyçə gölü istiqamətindən Qarabağın qaynar nöqtələrinə getdiyi qeyd olunub. Nəşr PKK yaraqlılarının Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Cəbrayıl, Zəngilan və Füzulidəki erməni mövqelərinə səpələndiklərini yazıb. Türkiyə saytlarının yaydığı xəbərlərdə də terrorçuların İraq və Suriya düşərgələrindən gəlib Ağrı dağı vasitəsilə Ermənistana keçdiyi qeyd edilir.

Məlumatlara görə, PKK-nın Ermənistana hərbçi göndərmə planı Kürdüstan Cəmiyyətlər Birliyinin (KCK) həmsədri Bese Hozat tərəfindən həyata keçirilir. Onun İrəvanla gizli danışıqlar apardığı bildirilir.

Bundan başqa, PKK-nın Suriya qanadı olan PYD-nin tərkibindən 150 erməni əsilli terrorçu da Qarabağa göndərilmişdir ki, bu fakt da rəsmi Bakı və Ankara tərəfindən sinxron addımların atılmasını tələb edir.

Bakıda keçirilən Azərbaycan, Rusiya, İran XİN başçılarının görüşündə də Qarabağ mövzusu aparıcı mövzulardan biri olur.

Azərbaycan XİN rəhbəri E.Məmmədyarov görüşdən sonra deyib ki, Dağlıq Qarabağ münaqişəsində "status-kvonu" uzun müddət ərzində saxlamaq olmaz.

E.Məmmədyarov bildirir ki, Dağlıq Qarabağ münaqişəsi məsələsi Rusiya və İranla da müzakirə olunub: "Konkret təkliflər var, biz ideya və düşüncələrimizi bölüşdük. Problemi tez həll etmək lazımdır, çünki insanlar məhv olur. Münaqişənin həlli ilə birbaşa məşğul olmaq lazımdır və hərbçilər kazarmalara qayıtmalıdır"(9).

Bakıda səfərdə olan İran XİN başçısı M.Cavad Zərif də baş verənlərə münasibət bildirib. "Atəşkəs rejimi Dağlıq Qarabağ münaqişəsi siyasi yolla həll olunana qədər qüvvədə olmalıdır".

İranın xarici işlər naziri M.Cavad Zərif bildirib ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır: "İran tərəfi olaraq hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar beynəlxalq hüquq və BMT prinsiplərinə əsasən aparılmalıdır".

S.Lavrovun"böhranın aradan qaldırılması üçün bütün komponentlər praktiki olaraq mövcuddur" fikirləri isə suallar doğurur.Qısa müddətdə bu komponentlər necə hazırlandı?

Rəsmi Moskvanın zəmanəti ilə əldə olunan razılaşma perspektiv üçün nə vəd edir? Politoloqun qənaətincə, danışıqlarda irəliləyiş olmayana qədər atəşkəs daima pozulacaq: "Ona görə də Moskvada razılaşdırılan atəşkəsin ömrünün çox olacağını düşünmürəm. Əsas odur ki, 22 illik tilsimi sındırdıq. Düşmən hakimiyyəti anladı ki, Azərbaycan əbədiyyətə qədər mənasız danışıqlarda maraqlı deyil. Məncə, Rusiya hakimiyyəti Azərbaycan ordusunun cəbhə bölgəsindəki uğurlarını genişləndirə biləcəyindən ehtiyatlanaraq tələsik atəşkəsə nail oldu. Bunun müqabilində Azərbaycan hakimiyyəti, siyasi dairələri və cəmiyyəti Moskvanın İrəvana təsir edəcəyini gözləyir. Ancaq bunun məhz belə olacağını söyləmək çətindir. Hər halda, Ermənistanın Rusiyadan narazılığı artmışdır. Bu faktıYerevanda Rusiya Federasiyası səfirliyi qarşısında aprelin 15 keçirilmiş etiraz mitinqi də təsdiq edir.

Bu fikir bu gün Azərbaycan cəmiyyətində Qarabağ problemi ilə bağlı ictimaiyyətdə ən geniş yayılmış mövqe kimi də dəyərləndirilə bilər.

Bütün yuxarıda söylənilənlərə rəğmən, 25-27 aprel 2016-cı il tarixində Bakıda keçirilmiş BMT-nin VII Qlobal-Humanitar Formunun işində iştirak etmiş Azərbaycan dövlət rəsmiləri, başda Ali Baş Komandan, Prezident İlham Əliyev cənabları və Birinci Vitse-Prezident Mehriban xanım Əliyeva olmaqla, Azərbaycan dövlətinin sülhpərvər bir kurs yürüdərək multikultural dəyərlər və Azərbayca-

nın ərazi bütövlüyü nəzərə alınmaqla Qarabağ münaqişəsinin dinc, siyasi yollarla həllinə sadiq olduqlarını bir daha bəyan etmişlər.

Avropa Şurasında yayılan sənədlərə “Dağlıq Qarabağda zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi” və “Dağlıq Qarabağda ekoloji vəziyyət haqqında” iki mühüm rəsmi sənəd əlavə olunmuşdur. Hər iki sənəddə erməni separatçılarının məkrli siyasəti, xalqımızın mədəniyyət incilərinin vəhşicəsinə dağıdılması faktı inandırıcı dəlil və sübutlarla ifşa olunur. Bizcə, bu, tarixi hadisədir. Çünki ilk dəfə olaraq Azərbaycan xalqının, ümumiyyətlə, mədəniyyət abidələrinə humanist mövqeyi dünyanın 43 ölkəsinin təmsil edildiyi bu nüfuzlu təşkilat tərəfindən rəsmi sənəd kimi yayılmışdır. Məhz İlham Əliyevin qətiyyətli mövqeyinin nəticəsidir ki, siyasi komitə Parlament Assambleyasının növbəti sessiyalarının birində Dağlıq Qarabağ probleminin müzakirəyə çıxarılmasını təklif etmiş və nəzərdən keçirtmişdi.

Qarabağda törədilən ən qanlı faciə Xocalı qətliamıdır. Bu dərs vəsaitinin müəllifi məqalələrinin birində faciəni belə təsvir edir: “Həmin gecə saat 23.00-da ermənilər uc istiqamətdə Xocalı şəhərinə hucum etdi. Bu hucumda Ermənistan Respublikası silahlı quvvələrinin qoşunları, muzdlu əsgərlər, ozunu Artsax Xalq Ordusu adlandıran Dağlıq Qarabağın erməni bolmələri və Xankəndində yerləşmiş 366-cı motoatıcı alayın hərbi texnikası, onların ardınca isə rus-erməni silahlı dəstələri, Əsgəran istiqamətindən isə mindən cox silahlı quldur (əksəriyyəti saqqallı) daha cox fəallıq gostərirdilər.

Ermənilərin strateji planına uyğun olaraq, əvvəlcə 366-cı alayın ağır texnikalarının vasitəsilə piyada quvvələri şəhərə doğru irəliləyərək artilleriya atəşi ilə Xocalıdakı ozunumudafiə dəstələrinin qərargahlarını dağıtmaqla hər tərəfdən hücuma keçmişlər. Şəhərin mudafiəçiləri səhərə qədər düşmənə qarşı rəşadətlə döyüşmüşdülər. Onların bir neçəsi kamikadze şücaəti gostərərək bədənlərinə partlayıcı qurğu bağlayaraq ozlərini duşmən texnikasına cırpmışlar. Sonuncu mudafiə məntəqəsi səhər saat 7-də susdurulmuşdur. Doyuş zamanı Xocalıda bir gecədə cəmi səkkiz saat muddətində yuzlərlə gunahsız dinc əhalini qəddarcasına məhv ediblər. Ermənilər 613 nə-

fəri, onlardan 106-sı qadın, 63 uşaq və 70 nəfər qocanı qətlə yetiriblər, 8 ailə tamamilə məhv edilmişdir, 27 ailənin yalnız 1 uzvu qalıb, 56 insan işgəncə ilə öldürülmüşdür, 25 uşaq hər iki valideynini itirmişdir, 130 uşaq valideynlərindən birini itirmişdir, 230 ailə oz başçısını itirmişdir, 487 nəfər şikəst olub, onlardan 76-sı həddi-buluğa çatmışlardır. 1275 azərbaycanlı erməni əsirliyinin dəhşətlərini keçib. 1165 nəfər girovluqdan azad edilmişdir. 150 nəfər isə itkin düşüb. 5679 nəfər deportasiya olunmuşdur. Xocalı isə yerlə-yeksan edilib. Xocalıya 145 mln manat və ya 170 mln ABŞ dolları miqdarında zərər vurulmuşdur.

Ağdama tərəf muxtəlif istiqamətlərdə hərəkət edən dinc əhali yolda erməni silahlı quvvələri tərəfindən tutularaq girov göturulmuş, dəhşətli işgəncələrə məruz qalmışlar. Ermənistan hərbi birləşmələri qətlə yetirdikləri azərbaycanlıların uzərində xususi əməliyyat apararaq onların başlarının dərisini soymuş, muxtəlif əza- larını kəsmiş, körpə uşaqların gozlərini çıxarmış, adamları diri-diri torpağa basdırmış və yandırmışlar”.

Erməni vəhşiliklərinin qurbanı olmuş yaralananlar və oldurulənlərlə bağlı Baş Məhkəmə Tibbi Ekspertizanın rəyindən bəzi məqamları oxucuların diqqətinə catdırmaq cox vacibdir. Tibbi ekspert R.Yusifovun verdiyi rəylərinin birində bildirilir: “Muayinə olunmuş meyidlərdən 3 nəfərində ətrafların donması, 33 nəfərində işgəncə əlamətləri, yəni başın dərisinin soyulması, qadınlarda doşlərinin kəsilməsi, burun və qulaq qığırdaqlarının kəsilməsi, silahdan atəş acılması əlamətləri aşkar edilmişdir. Eyni zamanda goz almalarının çıxarılması, dişlərin sındırılması, kişilərin cinsiyyət orqanlarının kəsilməsi muşahidə olunmuşdur. Muayinə olunmuş 31 meyiddə isə kombinə olunmuş, yəni bədənin muxtəlif nayihələrinin gullə yarası və kut alətlə, kəsici-deşici alətlə yetirilmiş xəsarət olmuşdur”

Xocalı faciəsindən 26 ildən çox keçməsinə baxmayaraq, qətliamın səbəbkarları və gunahkarları hələ də azadlıqda gəzirlər.Öz murdar əllərini Azərbaycan turklərinin qanına batırmış R.Koçəryan və S.Sarqsyan kimi cəlladlar Ermənistanda hakimiyyətə gəldilər. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “...əslində, Xocalı soyqırı-

mı XX yuzilliyin ən boyuk insan faciələrindən biridir. Xocalıdakı insan qırğınının yer kurəsinin hər hansı bir guşəsində baş verməsinin qarşısını almaq ucun Xocalı soyqırımı həqiqətlərini dunya ictimaiyyətinə hərtərəfli çatdırmalıyıq”.

Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə beynəlxalq hüquqa zidd əməllər bu gün də davam etməkdədir. Nəzarətsiz qalan həmin ərazilər terror, insan alveri, narkomaniya yuvası olmaqda davam edir. Azərbaycan Respublikasının Prezidentinin 2003-cü il 3 dekabr tarixində “Narkotiklərə nəzarət üzrə regional əməkdaşlığa dair Anlaşma Memorandumu”nun üzv tərəflərinin Beşinci görüşünün iştirakçılarına göndərdiyi müraciətdə deyilir: “İşğalçı rejimlər beynəlxalq hüququn prinsip və normalarını, demokratik dəyərləri və insan hüquqlarını kobudcasına pozaraq yalnız öz əhalisi üçün deyil, həm də beynəlxalq sülhə və əmin-amanlığa real təhlükə yaratmaqdadırlar. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində ölkəmizin Dağlıq Qarabağ bölgəsində yaradılmış terrorçu rejim buna əyani sübutdur”.

# V FƏSİL

## QAFQAZ GEOSTRATEJİ MƏKANINDA AZƏRBAYCANIN YERİ VƏ ROLU

Azərbaycan Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi, mühüm nəqliyyat-kommunikasiya dəhlizlərinin keçdiyi əhəmiyyətli bir geosiyasi, geoiqtisadi və geostrateji məkanda yerləşir. Bu amil regionda mövcud olan milli dövlətlər, regionun və dünyanın aparıcı dövlətləri arasında balanslaşdırılmış siyasət yürütməyi, kəsişən və üst-üstə düşən maraqları nəzərə almağı tələb edir. Əhəmiyyətli ərazi (məkan), geostrateji (təhlükəsizlik) və geoiqtisadi (karbohidrogen ehtiyatları və s.) üstünlüklərdən ölkənin milli maraqları çərçivəsində bəhrələnmək xarici siyasət kursumuzun və milli təhlükəsizliyimizin əsas vəzifələrindəndir.

Azərbaycan Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin, Avrasiyanın və bütövlükdə qlobal dünyanın mühüm geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyət kəsb edən bir bölgəsində yerləşir. Odur ki, bir dövlət olaraq onun milli maraqları, milli təhlükəsizliyi region və qlobal dünya maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz. Azərbaycanın, Qafqazın, Xəzər-Qara dəniz hövzəsinin və bütövlükdə Avrasiyanın təhlükəsizlik problemlərinə müxtəlif yanaşmalar, qlobal, regional və milli maraqlar, onlar arasındakı üst-üstə düşən və düşməyən məqamlar hazırda geniş müzakirə olunan mövzulardandır. Azərbaycanın təhlükəsizlik problemi, onun təmin olunması yolları və vasitələri, qlobal və yerli təhlükəsizlik maraqlarının uzlaşdırılması və region dövlətlərinin təhlükəsizlik siyasəti ölkənin ictimai fikrini də ciddi düşündürməkdədir.

XX əsrin sonlarına doğru dünya inkişafında formalaşan qloballaşma meylləri beynəlxalq münasibətlər sisteminin və dünyanın siyasi quruluşunun dəyişikliklərə məruz qalmasına səbəb oldu. Dünyada gedən geosiyasi və iqtisadi proseslərdə qarşılıqlı bağlılıq və qarşılıqlı asılılıq özünü daha qabarıq göstərməyə başladı.

Şərqi Avropada 1989-cu il hadisələri, kommunist sisteminin iflasısosialist blokunun və Varşava Paktının məhvi ilə nəticələndi. Ən mühüm qlobal hadisə isə SSRİ-nin süqutu oldu. Bununla «soyuq müharibə» erası faktiki olaraq başa çatdı. 25 dekabr 1991-ci il tarixdə SSRİ prezidenti M.S.Qorbaçovun televiziya ilə canlı efir zamanı Ali Baş Komandanın səlahiyyətlərinin ləğv edilməsinə dair qərar (N УП-3162) imzalaması və 26 dekabr tarixdə qəbul edilmiş son qərarlar SSRİ-nin tam süqutunu, bununla da uzun illərdən bəri davam etmiş «soyuq müharibə»nin tamamilə başa çatdığını bir daha təsdiq etdi. Şərqlə Qərb arasında münasibətlərin yeni dövrü başlanmış oldu.

SSRİ-nin çökməsi nə qədər giper qlobal, yəni dünya əhəmiyyətli bir hadisə olsa da, özlüyündə dünyanın qloballaşmasına deyil, onun lokallaşmasına bir işarə idi.

«Soyuq müharibə» zamanı «böyük dövlətlər birliyi»kimi formalaşan kapitalizm və sosializm düşərgələrinin, yaxud həmin düşərgələrin başında duran ABŞ və SSRİ kimi fövqəl dövlətlərin ideoloji mücadiləsi daha çox qlobal xarakter daşıyırdı. İndi isə ideoloji mübarizənin bitməsi dünyanın daha kiçik qəlpələrə - milli mənzillərə ayrılmasına səbəb oldu. İki qütbdən birinin güc mərkəzi olaraq siyasi arenanı tərk elməsi isə heç də bir qütbün yeganə güc mərkəzi olaraq qalması ilə nəticələnmədi, əksinə nüfuz uğrunda mübarizə aparan və güc mərkəzinə çevrilməkdə olan bir neçə yeni qütb mərkəzləri meydana çıxdı. Böyük dövlətlərlə yanaşı, universal beynəlxalq təşkilatlar da nüfuz uğrunda mübarizəyə qoşuldular.

Hazırda dünyada gedən bütün siyasi proseslərə ABŞ daha çox təsir etmək potensialına malik olsa da, Avropa İttifaqı, Rusiya, İslam dünyası, Çin dövləti də bu proseslərdə həlledici rola malik olmağa iddialıdırlar.

Ümumiyyətlə, qloballaşma bu gün böyük ziddiyyətlərlə müşayiət olunur:

- bütün dövlətlər bir-birinə inteqrasiya edir, milli dövlətlərə maraq azalır, digər tərəfdən, milli və etnik azlıqların maraqları daha çox qabardılır;

- qloballaşma kiçik millətlərin böyük millətlərlə özü arasında eynilik axtarması və bir soy-kökə malik kiçik millətlərin birləşmə meylləri, digər tərəfdən xalqların və s. daha kiçik millətlərə ayrılmaq, öz fərdi mədəniyyətlərini qabartmaq və inkişaf etdirmək istəyi ön plana keçir;

-dövlətdaxili qayda-qanunlar, digər tərəfdən beynəlxalq münasibətlərə, dünya və Avropa standartlarına uyğunlaşma meylləri ön plana çəkilir.

Bu baxımdan yeniləşən dünyada bir sıra amillərin - milli dövlətlərin rolunun azalmasına, qeyri-dövlət faktorlarının artmasına və yeni beynəlxalq institutlarınyaranmasına baxmayaraq, süqut etmiş sosialist ölkələrində birgə yaşayan müxtəlif xalqlar da «öz müqəddəratlarını təyinetmə» hüququndan istifadə etməklə öz müstəqil dövlətlərini qurmaq imkanını əldən vermədilər. Eyni zamanda, qanunauyğun şəkildə müstəqillik əldə etmiş dövlətlərlə bərabər, digər ölkələrin ərazisi hesabına öz suveren dövlətlərini yaratmaq arzusunda olan bəzi kiçik millətlər və milli azlıqlar da dünyaya inteqrasiya prosesinə öz dövlətlərinə malik olaraq qoşulmaq və qloballaşan dünyada öz yerlərini bir dövlət olaraq tutmaq məqsədi güdməyə başladılar.

XX əsrin 90-cı illərində SSRİ-nin süqutu ilə 70 il ərzində Sovet hökumətinin yeritdiyi siyasət nəticəsində bütün dünyadan və öz milli maraqlarından ayrı düşmüş dövlətlər üçün də həm qlobal, həm də milli maraqlardan doğan inteqrasiya gücləndi və əməkdaşlıq üçün əlverişli şərait yarandı. Müstəqillik əldə etmiş yeni suveren dövlətlərin, o cümlədən Cənubi Qafqaz dövlətlərinin qarşısında yeni imkanlar açıldı. Bütün digər suveren dövlətlər kimi beynəlxalq hüququn subyektinə çevrilmiş həmin dövlətlər də öz aralarında, digər ölkələrlə və müxtəlif beynəlxalq institutlarla müstəqil əlaqələr qurmağa və müstəqil siyasət yürütməyə başladılar.

«Soyuq müharibə»nin bitməsi ilə hərbi-siyasi bloklar arasında bir sıra ziddiyyət və münaqişələr öz həllini tapsa da, digər yeni münaqişələr meydana çıxdı. Bu münaqişələrin çoxu milli zəmində yarandı. Ermənistan Respublikasının ərazi iddialarına əsaslanan məqsədyönlü xarici siyasəti nəticəsində və kənar qüvvələrin bilavasitə dəstəyi ilə suveren Azərbaycan Respublikasının tərkib hissəsi olan, azərbaycanlı və erməni əhalinin birgə yaşadığı Dağlıq Qarabağ ərazisində süni yaradılmış və postsovet məkanında mövcud münaqişələrin ən mürəkkəbi sayılan Ermənistan-Azərbaycan münaqişəsinə də milli don geyindirildi.

XX əsrin sonlarında SSRİ-nin süqutu ilə regionun nəzarətdən çıxması onu yenidən ABŞ, Rusiya, İran, Türkiyə və Qərbi Avropanın böyük dövlətlərinin uzunmüddətli maraqlarının toqquşduğu məkana çevirdi.

Qafqaz regionunun Xəzər bölgəsi həm iqtisadi, həm də strateji baxımdan dünya dövlətlərinin diqqətini daha çox cəlb edir. Fövqəl güclərin və böyük dövlətlərin hər biri Xəzərin neft və karbohidrogen ehtiyatlarına sahib olmaq və regionun enerji ehtiyatlarının dünya bazarına çıxarılması istiqamətini özü müəyyənləşdirməyə cəhd edir.

2002-ci ilin may ayında Moskva görüşü zamanı ABŞ və Rusiya prezidentləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını özlərinin ümumi maraq zonası elan ediblər.

Bununla da öz enerji tələbatını Xəzərin enerji ehtiyatları hesabına ödəyən ölkələri də öz təsir dairəsinə salmaq imkanı əldə edirlər. Eyni zamanda Qərb postsovet məkanında hələ də nüfuz sahibi olan Rusiyanın mövqeyini zəiflətmək şansı qazanır. Digər bir səbəb isə İranın nüvə məsələsi ilə bağlıdır ki, bu məsələdə ABŞ-la Rusiyanın mövqelərində ciddi fərqlər qalmaqdadır.

2013-cü ildə Rusiya Federasiyasının Prezidenti V.Putin bu mövqeyi Yerevana rəsmi səfəri zamanı bir daha xüsusi olaraq vurğulamışdır.

Region dövləti və münaqişə tərəfi olaraq, Azərbaycan və Ermənistan öz mövqelərinə görə dünyada baş verən siyasi proseslər üçün müxtəlif səbəblərdən əhəmiyyətlidirlər.

Azərbaycanı daha maraqlı edən cəhətlərindən biri odur ki, Qafqaz məhz onun vasitəsilə türk dünyasının qovuşduğu bir məkana çevrilir. 1990-cı illərin əvvəllərində türkçülüyün Azərbaycan vasitəsilə Cənubi Qafqaza, buradan isə Şimali Qafqaza, Volqaboyuna, Mərkəzi Asiyaya, Altaya və s. yayılacağından ehtiyat edən Rusiya, İran və digər qüvvələr hansı yolla olursa olsun buna mane olmağa çalışırdılar. Ermənistan türkçülüyün yayılmasının qarşısını almaq üçün ən əlverişli vasitə idi.

SSRİ-nin mövcud olduğu son illərdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində yaradılmış münaqişə Cənubi Qafqaz regionunda öz mövqeyini möhkəmlətmək niyyəti olan hər bir dövlətin əlində bir vasitəyə çevrildi. Ermənistan-Azərbaycan münaqişəsinin regionun iki dövləti arasında baş verməsi onu daha da gərginləşdirərək həllinə mane olsa da, öz siyasi məqsədlərini həyata keçirmək istəyən böyük dövlətlərə ondan dünya siyasətində öz maraqlarına uyğun şəkildə istifadə etmək imkanı verir. Münaqişələrin mövcudluğu regionu və ya münaqişə tərəfləri olan dövlətləri öz təsiri altına salmaq istəyən dövlətlər üçün geniş imkanlar açmaqla yanaşı, təhlükəsizliyə təhdid sayılr. Ermənistan-Azərbaycan münaqişəsi isə təkcə Cənubi Qafqaz regionu və qonşu dövlətlərin təhlükəsizliyinə təhdid deyil, həm də Xəzər dənizinin enerji daşıyıcılarının boru kəmərləri vasitəsi ilə Avropaya və ümumiyyətlə, dünyaya buradan nəql olunduğu üçün beynəlxalq təhlükəsizliyə və iqtisadi maraqlara qarşı yönəlmiş bir təhdiddir. Dövlətlər münaqişənin nizamlanması prosesində və regionun, o cümlədən boru kəmərləri ərazilərindən keçən ölkələrin təhlükəsizliyinin təmin edilməsində iştirak etməklə həmin ərazilərdə öz mövqelərini möhkəmlətməyə çalışırlar. Cənubi Qafqaz regionunun hər üç dövlətinə təsir etmək üçün münaqişələr mövcuddur. Ermənistan-Azərbaycan münaqişəsi regionun iki dövlətinə təsir etmək imkanı verir. Gürcüstanın da öz ərazisində münaqişələr mövcuddur.

Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ ətrafında Ermənistan və onun himayədarları tərəfindən yaradılmış gərginlik müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının dünyaya

inteqrasiyasına və onun müstəqil daxili və xarici siyasət yürütməsinə ciddi problem yaradırdı.

Ümummilli lider H.Əliyevin 1993-cü ildə xalqımızın təkidi və tələbi ilə hakimiyyətə gəlməsi, onun möhtəşəm daxili və xarici siyasəti ölkəmizi bu vəziyyətdən qurtardı.

Belə ki, beynəlxalq təşkilatlarla və müstəqil dövlətlərlə geniş əməkdaşlıq etməklə dünya birliyinin tam hüquqlu üzvünə çevrilən Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycana təcavüzünə və bunun nəticəsində yaranmış Dağlıq Qarabağ probleminə yönəldə bildi.

Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və respublikanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həlli Azərbaycanın xarici siyasət idarəsi qarşısında duran əsas vəzifələrdən biridir. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə dair beynəlxalq birlik qarşısında öhdəlik götürdüyü üçün onun həlli yalnız Azərbaycandan asılı deyildir. Bu səbəbdən də Azərbaycan özünün beynəlxalq təşkilatlar və suveren dövlətlərlə qarşılıqlı münasibətlərində bir nömrəli problem sayılan Ermənistan-Azərbaycan münaqişəsini daim gündəlikdə saxlayır.

XX əsrin əvvəllərində xarici qüvvələrin böyük himayədarlığı ilə zor gücünə Azərbaycan ərazisi zəbt edilməklə yaradılan Ermənistan Respublikası tərəfindən yürüdülən terror siyasəti, beynəlxalq hüquqa zidd əməl nəticəsində 1988-ci ildən başlayaraq ölkəmizin əraziləri yenidən işğala məruz qalmışdır. Nəticədə torpaqlarımızın 20 faizi düşmən əlinə keçmişdir. Müstəqilliyimizin bərpasından sonra yəni, 1991-ci iloktyabrın 18-dən, xüsusilə H.Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonrabu məsələ problem kimi beynəlxalq münasibətlərin və beynəlxalq hüququn müzakirə obyektinə çevrilmişdir. Həmin proses beynəlxalq münasibətlər çərçivəsində aşağıdakı istiqamətlərdə həyata keçirilməyə başlandı:

- Azərbaycanın beynəlxalq və regional inteqrasiya proseslərinə qoşulması;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair beynəlxalq səylər;

- Azərbaycanın “neft diplomatiyası” və onun nəticələrinin problemin həllinə mümkün təsiri:

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi; münaqişənin sülh yolu ilə həll edilməsində beynəlxalq təşkilatların rolu;

- ATƏT-in Minsk Prosesi;

- BMT çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli;

- İslam ölkələri konfransı təşkilatı ilə (İKT) Azərbaycan arasında əməkdaşlıq;

- Yaxın Şərq və Afrika region ölkələrinin beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanla əməkdaşlığı;

- Orta Şərq və Cənubi Asiya region ölkələrinin beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanla əməkdaşlığı və s. istiqamətləri misal göstərmək olar.

Qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatlar arasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra daxil olduğu ilk beynəlxalq qurum İslam Əməkdaşlıq Təşkilatı (İƏT), (İslam Konfransı Təşkilatı - İKT) olmuşdur. İƏT ilk gündən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Ermənistandan işğal etdiyi Azərbaycan ərazilərini boşaltmağı tələb edən qətnamələr qəbul etmiş və oxşar sənədlər təşkilatın müxtəlif toplantılarında bu gün də qəbul olunmaqdadır, yəni İƏT Baş katibliyi bu məsələdə Azərbaycan Respublikasına birmənalı şəkildə dəstək verən yeganə qurum olaraq qalır. İƏT tərəfindən Xocalı cinayəti soyqırım kimi tanınmışdır.

Məsələyə bu günün reallıqları baxımından yanaşaraq, deyə bilərik ki, hazırki dövrdə də həmin problemin həlli istiqamətində səylər beynəlxalq münasibətlər və beynəlxalq hüquq müstəvisində Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin ən əsas problemi – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqi-

şəsinin həlli, ölkənin ərazi bütövlüyünün və suveren dövlət hüquqlarının bərpası məsələsidir. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi, beynəlxalq hüquq norması çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem yalnız Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmur, həm də keçən 25 ildən artıq bir dövrdə regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri ilə və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi həm Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə bütün dünyada həllini gözləyən ən çətin və mürəkkəb münaqişələrdən biri hesab olunur.

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən məsələlərindən biri də malik olduğu təbii sərvətlərini, karbohidrogen ehtiyatlarını xarici müdaxilə olmadan, özünün müəyyən etdiyi daxili və xarici tərəfdaşlarla işləmək, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına yönəltməkdən ibarətdir.

Hər bir dövlət xarici müdaxilə olmadan öz daxili həyatını qurmaq və idarə etmək, daxili sabitliyi qorumaq, ölkənin strateji inkişafını, konstitusiya quruluşunu təmin etmək vəzifəsini həyata keçirir. Bu mənada mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycan özünün müəyyən etdiyi demokratik cəmiyyət, hüquqi və dünyəvi dövlət, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya xəttini reallaşdırmaq üçün regionun və dünyanın güc mərkəzləri ilə münasibətlərə dair xüsusi düşünülmüş, ardıcıl həyata keçirilən milli təhlükəsizlik konsepsiyasına malik olmalıdır. Bu konsepsiya dövlətin həm daxili, həm də xarici vəziyyətini və vəzifələrini, onu reallaşdırmanın əsaslı yollarını və vasitələrini dəqiq müəyyən edən milli proqrama əsaslanmalıdır.

Azərbaycanın regional təhlükəsizlik məsələsinə yanaşması birmənalıdır: Qafqaz regionunun müxtəlif güc blokları arasında bölünməsinin qarşısını almaq. Azərbaycan bu mövqeyini 1993-cü ildən başlayaraq ardıcıl şəkildə həyata keçirmiş, bölgə ölkələrinin ərazisində xarici orduların və hərbi bazaların yerləşdirilməsinin, Qafqazın hərbiləşdirilməsinin əleyhinə çıxış etmiş və öz mövqeyini 1999-cu ildə ATƏT-in İstanbul sammitinin yüksək tribunasından bəyan etmişdir. Tədbirdə iştirak edən Prezident H.Əliyev regionda Təhlükəsizlik və Əməkdaşlıq Paktının yaradılması təşəbbüsü ilə də çıxış etmişdi. Bu təşəbbüsə görə, Təhlükəsizlik Paktını Azərbaycan, Gürcüstan, Ermənistan, Rusiya, Türkiyə və ABŞ imzalamalı idi. Azərbaycanın bu təklifi Rusiya, Ermənistan və İranda müəyyən qədər narazılıqla qarşılandı. Regiondan kənar dövlət olan ABŞ-ın bölgədəki proseslərə müdaxiləsini yolverilməz hesab edən Rusiya və regional təhlükəsizlik sisteminin formalaşdırılmasından kənarda qalan İran bu təşəbbüsü birmənalı şəkildə qəbul etmədilər.

Azərbaycanın regional təhlükəsizliyə dair daha bir təşəbbüsü isə 4 il sonra – 2002-ci ildə diqqət mərkəzinə gəldi. Həmin ilin aprelində Türkiyənin Trabzon şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Trabzon razılaşması" imzalandı. Regionun enerji təhlükəsizliyi və müstəqilliyini təmin etmək üçün 3 ölkənin daxili işlər nazirlərinin imzaladığı bu sənəd terrorizm və aqressiv separatizmə qarşı mübarizədən tutmuş, çirkli pulların yuyulması və neft-qaz borularının birgə mühafizəsinədək kifayət qədər geniş bir spektri əhatə edirdi. Bu saziş, həm də regionun üç dövlətinin strateji tərəfdaşlığını rəsmiləşdirən sənəd hesab olunur. Qeyd edək ki, bundan əvvəl 1996-cı ildə Azərbaycan və Gürcüstan arasında "Trabzon razılaşmasına" oxşar "Tbilisi bəyannaməsi" adlanan sənəd imzalanmış və bu sənəd bütün region ölkələrinin daxil olması üçün açıq elan edilmişdir. Lakin regionun heç də bütün dövlətləri Azərbaycanın təklif etdiyi bu tip təhlükəsizlik mexanizmini qəbul etmir. Burada söhbət ilk növbədə Rusiya və İrandan gedir.

Rusiyanın regional təhlükəsizlik siyasətinin kökündə Qərbin, ilk ABŞ-ın bölgədə mövqelərinin möhkəmlənməsinə yol verməmək

üçün region ölkələrinin beynəlxalq təhlükəsizlik sistemınə çıxışını, Qərblə hərbi inteqrasiyasını, bu sahədə sərbəst siyasət yeritməsini əngəlləmək cəhdi dayanır. Lakin Rusiyanın bu planları regionda təmsil olunan yalnız 2 dövlət – İran və Ermənistan tərəfindən razılıqla qarşılanır. Bu isə Moskvanın bölgədəki siyasətinin effektli olması üçün kifayət etmir. Rusiyanın ənənəvi olaraq regionda təsir imkanlarını qoruyub saxlamaq üçün daxili münaqişələrə üstünlük verməsi, separatizmi dəstəkləməsi Azərbaycanla Gürcüstanı regiona yeni geosiyasi oyunçuları və güc mərkəzlərini cəlb etməyə sövq edir. Bu gün Qərbin regiondakı mövqelərinin möhkəmlənməsinin əsas səbəblərindən biri və birincisi də məhz budur.

Rusiya isə bölgəyə yeni güc mərkəzlərinin gəlişinin qarşısını almaq üçün Kollektiv Təhlükəsizlik Müqaviləsini (KTM) genişləndirmək kursunu tutub.

1992-ci ilin mayında Daşkənddə MDB-yə üzv olan 6 ölkə - Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın yaratdığı bu quruma sonradan Azərbaycan (24 sentyabr 1993-cü il), Gürcüstan (9 dekabr 1993-cü il) və Belarus (31 dekabr 1993-cü il) müşahidəçi qismində qoşuldular. Lakin KTM-in prinsipləri və şərtləri Bakı və Tbilisini qane etmədiyindən, ilk iki ölkə təşkilata üzvlükdən imtina etdi və 1999-cu ildə müşahidəçi qismində iştirakı da dayandırdı. Eyni addımı Özbəkistan da atdı. Qeyd edək ki, əvvəllər daha çox deklorativ xarakter daşıyan KollektivTəhlükəsizlik Müqaviləsi 2003-cü ilin oktyabrından konkret hərbi-siyasi bloka çevrilib. Oktyabrın 7-də MDB-nin Kişinov sammitində Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan prezidentləri Kollektiv Təhlükəsizlik Təşkilatının (KTT) yaradılması haqda müqavilə imzalayıb. Rusiyalı politoloqlar fəaliyyət göstərdiyi 25 il ərzində effektiv struktura çevrilə bilməmiş KTM-in KTT ilə əvəz olunmasını **“Avrasiya hərbi-siyasi blokunun yaradılması”** kimi təqdim edirlər. Təbii ki, Cənubi Qafqaz ölkələrindən yalnız Ermənistanın bu blokda təmsil olunması Rusiyanın regional təhlükəsizlik siyasətini qeyri-effektli edir. Buna görə də, rəsmi Moskva Azərbaycanla Gürcüstanın da bu blokda təmsil olunmasına çalışır. Azərbaycanın bu təşkilata

qoşulması üçün sonuncu cəhd 2004-cü ilin payızında, MDB dövlət başçılarının Astanada keçirilən sammitinə təsadüf edir. Lakin rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər özünün regional təhlükəsizlik məsələləri ilə bağlı mövqeyində dəyişiklik etməyə əsas olmadığını bildirərək, KTT-na qoşulmaqdan imtina edir.

Gürcüstan da bu hərbi-siyasi bloka üzv olmaq niyyətində olmadığını bildirərək, əksinə, öz ərazisindəki Rusiya hərbi bazalarının ölkədən çıxarılması tələbi ilə çıxış etmişdir. Bütün bunların müqabilində Kreml hər iki respublikaya qarşı açıq və dolayı təzyiqləri artırır. Əgər Gürcüstana yanaşmada bu təzyiqlər Abxaziya və Cənubi Osetiya separatçılarının 2008-ci ildə tanınması, Rusiya ilə faktiki olaraq ikitərəfli əlaqələr qurması şəklində öz əksini tapırsa, Azərbaycana qarşı təzyiqlər daha çox iqtisadi xarakterlidir. Təsadüfi deyil ki, sözügedən Astana sammitindən sonra Rusiya tərəfi Azərbaycanla sərhəddə nəzarət-keçid rejimini sərtləşdirdi, Azərbaycandan bu ölkəyə aparılan kənd təsərrüfatı mallarının sərhəddən buraxılmasını süni şəkildə əngəlləməyə başladı və s. Yalnız rəsmi Bakının diplomatik səyləri nəticəsində bu məhdudiyyətlər müəyyən qədər aradan götürüldü.

Azərbaycanın Kollektiv Təhlükəsizlik Təşkilatına qoşulması ölkənin geosiyasi maraqları ilə yanaşı, həm də işğalçı Ermənistanın bu qurumda təmsil olunması ilə bağlıdır. Üstəlik, sözügedən təşkilat Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün effektli mexanizmə malik deyil. Çünki KTT yarandığı gündən üzv ölkələr bəyan edir ki, bu təşkilat daxili münaqişələrin həllinə yox, xaricdən yarana biləcək təhlükələrə qarşı tədbir görəcək. Belə olan halda Azərbaycanın bu quruma üzvlüyü ölkəmizə ciddi bir siyasi və ya hərbi divident vəd etmir. Əksinə, Qafqazda xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsinə qarşı çıxan və tam neytral mövqe nümayiş etdirən, Qafqazın Sinqapur modelinə iddialı olan və bunu sübut etməkdə olan Azərbaycanın Qərblə bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinə mənfi təsir göstərə bilər.

Hadisələrin inkişafı da göstərir ki, regional təhlükəsizlik məsələsində Azərbaycan ən optimal variantı seçib. Belə ki, artıq Bakı-Tbi-

lisi-Ceyhan Əsas İxrac Kəmərinin işə salınması, Qərb kapitalının regiona axını və s. Rusiyanı özünün Qafqaz siyasətində ABŞ və Qərb faktoru ilə hesablaşmağa məcbur edir. Amma bununla belə, Rusiya regionda təhlükəsizlik problemlərinin həllində əsas və həlledici rol oynayır və bu rolu heç kimə güzəştə getmək fikrində deyil. Bölgədə münaqişə ocaqlarının hələ də mövcud olması, Cənubi Qafqaz və Orta Asiya ölkələrindən Rusiyaya kütləvi miqrasiyanın mövcudluğu, region ölkələri ilə vahid iqtisadi sistemin qorunub saxlanması və s. Moskvanın regiona təsir göstərmək imkanlarını xeyli artırır.

Ukrayna hadisələri fonunda Rusiyanın regional siyasətində müəyyən dəyişikliklər hiss olunmaqdadır. Qeyd edək ki, Rusiyada indiyədək dəfələrlə sınaqdan keçirilmiş "etnik münaqişələr" taktikasına yanaşmada dəyişikliklər hələ 1994-cü ildə - Çeçenistan münaqişəsi alovlanan zaman hiss olunmağa başlayıb. Həmin il Rusiya Prezidenti B.Yeltsin Federasiya Şurasındakı çıxışında verdiyi "Rusiya sərhədləri yaxınlığındakı münaqişə ocaqları, MDB ölkələrindəki iqtisadi və dövlətçilik böhranları Rusiya üçün real təhlükədir" bəyanatı da bundan xəbər verir. Doğrudur, belə bir mövqe Rusiyaya 2008-ci il Rusiya-Gürcüstan müharibəsindən dərhal sonra Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanımağa mane olmamışdır.

Rusiyanın regional proseslərə və Qafqazın təhlükəsizlik probleminə yanaşması əsrlər boyu Kremldə formalaşmış siyasi strategiyadan kənara çıxmır. Rəsmi Moskva Cənubi Qafqazdakı prosesləri tarixi rəqibləri olan İran və Türkiyə, həmçinin yeni rəqibləri olan ABŞ və Avropa İttifaqının iştirakı olmadan təkbaşına həll etmək iddiasındadır. Təsadüfi deyil ki, Rusiya regional problemlərin **"3+1"** formulu, yəni üç *Cənubi Qafqaz ölkəsi + Rusiya formulu* əsasında həll etməyə çalışır. *"Qafqaz dördlüyü"*adlandırılan bu format daxilində indiyədək həm prezidentlər, həm təhlükəsizlik şurası sədrləri, həm dini liderlər səviyyəsində müxtəlif görüşlər və məsləhətləşmələr aparılmışdır. Amma bu birlik hələ ki, məsləhətləşmələr formatından kənara çıxa bilmir.

Bölgədə təhlükəsizlik problemlərinin həllinə mane olan əsas amillərdən biri Rusiyada Vaşinqtona və Qərbə münasibətdə birməna-

lı və dəqiq kursun mövcud olmaması ilə bağlıdır. Moskvada ABŞ-ı beynəlxalq terrorizm, etnik münaqişə və müasir dini ekstremizm təhlükələrilə mübarizədə bərabərhüquqlu müttəfiq qismində görənlərlə bərabər, bölgədə hərbi-siyasi cəhətdən möhkəmlənməyə can atan və Ukrayna vasitəsilə Rusiyaya təzyiq göstərmək istəyən rəqib kimi baxanların sayı daha çoxdur. Bu isə geosiyasi mövqelərin qarşıdurmasını daha da gücləndirir. Özü də artıq burada **Rusiya** *(İran, Ermənistan)* – **ABŞ** *(Azərbaycan, Türkiyə, Gürcüstan)* bloklaşması da proqnozlaşdırılır. Son illərdə baş verən proseslər, Ukraynanın regiondakı proseslərə daha fəal müdaxilə etməsi isə Rusiya-İran-Ermənistan blokuna qarşı Qərbin dəstək verdiyi Türkiyə-Ukrayna-Azərbaycan-Gürcüstan blokunun formalaşmasını şərtləndirir. Bu gün Bakı-Tbilisi-Ceyhan layihəsi Azərbaycan, Gürcüstan və Türkiyənin strateji müttəfiqliyini şərtləndirən əsas amillərdən birinə çevrilib. Bununla paralel olaraq, Kiyevin 2014-cü il AvroMaydan hadisələrindən sonra ifrat ABŞ meylli mövqe tutması, Avropa bazarlarına çıxmaq uğrunda göstərdiyi səylər, Ukraynanın ifrat antirusiya mövqeyi, Krım və Donbas prosesləri Mərkəzi Avropa uğrunda Qərb mücadiləsinin hələ uzun müddət davam edəcəyindən də xəbər verir.

Ərazisi və əhalisinin sayına görə Avropanın böyük dövlətlərindən biri olan Ukrayna öz təhlükəsizlik siyasətinin prioritetini hələ 1998-ci ildə müəyyənləşdirib. Prezident L.Kuçmanın həmin ilin noyabrında təsdiq etdiyi Ukrayna-NATO əməkdaşlığına dair dövlət proqramında rəsmi Kiyev Şimali Atlantika Alyansını “Avropada kollektiv təhlükəsizliyin ən effektli strukturu” adlandırıb. Bu gün Ukraynada birmənalı şəkildə amerikapərəst hakimiyyətin formalaşdığını nəzərə alsaq, Kiyevin də Cənubi Qafqazdakı siyasətini Qərbin maraqları kontekstindən şərh etmək mümkündür.

Hazırda Ukrayna ilə ABŞ-ın əksər məsələlərə yanaşması eynidir. Regionda yeni geosiyasi vəziyyətin formalaşdırılması, Avropa təhlükəsizlik sisteminin A.Yasenyuk hökuməti hesabına Avropaya doğru genişləndirilməsi, Xəzər neftinin nəqli üçün istifadə olunan dəhlizlər və geosiyasi oriyentasiya məsələlərində Ukraynanın mövqeyi Qərblə üst-üstə düşür. Qərb ölkələri Rusiyanı bölgədən təcrid

etmək üçün Ukraynaya təsirli vasitə və ciddi amil kimi yanaşır. Bu baxımdan, Ukraynanın Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə müdaxiləsi, həm də Rusiyanın bu regiondakı ənənəvi təsirini zəifləxtmək məqsədi güdür.

Rəsmi Moskva öz növbəsində Kiyevin Rusiyanın enerji daşıyıcılarından asılı olması, "Donbas və Luqansk Xalq Respubllikaları" faktından bu ölkəyə qarşı təzyiq rıçaqı kimi istifadə edir. Bu gün Ukraynanın Qafqazda və bütövlükdə Avrasiyada müstəqil geosiyasi faktor kimi çıxış etməsinə mane olan əsas amil də məhz onun Rusiyadan enerji asılılığı hesab olunur. Buna görə də Ukrayna bu asılılığı aradan qaldırmaq üçün Qafqaz və Mərkəzi Asiyada öz mövqelərini möhkəmləndirməyə çalışır və bu zaman əsas diqqət Azərbaycan, Gürcüstan və Qazaxıstana yönəlir.

Ukraynanın Cənubi Qafqazdakı maraqları, ilk növbədə, enerji-nəqliyyat layihələri ilə bağlıdır. Bu layihələr, artıq qeyd edildiyi kimi, Ukraynanın əsrlər boyu birlikdə olduğu Rusiyadan enerji asılılığına son qoymaq üçün yeganə çıxış yolu hesab edilir. Ukraynanın Cənubi Qafqazda Rusiyaya qarşı alternativ kimi çıxış etməsi, ilk növbədə, rəsmi Moskvanın bölgədəki münaqişələrə yanaşmasından narazı olan Azərbaycan və Gürcüstan üçün cəlbedici görünür. Ukraynanın regional təhlükəsizlik məsələsinə yanaşması da birmənalı şəkildə bu dövlətlərin maraqlarına uyğundur. Çünki rəsmi Kiyev Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziya münaqişələrinin bu dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır.

Ukrayna regiondakı münaqişə ocaqlarının söndürülməsi üçün ciddi səy göstərir. Bunun üçün rəsmi Kiyev GUAM daxilində müvafiq mexanizm yaradılmasının ardıcıl tərəfdarı kimi çıxış edir. Vaxtilə bu ideyanı da məhz Ukraynanın eks-prezidenti L.Kuçma irəli sürmüşdür. Onun fikrincə, yaradılacaq sülhməramlı qüvvələr münaqişəli zonalarda sülh yarada bilər. GUAM-a üzv olan 4 ölkədən 4-ü də daxili münaqişələrlə üzləşdiyinə görə, Ukraynanın bu təşəbbüsü Azərbaycan, Gürcüstan və Moldovada aktiv dəstəklənir və rəsmi Kiyevin bölgədə ciddi güc mərkəzinə və Qərbin müttəfiqinə çevrilmək

perspektivini yaradır, lakin bu zaman rəsmi Kremlin beynəlxalq iqtisadi sanksiyalar fonunda əks zərbələri və Krım, habelə Cənub-Şərqdə separatist meyllər də diqqət mərkəzində saxlanılmalıdır.

Cənubi Qafqazdakı münaqişələr Ukraynanın da geosiyasi planlarına ciddi təhlükədir. Çünki Ukrayna üçün strateji əhəmiyyət daşıyan nəqliyyat dəhlizləri məhz Azərbaycan və Gürcüstan ərazisindən keçir. Ona görə də Kiyev bu ölkələrin ərazisində hərbi-siyasi sabitliyin bərqərar olmasında maraqlıdır. Hələlik Kiyevin bu münaqişələrin həllində vasitəçilik üçün real təsir mexanizmləri yoxdur. Səbəb isə münaqişə ocaqlarında separatçı qüvvələrin bu vasitəçiliyə mənfi yanaşmasıdır.

Ukrayna Türkiyə, Azərbaycan və Gürcüstanla hərbi və təhlükəsizlik sahəsində birgə əməkdaşlığın formalaşması üçün öz səylərini davam etdirir və Kollektiv Təhlükəsizlik Müqaviləsinə qoşulmayan bu ölkələrlə, o cümlədən NATO üzvü olan Türkiyə ilə təhlükəsizlik sahəsində əməkdaşlığa xüsusi önəm verir.

Hələlik rəsmi Kiyevin Cənubi Qafqazda ciddi geosiyasi oyunçu qismində çıxış etmək imkanı olmasa da, Qərb ölkələrinin verdiyi dəstək onun perspektivləri haqqında nikbin fikirlər söyləməyə əsas yaradır. İndiyədək region ölkələri tərəfindən Cənubi Qafqzda təhlükəsizlik sisteminin formalaşdırılmasına dair irəli sürülən təklif və sxemlərin heç birində Ukraynanın iştirakı nəzərdə tutulmayıb. Regionun hər bir ölkəsi Qafqazın təhlükəsizliyi ilə bağlı fərqli təklif və sxemlərlə çıxış edir. Hətta, regional proseslərə yanaşmada müəyyən ortaq mövqe nümayiş etdirən İranla Rusiyanın da təklifləri bir-birindən xeyli fərqlənir.

“Regiondan kənar qüvvələr”ə yanaşmadakı eynilik geostrateji maraqlarla yanaşı, həm də tarixi köklərə malikdir. Bugünkü müstəqil Azərbaycan dövləti Rusiya ilə İran arasında əsrlər boyu mövcud olan sərhədləri pozub və onların strateji maraqlarına maneçilik törədib. SSRİ dağılandan sonra artıq Rusiyanın İranla birbaşa quru sərhədi yoxdur və bu, iki ölkənin birgə geosiyasi planlarının reallaşmasını çətinləşdirir. Üstəlik, Qərbin Azərbaycanda möhkəmlənməsi, bu ərazidə İranla Rusiya arasında üçüncü qüvvənin yerləşdirilməsi

deməkdir. Bu gün Tehranla Moskvanın regiona kənar qüvvələrin müdaxiləsinə qarşı ciddi müqavimət göstərməsinin kökündə də, əsasən, bu amil dayanır.

İranın bölgədə təhlükəsizlik problemlərinə öz tarixi yanaşması var və bu dövlətin mövqeyində yeni şəraitdə, 2015-ci il 15 iyun Vyanada altılıq ölkələri ilə İslam Respublikasının nüvə proqramı ilə bağlı razılaşması istisna edilməklə, Yaxın Şərq və konkret olaraq Suriya böhranında hər hansı bir dəyişiklik müşahidə olunmur. İran bölgədə qeyri-sabitliyin yaranmasını "regiondan kənar" qüvvələrin (ABŞ və Avropa İttifaqı) mövqelərinin möhkəmlənməsi kimi qəbul edir. Çünki istənilən münaqişə regiona kənar qüvvələrin müdaxiləsinə yol açır (Balkanlar buna sübutdur). Məhz buna görə, İran dəfələrlə istər Xəzər hövzəsindəki ölkələrə, istərsə də Cənubi Qafqaz respublikalarına bölgədəki təhlükəsizliyin qorunması üçün birgə kompleks tədbirlər təklif edib və "regiondan kənar" qüvvələrin proseslərə müdaxiləsini yolverilməz sayıb. Lakin bu mövqe rəsmi Tehrana özünün nüvə və raket proqramı ilə bağlı 2015-ci ilin iyununda Vyanada 6-lıq ölkələri ilə razılaşma sənədi imzalamağa mane olmadı.

İranın bununla bağlı ilk təşəbbüsü Cənubi Qafqazda vahid təhlükəsizlik sisteminin yaradılması ilə bağlı olub. Bunun üçün rəsmi Tehran region ölkələrinə **3+2 formulu** (üç Cənubi Qafqaz respublikası + Rusiya və İran) təklif edib. Bu sistem təhlükəsizlik və xarici siyasət sahəsində adıçəkilən ölkələrin səylərini birləşdirməsini, birgə əməkdaşlığını nəzərdə tuturdu. Maraqlıdır ki, 3+2 formulunu təklif etməklə regiondakı əsas geosiyasi oyunçulardan biri olan Türkiyəni bu sistemdən kənarda qoymağı düşünən İran yalnız öz tarixi rəqibini deyil, həm də Ankaranın üzvü olduğu NATO-nu və müttəfiqi olduğu ABŞ-ı proseslərə təsir göstərmək imkanından məhrum etmək niyyətini gizlətmirdi.

Tehranın bu təklifi region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Məsələn, rəsmi Bakı öz təhlükəsizlik problemlərini ikitərəfli və çoxtərəfli əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlıq formasında həll etməyə üstünlük verdiyini bildirdi.

Bundan sonra İran rəhbərliyi regional təhlükəsizlik sisteminə dair yeni formul – **3+3** sxemini irəli sürdü. Burada artıq söhbət 3 Cənubi Qafqaz respublikaları + Rusiya, İran, Türkiyə formulundan gedirdi. ABŞ-ın regiona gəlişini əngəlləmək üçün İran hətta Vaşinqtonun müttəfiqi və Tehranın əsrlər boyu regiondakı rəqibi olan Türkiyə ilə də əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi. Rəsmi Tehran bu sistem daxilində 6 dövlətin təhlükəsizlik şuralarının katibləri, parlament sədrləri, həmçinin iqtisadiyyat və maliyyə nazirləri səviyyəsində ayrı-ayrı görüşlərin keçirilməsini və ümumi baxışların formalaşdırılmasını təklif edirdi.

İranın regional təhlükəsizlik sisteminə dair daha bir təklifi 2003-cü ilin aprelində gündəmə gətirildi. O dövrdə İranın xarici işlər naziri Kamal Xərrazinin regionun birgə təhlükəsizlik qüvvələrinin yaradılması təşəbbüsü yenə də bölgə dövlətlərinin dəstəyini qazanmadı.

Beləliklə, İran regiondakı geostrateji məqsədlərini aşağıdakı qaydada formalaşdırır:

- Kənar qüvvələrin (ABŞ və Avropa İttifaqı) Cənubi Qafqazda iştirakını mümkün qədər məhdudlaşdırmaq, onların İran sərhədlərinə yaxınlaşmasına imkan verməmək;
- Regional problemləri yalnız bölgədəki dövlətlərin birgə səyi ilə həll etmək;
- Xəzər hövzəsi və Cənubi Qafqaz ölkələrinin birtərəfli addımlarını maksimum neytrallaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün mexanizm tapmaq;
- Qərbyönümlü siyasət yeridən region dövlətləri ilə münasibətləri yüksək səviyyədə quraraq, onlara təsir mexanizmlərini müəyyənləşdirmək;
- Geostrateji maraqları İranla üst-üstə düşən regional ölkələrlə əməkdaşlığı daha da möhkəmləndirmək.

İranın Cənubi Qafqazda yürütdüyü region dövlətləri ilə hərtərəfli əlaqələr yaradaraq onları təsir altında saxlamaq siyasəti Azərbaycanla münasibətlərinin timsalında açıq-aydın görünür. Son bir neçə il ərzində İranın Dağlıq Qarabağ probleminə yanaşmasında köklü dəyişiklik hiss olunur. İran bütün beynəlxalq təşkilatlarda

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar çıxır, ölkəmizin ərazi bütövlüyünü tanıdığını müxtəlif tribunalardan elan edir, uzun illər mübahisə obyekti olan Təbrizdə konsulluğun açılması məsələsinə razılıq verir və s.

Bu bir faktdır ki, İranın regiondakı geosiyasi duruma təsir göstərmək imkanı getdikcə azalır. Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması, bölgədəki bütün layihələrin Qərbin dəstəyi və iştirakı ilə həyata keçirilməsi, İranın bölgədəki proseslərdən təcrid olunması ilə nəticələnib. Tehranın ciddi müqavimətinə baxmayaraq, ABŞ artıq prosesə start vermişdir. İranla sərhədyanı ölkələrin əksəriyyətində- Türkiyə, Pakistan, Əfqanıstan və İraq, həmçinin Fars körfəzinin sahilyanı ölkələrində ABŞ-ın hərbi qüvvələri yerləşdirilib (2014-cü ildə ABŞ ordusu İraqı tərk etmişdir). Birləşmiş Ştatların hərbi iştirakı olmayan yeganə həmsərhəd dövlətlər Azərbaycanla Türkmənistandır. Bu amil Azərbaycanın İran üçün əhəmiyyətini daha da artırır. İraq müharibəsindən sonra Tehranın Bakı ilə münasibətlərə daha çox diqqət yetirməsi təsadüfi deyil. Siyasi ekspertlər hesab edir ki, hadisələrin bu istiqamətdə inkişaf edəcəyi təqdirdə, iki dövlət arasında həllini tapmayan Xəzərin statusu məsələsi ilə bağlı danışıqlar da müsbət sonluqla nəticələnə bilər. Ancaq istənilən halda, regional təhlükəsizlik məsələsinə yanaşmada Bakı ilə Tehran arasındakı prinsipial fikir ayrılıqları altılıq ölkələri ilə razılaşma imzalandıqdan sonra da qalmaqdadır.

Azərbaycanla yanaşı, bölgənin digər dövləti – Gürcüstan da regional təhlükəsizliyin təmin olunmasına "kənar qüvvələr"in – ATƏT, Avropa İttifaqı və NATO-nun cəlb edilməsinə tərəfdardır. Bu ölkədə 2003-cü ildə hakimiyyət dəyişikliyindən sonra rəsmi Tbilisinin birmənalı olaraq ABŞ meylli kurs tutduğunu nəzərə alsaq, Gürcüstan indi İranın 3+3 təklifini ümumiyyətlə, aktual saymır. Digər tərəfdən, Gürcüstanın qərbyönümlü siyasi kursu yalnız bu ölkədəki hakimiyyət dəyişikliyi ilə bağlı deyil. Əslində, bu siyasət hələ 1997-ci ildən başlayıb. Həmin il ölkə parlamenti Gürcüstanın suverenliyi və təhlükəsizliyinin, ərazi bütövlüyünün bərpası və sabitliyin möhkəmlənməsi Konsepsiyasını qəbul edib. Sənədin əsasında ölkənin

Avropa oriyentasiyası durur. Konsepsiyanın müəllifləri NATO-nun Avropada təhlükəsizliyin təmin olunmasındakı rolunu nəzərə alaraq, Şimali Atlantika Alyansının genişlənməsini Gürcüstanın milli maraqları baxımından təqdirəlayiq sayırlar. Sonrakı illərdə Gürcüstanın Qərblə, xüsusilə də ABŞ və NATO ilə əməkdaşlığı daha da genişlənib. NATO-nun assosiativ üzvü olan Gürcüstan, yalnız 1999-cu ildə NATO ilə əməkdaşlıq çərçivəsində onlarla tədbir, o cümlədən Rusiyanın narazılıqla qarşıladığı genişmiqyaslı hərbi-dəniz təlimləri keçirib, 2013-cü ildə isə ATƏT-in Vilnüs sammitində Aİ (Avropa İttifaqı) ilə assosiativ müqavilə və azad ticarət sazişi bağladı.

Gürcüstan bu gün regionumuzda Azərbaycanın ən yaxın strateji tərəfdaşlarından biri sayılır. Bakı ilə Tbilisi arasında strateji əməkdaşlıq bir sıra obyektiv amillərlə bağlıdır. SSRİ dağılandan sonra hər iki ölkə eyni problemlərlə üzləşib – iqtisadi böhran, vətəndaş qarşıdurması və aqressiv separatizm təhlükəsi. Buna görə də hər iki ölkənin həm regionda, həm də beynəlxalq aləmdə eyni mövqedən çıxış etməsi təbiidir. Azərbaycanla Gürcüstanın xarici siyasi prioritetləri də eynidir:

- Dünya birliyinin aqressiv separatizm probleminə diqqətinin artırılmasına və dövlətlərin sərhəd toxunulmazlığı prinsipinin bərpasına nail olmaq;
- Müxtəlif güc mərkəzlərinin geosiyasi maraqlarının kəsişdiyi Qafqazda bütün maraqlı tərəflər üçün cəlbedici faktora çevrilmək, güc mərkəzlərinin geosiyasi ziddiyyətlərindən istifadə edərək öz dövlətini möhkəmləndirmək;
- Ərazilərdəki etnik münaqişələri dinc yolla həll etmək, ərazi bütövlüyünü bərpa etmək;
- Rusiyadan asılılığı azaltmaq üçün Qərbin siyasi və iqtisadi strukturlarına inteqrasiyaya üstünlük vermək;
- Neft və qaz yataqları ilə zəngin olan regionda əsas tranzit ölkəyə çevrilmək, birgə enerji və nəqliyyat layihələrində iştirak edərək Qərbə çıxış üçün alternativ yollar tapmaq və s.

Lakin məqsədlər eyni olsa da, ölkələrdəki şərait, ictimai-siyasi və iqtisadi vəziyyət fərqlidir. Azərbaycandan fərqli olaraq, Gürcüstan

ciddi təbii resurslara malik deyil və Rusiyadan daha çox asılıdır. Bu isə Azərbaycanın Gürcüstan üçün strateji əhəmiyyətini bir qədər də artırır. Çünki yaranmış vəziyyətdə Gürcüstanın əsas ümidi ölkənin coğrafi vəziyyəti və transsərhəd imkanlarından maksimum bəhrələnməkdir ki, bu da Azərbaycanla əməkdaşlıq etmədən qeyri-mümkündür.

2005-ci ilin iyulunda Gürcüstan parlamenti ölkənin Milli Təhlükəsizlik Konsepsiyasını qəbul edib. Ölkənin milli maraqları, xarici siyasətin prioritetləri və digər dəyərləri əks etdirən sənədə görə, Gürcüstanın xarici siyasi tərəfdaşlığının prioritetləri aşağıdakı kimi qeyd olunub:

**1. Strateji tərəfdaşlıq**– ABŞ, Ukrayna, Türkiyə və Azərbaycan

**2. Tərəfdaşlıq**– Rusiya

**3. Praqmatik əməkdaşlıq** – Ermənistan

Konsepsiyadan da göründüyü kimi, Azərbaycan Gürcüstanın 4 əsas strateji tərəfdaşından biridir.

Bütün bunlar Bakı ilə Tbilisinin strateji tərəfdaşlığını şərtləndirən və iki ölkəni birləşdirən amillərdir. Ancaq bir sıra prinsipial fərqlər də var və bu, ilk növbədə, özünü xarici siyasi kursunda göstərir. Azərbaycan bölgədə marağı və nüfuzu olan bütün ölkələrlə dostluq və tərəfdaşlıq əlaqələri saxlamaqla bu prosesi ağrısız keçmək yolunu tutduğu halda, Gürcüstan rəhbərliyi yalnız Qərblə inteqrasiya kursunu dəstəkləyən dövlətlərlə əməkdaşlığa üstünlük verir. Birtərəfli siyasət yeridən Gürcüstan bölgədəki əsas güc mərkəzlərindən olan Rusiya ilə münasibətlərdə ciddi gərginlik yaşayır və bu, regionda təhlükəsizlik üçün ciddi problemlər yarada bilər. Çünki Gürcüstanın regional təhlükəsizlik proseslərində Rusiyanın kənarda qalmasına yönəlmiş siyasəti, nəticə etibarilə hər iki ölkə arasında münasibətləri daha da gərginləşdirir. Bu zaman isə Rusiyada məskunlaşmış yüz minlərlə gürcünün mümkün deportasiyası, Cənubi Osetiya və Abxaziyanın birdəfəlik itirilməsi, Cavaxetiyada isə potensial münaqişələrin daha da qabardılmasının şahidi ola bilərik.

Gürcüstandan fərqli olaraq, Rusiya ilə münasibətlərində problemi olmayan Ermənistan Cənubi Qafqazda formal təhlükəsizlik siyasəti yürüdür. Əslində, onun bütün məsələlərə yanaşması digər

bölgə ölkələrindən geridə qalmamaq üçün təbliğat xarakteri daşıyan "müstəqil dövlət" imitasiyasından başqa bir şey deyil. Rusiyanın hərbi bazalarını öz ərazisində yerləşdirən, Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının tələblərindən çıxa bilməyən Ermənistanın müstəqil təhlükəsizlik siyasəti yürütməsi, sadəcə olaraq, mümkün deyil.

Rəsmi İrəvan ABŞ və Avropa İttifaqının regiondakı proseslərdə iştirakını məqbul saysa da, bu güc mərkəzlərinə regional dövlətlərlə eyni statusun verilməsinin əleyhinədir. İranın təklif etdiyi 3+3 formuluna cavab olaraq, rəsmi İrəvan alternativ təklif– "3+3+2" formulunu irəli sürüb. Bu təklif *üç Cənubi Qafqaz ölkəsi + Türkiyə, Rusiya, İran + ABŞ və Avropa İttifaqı"* sxemini nəzərdə tutur. Göründüyü kimi, bu sxemdə ABŞ və Avropa İttifaqı regiondakı dövlətlərlə eyni statusda yox, daha çox, köməkçi elementlər kimi göstərilib.

Ermənistanın bu mövqeyi izah olunandır. Artıq qeyd edildiyi kimi, bu ölkənin geosiyasi maraqları, təhlükəsizliyi və iqtisadi vəziyyəti yalnız bir dövlətdən – Rusiya Federasiyasından asılıdır. İki ölkə arasında hərbi, siyasi və iqtisadi əlaqələr kifayət qədər möhkəmdir. İndiyədək ölkələr arasında 160-dan çox beynəlxalq hüquqi sənəd imzalanıb. Bunların arasında bəziləri strateji əhəmiyyət daşıyır və Ermənistanın Rusiyadan tam asılılığını rəsmən təsdiqləyir. 1997-ci il avqustun 29-da imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqda" müqavilə, 2001-ci il sentyabrın 15-də imzalanmış "2010-cu ilədək uzunmüddətli iqtisadi əməkdaşlığa dair" müqavilə, XXI əsrdə Rusiya ilə Ermənistan arasında müttəfiqliyə dair bəyannamə və digər sənədlər Ermənistanın Rusiyadan siyasi, hərbi və iqtisadi cəhətdən tam asılılığını sübuta yetirir.

Rusiya Ermənistanı özünün Cənubi Qafqazdakı yeganə etibarlı strateji müttəfiqi (forpostu) hesab edir.

Ermənistanın geostrateji mövqeyi, işğalçılıq siyasəti və iqtisadi potensialının səviyyəsi bu ölkənin regiondakı proseslərdə müstəqil iştirakını istisna edir və Rusiya ilə eyni mövqedən çıxış etməyə vadar edir. Bu gün Ermənistan Rusiyanı öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə qarantı hesab edir. Bu ölkə bütün sahələrdə, xü-

susilə də hərbi sahədə Rusiyanın inhisarındadır. MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin cənub istiqamətində əsas və yeganə tərəfdaşı funksiyasını icra edən Ermənistanın hava məkanını, İran və Türkiyə ilə sərhədini də rus hərbiçiləri qoruyur. İki ölkə arasında hərbi müttəfiqliyin bünövrəsi 1992-ci il avqustun 21-də prezidentlər Boris Yeltsinlə Levon Ter-Petrosyanın imzaladığı Ermənistan ərazisindəki Rusiya Hərbi Qüvvələrinin hüquqi statusuna dair müqavilə ilə qoyulub. 1995-ci ilin martında isə prezidentlər Moskvada Ermənistan ərazisindəki hərbi bazaya dair 25 illik müqavilə imzalayıb. Sənəd Ermənistandakı 102-ci hərbi bazanın 2020-ci ilədək ölkə ərazisində qalmasını nəzərdə tutur. Bundan başqa, Rusiya-Ermənistan birgə hərbi qruplaşması yaradılıb, Ermənistan MDB-nin havadan vahid müdafiə sisteminə qoşulub, Kollektiv Təhlükəsizlik Müqaviləsinin, Avrozesin və Vahid Gömrük Birliyinin fəal üzvüdür, Rusiya Ermənistana silah və hərbi texnikanı, qazı güzəştli qiymətlə satır və s. Bütün bu faktlar, xüsusilə 2015-ci il 24 noyabr tarixində Türkiyə səmasında Rusiyanın "SU 24" qırıcısının vurulmasından sonra pisləşən Moskva-Ankara münasibətləri, regiondakı geosiyasi vəziyyəti ifrat dərəcədə gərginləşdirən, bölgədəki qüvvələr nisbətinin dəyişməsinə səbəb olan və Dağlıq Qarabağ probleminin həllinə mane olan amillərdir.

Problemin həllinə mane olan digər amil Ermənistanın İranla münasibətləridir. Rusiya ilə Ermənistanın strateji müttəfiqliyini və Moskva-Tehran əlaqələrini nəzərə alsaq, söhbət artıq Rusiya-İran-Ermənistan xəttinin formalaşmasından gedir. Xarici ekspertlər hesab edirlər ki, bu gün artıq bu "üçlər" bloku de-fakto mövcuddur. Üstəlik, İran öz geosiyasi maraqları naminə irəli sürdüyü əsas prinsipdən – regiondan kənar dövlətlərin bölgədəki proseslərə müdaxiləsinin yolverilməzliyi prinsipindən də imtina etməyə və bu bloka daha bir üzv "qəbul etməyə" hazırdır. Buna bariz nümunə İranla Ermənistanın, Yunanıstanın regionda aktivləşməsinə yönəlmiş addımlarını göstərmək olar. 1997-ci ildə Afinada İran, Yunanıstan və Ermənistan arasında "Qarşılıqlı anlaşma və əməkdaşlıq haqda" memorandum imzalanıb. Düzdür, hələlik rəsmi Afinanın iqtisadi çətinliklər baxımından

regionda aktivliyi hiss olunmur və sözügedən sənəd bölgədə qüvvələr nisbəti və geosiyasi vəziyyəti dəyişməyib. Üstəlik, son illər Yunanıstan-Türkiyə münasibətlərində gərginliyin nisbətən aradan qalxması da nəzərdən qaçmamalıdır. Amma hər halda, bu sənəd gələcəkdə yarana biləcək müəyyən tendensiyaların göstəricisi sayıla bilər.

**Ötən il daha bir hadisə Yunanıstan-Türkiyə münasibətlərinə soyuqluq gətirdi. Belə ki, Afina məhkəməsinin 15 sentyabr 2017-ci ildə dövlət çevrilişində suçlanan fetoçuları Ankaraya verməməsi iki ölkə arasında münasibətləri bir az da gərginləşdirdi.**

İran, Rusiya və Ermənistanın müttəfiqliyini şərtləndirən daha bir amil Türkiyə amilidir. Türkiyə ilə tarixi və strateji ədavəti olan hər üç dövlət Ankaranın bölgədə möhkəmlənməsinin qarşısını almaq üçün səylərini birləşdirir. Onlar Türkiyənin regiondakı türkdilli və qərbyönümlü xalqları öz ətrafında birləşdirəcəyi ehtimalından ehtiyatlanır və bu perspektivin onların regiondakı mövqelərinə ciddi zərbə ola biləcəyini dərk edirlər. Etiraf etmək lazımdır ki, Türkiyənin regional siyasətində bu faktor xüsusi çəkiyə malikdir. Bu gün doğrudan da Ankarada türkdilli xalqlar və demokratik inkişaf yolu tutmuş Xəzər-Qara dəniz hövzəsi ölkələrinin iştirakı ilə yeni geosiyasi məkanın formalaşdırılması ideyası aktualdır. Elə Türkiyənin Xarici İşlər Nazirliyinin nəzdində bu proseslə məşğul olan xüsusi strukturun yaradılması da Ankarada bu ideyaya ən yüksək səviyyədə önəm verildiyini göstərir.

Ermənistana gəldikdə, dövlət siyasəti kimi qondarma "soyqırım" iddiasından əl çəkməyən rəsmi İrəvan açıq şəkildə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürür və bu dövlətə "tarixi düşmən" kimi yanaşır. Belə olan halda, Türkiyənin mövqelərinin möhkəmlənməsinə imkan verməmək niyyəti Rusiya, Yunanıstan və Ermənistanı eyni geosiyasi məkanın iştirakçısı olmağa vadar edir. Qafqaz, Orta Asiya və Xəzər hövzəsi regionunun ən qədim geosiyasi oyunçularından olan Türkiyə regiondakı mövqelərini günü-gündən möhkəmləndirməkdədir. Sovet İttifaqı dövründə bölgədəki prosesləri yalnız öz maraqları deyil, həm də NATO-nun mənafeyi baxımından uzlaşdıran Türkiyə, hazırda, xüsusilə 2002-ci ildə AKP partiyası siyasi

hakimiyyətə gəldikdən sonra Şimali Atlantika Alyansının maraqlarının müdafiəçisi rolundan bir qədər uzaqlaşaraq, daha çox öz geosiyasi mənafelərinə diqqət yetirməyə başlamışdır. Qərbin təzyiqlərinə baxmayaraq, Türkiyənin hələ də Ermənistanla münasibətlər qurmaması da bu müstəqil siyasətin göstəricisidir. Bununla yanaşı, ABŞ-ın Cənubi Qafqaz, Xəzər və Orta Asiyada aktivləşməsi və bölgədə hərbi iştiraka nail olması Türkiyənin strateji maraqlarına tam cavab verir. Çünki Ankara Birləşmiş Ştatların bu geosiyasi məkandakı maraqlarının reallaşması yolunda əsas müttəfiq roluna iddialıdır. Düzdür, Qərbdə Türkiyəyə münasibət birmənalı deyil. Amma bu ölkənin mühüm dəniz yollarına nəzarət etməsi, Rusiyanın Qafqazdakı təsirini xeyli azaltması və radikal islam fundamentalizminin (xüsusilə İŞİD) qarşısında sipər rolunu oynaması Ankaranın Qərb üçün əvəzedilməz müttəfiq kimi qalmasını şərtləndirir. Politoloq Zbiqnev Bjezinski açıq şəkildə bildirir ki, bu gün Türkiyə Rusiyanın cənub sərhədlərində Almaniyanın ABŞ üçün vaxtilə Orta və Şərqi Avropada oynadığı rolu oynamalıdır (3).

Türkiyə-Suriya sərhədində Rusiyaya məxsus təyyarənin vurulması, Rusiyanın Ankaradakı səfiri A.Karlovun öldürülməsi Rusiya-Türkiyə münasibətlərini zədələsə də, sonradan münasibətlər bərpa olundu.

Politoloq Türkiyənin regionda önəmini qısa olaraq aşağıdakı amillərlə əsaslandırır:

- Türkiyə Qara dəniz regionunda vəziyyətin sabit qalmasında mühüm rol oynayır;
- Aralıq dənizindən Qara dənizə keçidləri nəzarətdə saxlayır;
- Rusiyanın Qafqazdakı mövqelərinin güclənməsinə imkan vermir;
- İslam fundamentalizminə qarşı sipər rolunu oynayır;
- NATO-nun cənubdakı əsas dayağıdır və s.

Sonuncu məqam – NATO faktoru Türkiyə üçün, xüsusilə 2008-ci il Rusiya-Gürcüstan müharibəsindən sonra daha vacib təsir mexanizminə çevrilmişdir. Rəsmi Ankara bu alyans daxilindəki rolunu artırmağa çalışır və bunun, avtomatik olaraq Türkiyənin region-

dakı nüfuzunun artmasına da təsir göstərəcəyini anlayır. Məsələn, bir neçə il əvvəl Türkiyə rəhbərliyi İstanbulda NATO-nun Çevik Qüvvələr Qərargahının yaradılması təşəbbüsü ilə çıxış edib. Rəsmi Ankara Balkanlar, Qafqaz və Orta Asiya kimi geostrateji məkanı yeni yaradılacaq qərargahın təsir zonasına daxil etməyi təklif edib.

Bu gün Türkiyə ABŞ-ın Qafqazdakı mövqelərinin möhkəmlənməsində də mühüm rol oynayır. Vaşinqton təhlükəsizlik və enerji sahəsində öz regional siyasətini məhz Türkiyə vasitəsilə həyata keçirir. Məsələn, ABŞ-ın regiondakı bütün hərbi və enerji layihələri birbaşa Ankaranın iştirakı ilə gerçəkləşib. Bu gün Gürcüstan silahlı qüvvələri, əsasən, Türkiyənin yardımı əsasında formalaşdırılır. Amma təbii ki, Türkiyənin bölgədəki geosiyasi perspektivi birbaşa Azərbaycanla bağlıdır. Ümummilli lider Heydər Əliyevin "bir millət-iki dövlət" adlandırdığı Azərbaycanla Türkiyə bu gün bütün məsələlərdə ən sadiq müttəfiq və tərəfdaşdırlar.

Bu iki dövlət bölgədə birgə iqtisadi, enerji və nəqliyyat layihələri reallaşdırır, beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Ərzurum, TRASEKA layihəsi, Qars-Tbilisi-Bakı dəmiryolu və digər layihələr Türkiyənin bölgədəki mövqelərini xeyli möhkəmləndirib. Çünki bu qlobal layihələrin hamısında Türkiyə mühüm tranzit ölkə funksiyasını yerinə yetirir. Bu isə əslində regionda aparıcı dövlət statusu qazanmaq deməkdir.

Türkiyənin Qafqazda və Xəzər-Qara dəniz hövzəsində əsas müttəfiqi Azərbaycan olsa da, Qafqazda möhkəmlənmək üçün onun Gürcüstanla münasibətləri də xüsusi önəm kəsb edir. Birbaşa Azərbaycanla sərhədi olmayan (təcrid edilmiş Naxçıvan istisna olmaqla) Türkiyə yalnız Gürcüstan vasitəsilə Qafqaza daxil olmaq imkanına malikdir.

Türkiyə region ölkələri ilə iqtisadi-ticarət baxımından, Rusiyanı sıxışdırmağı bacarsa da, Ermənistanla münasibətlərdəki problemlər və Dağlıq Qarabağ münaqişəsi, İŞİD və PKK problemləri Ankaraya regiona nəzarət uğrunda açıq və ciddi mübarizə aparmağa imkan vermir. 24 noyabr 2015-ci il tarixində türk səmasında rus SU-24 qırıcısının vurulmasından sonra isə pozulmuş rus-türk münasibətləri Dağlıq

Qarabağ münaqişəsinin siyasi tənzimlənməsi istiqamətində Ankaranın fəaliyyətini bir qədər də məhdudlaşdırır.

Türkiyənin Cənubi Qafqazın üç ölkəsindən biri ilə diplomatik, iqtisadi və siyasi əlaqələrə malik olmaması onun ümumilikdə regionda manevr imkanlarını məhdudlaşdırs da, sonradan münasibətlər tənzimlənmişdir. Ermənistanla diplomatik əlaqələr qurmaq və Kəlbəcərin 1993-cü ildə işğalından sonra sərhədləri açmaqdan imtina edən Türkiyə Avropa İttifaqının da iradları ilə üzləşir. Bütün bunları nəzərə alaraq söyləmək olar ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və bunun əsasında Türkiyə-Ermənistan və Azərbaycan-Ermənistan əlaqələrinin qurulması Türkiyənin Cənubi Qafqazda və Avropadakı mövqelərini xeyli gücləndirəcək amillər sırasındadır.

Beləliklə, bu gün Qafqaz müxtəlif hərbi, siyasi və təhlükəsizlik maraqlarını və güc mərkəzlərini özünə cəlb edən strateji məkana çevrilib. Regionun geosiyasi perspektivləri və bölgədəki ölkələrin inkişaf səviyyəsi, ilk növbədə, regional təhlükəsizlik probleminin həllindən və bölgədəki sabitlikdən asılıdır. Bu mənada, Qafqazdakı münaqişə ocaqları bütün regionun inkişafı yolunda bir əngəldir.

Bu gün Qafqazdakı postsovet ölkələrinin dördü də etnik separatizm zəminində daxili münaqişələrə cəlb olunub. Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Şimali Qafqaz münaqişələri regiondakı nisbi sabitliyi hər an poza biləcək faktorlara çevrilib. Ona görə müasir dünyada, Avropada və bölgədə son zamanlar daha təkidlə Qafqazın Regional Təhlükəsizlik Sisteminin prinsiplərinin müəyyən edilməsi və yaradılmasına dair təkliflər səslənir.

Bu prosesdə yalnız region ölkələri deyil, bölgədə marağı olan güc mərkəzləri də yaxından iştirak edirlər. Çünki Qafqazda sülh və sabitlik yalnız region ölkələrinin marağı və bu ərazinin tarixi geostrateji əhəmiyyəti ilə deyil, həm də regiondan keçən enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyi baxımından zəruridir. Bir də nəzərə almaq lazımdır ki, Cənubi Qafqazda "oyun qaydaları"nı, ilk növbədə, region dövlətləri yox, beynəlxalq güc mərkəzləri təyin edirlər.

Bir sıra ekspertlər hesab edirlər ki, ümumiyyətlə, beynəlxalq birliyin, Qərbin diqqətinin daha çox başqa problemlərə, Ukrayna ilə

yanaşı, Yaxın Şərq məsələlərinə (İŞİD, İraq, Suriya və s.) yönəlməsi Qarabağ problematikasını qeyri-müəyyən müddətə arxa, bəlkə də uzaq plana itələyir...

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Siyasi Məsələlərə dair Komitəsinin Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Robert Volter martın 12-13-də Azərbaycanda səfərdə oldu. Səfər çərçivəsində onun Azərbaycan prezidenti, Milli Məclisin sədri, xarici işlər, ədliyyə, müdafiə nazirləri ilə görüşləri baş tutmuş, R.Volterin eyni zamanda, qaçqın və məcburi köçkünlər, eləcə də vətəndaş cəmiyyəti təmsilçiləri ilə görüşləri oldu. R.Volter səfərinin yekunları əsasında Dağlıq Qarabağ münaqişəsinə dair hesabat hazırlandı.

Bu müddətdə Azərbaycanın işğal altındakı torpaqlarından bir qarış belə azad edilməyib. Bunun da əsas səbəbi vasitəçi dövlətlərin işğala məruz qalan tərəflə işğalçıya eyni gözlə baxması, BMT Təhlükəsizlik Şurasının Qarabağa dair məlum qətnamələrini qulaqardı eləməsidir.

ATƏT-dən fərqli olaraq AŞPA-nın erməni işğalı ilə bağlı xüsusi qətnaməsi var. Qətnamədə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmaq tələb edilir. Amma AŞPA-daRusiya kimi, Ermənistana qarşı da işğalçı dövlət olaraq sanksiyaların tətbiqi (səsvermə hüququndan məhrumetmə və s.) məsələsini indiyədək gündəmə gətirməyib.

Avropa Birliyi müasir dünyada qüvvələrin geosiyasi durumuna böyük təsir göstərən əsas faktorlardan biridir. Avropa Birliyi (digər adları – Avrobirlik, AB, Avropa İttifaqı, Aİ) 27 Avropa dövlətini birləşdirən iqtisadi və siyasi birlikdir. Regional inteqrasiyaya yönəlmiş buittifaq “Maastrix müqaviləsi” ilə 1993-cü ildə Avropa Birliyi prinsipləri əsasında qurulmuşdur.

Beş yüz milyon sakini olan Avropa Birliyinin payı 2009-cu ildə dünya ümumdaxili məhsulda nominal üzrə 28% və alıcılıq qabiliyyəti pariteti üzrə 21% təşkil edirdi. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, Avropa Birliyinin iqtisadiyyatı təkcə 2009-cu ildə alıcılıq qabiliyyəti pariteti üzrə 16,523 trln. ABŞ dolları məblə-

ğində dünya ümumdaxili məhsulu istehsal etmişdir. Mahiyyətcə Avropa Birliyi vahid bir bazar təşkil edir və Ümumdünya Ticarət Təşkilatında (ÜTT) vahid qurum qismində təqdim olunur.

Bu faktı da qeyd etmək lazımdır ki, Avropa Birliyi ənənəvi beynəlxalq dövlətlərarası təşkilat anlayışı çərçivəsini aşan mürəkkəb universal-regional inteqrasiya birliyidir. Bəzi hüquqşünas alimlər hesab edirlər ki, Avropa Birliyində eyni zamanda həm beynəlxalq təşkilatın, həm konfederasiyanın, həm də federasiyanın elementlərini görmək olar.

Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında münasibətlərin hüquqi əsasını tərəfdaşlıq və əməkdaşlıq sazişi (TƏS) qoymuşdur. Bu sənəd 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış və onu imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1 iyul 1999-cu il tarixində qüvvəyə minmişdir.

TƏS əməkdaşlığı möhkəmləndirmək üçün müvafiq mexanizmlər təmin etməklə, Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında münasibətlərə yeni təkan vermişdir. Azərbaycan Respublikasını Avropa "Qonşuluq Siyasəti"nə (AQS) daxil etmək haqqında Avropa Birliyi Şurasının 14 iyun 2004-cü il tarixli qərarı ikitərəfli əməkdaşlıqda irəliyə doğru mühüm addım olmuşdur. Avropa Birliyi ilə əlaqələrdə daha yüksək səviyyəli siyasi və iqtisadi inteqrasiya vəd edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ olmuşdur.

AQS Strategiya Sənədinə əsasən, Avropa Birliyinin tərəfdaş ölkələrlə münasibətlərini yaxın gələcək üçün tənzimləyən əsas sənəd Fəaliyyət Planıdır. 3-5 illik müddət üçün nəzərdə tutulan bu sənəd hər bir ölkənin ehtiyac və imkanları, o cümlədən qarşılıqlı dəyər və maraqlari nəzərə alınaraq hazırlanmışdır.

Azərbaycan Respublikası - Avropa Birliyi Fəaliyət Planı 14 noyabr 2006-cı il tarixində Brüsseldə Azərbaycan Respublikası – Avropa Birliyi Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilmişdir. Beləliklə, daha əvvəl TƏS ilə tənzimlənən Azərbaycan Respublikası – Avropa Birliyi münasibətlərinin gələcək inkişafının istiqamətləri AQS çərçivəsində Azərbaycan Respublikası - Avropa Birli-

yi Fəaliyyət Planı ilə müəyyən olunmuşdur. Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında əməkdaşlığın əsas istiqamətlərindən birini enerji dialoqu təşkil edir. 1991-ci ildə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Avropa Birliyi Azərbaycan iqtisadiyyatına yardım göstərən əsas donorlardan biri olmuşdur. Bu müddət ərzində Avropa Birliyi ilə münasibətlər "MDB ölkələrinə texniki yardım" (TASİS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRASEKA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (İNOGATE), "humanitar yardım" (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir.

2007-ci ilin 1 yanvar tarixindən etibarən TASİS proqramı "Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA)" ilə əvəz olunmuşdur. Daha geniş mandat və əhatə dairəsinə malik olan AQTA AQS Fəaliyyət Planının həyata keçirilməsi üçün əsas maliyyə alətidir. AQTA çərçivəsində 2007-2013-cü illər üçün nəzərdə tutulmuş "Azərbaycan üzrə Strategiya Sənədi Avropa Birliyinin yardım məqsədlərini və siyasət məsuliyyətini əks etdirərək prioritet olan əməkdaşlıq sahələrini dəqiqləşdirir. Bu prioritetlər Azərbaycanın bazar iqtisadiyyatına və demokratik idarəetmənin təşviqinə yardım, fəaliyyət planının həyata keçirilməsi və təhlükəsizlik məsələlərini əhatə edir.

"Yeni İpək Yolu" adlandırılan TRASEKA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən bir proqramdır. TRASEKA (Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi) Brüsseldə 3 may 1993-cü il tarixində keçirilmiş 8 təsisçi dövlətin (5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri) ticarət və nəqliyyat nazirlərinin Konfransında təsis olunmuşdur. Proqramın məqsədi qeyd edilən dövlətlərin siyasi, iqtisadi müstəqilliyini dəstəkləməklə, onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək, Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya, əks istiqamətdən ən tez və ən ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir. 8 sentyabr 1998-ci ildə Bakıda Azərbaycan və Gürcüstan prezidentlərinin təşəbbüsü və Avropa Birliyinin TRASEKA proqramının dəstəyi ilə "Tarixi İpək Yolunun bərpası" adlı Beynəlxalq Konfrans ke-

çirildi. 32 ölkə və 12 beynəlxalq təşkilat nümayəndələri bu konfransda iştirak etdi. Konfransın ən mühüm nailiyyəti "Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş" (Əsas Saziş) və onun Texniki Əlavələri oldu.

İNOGATE (Avropaya dövlətlərarası neft və qazın ixracı) Avropa Birliyinin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüslərdən biridir. 1999-cu ilin iyul ayında 15 dövlətin (Azərbaycan Respublikası da daxil olmaqla) iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi İNOGATE-nin hüquqi bünövrəsini təşkil edir. İNOGATE çərçivəsində həyata keçirilən texniki əməkdaşlığa əlavə olaraq, Avropa Birliyi zəngin təbii ehtiyatlara və strateji coğrafi əraziyə malik olan Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin enerji təminatının və tranzit potensialının səmərəli istifadəsinə yönəlmiş fəaliyyətində AQS-yə daxil olan ölkələr bütün maraqlı partnyorların dəstəyi ilə enerji əməkdaşlığı prosesini genişləndirmək barədə yekdil qərar qəbul etmişlər.

Bu əməkdaşlıq "Bakı Prosesi" təşəbbüsü ilə güclənmişdir. "Bakı Prosesi" (və ya Bakı Təşəbbüsü) 13 noyabr 2004-cü ildə Bakıda enerji nazirliklərinin Konfransında Avropa Birliyi, Qara Dəniz və Xəzər dənizi hövzəsi ölkələri arasında enerji sahəsində əməkdaşlığı gücləndirmək məqsədi daşıyan siyasi dialoq şəklində başlamışdır.

Avropa Birliyi tərəfindən Şərq Tərəfdaşlığı (Şərqi Partnyorluq) layihəsi yaradılması xüsusilə qeyd edilməlidir. Bu layihə 26 may 2008-ci ildə ümumi məsələlər və xarici əlaqələr üzrə Avropa Birliyinin Şurasında İsveçin iştirakı ilə Polşanın xarici işlər naziri tərəfindən irəli sürülmüşdür, yəni Şərq Tərəfdaşlığı proqramının təşəbbüskarları qismində Polşa və İsveç çıxış edirdilər. 2008-ci ilin iyun ayında Brüsseldə 2 günlük görüş zamanı Avropa Birliyinə üzv olan 27 ölkənin liderləri Şərq Tərəfdaşlığı layihəsini bəyəndilər. Şərqi AQS ölkələri üçün vahid formatın təsis edilməsini nəzərdə tutan sözügedən təşəbbüs Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarusu əhatə edir. 2008-ci il 3 dekabr tarixində Şərq Partnyorluq təşəbbüsü üzrə Məlumat Sənədi və onu müşayiət edən İşçi Sənəd AK (Av-

ropa Komissiyası) tərəfindən Avropa Parlamentinə və Avropa Birliyinin dövlət və hökumət Başçılarının Şurasına təqdim olunmuşdur. Bu iki sənəd Şərqi Partnyorluğa dair Avropa Komissiyasının mövqeyini və təkliflərini əks etdirərək, AQS çərçivəsində Avropa Birliyinin Şərq tərəfdaş ölkələri ilə gələcək əməkdaşlıq istiqamətlərini müəyyən etmişdir.

2009-cu ilin 7 may tarixində Çexiyanın paytaxtı Praqada "Şərq Partnyorluq" proqramı üzrə zirvə görüşü keçirilmişdir. Bu görüşdə sözügedən təşəbbüsün əsas məqsədləri və prinsipləri, həmçinin gələcək əməkdaşlıq prosesinin ümumi cizgilərini müəyyən edən Avropa Birliyinə üzv olan 27 dövlət və bu proqrama qoşulmuş altı ölkə tərəfindən imzalanmış birgə bəyannamə qəbul edilmiş və bununla da ŞP-yə (Şərq Partnyorluğu) yüksək rəsmi səviyyədə başlanğıc verilmişdir. Bu layihənin əsas məqsədi - Avropa Birliyinin keçmiş SSRİ-nin 6 ölkəsi – Azərbaycan, Ukrayna, Gürcüstan, Moldova, Ermənistan və Belarus ilə yaxınlaşmaqdır.

Şərq Partnyorluq Avropa Birliyi və Şərq tərəfdaş ölkələri arasında münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasını, mövcud əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatda davam etdirilərək genişləndirilməsini nəzərdə tutur. Belə ki, Avropa Birliyi və hər bir tərəfdaş ölkə arasında daha sıx əlaqələrin yaradılması məqsədilə ikitərəfli format çərçivəsində mövcud Tərəfdaşlıq və Əməkdaşlıq Sazişləri əvəzinə yeni, Assosiasiya Sazişlərinin imzalanması, tərəfdaş ölkənin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olduğu təqdirdə, onunla dərin və müfəssəl azad ticarət zonasının yaradılması, həmçinin vizaların tədricən liberallaşdırılması, tərəfdaş ölkələrin və Avropa Birliyinin enerji təhlükəsizliyinin gücləndirilməsi məqsədilə daha dərin əməkdaşlığın həyata keçirilməsi və s. planlaşdırılır. Şərq Partnyorluğu, həmçinin Avropa Birliyi və Şərq tərəfdaş ölkələri arasında münasibətlərə yeni format əlavə etmişdir. Çoxtərəfli format tərəfdaş ölkələr arasında əlaqələri təşviq edərək, islahatlar sahəsində tərəfdaş ölkələrin həyata keçirdikləri tədbirlər üzrə məlumat və təcrübə mübadiləsinin və Şərq Partnyorluğunun gələcək inkişafına dair müzakirələrin aparılması üçün forum kimi nəzərdə tutulur. Bu for-

mat çərçivəsində ŞP-yə daxil olan ölkələrin dövlət və hökumət başçılarının hər iki ildən bir görüşünün, hər il Avropa Birliyinə üzv dövlətlərinin və Şərq tərəfdaş ölkələrinin xarici işlər nazirlərinin illik iclasının keçirilməsi nəzərdə tutulur. Əməkdaşlığın əsas sahələrinə uyğun olaraq dörd tematik platforma (demokratiya, yaxşı idarəçilik və sabitlik; iqtisadi inteqrasiya və Avropa Birliyi siyasətlərinə yaxınlaşma; enerji təhlükəsizliyi; insanlar arasında təmaslar) yaradılmışdır. Ümumiyyətlə, Şərq Partnyorluğu ona qoşulmuş dövlətlərin Avropaya inteqrasiya olunmasına və islahatlar aparmasına kömək etməlidir. O cümlədən bu sənəddə viza rejiminin sadələşdirilməsi istiqamətində əməkdaşlığın davam etdirilməsi təklif olunub. “Şərq Partnyorluğu” layihəsi ümumi maraqlar və qəbul edilən dəyərlər üzərində qurulub. Məhz bu dəyərlər Avropa Birliyi ilə uzunmüddətli münasibətlər və əməkdaşlıq üçün çərçivələrdir. Bütövlükdə isə “Şərq Partnyorluğu” layihəsi ona qoşulmuş ölkələrin siyasi, iqtisadi və sosial sahələrdə Avropa Birliyinin standartlarına yaxınlaşdırılmasına, onların daha mobil olmasına, onların ticarətin dövriyyəsinin artmasına və son olaraq xalqın rifahının daha da yaxşılaşdırılmasına xidmət etməlidir. Faktiki olaraq, Avropa Birliyi tərəfindən tərtib və qəbul olunmuş Şərq Partnyorluğu proqramı 6 postsovet ölkəsinin Avropa Birliyinə tədricən inteqrasiya olunmasını nəzərdə tutur. Faktiki olaraq, Şərq Partnyorluğu proqramı bu ölkələrin Avropa Birliyinə qəbul etmədən həmin təşkilatla siyasi və iqtisadi sahələrdə daha sıx tərəfdaşlığını nəzərdə tutur. Lakin bir daha qeyd etmək yerinə düşər ki, bu prosesdə rəsmi Bakının mövqeyirəsmi Moskvanı özündən uzaqlaşdırmamağa və onun maraqlarını da nəzərə almağa istiqamətlənmişdir.

Şərq Partnyorluğu çərçivəsində Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığın nümunəsi kimi Azərbaycan hökuməti və Avropa Birliyinin “Hərtərəfli institusional quruluş” proqramına fəal hazırlığına başlanmasını göstərmək olar. Şərq Partnyorluğu təşəbbüsünün nəticəsi olan Avropa Birliyi tərəfindən maliyyələşdirilən bu proqram artıq həyata keçmişdir. Proqramın məqsədi gələcəkdə planlaşdırılan Avropa Birliyi və Azərbaycan Respublikası arasında

assosiasiya haqqında sazişə dair danışıqların aparılması və həm də bunun yerinə yetirilməsi üçün müvafiq hökumət strukturlarının möhkəmləndirilməsidir. Avropa Birliyi ölkələrinin xarici işlər nazirləri 14 sentyabr 2010-cu ildə Avrokomissiyaya Avropa Birliyinin Azərbaycanla, Gürcüstanla və Ermənistanla assosiasiyası haqqında ikitərəfli sazişlərin bağlanmasına dair danışıqlara mandat verdilər. Assosiasiya haqqında Saziş, Avropa Birliyi və Cənubi Qafqaz ölkələri arasında münasibətlərdə ikitərəfli əməliyyat planlarını əvəz edəcək yeni praktiki alətdir. Artıq "Şərq Partnyorluğu" proqramı çərçivəsində Avropa Birliyi Assosiasiya sazişləri haqqında Gürcüstanla (daha öncə), Azərbaycanla (daha sonra, 2010-cu ilin iyul ayının 16-da) və Ermənistanla (2010-cu ilin iyul ayının 19-da) rəsmi danışıqlara başlamışdır. Avropa Birliyinin xarici əlaqələr üzrə komissarı Benita Ferrero-Valdnerin mətbuat katibi xanım Kristian Xomanın sözlərinə görə: "Avropa Birliyi ilə assosiasiya haqqında Sazişin daha tez bir zamanda imzalanması Cənubi Qafqaz ölkələrinin hər birinin özündən asılı olacaqdır. Hər bir dövlət ilə Saziş fərqlidir və bir-birindən asılı deyil. Hər bir dövlətlə danışıqlar fərqli surətlə aparılacaq və hər şey hər bir dövlətdə olan vəziyyətdən asılı olacaqdır. Buna müvafiq olaraq, danışıqlar müxtəlif vaxtda yekunlaşa bilər. Bu, həm də dövlətin islahatlar aparmasından və ya əvvəlkitək hazırlıq mərhələsində qalmasından asılıdır. Bu sazişlər hər bir ölkənin inkişafının səviyyəsinə uyğun bağlanmalıdır. Azərbaycanda, Gürcüstanda və Ermənistanda inkişafın səviyyəsi eyni deyil. Bu dövlətlərdən bəziləri "daha irəli gedib", digərləri isə "daha çox işləməli olacaqlar". Onu da qeyd etmək lazımdır ki, Avropa Birliyi ilə azad ticarət haqqında sazişin imzalanması üçün ÜTT üzv olunması şərti zəruridir. Gürcüstan 14 iyun 2000-ci il, Ermənistan isə 05 fevral 2003-cü ildən ÜTT üzvüdür. Azərbaycan 1997-ci ildən ÜTT-də müşahidəçidir və bu təşkilata üzv olunması üçün fəal danışıqlar aparır, lakin bu təşkilatla rəsmi Bakının Azərbaycanın milli maraqları baxımından uzlaşmayan və fərqli maraqları da mövcuddur.

Əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında həlledici rolu Avropa Birliyi oynamalıdır.

Avropa Birliyinin əsas orqanlarından biri olan Avropa Parlamenti Bolqarıstandan olan deputat Yevqeniy Kirilovun məruzəsinə əsasən, 20 may 2010-cu ildə 2216 saylı "Cənubi Qafqazda Avropa Birliyi strategiyasının tərtib edilməsi zərurəti haqqında" qətnamə qəbul etmişdir. Bu qətnamə çoxqütblü dünyada əsas təsir mərkəzlərindən biri olan çox nüfuzlu Avropa siyasi strukturun mövqeyini əks etdirir. Bu qətnamədə Dağlıq Qarabağ probleminə ayrıca bir bölmə həsr edilib. Avropa Parlamenti öz qərarında Cənubi Qafqaz ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi prinsiplərinə əsaslanaraq, yada salır ki, "Şərqi Partnyorluq" proqramı prinsiplərindən biri partnyor ölkələrin dövlətçiliyinə və ərazi bütövlüyünə real dəstək verilməsidir. Bununla yanaşı, Avropa Parlamenti Cənubi Qafqaz regionu ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsinə dair hər hansı bir şərtin irəli sürülməsini yolverilməz hesab edir. 2216 nömrəli qətnamənin ən mühüm müddəalarından biri öz əksini qətnamənin 8-ci bəndində tapmışdır. Bu bənddə Avropa Parlamenti Dağlıq Qarabağ münaqişəsi zamanı və ya bu münaqişə ilə bağlı öz doğma evlərini tərk etmiş yüz minlərlə qaçqın və məcburi köçkünün mövcudluğu faktından və bununla bərabər, onların geri qayıtma hüququ, mülkiyyət hüququ, şəxsi təhlükəsizlik hüququ daxil olmaqla, onların hüquqlarının inkar edilməsindən öz ciddi narahatlığını bildirdi və tərəfləri birmənalıI, heç bir qeyd-şərt olmadan bu hüquqların tanınmasına çağırdı. Avropa Parlamenti beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsi zərurətindən çıxış edərək erməni qüvvələrini Azərbaycanın bütün işğal olunmuş ərazilərindən çıxardılmasını tələb etdi. Avropa Birliyi və Azərbaycan arasında assosiasiya haqqında saziş siyasət, təhlükəsizlik, iqtisadiyyat, ticarət, qanunun aliliyi, demokratiya, insan hüquqlarına hörmət, bazar iqtisadiyyatının genişlənməsi sahəsində əməkdaşlığı əhatə edir.

# VI FƏSİL

# AVROPA BİRLİYİ VƏ AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT QURUCULUĞU

Hüquqi dövlət quruculuğu, sosial yönümlü bazar iqtisadiyyatı, demokratik institutların təkmilləşdirilməsi və inkişafı kimi siyasi prinsiplərə üstünlük verməsi Azərbaycan Prezsidentinin liberal baxışlı lider imicini formalaşdırmışdır. Sağlam cəmiyyətin yaşarlığı onun üzvlərinin siyasi və iqtisadi baxımdan azad olması dərəcəsi və dövlət siyasətinin öz vətəndaşlarının maraqları ilə üst-üstə düşməsi ilə şərtlənir.

Prezident İlham Əliyevin dövlətçilik məsələlərinə konseptual yanaşması sosial rifahın təmin olunmasına istiqamətlənmiş iqtisadiyyatın dirçəldilməsinə, enerji sektorunun inkişafına, aqrar və özəl sahələrin genişləndirilib inkişaf etdirilməsinə, bu gün iqtisadi siyasətin ağrılı sahəsi olan vergi sisteminin yenidən qurulmasına xidmət edir. Başlıca məsələ bundadır ki, dövlətçilikdə kadr potensialından səmərəli istifadə olunsun. Həqiqətən də, əgər bu prinsipə riayət olunmazsa, nəinki partiya intizamı və məsuliyyət hissi pozular, daha acınacaqlısı, hər hansı bir rasional ideyanın inkişafına təkan verən təşəbbüskarlıq boğula bilər.Əlbəttə, İlham Əliyev inanır ki, islahatçılıq ideyalarını dəstəkləyən sağlam qüvvələr mükəmməl iqtisadi biliklərini Azərbaycanın demokratikləşməsi işində bacarıqla tətbiq edəcək, müasir səviyyəli iqtisadçılar Azərbaycan cəmiyyətinə fayda verməyə səy göstərəcəklər.

Cəmiyyət və onun sosial institutları inkişaf etdikcə, dövlətçilik də möhkəmlənir. Bəşəri dəyərlərin daşıyıcıları olan nəsillər dövr keçdikcə öz yerlərini gənclərə həvalə edir. Bunsuz cəmiyyət inkişaf edə bilməz. Biz gerçəkliyimizdə bu reallıqla hesablaşmalı, varislik

prinsipinin obyektiv gedişini izləməli və nəzərə almalıyıq ki, gənclərə yol verməklə biz həyatımızın bütün sahələrinə, xüsusilə siyasi-iqtisadi sferaya yenilikçilik ruhu gətirmiş, ümumi inkişafımıza dinamik impuls vermiş oluruq.

Siyasətin sosial əhəmiyətli funksiyaları dövlətin, sosial qrupların və cəmiyyətin digər təbəqələrinin həyatı və siyasi əhəmiyyət kəsb edən mənafelərini ifadə edib müdafiə etmək, cəmiyyətin siyasi təşkilini strukturlaşdırmaq, konkret siyasi subyektlərin və bütövlükdə millətin konkret maraqları naminə sosial-siyasi prosesləri idarə etməkdir. Özünün ardıcıl fəaliyyətində siyasət adamlarının cəmiyyətdə siyasi münasibətlərini təşkil etmək, əhalinin müxtəlif təbəqələrinin inteqrasiyasına nail olmaq, vətəndaşların siyasi inkişafında, eləcə də siyasi subyektlər arasında varisliyi təmin etməkdir. Bizim siyasət anlayışına müraciət etməyimizdə məqsəd bununla izah olunur: bizə elə siyasət lazımdır ki, mədəniyyətlər arasında dialoqun möhkəmliyi, xüsusilə keçid dövrlərində siyasi qərarlar qəbul edilərkən plüralizm ilə yanaşı, tolerantlıq prinsipi də nəzərə alınsın.

Təbii ki, siyasətin başlıca vəzifəsi siyasi hakimiyyətin funksional fəaliyyətini tənzimləmək, həmin prosesdə siyasət subyektlərinin yeri və rolunu öyrənməkdir. Bu isə o deməkdir ki, siyasət bütövlükdə çoxcəhətli tellərlə ictimai həyatın bütün sferaları ilə bağlıdır, burada cərəyan edən proseslərlə şərtlənir. Ona görə də zaman dəyişdikcə, siyasətin xarakteri və mahiyyəti də dəyişir.

Artıq, siyasi düşüncələrdə belə bir mülahizə hakimdir ki, siyasət həm elmdir, həm də sənətdir. İnsanlara ictimai inkişaf qanunlarının sirləri bəlli olandan bəri aydın omuşdur ki, Yer üzünün sakinləri, o cümlədən siyasət subyektləri öz fəaliyyətlərini həmin qanunlara uyğun qurmalıdırlar. Yalnız belə olduqda onlar sosial proseslərə təsir göstərə bilərlər. Tarixi təcrübə göstərir ki, siyasəti elm kimi öyrənməmək sosial-iqtisadi inkişafın zəifləməsinə, durğunluq hadisələrinin baş verməsinə, cəmiyyətin tənəzzülünə gətirib çıxarır.

Siyasət özlüyündə bir peşə fəaliyyəti, bir sənətdir. Bu o deməkdir ki, o, sosial proseslərin subyektiv tərəfi ilə məşğul olur. Həyat göstərir ki, siyasi subyektlərin, fərdlərin və birliklərin hərəkətlə-

rini irəlicədən heç də həmişə başa düşmək olmur. Siyasətçinin bacarığı da məhz bundadır ki, konkret siyasi məqsədə nail olmaq üçün fərdin, sosial ümumiliyin, sosial-siyasi institutun potensial imkanlarını maksimum nəzərə alsın, özünün nəzəri biliklərindən, məntiqi mülahizələrindən, lazım gəldikdə ilhamından, təxəyyülündən, intuisiyasından istifadə etsin, cəsarət və fantaziya nümayiş etdirə bilsin. Siyasətçinin qabiliyyəti bundadır ki, siyasi məqsədlərin, metodların və vasitələrin optimal nisbətini təmin edə bilir.

Siyasət düşünən insanların canlı fəaliyyətində təzahür edir, deməli, o, cəmiyyətin siyasətlə bağlı bütün sferalarına nüfuz edir. Siyasət nə qədər humanist məzmun kəsb etsə də, müxtəlif psixologiyaların və əqidələrin daşıyıcısı olan insanlarla iş görür, bənzərsiz sosial-psixoloji faktorlarla üzləşməli olur, özü də bu proseslərdə yeni məzmun çalarları kəsb edir, müəyyən təshihlərə, dəyişikliklərə məruz qalır.

Son illərin təcrübəsi göstərir ki, qeyri-zorakılıq, transparentlik, tolerantlıq və siyasi mədəniyyət özünün həyatda təcəssümünü çox çətinliklə tapır. İnsanların əksəriyyəti məhz tolerantlıq mədəniyyətini çox çətin başa düşür və bu sosial mədəni dəyərin insanlararası münasibətlərdə əhəmiyyəti olduqca az nəzərə alınır, başqalarının taleyinə biganə qalmaq hələ də üstünlük təşkil edir. Bizim anlamımızda tolerantlıq başqalarının fikrinə, etiqadlarına dözümlü münasibəti, eynilə belə münasibəti rəqiblərdən gözləməyi nəzərdə tutur.

Siyasətdə tolerantlıq başqalarının siyasi baxışlarına, ideoloji görüşlərinə, konsepsiyalarına dözümlü və təmkinli yanaşmaq deməkdir. Bir siyasi termin kimi tolerantlıq anlayışı XX əsrin ikinci yarısında bu və ya digər siyasi qüvvələrin, hakimiyyət subyektlərinin başqa cürə düşünməsinə, ideoloji, siyasi müxalifət mühitində irəli sürülən mülahizələrə və qiymətləndirmələrə dialoq mədəniyyəti çərçivəsində dözümlü olmağı bildirir. Belə halda istər hakimiyyət, istərsə də hakimiyyətdənkənar qüvvələr bir-birlərinə münasibət bildirərkən, vətəndaş cəmiyyətində müxtəlif sosial qruplardakı siyasi iqlimə təsir göstərərkən, konstitusiya çərçivəsində hərəkət etməli, qanunvericilik normalarına riayət etməlidirlər.

Ayrıca siyasi xadimin həyatında tolerantlıq öz təzahürünü siyasi rəqiblərinin fikirlərinə qulaq asmaq qabiliyyətində, buna hazır olmaqda, onların fikirlərinin qismən, yaxud tam haqlı olmasını, öz səhvlərini etiraf etməkdə tapır. Xüsusilə qeyd edilməlidir ki, müəyyən məsələdə yanlış hərəkətlərini səmimi etiraf etmək, hər şeydən əvvəl, siyasətçinin yüksək siyasi mədəniyyətindən xəbər verir. Siyasi tolerantlıq vətəndaş cəmiyyətinin formalaşmasında, siyasi kompromislərin əldə olunmasında, eləcə də konsensus yolu ilə kollektiv qərarların qəbul edilməsində ən mühüm ilkin şərtdir. Bu gün politoloji tədqiqatlarda belə bir mühüm ideya dəstəklənir ki, tolerantlıq siyasi hakimiyyətin ən mühüm prinsiplərindən biridir. Bir sözlə, cəmiyyətdə tolerantlığın rolu və əhəmiyyəti onun öz mahiyyəti ilə izah olunur. Odur ki, bir çox sosioloji və politoloji tədqiqatlarda sosiumun tolerantlıq səviyyəsi, dialoq mədəniyyətinin dərəcəsi cəmiyyətin mənəvi-əxlaqi, sosial-siyasi dövlətçiliyin inkişafının aparıcı meyarı kimi qəbul edilir. Bu səbəbdən real siyasi praktikada, dövlət idarəçiliyində tolerantlığın önəmli yer tutmasına həmişə mühüm yer ayrılmışdır.

Hazırda dünya sivilizasiyasının iqtisadi, sosial, mənəvi-etik parametrlərə görə parçalanması, bununla əlaqədar olaraq dözümsüzlüyün, dini ekstremizmin artması, millətlərarası münasibətlərin gərginləşməsi, lokal müharibələrin baş verməsi ilə qaçqınçılığın artması, əxlaqi dəyərlərin aşınmaya məruz qalması tolerantlıq mədəniyyətinin həyat normasına çevrilməsini xeyli aktuallaşdırmışdır. Təsadüfi deyil ki, 1995-ci il noyabrın 16-da Parisdə YUNESKO-nun 185 üzv dövləti tolerantlıq haqqında bəyannamə qəbul etmişdir.

Bu sahədə uğur qazanmaq üçün Azərbaycan cəmiyyətində tolerantlıq mədəniyyətinin tərəqqisi vacib amillərdəndir. İlham Əliyevin Prezidentliyi dövründə (2003-2018) cəmiyyətimizdə siyasi mədəniyyətin səviyyəsi bir qədər də təkmilləşmiş, ictimai-siyasi həyatda tolerantlığın, dözümlülüyün təmin olunması prioritet məsələlərdən birinə çevrilmişdir. Müasir Azərbaycan cəmiyyətində belə bir həqiqət qəbul edilməlidir ki, qlobal beynəlxalq, qruplararası və şəxsiyyətlərarası əlaqələr şəbəkəsinin yüksək dərəcədə sıxlaşması hadisələrə biganə qalmağa, prinsipial məsələlərdə neytral mövqe tutma-

ğa imkan vermir. Bir sıra qarşılıqlı münasibətlərdə düşmənçilik və birbaşa toquşmalar cəmiyyətdə təhlükə yaradır. Bunun qarşısını almağa yalnız yüksək tolerantlıq mədəniyyətinə və vərdişlərinə yiyələnməklə nail olmaq mümkündür. Buna dövlət və onun hər bir vətəndaşı hazır olmalıdır.

Azərbaycan əsl müstəqilliyini (XXəsrin sonlarında) əldə edəndən sonra “Ulu öndər Heydər Əliyev ölkəni qorumaq, onu canlı orqanizm kimi geri dönməz inkişaf yoluna qoymaq tarixi missiyanı yerinə yetirən əvəzsiz şəxsiyyət oldu. Multikultural və tolerant dəyərlərin Azıərbaycan kimi kiçik, amma dərin tarixə, milli-mənəvi ənənələrə malik qürurlu bir ölkə üçün son dərəcə vacib həyati şərtlər olduğunu Ulu öndər yaxşı bilirdi. Və o bu dəyərləri yaşatmaq naminə Azərbaycan multikulturalizminin siyasi əsaslarını sistemli şəkildə əzmlə qurdu və qəbul edilmiş siyasi bəyanat və sənədlərdə, fərman və sərəncamlarda, konstitutsiya bəndlərində bunu addım-addım, geridönməz şəkildə həyata keçirməyə başladı. Zəngin mənəvi xəzinənin sistemli, özündə aydın perspektivlər ehtiva edən siyasi bünövrəsi belə yarandı.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ili Azərbaycanda “Multukulturalizm ili” elan edərkən məhz xalqımızın tarixi kökündə formalaşan və bu gün də yaşayan möhtəşəm mənəvi, elmi və siyasi qaynaqlara əsaslanır. Bu qaynaqlar xalqımızın daxili aləmini, ruhunu, mənəvi zənginliyini adekvat göstərən zəngin mənbədir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev öz ulu siyasi sələfinin yolunu ləyaqətlə davam etdirərək bütün dünyaya bəyan edir: “Azərbaycanda multukulturalizm dövlət siyasətidir və onun alternativi yoxdur”. (9)

Multukulturalizm Azərbaycan cəmiyyətində mühüm aktuallıq kəsb edən məsələdir.

Elə fikir, düşüncə tərzini ortaya qoymaq lazımdır ki, belə halda insan bütün dünyanı öz “mən”ində əhatə etməsin, özünü dünya birliyinin bir hissəsi kimi hiss etsin. İctimai-siyasi həyat özündə çoxlu müxtəlif, bir-biri ilə qarşılıqlı əlaqədə olan, eyni zamanda sərbəst sosial-siyasi qrupları, partiyaları, təşkilatları ehtiva edir. Onla-

rın proqramlarının və konsepsiyalarının müqayisə edilməsi əsasında yarış, rəqabət mübarizəsi, ictimai şüura təsir imkanları təmin olunur. Belə mübarizə sivilizasiyalı ölkələrdə həmişə konsepsiya və doktrinaların inkişafı üçün stimul olmuşdur. Azərbaycan dövlətinin dəstəklədiyi siyasi plüralizm bu mənada demokratik diskussiya şəraitində sosial subyektlərin mənafelərinin, baxışların, fikirlərin, ideyaların müqayisə edilməsi vasitəsilə ümummilli məqsədlərə nail olmaq üçün kompromis qərarların qəbul edilməsini nəzərdə tutur. Belə yanaşma partiya və hərəkatlara sağlam düşüncə siyasəti yeritməyə geniş imkanlar açır. Bu, öz növbəsində, həm siyasi mədəniyyətin inkişafını, həm də geniş dünyagörüşü, ictimai inkişaf problemlərinin qarşılıqlı anlaşma, tolerantlıq şəraitində çoxvariantlı texnologiyaların tətbiqi ilə həll etməyə hazır olan siyasi liderlərin fəaliyyətini tələb edir. Müasir demokratikləşmə prosesi imkan yaradır ki, ictimai-siyasi həyatda siyasi realizm daha da dərinləşsin, dövlətin, siyasi sistemin tərəqqisinə, modernləşməsinə təkan verən vacib amillərdən birinə çevrilsin.

Ölkədə təşəkkül tapmış sosial münasibətləri, baş verən siyasi hadisələrin və təzahürlərin mahiyyətini dərk etmək, əsas dövləti qurumların, partiya və ictimai-siyasi təşkilatların mahiyyətini düzgün başa düşmək lazımdır. Siyasi normalar və prosedurlar, vətəndaşların ictimai-siyasi həyatda, cəmiyyətin və dövlətin idarəçiliyində iştirakı cəmiyyətin siyasi mədəniyyətinin inkişafına kömək edir, cəmiyyət üzvlərində dialoq mədəniyyətinə və tolerantlığa meyli artırır. Partiyalar öz üzvlərinin siyasi mədəniyyətini inkişaf etdirməklə, bütövlükdə cəmiyyətin demokratikləşməsi prosesinə pozitiv təsir göstərir.

Dövlətlə yanaşı, siyasi partiyaların da mühüm vəzifəsi ölkədə mənəvi-ideoloji, siyasi maarifçilik və multikulturalizm siyasətinin formalaşdırılmasına öz töhfələrini verməkdir. Bu mənada tolerantlıq mədəniyyətinin formalaşma prosesinə vurulan ən böyük ziyan bəzi müxalifət partiyalarının xəstəliyinə çevrilmiş ifrat populizmdir. Hər bir siyasi partiyanın fəaliyyətində populizm bu və digər dərəcədə öz təsirini göstərir. Həqiqətən də, populizm cəmiyyətin bəzi təbəqələrinin sosial-psixoloji gözləmələrini əks etdirən ideya və siyasi feno-

mendir. Sosial-siyasi hadisə olan populizmin mahiyyət və məzmununu dərk etmək lazımdır.

Mövcud politoloji ədəbiyyatda populizm deyilərkən, kütlələr içərisində heç bir əsası olmayan vədlər vermək, demaqoji şüarlar hesabına şöhrət qazanmaq fəaliyyəti başa düşülür. Demaqogiya isə, əsasən, faktları bilərəkdən təhrif etmək, az şüurlu əhali içərisində siyasi məqsədə nail olmaq üçün riyakarlıq formalarına əl atmaq cəhdi kimi təsnif edilir. Göründüyü kimi, populizm və demaqogiya əslində antonim anlayışlar kimi təqdim olunur. Müxtəlif ictimai, iqtisadi inkişaf konsepsiyalarında oxşar vədlər həm əsaslandırılmış, həm də əsaslandırılmamış olur. Heç bir faktı hər hansı konseptual sxemə aid etməklə şərh etmək mümkün deyildir.

Paradiqmaların çoxcəhətliyini və rəqabətini, çoxlu həyat layihələrinin, sosial münasibətlərin yanaşı yaşamasını nəzərə alaraq, populizm və demaqogiya anlayışlarından imtina etmək lazımıdır. Deməli, bu anlayışlar elmi anlayışlar deyil. Fransız politoloqu P.Burdye haqlı olaraq yazır ki, "siyasi məkan hakimiyyət uğrunda rəqabət mübarizəsi aparır. Həmin mübarizə hadisələrdən xəbərdar olmayanlar naminə rəqabət vasitəsilə həyata keçirilmir. Bir nəfərin dilində məsuliyyətsiz səslənən ifadə başqasının çıxışında əsaslandırılmış uzaqgörənlik kimi səslənir". Məsələn, müxalif liderlərdən biri "hakimiyyətə gələrəmsə, maaşları on dəfə artıraram" deyərkən əhalinin eyforiyaya qapılan, sağlam düşüncədən uzaq hissəsi təbii olaraq, ona inanmalı olur. Sözsüz ki, ölkənin iqtisadi durumunu yaxşı bilən siyasi lider heç vaxt belə məsuliyyətsiz vədlər vermir.

Tolerantlıq mədəniyyətini formalaşdıran mühüm sosial mexanizmlərdən biri də ictimai rəydir. XX əsr İspan filosofu Orteqa-Qasset haqlı olaraq göstərir ki, "əgər siyasi hakimiyyət ictimai rəyin dəstəyindən məhrumdursa, deməli, o bir partiya kimi mövcud deyil". Məhz bu "mənliyini itirmiş" partiyalar hər cür populist və demaqoji hərəkətlərə yol verərək, rəqiblərinin real mövqelərinə dözümsüzlük nümayiş etdirir, hətta kompramat və qara piar müharibəsi aparırlar, son nəticədə ictimai rəylə manipulyasiya edirlər.

Tolerantlıq öz dünyagörüşünü genişləndirməkdə tənqidi dialoqdur. Cəmiyyətin sosial-mədəni təcrübəsi göstərir ki, hər bir mədəniyyət, dəyər və idrak sistemi nəinki digər dünyagörüşü sistemləri ilə mübarizə aparır, habelə özü də digər sistemin təcrübəsini mənimsəyərək, özünün intellektual potensialını daha da yüksəldir. Bu, mədəniyyətin və idrak tarixinin danılmaz sosial faktıdır. İctimai fikir tarixində ən maraqlı ideyalar müxtəlif milli dəyərlərin bir-biri ilə təmasda olması və tənqidi qavranılması sayəsində meydana gəlmişdir.

Bütün sivilizasiyalar və bütün xalqlar iftixar hissi duymalıdırlar ki, bugünkü dünyamızın zənginləşməsinə öz layiqli töfhələrini vermişlər. Lakin sülh fəlsəfəsinə ehtiram edənlər dünyanın etnomədəni və multikultural dəyərlərini qorumağı ön plana çəkməlidirlər. Bunun üçün bir həqiqət dərk edilməlidir ki, dialoq, plüralizm və tolerantlıq strateji zərurətdir.

Azərbaycan rəhbərliyi 1994-cü ilin sentyabrında dünyaya səs salan və düşmənlərimizə gözdağı olan "Əsrin müqaviləsi"ni imzaladı. Bu sənədin böyük tarixi əhəmiyyəti vardır. Müqavilə nəticəsində Azərbaycanın zəngin neft - qaz potensialından ölkənin rifahı üçün istifadə edilməsinin əsası qoyuldu. Bizim bu problemlərə toxunmağımızın öz məntiqi vardır: əgər Azərbaycan sabitliyi təmin edən bu tədbirləri həyata keçirməsəydi, yəqin Avropa Şurasına qəbul olunmazdı.

Azərbaycan üçün strateji əhəmiyyət daşıyan Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft kəməri və Transxəzər qaz kəməri barədə imzalanmış sənədlər dünyanın müxtəlif siyasi-diplomatik dairələrində ölkəmizə ciddi maraq oyatmış, müstəqil respublikamızın imicini xeyli artırmışdır.

1995-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın daimi nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İ.Əliyevin Strasburqda diplomatik fəaliyyətinin ən önəmli məqamlarından biri Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırması olmuşdur. Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasında bu təşkilatın həqiqi üzvü kimi ilk dəfə 2001-ci il aprelin 24-də iştirak etmişdir. Aradan heç bir il də keçməmiş, artıq qısa müddətdə İ.Əliyevin başçılıq etdiyi nümayən-

də heyəti orada böyük işlər görmüş, ilk iclaslarda xalqımızın taleyüklü problemlərini gündəliyə çıxara bilmişdir. Daha önəmli hal isə budur ki, bütün Avropa yeni təfəkkürlü və dərin intellektli siyasi lideri dinləmişdir. Assambleyanın iclasında Avropada mütəşəkkil cinayətkarlığa, sərhəd transmilli və iqtisadi cinayətkarlıq hallarına qarşı mübarizə problemi müzakirə olunarkən nümayəndə heyətimizin rəhbəri Azərbaycanın nəzarətindən çıxmış Dağlıq Qarabağda və onun ətrafında narkotik bitkilərin yetişdirilməsi, onların satışından qazanılan çirkli pullar hesabına terrorçular hazırlanması kimi qlobal problemləri xüsusi qabartmışdır. O, Avropanın müvafiq qurumlarının diqqətini belə bir məsələyə cəlb etmişdir ki, işğalçıların torpaqlarımızdan tezliklə çıxması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, eləcə də bir milyon qaçqının öz el-obalarına qayıtması naminə onlar Ermənistana ciddi təsir göstərməlidirlər.

Strasburqdakı diplomatik fəaliyyətdə olduqca mühüm məqamlardan biri budur ki, Azərbaycan və Türkiyə nümayəndə heyətləri vacib məsləhətləşmələr keçirərək, vahid proqramla çıxış etmişlər. Avropa Şurasında Azərbaycan 6, Türkiyə 12 yerlə təmsil olunur. Bu o deməkdir ki, həmin nüfuzlu beynəlxalq qurumda bizim 18 yerimiz vardır. Bizcə, bu tarixi dövrün ən önəmli məqamlarından biri də odur ki, Azərbaycanın milli mənafelərini hər şeydən yüksək tutan nümayəndə heyətimiz Strasburqda vahid proqramla çıxış etmişdir. 2002-ci il aprel sessiyası Assambleyada İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətimiz üçün ilk təcrübə olsa da, xalqımızın elçiləri çox fəal və səmərəli işlər görmüşlər. Bəzi məsələlər üzrə hazırlanan rəsmi sənədlər obyektiv faktlara əsaslandığından və maraq doğurduğundan bir sıra ölkələrdən olan nümayəndələr bu sənədlərə imzalarını atmışlar.

2003-2015-ci illəri əhatə edərək qətiyyətlə demək olar ki, bu gərgin diplomatik fəaliyyət, aparılan səmərəli iş nəticəsində Parlament Assambleyasında ictimai rəy Azərbaycanın xeyrinə dəyişmişdir. Bu, həm də Heydər Əliyevin xarici siyasətinin davam etdirilməsində, Azərbaycanın müsbət imicinin möhkəmləndirilməsi istiqamətində atılan ciddi və ardıcıl addımlardır.

Avropa Şurası birbaşa təhlükəsizlik problemləri ilə məşğul olmasa da, o, silahlı münaqişələrin tənzimlənməsinə təsir göstərmək imkanına malikdir və Avropa ictimaiyyətində müvafiq rəyin formalaşdırılmasında aparıcı rol oynayır. Avropa Şurasının səlahiyyətli kürsüsündən erməni təcavüzü nəticəsində bütün insani hüquqları tapdalanmış bir milyona qədər qaçqın və məcburi köçkünləri olan ölkəmizin haqq səsini ucaltması, Avropa ictimaiyyətinin nəzərini bu taleyüklü problemimizə yönəltməsi təqdirəlayiqdir.

Dünyanin bu burulğanlı dövründə heç bir, hətta ən iri dövlət belə özünü tam təhlükəsiz hiss edə bilməz. Terroristin milləti, vətəni olmasa da, hər halda, o, sosial hadisə kimi mövcuddur və siyasi terrorizmin bütün formalarına qarşı amansız mübarizə aparmaq üçün bütün ölkələr öz həmrəylik səylərini birləşdirməlidir.

Siyasət çox zaman paradoksallıqla dialoqa girməli olur və diplomatiyanın sınaq “kart”ı paradoksallıqla mübarizədə öz rolunu oynayır. 2003-cü il yanvarın 24-də Strasburqda AŞPA-nın iclasında “Terrorizmə qarşı mübarizə və insan hüquqlarına hörmət” mövzusunda müzakirələr aparılarkən, Azərbaycanda siyasi məhbusların olması haqqında əsassız mülahizələr söylənilmişdir. Əslində, Azərbaycanda siyasi məhbuslar yoxdur, cinayətkarlıq əməllərinə görə haqlı cəza çəkənlər var. İkincisi, dünya hüquq ədəbiyyatında “siyasi məhbus” kateqoriyalarının müəyyənləşmədiyi, bu sahədə mübahisələrin, fikir ayrılığının səngimədiyi bir zamanda hansısa ölkədə “siyasi məhbus”ların olması haqqında Avropa qitəsinin siyasi mərkəzlərinin birində yüksək kürsüdən konkret bir dövləti, məsələn, Azərbaycan Respublikasını günahlandırmaq nə dərəcədə məntiqi səslənir? İlk diplomatik addımlarından biri olaraq, İlham Əliyev AŞPA-nın yeni seçilmiş prezidenti Piter Şrüderlə görüşündə (qeyd edək ki, bu görüş AŞPA-nın yeni prezidentinin xahişi ilə keçirilmişdir) müsahibini Azərbaycanın həqiqətlərinə inandırmağa çalışmış, müstəqil Azərbaycanın diplomatik, hüquqi dövlət quruculuğu ilə məşğul olduğu və təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması barədə onu məlumatlandırmışdır. Şübhəsiz ki, müsahibinin toxunduğu problemləri tutarlı dəlillərlə

əsaslandırması, Avropa inteqrasiyası proseslərində Azərbaycanın yeri və rolu barədə analitik mülahizələri, mühüm siyasi problemlərə insan hüquqları prizmasından yanaşması P.Şrüderdə belə bir qənaət yaratmışdır ki, qarşısındakı gənc ölkənin milli mənafelərini hər şeydən üstün tutan və bu ideal naminə əzmkarlıqla mübarizə aparan hadisələrə planetin taleyi prizmasından yanaşan bir siyasətçidir.

Azərbaycanın dünya problemlərinin həllində iştirakının vacibliyini bir daha vurğulayan İlham Əliyev çıxışında beynəlxalq terrorizmi pisləyərək, öz ölkəsinin də erməni terrorizminə məruz qaldığını Avropa ictimaiyyətinə bir daha çatdırmış, bu şər qüvvəsinə qarşı bütün sülhsevər dövlətlərin birgə fəaliyyətini və mübarizəsini ön plana çəkmişdir. O, çıxışında haqlı olaraq belə bir problemə toxunmuşdur ki, terrorizmə qarşı ən səmərəli mübarizə formalarından biri "qanunsuz zonaların ləğv edilməsidir". Lakin təəssüf ki, AŞPA-nın bir çox üzv dövlətləri hələ də xəbərsizdir ki, ölkəmizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağ ərazisi ermənilərin işğal zonası olandan bəri ondan müxtəlif terrorçu təşkilatlar tərəfindən qanunsuz silah satışı, narkotik xassəli bitkilərin becərilməsi və daşınması üçün istifadə olunur.

Belə bir deyim mövcuddur ki, diplomatiya ədalətsizliklə mübarizədə daha da bərkiyir. Nə qədər ağır olsa da, deməliyik ki, dünya birliyinin birmənalı şəkildə pislədiyi terrorizmə məruz qalan ölkəmizin nümayəndə heyəti AŞPA-da gözləmədiyimiz bir ədalətsizliklə üzləşdi. C.Klerfaytın "Azərbaycanda siyasi məhbuslarla bağlı" məruzəsi və onun ətrafındakı müzakirələrdə ədalətsiz mövqe tutan bəzi nümayəndələrin əsassız çıxışları nümayəndə heyətimizin haqlı etirazına səbəb olmuşdur. Nümayəndə heyətinin rəhbəri İlham Əliyev yüksək kürsüdən qətiyyətlə bildirmişdir ki, Azərbaycan tərəfi məsələnin gündəlikdə "Azərbaycanda siyasi məhbuslar" adı ilə saxlanılmasının qəti əleyhinədir. Ölkəmiz bu mötəbər beynəlxalq təşkilata daxil olarkən insan hüquqlarının müdafiəsi barədə öhdəlik götürmüş və buna əməl etməkdədir.

Mübaliğəsiz demək olar ki, Şərq-Qərb enerji dəhlizinin təməl sütunlarını təşkil edən Türkiyə və Azərbaycanın baş nazirlərinin yüksək səviyyədə keçən, maraqla izlənilən görüşü hər iki ölkənin

sarsılmaz əməkdaşlığında yeni səhifə açdı. Bu səfərin Türkiyə Cümhuriyyətinin qurulmasının 80 illiyinin qeyd olunmasına hazırlıq getdiyi bir dövrdə planlaşdırılması da böyük rəmzi məna daşıyır.

İlham Əliyev yeni formasiya lideri kimi cəmiyyətin müasir inkişaf problemlərinə, onların nəzəri-praktik həllinə də diqqət yetirir.

2003-cü il dekabrın 10-da Cenevrənin Paleksio sarayında İnformasiya cəmiyyəti üzrə Dünya sammiti öz işinə başlayır. Son on ildə inkişaf etməkdə olan cəmiyyətin məhsuldar qüvvəsinə çevrilmiş kommunikasiya texnologiyaları, qlobal rabitənin imkanları dünyanın mənzərəsini kökündən dəyişmiş, insanları və ölkələri bir-birinə daha da yaxınlaşdırmış, sanki planetimizin nə qədər kiçik olduğunu aşkar etmiş, planet miqyasında informasiyanı hamı üçün əlçatan etmişdir. Prezident İlham Əliyevin sammitdə söylədiyi nitqində bir çox qlobal problemlərə toxunmuş, bugünkü gənc nəsli informasiya cəmiyyəti yaradan nəsil adlandırmışdır. Göründüyü kimi, İlham Əliyev dahi Heydər Əliyevin gənclər siyasətini davam etdirərək, belə bir məqamı xüsusilə vurğulamışdır ki, bizim ölkənin əhalisinin 70 faizinin yaşı 35-dən aşağıdır. "Azərbaycanın gənc nəsli fəal surətdə informasiya və kompyuter texnologiyaları layihələrini həyata keçirməkdədir. Bu işdə bizə BMT-nin İnkişaf Proqramı yaxından yardım edir".

Bu gün Heydər Əliyevin sosial-siyasi sabitlik konsepsiyasını əzmlə həyata keçirən İlham Əliyev bu fikirdədir ki, son on illər irimiqyaslı milli inkişaf proqramının həyata keçirilməsi üçün imkanlar məhz sabitlik sayəsində yaranmışdır. Məhz bunun sayəsində ölkəmizdə demokratikləşmə prosesi dərinləşir, sosial-siyasi islahatlar uğurla aparılır, iqtisadi artım hiss olunur. Təkcə bunu demək kifayətdir ki, 2003-2013-cü illər Azərbaycanda ümumidaxili məhsulun illik artımı 100 faiz təşkil etmişdir. Bu, demokratiya yolunu seçmiş ölkə üçün onun indiki inkişaf mərhələsində önəmli göstəricidir. Azərbaycanda ümumi daxili məhsulun 70 faizinin özəl sektorun payına düşməsi faktı isə bir daha dünya ictimaiyyətinə belə bir informasiyanın çatdırılması deməkdir ki, Azərbaycanda sosial-iqtisadi islahatlar uğurla həyata keçirilir. Bu gün Qərbdə Azərbaycanı nəhəng enerji layihələrini həyata keçirən, dünya əmək bölgüsündə

fəal iştirak edən ölkə kimi tanıyırlar. Lakin hazırda ölkəmizin imicini daha da artıran mühüm amillərdən biri Azərbaycanda informasiya texnologiyalarının yaradılmsına, informasiya cəmiyyətinə yaxınlaşdıran infrastrukturun, idman arenalarının qurulmasına Azərbaycan Prezidentinin xüsusi diqqət yetirməsidir. İlham Əliyev dünya sammitlərində reallıqlarımıza tam uyğun gələn belə bir mülahizə söyləmişdir ki, “bizim ölkədə həm elmi potensial mövcuddur, həm də texnoloji nailiyyətlər imkan verir ki, Azərbaycan bu yöndə dünyada aparıcı ölkələrdən birinə çevrilsin”.

2012-ci ildə Bakıdan keçirilən Avrovizion yarışının və 2015-ci il I Avropa Oyunlarının, İslam oyunlarının ən yüksək səviyyədə təşkili və həyata keçirilməsi Azərbaycan dövlətinin ciddi potensiala malik olması ilə yanaşı, dövlətimizin beynəlxalq arenada mövqelərinin də gücləndirilməsinə öz töhfəsini verdi. Təsadüfi deyil ki, dünyanın bir çox mətbuat orqanlarının diqqət mərkəzində olan 2015-ci ilin yekununa dair nəticələriyunun 12-dən - 18-dək Bakıda keçirilən I Avropa Oyunları bədxah siyasi dairələrdə geniş antiazərbaycan ritorikasına səbəb olmaqla yanaşı, Avropa İttifaqı və ABŞ Dövlət Departamentinin də rəsmi Bakıya qarşı növbəti kompaniyasına start vermiş oldu. Möhtəşəm I Avropa Oyunları bir daha Azərbaycanın güclü, qüdrətli bir dövlətə çevrildiyini, müstəqildaxili və xarici siyasət xəttinə malik olduğunu, milli və bəşəri keyfiyyətləri özündə sintez etməyi bacaran bir güc mərkəzinə çevrildiyini bütün mütərəqqi dünya birliyinə nümayiş etdirə bildi. Azərbaycan dövlətinin uğurunu, Prezident İ.Əliyevin dinamik inkişaf strategiyasını həzm edə bilməyən xarici dairələr Azərbaycanda İnsan Hüquqlarının pozulduğu bəhanəsilə öz rəsmi Nümayəndələrini I Avropa Oyunlarının açılış mərasiminəgöndərməkdən imtina etdilər.

12-22 may 2017-ci il tarixində Bakıda keçirilmiş IV İslam Həmrəylik Oyunları Azərbaycanın ciddi beynəlxalq nüfuzunu bütün islam məkanında bir daha təsbit etmiş, Dağlıq Qarabağ probleminin həllinin zəruriliyi isə növbəti dəfə 20 sentyabr 2017-ci il tarixində BMT-nin 72-ci sessiyası çərçivəsində cənab Prezident İlham Əliyev tərəfindən əminliklə qeyd edilmişdir.

Qərb dövlətlərinin Azərbaycan ilə münasibətlərinin soyumasının əsas səbəbləri təbii ki, yuxarıda sadalanan uydurma səbəblər deyildir. Əsas səbəb 2013-2015-ci illər ərzində Aİ-nın Vilnüs və Riqa sammitlərində Azərbaycan dövlətinin Aİ-nın təklif etdiyi Assosiativ üzvlük Müqaviləsini və Azad Ticarət Sazişini imzalamaması, rəsmi Moskva ilə münasibətləri pozmaqdan imtina etməsi idi.

2015-ci il 1 noyabr Milli Məclis seçkilərinə ATƏT-in öz nümayəndələrini göndərməkdən imtina etməsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun seçkiləri faktiki boykot etməsi təbii ki, Bakı-Qərb münasibətlərini bir qədər də soyutmuşdur.

2015-ci il 19 dekabr tarixində İsveçrənin Bern şəhərində Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə növbəti görüşü də nəticəsiz başa çatdıqdan sonra münaqişənin siyasi müstəvidən hərbi- siyasi müstəviyə transfer olunacağı faktı isə artıq bir çox ekspert və beynəlxalq beyin mərkəzləri tərəfindən öz təsdiqini tapmaqdadır (7).

BMT çərçivəsində 2016-cı il 25-27 aprel tarixli Bakıda keçirilmiş VII Qlobal Forum bir daha Azərbaycan dövlətinin sülhpərvər, multikultural dəyərlərə sadiq olduğunu bütün dünya birliyinin nəzərinə çatdırmış oldu (8).

Azərbaycan və Ermənistan Prezidentlərinin 2016-cı il 16 may tarixli Vyana görüşü bir daha konfliktin qaldığını açıq-aşkar nümayiş etdirmiş oldu. Eyni zamanda, qeyd etməliyik ki, münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində xalq diplomatiyasının müəyyən elementlərinin gələcəkdə tətbiqi də yalnız münaqişə öz siyasi həllini tapdıqdan sonra mümkündür.

Azərbaycan Respublikasında 2016-cı il 26 sentyabr tarixində keçirilmiş Referendum bir daha cənab Prezident İlham Əliyevin dövlət quruculuğu sferasında atdığı addımların Azərbaycan xalqı tərəfindən tam dəstəklənməsinin beynəlxalq ictimaiyyətə mesajı da sayıla bilər. Referendumun nəticələrinə uyğun olaraq dövlət idarəetməsinin təkmilləşdirilməsi və gələcək idarəetmə islahatları Azərbaycan dövlətinin beynəlxalq siyasi arenada mövqelərinin gələcəkdə bir daha güclənməsi üçün tarixi-geosiyasi mühiti formalaşdırmış olur.

# VII FƏSİL

# BİZ ÖZ TARİXİ TOPRAQLARIMIZA QAYIDACAĞIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 fevral 2018-ci il tarixdə Yeni Azərbaycan Partiyasının VI qurultayında Azərbaycan torpaqlarının azadlığı istiqamətində istiqamətində səylərin bundan sonra daha qətiyyətlə davam etdiriləcəyini bildirib. O, deyib: "İndi hamı bilir ki, Azərbaycan prinsipial mövqedədir, müstəqil siyasət aparır. O siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir, o siyasət ki, bir çox tərəfdaşlar üçün də əlavə imkanlar yaradır. Beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizi uğurla davam etdirəcəyik. Bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləyir. BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı – bütün bu aparıcı təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər. Beləliklə, münaqişənin həlli üçün siyasi əsaslar da qoyulub. Hüquqi əsaslar onsuz da var. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə bu qondarma qurumu tanımayıb və əminəm ki, heç vaxt tanımayacaq. Tarixi əsaslar da bizim mövqeyimizi gücləndirir. Çünki Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Beynəlxalq təşkilatların qərar və qətnamələri həm hüquqi, həm siyasi əsasları möhkəmləndirir. Münaqişənin həlli ilə bağlı bizim mövqeyimiz üstünlük təşkil edir, xüsusilə indiki şəraitdə. Dünyanın müxtəlif yerlərində, eyni zamanda, Avropada separatizm meyilləri artır. Avropa da görür ki, separatizm nə dərəcədə təhlükəli meyildir. Biz

isə təcavüzkar separatizmlə üzləşmişik. Ona görə bütövlükdə münaqişələrlə bağlı dünyada gedən proseslər, yanaşma bizim mövqeyimizi daha da möhkəmləndirir”.

Prezident separatizmin qarşısının alınmasında ilk şərt kimi münaqişə ocaqlarının söndürülməsinin vacibliyini vurğulayıb. Artıq addımların bu istiqamətdə atıldığını və bir çox uğurlu nəticələrin əldə edildiyini bildirib: “Təsadüfi deyil ki, keçən ilin noyabrında Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvəsində qəbul edilmiş qətnamə Şərq Tərəfdaşlığına üzv ölkələrin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini birmənalı şəkildə dəstəkləmişdir. Deyə bilərəm ki, ilk dəfə olaraq, bax, bu formada qətnamə qəbul edilmişdir. Bu, Ermənistan üçün növbəti zərbə, onların növbəti məğlubiyyəti idi və bizim növbəti qələbəmiz idi. Əslində bu, haqq-ədalətin növbəti qələbəsi idi. Ona görə bu müsbət meyillər güclənəcək. Biz, sadəcə olaraq, bundan sonra da öz siyasətimizi aparmalıyıq, aparacağıq. Ermənistanı daha da sıxışdırmalıyıq, sıxışdıracağıq və öz həqiqətlərimizi dünya birliyinə çatdırmalıyıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaq. Biz, sadəcə olaraq, öz səylərimizi daha da artırmalıyıq və artırırıq. Əminəm ki, bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz ədalətli həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək”.

Prezident İlham Əliyev qurultayda erməni separatçılarının bütün zamanlarda Azərbaycan torpaqlarına göz dikdiklərini, ümumiyyətlə, indiki Ermənistanın Azərbaycan ərazisində yaradıldığını da xatırladıb. O, deyib: “Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təş-

kil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".

Ölkə başçısı işğalçılıq siyasətinin hamıdan çox Ermənistana ziyan vurduğunu bildirərək onun məhz bu siyasətin girovuna, qurbanına çevrildiyini deyib. "Biz onları demək olar ki, bütün beynəlxalq layihələrdən təcrid etmişik, bütün enerji və nəqliyyat xətləri onlardan yan keçir və bunu biz etmişik. Baxmayaraq ki, bu, o qədər də asan məsələ deyildi. Əfsuslar olsun ki, dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi və erməni pullarına satılmış bəzi siyasətçilər daim çalışırlar ki, Ermənistanı da bizim təşəbbüsçüsü olduğumuz layihələrin tərkibinə daxil etsinlər. Biz həmişə buna çox ciddi etiraz etmişik, təşəbbüsümüzlə həyata keçirilən layihələr Ermənistanı tamamilə kənarda qoymuşdur. Həm Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars layihələri onlardan yan keçmişdir. Bizim siyasətimizə görə, Şimal-Cənub Nəqliyyat Dəhlizi də onlardan yan keçəcəkdir. Biz bunu gizlətmirik. Baxmayaraq, bəziləri çalışırlar bizi ittiham etsinlər ki, biz onları təcriddə saxlayırıq. Bəli, saxlayırıq və saxlayacağıq. O vaxta qədər ki, torpaqlarımız işğaldan azad olunsun. Bu siyasət öz nəticələrini verməkdədir. İndi heç kim Ermənistana sərmayə qoymur. Çünki, birincisi, orada hakimiyyəti zəbt etmiş kriminal, korrupsioner, qaniçən rejim imkan vermir ki, sərmayə qoyulsun, əvvəllər qoyulan və ianə şəklində verilən bütün pullar rejim tərəfindən oğurlanmışdır. Digər tərəfdən, bazarın məhdudluğu və azalan bazar imkan vermir ki, ciddi investor oraya gəlsin və ixrac imkanları da çox məhduddur. Çünki ixrac üçün yollar olmalıdır, yollar olsa da, yenə də tam investisiya cəlb edilməsi üçün şərait yaratmır. Əlbəttə ki, bunu böyük dərəcədə edən məhz biz olmuşuq və bu siyasəti davam etdirəcəyik. Onların özlərinin son statistik məlumatlarına görə, keçən il ölkəni 40 mindən çox insan həmişəlik tərk edib və bu tendensiya hər il gedir və gedəcəkdir. Beləliklə, orada demoqrafik böhran yaşanır. Bizim səylərimiz nəticəsində Ermənistan siyasi, iqtisadi, enerji, nəqliyyat

dalanına çevrilib və əlbəttə ki, bu ölkənin gələcək inkişafı çox qaranlıqdır. Biz isə öz siyasətimizi davam etdirəcəyik və bütün imkanlardan, artan gücümüzdən, iqtisadi potensialımızdan, siyasi imkanlarımızdan, hərbi gücümüzdən istifadə edib məsələni həll etməliyik ki, ölkəmizin ərazi bütövlüyü təmin olunsun. Əlbəttə, hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bu məsələ ilə də bağlı bəzən bizə iradlar ünvanlanır ki, nə üçün Azərbaycan silahlanır, nə üçün hərbi quruculuğuna, ordu quruculuğuna vəsait ayırır. Biz isə Ermənistandan fərqli olaraq bu işləri öz imkanlarımız daxilində, öz vəsaitimiz hesabına, öz hesabımıza görürük. Həyat göstərdi ki, biz nə qədər düzgün siyasət aparırıq. Onu da qeyd etməliyəm ki, dünyanın aparıcı ölkələri də daim silahlanırlar və bu proses bir çox ölkələr üçün də xasdır. Biz isə son illər ərzində güclü ordu yaratmışıq. İndi bütün beynəlxalq reytinqlər də ordumuzun gücünü əks etdirir. Bu güc bizə imkan verir ki, istənilən vəzifəni icra edək. 2016-cı ilin aprel döyüşləri bunu əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz əlbəttə ki, məsələnin ədalətli həlli üçün də yeni imkanlar yaradır və yaradacaqdır. Növbəti illərdə hərbi potensialın gücləndirilməsi üçün, ordu quruculuğu üçün nə lazımdırsa, o da ediləcək. Bizim güclü iqtisadi imkanlarımız var. Gündən-günə artan maliyyə resurslarımız, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu bu məsələdə prioritetdir.

Məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi istiqamətində bundan sonra da uğurlu siyasət aparılacaq. Bu günə qədər 300 minə yaxın köçkün evlərlə təmin edilib. Bu il 20 minə yaxın, bəlkə də bundan da çox köçkünü biz yeni evlərlə təmin edəcəyik. Bu siyasət davam etdiriləcək. Torpaqlarımız işğaldan azad olunandan sonra biz erməni vəhşiləri tərəfindən dağıdılmış bütün şəhərləri, kəndləri yenidən quracağıq. Cocuq Mərcanlı kəndinin timsalında bütün dünya görür ki, biz buna qadirik, bunu qısa müddət ərzində edə bilərik. Bir daha bütün dünya əyani şəkildə görür ki, Azərbaycan xalqı, köçkünlər bir amalla yaşayırlar - tezliklə öz doğma torpaqlarına qayıtmaq arzuları ilə. Hətta köçkün şəraitində do-

ğulmuş, heç vaxt öz torpağını görməmiş uşaqlar, gənclər də bu arzu ilə yaşayırlar. Bu gün onların bir hissəsi artıq Cocuq Mərcanlıda, öz dədə-baba torpağında məskunlaşıb. Bu da Azərbaycan xalqının yenilməz ruhunu bir daha bütün dünyaya göstərir.

Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaq. Deyə bilərəm ki, son iki il ərzində çox ciddi iqtisadi islahatlar aparılmışdır. Əvvəlki illərdə də aparılmışdır. Ancaq son iki il ərzində daha fəal və daha səmərəli islahatlar aparılmışdır. Bu islahatlar imkan verdi ki, biz ağır vəziyyətdən, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində yaranmış vəziyyətdən çıxa bilək və çıxmışıq da. Bu gün ölkə iqtisadiyyatı öz templərini artırır. Növbəti illərdə islahatlar mütləq davam etdiriləcəkdir. İndi bəzi suallar səslənir və hətta beynəlxalq ekspertlər maraqlanırlar ki, indi neftin qiyməti bir qədər qalxıbdır, bəs bu, apardığımız islahatlara təsir edəcək, ya etməyəcək? Bəlkə siz indi islahatları o qədər fəallıqla aparmayacaqsınız. Qətiyyən belə deyil. Mən bir daha demək istəyirəm ki, neftin qiymətinin artması, sadəcə olaraq, bizim valyuta ehtiyatlarımızı artıracaq. Ancaq bütün hökumət qurumları elə işləməlidirlər ki, sanki bizdə neft amili yoxdur. Ona görə biz gələcək iqtisadi inkişafımızı qeyri-neft sektorunun inkişafında görürük. Neft sektoru, sadəcə olaraq, bizə əlavə maliyyə resursu yaradacaq ki, bu da öz növbəsində, bizim siyasi resurslarımızı da gücləndirir. Bu da təbiidir. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər - qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcək. Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini vermişdir. Keçən ilin iqtisadi göstəriciləri göstərdi və sübut etdi ki, biz düzgün yoldayıq. İqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektoru 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır. Bu ilin yanvar ayının nəticələri də mənə məruzə edildi. Bu barədə də demək istəyirəm. Bu, göstərir ki, mən əvvəlki aylarda dediyim kimi, 2018-ci il sürətli inkişaf ili olacaqdır. Be-

ləliklə, yanvar ayında Azərbaycanda ümumi daxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni, əhalinin gəlirləri inflyasiyanı iki dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar səviyyəsindədir. Bu, hələ ilin əvvəlidir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində öz bəhrəsini verəcəkdir.

Biz indi nəhəng enerji layihələrini icra edirik. Bu da qarşıda duran əsas vəzifələrdən biridir. Biz Cənub Qaz Dəhlizini vaxtında təhvil verməliyik, bunu edəcəyik. Bütün maliyyə resursları təmin edilib, həm Azərbaycan, həm beynəlxalq banklar tərəfindən. Müəyyən yubanmalar olmuşdur, onlar da aradan götürüldü. Çünki Cənub Qaz Dəhlizi həm bizim üçün, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bir layihədir. Azərbaycan öz liderlik missiyasını uğurla icra edir. Biz bu tarixi layihəni - 7 ölkəni, qitələri birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərini uğurla həyata keçiririk. "Şahdəniz-2" layihəsindən yaxın zamanlarda ilk qaz çıxarılacaq. Onu da deməliyəm ki, Cənub Qaz Dəhlizi, yəni, qaz kəməri artıq qazla təmin edilir. Bu, tarixi layihədir və ölkəmizin uğurlu, dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Prezident daha sonra əlavə edib: "Qeyd etdiyim kimi, "Azəri-Çıraq" yatağı ilə bağlı kontraktın uzadılması haqqında da tarixi qərar qəbul edilib. Ona görə bundan sonra da neft-qaz sektorunda Azərbaycan uğurla inkişaf edəcək. Ancaq yenə də deyirəm, gələcək fəaliyyətimiz üçün bu, bizdə bir rahatlıq hissi yaratmamalıdır. Biz fəal işləməliyik, qeyd etdiyim kimi, bu, sadəcə olaraq, bizim üçün əlavə maliyyə və siyasi resursdur.

Bu gün biz beynəlxalq arenada bütün məsələlərlə bağlı öz sözümüzü deyirik. Nəyə görə? Əlbəttə ki, güclü siyasi iradəyə görə, cəsarətli siyasətə görə, amma, eyni zamanda, maliyyə imkanlarımı-

za görə. Əgər bu imkanlar olmasaydı, əgər biz bəzi ölkələr kimi, xarici donorlardan asılı olsaydıq, əgər biz yoxsul, səfil Ermənistan kimi ona-buna dilənsəydik, onda əlbəttə ki, biz müstəqil siyasət aparmaq imkanında olmaya bilərdik, yaxud da ki, bu imkanlar məhdud ola bilərdi. Ona görə iqtisadi güc, maliyyə resurslarımız siyasi müstəqilliyimizi də möhkəmləndirir.

Növbəti illərdə önəmli, tarixi nəqliyyat layihələrini yenə də icra etməklə Azərbaycan - açıq dənizlərə çıxışı olmayan bir ölkə Avrasiyada nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Biz siyasətimiz, qətiyyətimiz, düzgün xarici siyasətimiz nəticəsində bunu da edəcəyik. Çünki xarici siyasət, ilk növbədə, daxili problemlərin həllinə yönəlib. Xarici siyasət daxili siyasətin davamıdır. Biz uğurlu xarici siyasəti təkcə ona görə aparmırıq ki, dünyada bizə olan rəğbət artsın. Bu, real işlərə çevrilir. Uğurlu xarici siyasət bu beynəlxalq layihələri də həll etməyə şərait yaradır. Çünki tranzit ölkə olmaq üçün sən mütləq qonşularla işləməlisən. Qonşular olmadan heç bir ölkə tranzit ölkə ola bilməz. Bütün bunlar bir-birinə bağlı olan məsələlərdir. Bizim gələcək inkişafımızla bağlı çox aydın təsəvvürümüz, proqramlarımız var - bütün sahələrdə, ictimai xidmət sahələrində, korrupsiya, rüşvətxorluğa qarşı mübarizə sahəsində, haqq-ədalətin bərqərar olması sahəsində, bütün istiqamətlər üzrə. Sadəcə olaraq, bir çıxışda bütün istiqamətlər haqqında geniş danışmaq mümkün deyil. Ancaq mən əminəm ki, Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcək.Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu".

Ölkə Prezidenti bu uğurlu siyasətin Dağlıq Qarabağ konfliktinin həllində müsbət rolunun istisnasız olduğunu bildirərək Azərbaycanın müstəqilliyinin ərazi bütövlüyü çərçivəsində dönməz, daimi olacağını əminliklə vurğulayıb.

# NƏTİCƏ

ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla tənzimlənməsi prosesi müasir beynəlxalq münasibətlər elminin aktual problemlərindən biridir. Müəllif monoqrafiyada ATƏT-in MQ-nin təkliflərini, vasitəçilik missiyasını, Rusiya Federasiyasının sabiq prezidenti D.Medvedyevin vasitəçilik fəaliyyətini işıqlandırmağa cəhd etmiş, ATƏT-in yüksək zirvə toplantılarında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təklif və tövsiyyələrini şərh və təhlil etməyə çalışmışdir.

O, Azərbaycan-ATƏT münasibətlərinin müasir mərhələdə inkişaf perspektivlərini, Rusiyanın ATƏT-də mövqeyini nəzərdən keçirərkən bu münasibətlərin özündə kifayət qədər qeyri-müəyyənlik elementlərini əks etdirdiyini də sübut etmişdir. Buna baxmayaraq, müəllif ATƏT-in bir çox məsələlərdə, o cümlədən Rusiya-Qərb və bütövlükdə Rusiya-ABŞ münasibətlərində, ümumavropa təhlükəsizlik məkanının qurulmasında ən vacib halqalardan biri olduğunu əsaslandırmışdır. Əsərdə deyilir: “Məsələ burasındadır ki, Avropada fəaliyyət göstərən bütün beynəlxalq institutlar arasında ATƏT üzv-dövlətlərinin tərkibinə görə ən rəngarəng, funksional təminat nöqteyi-nəzərindən isə ən universal təşkilatdır. ATƏT-in universal ümumavropaxarakteri onu "Yeni Avropa"da formalaşan təhlükəsizlik sisteminin mərkəzində yerləşdirərək, Rusiya dövlətinin NATOsentrizmə qarşı ciddi sipərinə çevirir, əhəmiyyətli bir beynəlxalq – hüquqi təşkilat kimi rolunu artırır”.

Azərbaycan-ATƏT münasibətlərində mümkün inkişaf perspektivlərindən bəhs edən müəllif hər iki tərəfin qarşısında qarışılıqlı etimadı dərinləşdirmək vəzifəsinin durduğunu bildirir. O, müasir dünyada ATƏT-in konkret roluna gəldikdə, bu təşkilatın yeni çağırışlara uyğunlaşdırılmasını, bu məqsədlə rəqəmsal və şəbəkə diplomatiyası dövrü olan XXI əsrdə ATƏT-in sərəncamında olan beynəlxalq hüquqi alətlərdən daha effektiv istifadənin vacibliyini, beynəlxalq hüquq norma və prinsiplərini əldə rəhbər tutaraq problemlərin həllində çeviklik nü-

mayiş etdirilmıəsini önəmli sayır. Tədqiqatda deyilir: "Münaqişələrin həllində rəsmi Kremlin mövqeyi də nəzərə alınmalı, ATƏT-in çevikliyi ona yeni, üçüncü minillikdə zamanın və yeni geosiyasi reallıqların tələblərinə adekvat reaksiya vermək bacarığı aşılamalı, üzv dövlətlərin, həmçinin qardaş Türkiyə və digər dövlətlərin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bir sıra konstruktiv təklifləri daha ciddi şəkildə diqqət mərkəzinə gətirməli, təşkilatın gündəliyi, ümumiyyətlə, genişləndirilməli, ABŞ, Fransa və digər ölkələrin birtərəfli təzyiq imkanları məhdudlaşdırılmalı və bu proses inkişaf etdirilməlidir".

Müəllif Azərbaycanın iqtisadi gücünün artmasının, beynəlxalq nüfuzunun gündən-günə yüksəlməsinin ədalətin bərpasına yol açdığını inamla vurğulayır: "22 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Davos İqtisadi Forumunda nitqi bir daha bizləri bu beynəlxalq hüquqi və geosiyasi həqiqətlərin son məqamda gerçəkliyə çevriləcəyinə inanmağa səsləyir.

12 fevral 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Almaniyanın Münhen şəhərində keçirilən Beynəlxalq Təhlükəsizlik Sammitində çıxışında dünya birliyini bir daha Dağlıq Qarabağ münqaişəsinə obyektiv, tərəfsiz, istisnasız olaraq beynəlxalq hüquq norma və prinsiplərinin tələbləri rakursundan yanaşmağa çağırmışdır. İnanırıq ki, bu çağırışlar öz bəhrəsini verəcək".

Ümumiyyətlə, elmi-tədqiqat işinin sonunda yekun olaraq bir daha qeyd edilir ki, ATƏT-in Minsk Qrupu siyasi çəki və nüfuzundan asılı olmayaraq, bütün üzv dövlətlərin siyasi təklif və ideyalarını, postsovet ölkələrinin maraqlarını nəzərə almağı bacaran bir təşkilata çevrilməli, ATƏT-Azərbaycan dialoqu isə daha konkret, daha genişspektrli beynəlxalq-təhlükəsizlik və beynəlxalq hüquq elementlərini özündə birləşdirməyi bacarmalıdır.

Azərbaycan və Ermənistan prezidentlərinin 16 may 2016-cı il tarixli Vyana görüşü də ATƏT-in Minsk Qrupunun optimist bəyanatlarına baxmayaraq, nəticəsiz başa çatmışdır. Bu fakt bir daha münaqişənin Azərbaycanın milli maraqlarına uyğun həllinin Azərbaycanımızın şanlı ordusunun gələcək addımlarından asılı olduğunu sübuta yetirən amil kimi qəbul edilə bilər.

## ANNOTASİYA

Bakı Slavyan Universitetinin Azərbaycanşünaslıq elmi-tədqiqat laboratoriyasının müdiri, Diplomatiya və xarici siyasət kafedrasının dosenti, hüquq elmləri namizədi Sadir Məmmədovun "Dağlıq Qarabağ həqiqətləri və beynəlxalq hüquq" mövzusunda yazdığı monoqrafiyada problem bir neçə istiqamətdə tədqiqata cəlb edilmişdir. Araşdırma prosesində müəllif istər qədim Azərbaycan tarixini, dövlət quruculuğumuzu, ərazimizə edilən etnik-hərbi təcavüzləri, xalqımıza qarşı törədilən soyqırımları, terroru, deportasiyaları, bəşəriyyət əleyhinə cinayətləri, düşüncə və məfkurə tariximizi öyrənən bir çox müəlliflərin elmi araşdırmaları əsasında geosiyasi reallıqları üzə çıxarmağa çalışmışdır.

Elmi-tədqiqat işində Dağlıq Qarabağ tarixi, regionun sovet dövrü tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi nizamlanması prosesi və bu prosesdə ATƏT-in Minsk qrupunun rolu və fəaliyyəti geniş şəkildə tədqiqat obyektinə çevrilmişdir.

Monoqrafiyanın ayrıca bir fəsli Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı atdığı addımlar və Dağlıq Qarabağ həqiqətlərinin dünya birliyinin nəzərinə çatdırılması prosesinə həsr edilmişdir.

## ANNOTATION

Monograph "Nagorno-Karabakh realities and international law" of Sadir Mammadov, head of the scientific-research laboratory of Azerbaijan studies,assistant professor ofthe department of diplomacy and foreign policy of Baku Slavic University, PhD in law involves different problems in research from several directions. The author is trying to face the reality of ancient Azerbaijan history, state establishment, the attacks to our territory, massacres committed against our people, terrors, deportations, crimes against humanity, past thinking and ideology on the basis of scientific sources of

different authors. The history of the Nagorno-Karabakh, soviet history of the region, the process of Armenia-Azerbaijan Political settlement of the Nagorno-Karabakh conflict, the role of the OSCE Minsk Group in the process and activity has become the object of extensive research in the scientific research work.

A separate chapter of the monograph is devoted to the steps taken by Azerbaijani President Ilham Aliyev in the solution of the Nagorno-Karabakh conflict and the process of efforts of bringing Karabakh realities to the attention of the world community.

## RÉSUMÉ

La monographie au sujet de «Vérités du Haut Karabakh et droit international» de Sadir Mammadov en qualité du maître des conférences, candidat ès des sciences juridiques du département de la Diplomatie et politique extérieure de l'Université Slave de Bakou, entoure plusieurs problèmes de recherche. Le chercheur a essayé de découvrir la réalité suite les sources scientifiques de certains auteurs étudiants soit l'histoire antique de l'Azerbaïdjan, soit la structure de l'état, soit l'envahissement de notre territoire, soit le génocide commis contre notre peuple, soit le terrorisme,soit la déportation, les crimes commises contre l'humanité, soit l'esprit et notre idéologie ancienne.

L'objet de la recherche scientifique entoure l'histoire du Haut Karabakh, l'histoire de la région à l'époque soviétique, la procédure de l'ajustement politique du conflit Haut Karabakh entre l'Arménie et l'Azerbaïdjan, le rôle et l'activité du groupe MINSK de l'OSCE pour cette procédure.

Un chapitre de la monographie est consacré aux mesures prises dans le cadre du Haut Karabakh par le président de la République d'Azerbaïdjan Ilham ALIYEV et à la procédure de faire connaître les vérités du Haut Karabakh dans le monde entier.

# ƏDƏBİYYAT

***Azərbaycan dilində***


1. Mahmudov Y. Azərbaycan tarixi. Bakı, "Çıraq", 2011
2. Əliyev İ. Dağlıq Qarabağ münaqişəsi. Tarix.Faktlar. Hadisələr. Bakı, 1989
3. İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1994
4. Marşal İ.Baqramyanın xatirələri. Yerevan,1979-
5. Kərimli V. XX əsrdə Qafqazda türk xalqlarına qarşı soyqırım və deportasiya aktları //Soyqırımlar xalq yaddaşında. Beynəlxalq elmi konfransın materialları. Bakı, 2 mart 2015-ci il. Bakı: "Elm və təhsil", 2015
6. Soyqırım cinayəti (beynəlxalq aktlar, normativ sənədlər, müraciətlər və şərhlər toplusu). Bakı, 2010
7. Mehdiyev R. Gorus-2010: Absurd teatr mövsümü. -Bakı, 2010
8. Mahmudov Y., ŞükürovK. Qarabağ tarixi qədim zamanlardan müasir dövrədək. Qarabağ: suallar və faktlar. Bakı,2005.
9. Həsənoğlu F. Qarabağ: suallar və faktlar. Bakı, 2005.
10. SSRİ konstitusiyası, Baкı, 1988.
11. Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Avropa dövlətləri və ABŞ. Bakı, 2000
12. Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı, 2008.
13. Talıblı S. İranın Dağlıq Qarabağ münaqişəsində mövqeyi. Bakı,2007.
14. Səlimov K. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektləri. Qarabağ: suallar və faktlar. Bakı, 2005
15. Çaladze T. Xocalı soyqırımı. Rəsmi xronika. Baku, 2009
16. Həsənov C. Azərbaycan Beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər)Bakı,1993
17. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı,2005
18. Azərbaycan tarixi. Azərbaycan SSR Elmlər AkademiyasıBakı. 1958
19. Azərbaycan tarixi I cild, II nəşr Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə. Bakı:Çıraq, 2007
20. Mahmudov Y. Azərbaycan tarixi. Bakı:Çıraq, 2011
21. Əliyev İ. Dağlıq Qarabağ. Tarixi faktlar, hadisələr. Bakı. 1989.
22. Abbasbəyli A., Babazadə M, Beynəlxalq münasibətlər tarixi. Bakı, 2009.

23. Məmmədov S. Ermənilər tərəfindən azərbaycanlıların soyqırımı bəşəriyyət əleyhinə cinayətdir və ona beynəlxalq hüquqi qiymət verilməlidir. Bakı,2010
24. Məmmədov S. Xocalı soyqırımı. Bakı, 2010
25. Məmmədov S. "Azərbaycanşünaslığa giriş" (dərs vəsaiti) Bakı,2014.
26. Məmmədov S. Narkotazmin cəmiyyətdə bəzi təzahürləri və onlara qarşı mübarizə, Bakı, Şuşa, 2004.
27. Əsgərov Ə. Beynəlxalq hüquq. Bakı, 1979
28. Məmmədov R. Beynəlxalq hüquq. Bakı, 2001.
29. Hüseynov L. Beynəlxalq hüquq. Bakı, 2002
30. Cabbarlı N. Ermənistanın xarici siyasəti. Bakı, 2014.
31. Həsənov Ə. Geosiyasət. Bakı, 2010
32. A.N.Abbasbəyli, P.Q.Darabadi, Ə.G.İbrahimov. Konfliktologiya. Bakı, 2006
33. Kamal R. Tanı oğlunu, Vətən (Portret-oçerk). Bakı, 2017
34. Cəfərov N., Çobanov M., Paşayeva Q. Azərbaycanşünaslığın əsasları. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2013.
35. Məmmədov S. "Xocalı soyqırımı bəşəriyyət əleyhinə cinayətdir"//525-ci qəzet,26 fevral 2014-cu il.
36. Abbasbəyli A. Ermənistan Rusiyanın Cənubi Qafqazda yeganə forpostudur//"Dirçəliş XXI əsr" jurnalı, №96. Bakı.2001
37. Bjezinskiy Z. Böyükşahmat lövhəsi. Bakı, 1992
38. Elmar Məmmədyarov: Dağlıq Qarabağ ətrafındakı digər işğal altında olan rayonların boşaldılmasına isə sülh sazişi imzalandıqdan dərhal sonra başlanacaq. \\www.az.apa.az 09 iyul 2010
39. Həmidov S. Atəşkəsin sonuncu günü: sülh yoxsa müharibə\\ Beynəlxalq münasibətlərin aktual problemləri. 2009. №2.
40. ABŞ-ın "Stratfor" Analitik Araşdırmalar Mərkəzinin Cənubi Qafqaz üzrə illik hesabatı. Nyu-York.2015. www.stratfor.com
41. Azərbaycan multikulturalizminin elmi-bədii qaynaqları. Bakı,2016

***Rus dilində***

1. Величко В.Л. Кавказ, М. "Мысль".1990
2. Айвазян С. «Судьба армянская» Москва. 1976
3. Воронов Н."Декоротивное искусство СССР". Москва.1977
4. Агаян С.«Роль России в истории армянского народа».Ереван, 1987.
5. Мнадсаканян А. «О литературе Кафказской Албании» Ереван, 1969.
6. МурадянП. «Грузиская эпиграфика Армении».Ереван, 1977.

7. История армянского народа». Ераван, 1980
8. Народности Кавказа. Петроград, 1916
9. Кулиев Д. С позиции интернационализма / Конфликт в Нагорном Карабахе. Сб. статей Баку, 1990
10. Текст доклада мин. обор. Армении на парламентских слушаниях по Карабаху. 03.03.2005
11. К истории Нагорно-Карабахской Автономной Республики Азербайджанской ССР 1918-1925. гг.Баку, 1989
12. Карабахский конфликт: понять друг друга. Ереван: Велас-Принт. 2006
13. Черный январь. Документы и материалы. Баку, 1990.
14. СумбатзадеА., Азербайджанцы – этногенез и формирование народа. Баку. Элм. 1990
15. Помпеев Ю.А., Карабахский дневник. Москва: Канон+, 2010.
16. Бажанов Е.П. Актуальные проблемы международных отношений М: «Научная книга». 2002.
17. Новрузоглу Р. Карабах: Черный рынок для международного терроризма. Баку,2003
18. Гасымлы М. Проблемы Европейской безопасности. Баку, 2000.
19. Россия. Политические вызовы XXI века. М: Росспэн. 2002.
20. Воскресенский А.Д., Малетин Н.П. Азиатско-Тихоокеанский регион и центральная Азия: Контуры безопасности Учебное пособие. М.,2001
21. Мехтиев Р. Азербайджан: вызовы глобализации. Баку, 2004.
22. Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. М., 2014
23. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Учебник. Баку, 2013
24. Мережко А. Проблема Нагорного Карабаха и международное право Киев, 2013.
25. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Учебник. Баку. «Зардаби». 2013.
26. Казимиров В. Мир Карабаху. М., 2009
27. Заявление Минской группы ОБСЕ по урегулированию Нагорно-Карабахского конфликта "Dirçəliş – XXI əsr", №100-101, 2006.

### *İnternet mənbələri*

1. www.NKR.AM\RUS\dekloraciya209HTML
2. HTML/www.Reqnum.Ru\News\114183.HTML
3. HTTP//KAVKAZ.MEMO.RU/Analyticstext/analytics/id985780.HTML

4. http//zaki.Ru/Pagesnew.PHP?id=1614\www.AzərTAC.AZ07.04.2007
5. www.vesti.az
6. wwwprezident.az.
7. www.1news.az 19.12.15.
8. www.apa.az 27.04.2016
9. www.president.az 06.04.2016
10. "Aykakan Jamanak" qəzeti 07.04.2016
11. www.teleqraf.az 06.04.2016
12. "Ria Novosti" Rusiya Dövlət Agentliyi 07.04.2016
13. "İTARTASS" Rusiya Dövlət Agentliyi 07.04.2016
14. İranın "Mehr" Dövlət Agentliyi 08.04.2016
15. "Yeni Şafaq" qəzeti 05.04.2016
16. www.modern.az 08.04.2016
17. www.mfa.gov.az 07.04.2016
18. www.wikipedia.org 02.04.2016

.

Çapa imzalanıb: 21.06.2018.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi:11,5 ç.v. Tiraj: 100. Sifariş №172.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYAMƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az